Nana İoseliani, Sofio Keburia

# İNCƏSƏNƏT

## MÜƏLLİM KİTABI



Qrif Gürcüstan Təhsil, Elm,
Mədəniyyət və İdman Nazirliyi
tərəfindən 2020-ci ildə verilmişdir.

სულაკაურის გამომცემლობა

**İncəsənət 8**
**Müəllim kitabı**
Tbilisi, 2020
Müəlliflər: **Nana İoseliani, Sofio Keburia**
Redaktor **Elene Beriaşvili**
Dizayner **İa Maxatadze**
Texniki dizayner **Qiorqi Lomsadze**
© Sulakauri nəşriyyatı, 2020
Bütün hüquqlar qorunur

"Sulakauri nəşriyyatı" MMC
Ünvanı: Davit Ağmaşenebeli k. 150, Tbilisi 0112
Tel.: 291 09 54, 291 11 65
El.poçt: info@sulakauri.ge

ISBN 978-9941-30-613-6

**ART 8**
**Teacher's Book**

© Sulakauri Publishing, 2020
all rights reserved.

Tbilisi, Georgia
www.sulakauri.ge

# MÜNDƏRİCAT

Ön söz ....................................................................................................5
Tematik bloklar ....................................................................................................6
Refleksiya ....................................................................................................7
Rəqəmsal mənbələr və resurslar ....................................................................................................8
Qiymətləndirmə ....................................................................................................9
Tövsiyələr ....................................................................................................12
Baza pilləsinin standartı ....................................................................................................13
Məlumat kitabçası ....................................................................................................23

Tematik blok 1: Cəmiyyət və incəsənət (16+2 saat) ....................................................................................................24
Tematik blokun matrisası ....................................................................................................25
Tapşırıqların matrisası 1/1 (Dərslər 1-4) ....................................................................................................28
Kompleksli tapşırıqlar üçün metodiki tövsiyələr ....................................................................................................37
Tapşırıqların matrisası 1/2 (Dərslər 5-7) ....................................................................................................40
Kompleksli tapşırıqlar üçün metodiki tövsiyələr ....................................................................................................45, 51
Tapşırıqların matrisası 1/3 (Dərslər 8-12) ....................................................................................................53
Kompleksli tapşırıqlar üçün metodiki tövsiyələr ....................................................................................................58
Tapşırıqların matrisası 1/4 (Dərslər 13-15) ....................................................................................................62
Kompleksli tapşırıqlar üçün metodiki tövsiyələr ....................................................................................................74

Tematik blok 2: İncəsənətdə insan (18+2 saat) ....................................................................................................78
Tematik blokun matrisası ....................................................................................................79
Tapşırıqların matrisası 2/1 (Dərslər 1-5) ....................................................................................................82
Kompleksli tapşırıqlar üçün metodiki tövsiyələr ....................................................................................................97

Tapşırıqların matrisası 2/2 (Dərslər 6-7) ....................................................................................101
Kompleksli tapşırıqlar üçün metodiki tövsiyələr ...............................................................................103
Tapşırıqların matrisası 2/3 (Dərslər 8-10) ....................................................................................106
Kompleksli tapşırıqlar üçün metodiki tövsiyələr ...............................................................................110
Tapşırıqların matrisası 2/4 (Dərslər 11-14) ....................................................................................113
Kompleksli tapşırıqlar üçün metodiki tövsiyələr ...............................................................................119
Tapşırıqların matrisası 2/5 (Dərs 15) ....................................................................................127
Kompleksli tapşırıqlar üçün metodiki tövsiyələr ...............................................................................128
Tapşırıqların matrisası 2/6 (Dərs 16) ....................................................................................131
Kompleksli tapşırıqlar üçün metodiki tövsiyələr ...............................................................................133

Tematik blok 3: Ətraf mühit və incəsənət (10+2 saat) ....................................................................137
Tematik blokun matrisası ....................................................................................138
Tapşırıqların matrisası 3/1 (Dərslər 1-4) ....................................................................................141
Kompleksli tapşırıqlar üçün metodiki tövsiyələr ...............................................................................148
Tapşırıqların matrisası 3/2 (Dərslər 5-8) ....................................................................................152
Kompleksli tapşırıqlar üçün metodiki tövsiyələr ...............................................................................159
Yekunlaşdırıcı test ....................................................................................163

Əlavə ....................................................................................171
Lüğət ....................................................................................206

# ÖN SÖZ

## Giriş

Qarşıdakı dərslik baza pilləsinin VII sinif dərsliyinin davamını təqdim edir.

VIII sinfin dərsliyi praktiki iş və müvafiq nəzəri material və tarixi anlayışların məntiqi əvəzetməsi üzərində qurulmuşdur. Bəşəriyyətin tarixi təcrübəsini bilmək şagirdə yardım edəcəkdir:

- Başqa dövrlərlə öz dövrünün oxşarlıq-fərqlərini görsün və başqa dövrlərin xüsusiyyətlərinin analizi vasitəsilə öz dövrünün və mühitinin xüsusiyyətlərini dərk etsin;
- Başqa dövrlərin incəsənət xadimlərinin yaradıcılığının analizi yolu ilə özünü dərk etsin.

Təklif edilən material dərinləşdirilmiş xarakter daşıyır. Praktiki fəallıqlar və layihələr yavaş-yavaş çətinləşdirilməklə təklif edilmişdir. Şagirdin yaradıcılıq məşğuliyyəti ilə biliyin əlaqələndirilməsi önəmli yer tutur.

Tematik bloklar şagirdlərə bu və ya digər dövrdə nəyin əhəmiyyətli olub-olmadığını göstərməyə əlverişli imkanlar verir. Səbəb-nəticə əlaqələrinin dərk edilməsi şagirdlər arasında məntiqi inkişaf etdirir. Hər bir tematik blok müxtəlif dövrdən götürülmüş əsas məsələləri əhatə edir, amma müəyyən dövrlər daha geniş və əsaslı şəkildə təhlil olunur, nəinki qalanları.

## DƏRSLİYİN STRUKTURU

VIII sinif dərsliyinin komplekti ibarətdir:
Müəllim kitabından;
Şagird kitabından.

**Müəllim kitabı:**

- Mündəricat
- Giriş
- Təsviri və tətbiqi incəsənətin baza pilləsi standartı
- Tematik blokların və tapşırıqların matrisaları
- Əlavə (qiymətləndirmə sxemləri)
- Lüğət.

## TEMATİK BLOKLAR

Mətn mövzular üzrə fəsillərdə qruplaşdırılmışdır.

Hər bir tematik blokun əvvəlində əsas suallar yazılmışdır, dərsin ehtiyacından irəli gələrək, müəllim bunlardan seçib istifadə edə bilər. Mövzu bitirildikdə, şagirdin bütün bu suallara biliyə əsaslanmış cavabı olacaqdır ki, bu da onların dünya haqqında bərqərar olmuş təsəvvürlərini formalaşdıracaqdır.

Tematik blok çərçivəsində mətn dərslərə bölünmüşdür (fəsillərə və yarımfəsillərə). Müəllimin özü müəyyən etməlidir ki, şagirdlərə hansı həcmdə mətni oxumağı, harada dayanmağı, harada dincəlməyi tapşırsın, evə hansı fəsli oxumağı tapşırsın, praktiki fəallıqları harada cəlb etsin və s.

Eyni məsələni müxtəlif tərəfdən müzakirə edə biləcəyimiz üçün tematik bloklar arasında səslənmə baş verir. Bu, həm mətnə, eləcə də tapşırıqlara aiddir. Bəzən bir tematik blokun mətni və ya tapşırığı başqa tematik bloklarla nəzərdə tutulmuş təsəvvürlərin formalaşmasında şagirdə yardım edəcək informasiyanı əhatə edir.

Mövzular Milli standartın tələblərinə uyğun olaraq seçilmişdir.

Dərslik 3 mövzudan ibarətdir. Onlar standartla nəzərdə tutulmuş 3 tematik bloka uyğundurlar ki, bunlar da bir-birinin məntiqi davamlarıdır:

1. "Cəmiyyət və incəsənət" tematik bloku – dərslikdə "İncəsənət cəmiyyətin xidmətində" mövzusu ilə təqdim olunmuşdur.
2. "İnsan cəmiyyətdə" tematik bloku – dərslikdə "İnsan dünyanın mərkəzində" dərs mövzusu ilə təqdim olunmuşdur.
3. "Ətraf mühit və incəsənət" tematik bloku – dərslikdə "Ətrafımızdakı aləm" dərs materialı ilə təqdim olunmuşdur.

Üç tematik blokdan hər biri tematik blokun matrisasından ibarətdir, bunda da konkret blokla bağlı ümumi informasiya verilir. Tematik blokun matrisasını tapşırıqların matrisaları müşayiət edir, bunda da konkret blok çərçivəsində öyrənilәsi məsələlərlə və dərslərlə, eləcə də kompleksli layihələrlə bağlı məqsədli, ətraflı məlumat verilir. Tapşırıqların matrisaları (Şagird kitabına uyğun olaraq), bir ümumi mövzu ilə birləşmiş dərslərdə qruplaşdırılmışdır. Müəllimi istiqamətləndirmək üçün tapşırığın hər bir matrisasını dərsləri birləşdirən mövzunun başlığı müşayiət edir ki, bu da Şagird kitabında verilməmişdir. Məsələn, dərslər 1-4, birləşdirici mövzu: "İncəsənət zamanənin güzgüsü". Tapşırıqlar matrisalarında dərslərin nömrələri və başlıqları Şagird kitabında dərslərin nömrələrinə və başlıqlarına uyğundur.

## Tapşırıqlar və layihələr

Dərslikdə verilən praktiki fəallıqların sayı və onlar üçün nəzərdə tutulmuş vaxt il ərzində fənn üçün ayrılmış saatların limitindən çoxdur. Rəngarəng fəallıqlardan müəllim konkret birini seçə bilər və ya fəallıqları şagirdlərin imkanlarına əsasən bölüşdürə bilər, bir hissəsini də evə tapşıra bilər, müstəqil yerinə yetirmək üçün.

Hər bir şagird tərəfindən tapşırıqların müstəqil yerinə yetirilәsi hissəsi yekun məqsədə çatmaq üçün qoyulmuş bir kərpicdir.

Bir növdə, amma müxtəlif tipli tapşırıqların sinifdə paylaşılması həmin nöqteyi-nəzərdən faydalıdır ki, şagirdlər bir-birinin işini müşahidə etməklə nəticəyə gələcəklər – məqsədə müxtəlif yollarla getmək olar.

Birinci, başdan gələn, praktiki fəallıqlar elə planlaşdırılmışdır ki, onlardan hər biri yekunlaşdırıcı kompleksli layihələr üçün mərhələlərin hazırlığına dəstək verməlidir. Hər bir fəslin sonunda şagirdlər yekun layihələri

tədqim edirlər ki, bu da yekunlaşdırıcı qiymətləndirmə mövzusu olacaqdır. Bir çox hallarda, layihə üzərində iş fəslin öyrənilməsinə paralel olaraq davam etməlidir;

Layihələrin hər biri həm müstəqil, eləcə də qrupda yerinə yetiriləsi işdən ibarətdir.

Layihə işinin belə bir forması şagird qrupunun qarşısında məsuliyyət hissini aşılatdırır. İşi gördükdə qrupun maraqlarını nəzərə almağı və ümumi işin nəticəsinə yönəlməyi öyrədir. Dərslikdə təklif edilən layihələr həm əqli, tədqiqi və yaradıcılıq fəaliyyətini əhatə edir: tədqiqat, debatlar, yaradıcılıq işi və s. Hər bir layihə bu və ya digər şəkildə cəmiyyətin qarşısında təqdimatı nəzərdə tutur (sərgi, aksiya, prezentasiya, məruzə).

Layihələr üzrə qrup işi zamanı funksiyaların ağılla bölüşdürülməsi müxtəlif imkanları olan şagirdləri bərabər vəziyyətə salır – güclü tərəflərinin aşkarlanması imkanını verir və zəif tərəflərini inkişaf etdirir. Layihənin sonunda şagirdlər refleksiyanı yazırlar (refleksiya anketini doldururlar. Baxın, Əlavəyə).

## REFLEKSİYA

Özünü analiz şagirdin növbətiləri bacarması üçün olduqca faydalıdır: öz imkanlarını obyektiv qiymətləndirmə, şəxsi imkanlarınını obyektiv qiymətləndirilməsi, öz yaradıcılıq prosesi üzərində fikirləşmək, zəif və güclü tərəfləri dərk etmək, zəifliklərin yaxşılaşdırılması üçün strategiyaların qarşıya qoyulması, özünü daha yaxşı dərk etmək. Bunun üçün yaxşı olardı ki, müəllim şagirdlərdən yaradıcılıq gündəliyini aparmağı xahiş etsin.

Rəsm dəftərində/ev kitabçasında şagird şəkil çəkir, yazır, toplayır: rəsmləri, eskizləri, ideyaları, işin yerinə yetirilmə planını (strategiya, material, mərhələlər...), tədqiqat nəticələrini, incəsənət işindən alınan təəssüratları, zəmanə və incəsənət ustası haqqında ona maraqlı məlumatı, baş qaldıran sualları və onlara cavabları, incəsənət işinin analizini, şərhin və qiymətləndirmənin doldurulmuş anketlərini, texnikaların və prosedurların təsvirlərini (sənətkarın bir növ “reseptlər” kitabçası), terminlərin və onların izahatlarını, eksperimentlərin əvvəlcədən ehtimallarını və nəticələrini, refleksiya anketinə cavabları, işlərinin şəkillərini yapışdırır, qiymətləndirmə vərəqlərini və s. Bu material şagirdin inkişafına və özünüqiymətləndirməsinə yardım edəcəkdir.

## RƏQƏMSAL QAYNAQLAR VƏ RESURSLAR

Gürcüdilli internet məkanın hələ çox az olduğuna və şagirdlərin qeyri-akademik nəşrlərdə informasiya axtarmalı olduqlarına görə, dərsliyi imkan daxilində etibarlı, gürcü və xaricidilli akademik elmi qaynaqlara əsaslanaraq əldə edilmiş informasiya ilə yükləmişik. Müəllim kitabında yoxlanılmış internet linklər göstərilmişdir və bunlar həm müəllim, eləcə də şagirdlər üçün faydalı ola bilərlər. Rəqəmsal texnologiyalardan və başqa resurslardan istifadə baxımından, dərslikdə rəngarəng tapşırıqlar təklif edilir. Bunlar video-çarx, prezentasiyanın hazırlanması, elektron portfolionun yaradılması şəxsi və ümumi sinif bloqları şəklində, rəqəmsal işin hazırlanması, animasiyanın hazırlanması və s. ola bilərlər. Mütəmadi olaraq, hər mövzu başa çatdırıldıqda, Google Arts & Culture-in internet səhifəsində şagirdlər favoritlərin albomunu (şəxsi qalereyalarını) https://artsandculture.google.com-da düzəltməlidirlər.

Yaxşı olardı ki, birinci dərsdə, müəllim şagirdlərə tapşırsın ki, özlərinin elektron portfoliolarını internet səhifə və ya bloq şəklində düzəltsinlər və bunda da il ərzində öz işlərini yerləşdirə bilərlər (mətnləri və işlərin fotoşəkillərini):

www.blogspot.com

www.wordpress.com

www.weebly.com

Ağır fayllar, məsələn, PowerPoint prezentasiyaları və animasiyalarını şagirdlər internet səhifələrə yükləyə bilər və sonra yüklənmiş prezentasiyanın linkini özlərinin və sinfin bloqlarında göstərə bilərlər.

İnternet səhifələrin siyahısı:

https://en.ppt-online.org

https://www.slideshare.net

Gürcüdilli interaktiv testləri və kvizləri izləyə bilərsiniz:

https://bit.ly/2Mi5SmT

Fərdi kolleksiyanın və ya şagirdlərin işlərinin virtual sərgi məkanının yaradılması:

https://www.artsteps.com

Tövsiyə edilən mənbələr:

• E.H. Qombrix, İncəsənət hekayəti, Loqos pres, 2012

• Dünya incəsənəti, N. Maçaraşvili, N. Silaqadze, Meridian, 2010

• İncəsənət tarixi (XVI-XVII əsrlər Avropası), M. Stoksted, M. V. Qotren, Tbilisi, Appolon Kutateladze adına Dövlət Rəssamlıq Akademiyası, 2018 il.

• İncəsənət tarixi (XVIII əsrdən bu günə qədər), M. Stoksted, M. V. Qotren, Tbilisi, Appolon Kutateladze adına Dövlət Rəssamlıq Akademiyası, 2018 il.

• Nino Çiçinadze, Təsviri incəsənət tarixinin videomühazirələrinin xronoloji mərhələsi: https://bit.ly/2XmtAEJ

• Sənətkarların işləri və onlar haqqında məqalələr: https://artchive.ru/artists

• Təsviri incəsənətin rəqəmsal bazası:

https://www.wga.hu/

Onlayn məktəb ensiklopediya lüğətlərinin aktiv linkləri:

• Dünya mədəniyyəti və incəsənəti:

http://www.nplg.gov.ge/saskolo/index.php?a=index&d=47

• İncəsənət, qısa ensiklopedik lüğət, N. Maçaraşvili, Tbilisi, Meridiani, 2004 il:

http://www.nplg.gov.ge/saskolo/index.php?a=index&d=7

Qiymətləndirmə

Müəyyənləşdirici və inkişafetdirici qiymətləndirmənin, tam dərs prosesində olduğu kimi, son məqsədi bir şəxsiyyət kimi şagirdin:

- yaradıcılıq potensialını büruzə verməsi
- emosional və mənəvi inkişafı
- sosial bacarıqlarını aktivləşdirməsi
- estetik tərbiyəsi
- müstəqilliyi və məsuliyyəti oyatması

- təlim səviyyəsinə qayğı göstərməsi
- ötən biliyini təyin etməsi
- yeni biliyin hər üç kateqoriyasının (deklarativ, prosedur və şərti) mənimsənilməsi və vərdiş-bacarıqların quraşdırılmasının tətbiqi qabiliyyətlərinin monitorinqi.
- Şagird tərəfindən güclü və zəif tərəflərini aşkarlamaq qabiliyyəti və müəllimin yardımı ilə, tərəqqiyə dəstək verən addımların atılması.

VIII sinifdə inkişafetdirici və müəyyənləşdirici qiymətləndirmələrdən istifadə olunur.

Eyni bərqərar olmuş təsəvvürün formalaşdırılması üçün dərslikdə müxtəlif çətinliyi olan bir neçə fəallıq təklif edilmişdir və bunlar da müəllimə differensiasiya imkanını verirlər. Fərqli bacarıqlara malik şagirdlərə elə bir məsələni yerinə yetirməyi tapşırmalısınız ki, bunlarla da müəyyən səy və müəllimin yardımı nəticəsində ayaqlaşa bilsinlər. Vacibdir ki, şagirdlər arasında rəqabət olmasın, şagird rəqabəti öz-özü ilə aparsın. **Müəllimin konkret şagirdə qarşı qoyduğu məqsəd onun imkanlarına uyğun olmalıdır**. İrəliləyişdən alınan sevinc hissi şagirdlərin yaradıcılıq bacarıqlarının stimullaşdırılmasının, onların motivasiyalarının ən yaxşı vasitəsidir. Müəllim diqqəti işin yerinə yetirilmə keyfiyyətinə deyil, şagirdin tərəqqisinə yönəltməlidir. Müəllim və şagird yekunlaşdırıcı tapşırıqlar vasitəsilə şagirdlər tərəfindən çətinliklərin dəf edilməsi amilini, materialın mənimsənilməsini və qazanılmış bacarıqların keyfiyyətini yoxlaya bilərlər. Mövzu ilə bağlı bütün lazımi düşündürücü və ya yekunlaşdırıcı suallar da müəllimə şagirdlərin nailiyyətlərini qiymətləndirməkdə yardım edəcəklər.

Özünüqiymətləndirmədən başqa, inkişafetdirici qiymətləndirmənin effektiv vasitəsi qarşılıqlı qiymətləndirmədir. Yoldaşın təlim prosesinin müşahidəsi şagirdin öz təlim prosesinə qarşı məsuliyyətini inkişaf etdirir, öz məqsədini dərk etmək və özünü-tənzimləmə qabiliyyətini formalaşdırır. Bu, bir növ rollarla oyundur, bu zaman əks əlaqə müəllim tərəfindən deyil, həmyaşıdı tərəfindən verilir. Qarşılıqlı qiymətləndirmə zamanı, şagirdlər pozitiv, korrektiv şəkildə tənqidi fikirlərini bildirməyi öyrənirlər. Onlar üçün qiymətləndirmə kriteriləri aydın olur və bu da sonralar öz işini obyektiv qiymətləndirməkdə yardım edəcəkdir. Motivasiya, həvəs və cəlbolunma artır.

Dəslikdə standartın nəticələrinin hər iki istiqaməti nəzərə alınmışdır və bunların indeksləri hər üç tematik blokda təkrarlanır ki, müəllimə müxtəlif mövzu çərçivəsində hər bir şagirdi eyni indeksə əsasən bir neçə dəfə qiymətləndirməyə imkan versin. Dərslikdə konkret tapşırıqla münasibətdə dəqiqləşdirilmiş indeksin tələbləri verilir.

Əlavədə müxtəlif növdə tapşırıqların qiymətləndirmə kriteriləri və rubrikaları verilir. Əlbəttə ki, müəllim tapşırıqların hamısını qiymətləndirmir. Onun özü seçir ki, hansı tapşırığı müəyyənləşdirici ilə, hansını inkişafetdirici ilə qiymətləndirsin və hansını sadəcə çalışma hesab etsin.

***Müəllim rubrikaların deskriptorlarının şəxsi işarəsini dəyişib, inkişafetdirici qiymətləndirmə şərhləri kimi istifadə edə bilər.**

Eyni tapşırığa əsasən, başqaları kimi, amma fərqli, differensial kriterilərlə məhdud imkanları olan və xüsusi təhsilə ehtiyacı olan şagirdləri qiymətləndirdiyimizdə, bir çox hallarda, bu, şagirdlər tərəfindən əlverişsiz suallara səbəb olur. Buna görə də tapşırığın bir neçə variantının təklif edilməsini zəruri hesab edirik. Müəllimin

özü də müəyyənləşdirir ki, məhdud imkanlı və xüsusi təhsilə ehtiyacı olan şagirdə hansı variantı təklif etsin. Qiymətləndirmə sxemlərinə gəldikdə isə, bunlar variasiyalar etmək imkanını verirlər. Məhdud imkanlı və xüsusi təhsilə ehtiyacı olan şagirdlərin nailiyyətli qiymətləndirmə almaları üçün bərabər şansları olmalıdır, müəllim müvafiq yollara müraciət etməlidir. Məsələn, müəllim nitq problemləri olan şagirdlərə öz fikirlərini yazılı şəkildə ifadə etmələrini təklif etməlidir. Müəllim məhdud imkanlı şagirdi diskussiyaya cəlb etmək üçün sual verməlidir ki, yoldaşlarının söylədikləri fikirlə razılaşırmı və ya  hansı fikirlə razıdır. Belə bir halda, şagird qorxmadan və çəkinmədən diskussiyaya qoşulacaqdır. Müəllim ondan geniş müzakirə tələb etməməli, əksinə özünün müsbət və ya mənfi münasibətini ifadə etməsinə imkan verməlidir.

Məhdud imkanlı şagirdin probleminin özünəməxsusluğundan irəli gələrək, differensiallıq müxtəlif yollarla baş verməlidir: məhdud imkanlı şagirdlərə mətndən 2-3 cümlə şəklində önəmli məlumatı köçürürlər; mətnin hissəsini oxuyurlar; tapşırığın yerinə yetirilməsi üçün artıq vaxt verilir; təlimat addım-addım, mərhələlərlə verilir; inkişafetdirici təlimat verilir; tapşırıq yerinə yetirildikdə, yanında özünü sakit və rahat hiss etdiyi şagirdlə birləşir; yekunlaşdırıcı testin əvəzinə praktiki işin yerinə yetirilməsi tapşırılır və ya əksinə; inkişafetdirici qiymətləndirmə kriterilərinə əsasən qiymətləndirilir.

**Bərabərliyin müdafiəsi, diskriminasiya və diskreditativ elementlərin prinsipləri haqqında Gürcüstan Qanunundan çıxarış:**

„Diskriminasiya elə bir rəftarı və ya şərtlərin yaranmasını bildirir ki, bu zaman hər hansı bir şəxs analoji şərtlərdə olan başqa şəxslərlə müqayisədə əlverişsiz vəziyyətə düşür və ya tamamilə qeyri-bərabər şərtlərdə olan şəxsləri eyni vəziyyətə salır, yalnız belə bir rəftarın və ya şərtlərin yaranmasının ictimai asayişin və əxlaqın qorunması üçün qanunla müəyyən edilmiş məqsədə xidmət etdiyi, obyektiv və düşünülmüş bəraətinin olduğu və demokratik cəmiyyətdə zəruri olduğu, tətbiq edilən vasitələrin isə bu cür məqsədin əldə edilməsi üçün mülayim olduğu hallar istisna olunmaqla".

„Müəyyən edilmiş işlə, fəaliyyətlə və ya özünəməxsus tələblərə istinad edən sahə ilə bağlı hər  hansı bir fərq, yolverilməzlik və üstünlük diskriminasiya hesab edilmir".

Yeniyetməlik dövründə olan uşaqlar xüsusilə həssas olurlar və onlara qarşı münasibətin hər hansı, hətta başqası üçün görünməyən, əvvəllər normal hesab etdikləri incəlikləri də kəskin qarşılaya bilərlər. Müəllim şagirdlərin davranışlarını, ifadələri və ya işlərini şərh etdikdə, xüsusi ehtiyat göstərməlidir ki, şagirdlər tapşırıqların çətinliyinə əsasən bölgüsünü, qeydi, məzəmməti və ya hər hansı növ qiymətləndirməni təhqir kimi qəbul etməsinlər. İncəsənətin dəqiq elm olmadığına görə, hər bir insanın hüququ var ki, incəsənət əsərini qiymətləndirdikdə, öz emosiyalarını, təəssüratlarını və zövqünü rəhbər tutsun. Yaxşı olardı ki, müəllim onun üçün qəbul edilməyən ifadəyə, yanlış qiymətləndirməyə və ya işə diqqəti yönəltməsin. Hər hansı bir qeydini təriflə başlasın və sonra da işgüzar şərhə keçsin (məsələn, çox maraqlı fikirdi/işdir, amma yaxşı olardı ki, …….).

Sinifdə şagirdlər arasında bərabərliyə əməl edilməsi və bir-birinə qarşı diskriminativ davranışın qarşısının alınması üçün yaxşı olardı ki, müxtəlif marağı, bacarıqları və imkanları olan şagirdlərə tapşırığın verildiyi, sorğu-sual, şagirdlərin dərs prosesinə cəlb olunmasının təmin edilməsi və ya qiymətləndirilməsi zamanı müəllim düzgün tarazlığa əməl etsin. Müəllim şagirdlərə hiss etdirməlidir ki, onlardan hər biri məhz göstəricilərinə, nəzərlərinə və bacarıqlarına görə bənzərsizdir və buna sübut olaraq məhz sənətkarların işlərindən istifadə etməlidir.

Dərslikdə müxtəlif dövrlərin, mədəniyyətin, dinin, cinsin və yaşın sənətkarlarının işləri bariz misaldır ki, onlardan hər birinin yaratdığı əsər nə qədər fərqli və bənzərsizdir, həmin əsərin hansı üsulla yerinə yetirilməsindən asılı olmayaraq. Bu materiala əsaslanaraq, müəllim ara-sıra şagirdlərin diqqətini ona yönəldə bilər ki, insan tərəfindən yaradılmış aləm məhz ona görə maraqlı, rəngarəng, gözlənilməz və dəyişkəndir, çünki biz bir-birimizdən zahiri görünüşümüzlə, xasiyyətimizlə, nəzərlərimiz və maraqlarımızla fərqlənirik. Bizim hər birimiz, istəyimizlə və ya bilaixtiyar bu dünyanın inkişafına öz töhfəmizi veririk. Hansı mühitdə yaşamağımız bizdən asılıdır. Ətraf mühitə qayğının göstərilməsini isə bir-birimizə qayğı göstərməklə başlamalıyıq.

TÖVSİYƏLƏR:

**Motivasiya**

Yaxşı olardı ki, müəllim ara-sıra sinfin iş prosesində şəklini çəksin və onların icazəsi ilə bu şəkilləri şəxsi bloquna yükləsin. Bu, işə aktiv cəlb olunmaqda və şəklin çəkilməsi üçün əlverişli şərait yaratmaqda şagirdlərə stimul verir. Onlar tez-tez bloqu valideynlərinə və yaxınlarına göstərirlər və bloqa yüklənən işləri və iş prosesində çəkilmiş şəkilləri ilə öyünürlər.

**Dərsin gedişi ilə bağlı:**

Dərslikdə verilən material dərslərə (fəsillərə və yarımfəsillərə) bölünmüşdür. Yaxşı olardı ki, müəllim dərslikdə verilən mətnin müəyyən parçasını şagirdlərə ev tapşırığı kimi versin (məsələn, işarələr sisteminin sxemi ilə). Növbəti dərsdə, suallar vasitəsilə təyin etsin ki, şagirdlər oxunulan mətndən nəyi başa düşdülər. Belə ki, praktiki fəallıqlar üçün sinif vaxtı tamamilə boşalacaqdır. Bu sistem dərsliyin bütün hissələrinə aiddir. Fəallıqların təsviri həm bilavasitə yarımfəsillərdə, eləcə də hər bir tematik blokun sonunda yerləşdirilir. Mətnə suallar və tapşırıqlar cəlb olunmuşdur və bunlar da şagirdlərin diqqətini əsas məlumata yönəldir.

**Vaxtın təşkili:**

Yaxşı olardı ki, vaxt udmaq məqsədilə, şagirdlərə dərsliyin mətninin oxunulmasını evə tapşırasınız.

Dərsin birinci 5-10 dəqiqəsi nəzəri hissəyə ayrılır, bu da mövzunun təhlilini və ya şagirdin sorğusunu, keçilən materialın təkrarlanmasını, ötən biliyin aktivləşdirilməsini, şagirdlərin suallarına cavabları və ya qısa diskussiyaları əhatə edə bilər. Dərsin növbəti hissəsi isə praktiki fəallığın yerinə yetirilməsinə ayrılır.

Yaxşı olardı ki, dərsin başlanılmasına qədər, müəllim lövhədə fəallığın yerinə yetirilmə təlimat mərhələlərini, öyrəniləsi terminləri, diskussiya suallarını və s. lazımi məlumatı yazsın.

**Yaradıcılıq gündəliyinin aparılması:**

Yaradıcılıq gündəliyində şagird yadda saxlamaq üçün yeni terminləri, adları yazır, ev tapşırıqlarını, növbəti dərs üçün gətiriləsi materialı qeyd edir, ekskursiyalarda təəssüratları qeyd edir, cizgilər çəkir; öz fikirlərini, baş qaldıran sualları, verilən mövzu üzrə yazılı tapşırıqları yazır, yekunlaşdırıcı suallara cavabları yazır.

Bu, şagirdlərə yardım edir ki, gördüklərini və ya öyrəndiklərini yadda saxlasınlar və qiymətləndirsinlər; onlara yazılı fikirlərin ifadə edilməsini və təşkil edilməsini öyrədir.

**İllüstrasiyalarla bağlı:**

Kiçik ölçülü illüstrasiyanın çətin qavranıldığına görə, şagird dərsliyində onların ölçülərini böyütməyi münasib bildik. Buna görə bir dərsin həcmi artdı – bəzi 4 açıqlamanı əhatə edir. Ən əsası odur ki, mətnin ölçüsü səkkizinci sinif şagirdi üçün tam qəbul ediləndir. Buna görə də dərsin səhifələrinin sayı sizi qorxutmamalıdır.

Təsviri və tətbiqi incəsənət

**Baza pilləsinin standartı**

**Giriş**

Təsviri və tətbiqi incəsənətin standartı növbəti hissələrdən ibarətdir:

a) fənnin təlim-tədris məqsədləri;

b) standartın nəticələri və məzmunu;

c) metodiki oriyentirlər;

ç) qiymətləndirmə.

“Təsviri və tətbiqi incəsənət” fənni çərçivəsində şagird özünüifadəetmə və kommunikasiya vasitəsi kimi incəsənəti öyrənir. O, rəngarəng hisslərin və ideyaların mənbəyi kimi ətraf aləmi dərk edir və bunu da işlərində yaradıcılıqla təsvir edə bilər.

Şagird təlim-tədris prosesində gürcü və dünya, qədim və yeni incəsənətin məşhur əsərləri və xalq yaradıcılığı ilə; onların yaradılması və qiymətləndirilməsinin fərqli tarixi, mədəni, sosial və başqa kontekstləri ilə tanış olur; ictimai həyatda onların rolunu araşdırır.

Şagird təlim-tədris prosesinin müxtəlif yaradıcılıq layihəsində iştirak edir;

Ədəbi-təsviri vasitələrin, üsulların, materialın, texnikanın istifadəsi ilə müxtəlif sahənin və janrın işlərini yaradır.

**a) Fənnin təlim-tədris məqsədləri**

Təsviri və tətbiqi incəsənətin təlim-tədris məqsədini daşıyır:

• şagirdin incəsənətə olan marağını dərinləşdirsin;

• şagird öz yaradıcılıq potensialını dərk etsin, özünü ifadə etmənin müxtəlif yollarının axtarışı və istifadəsi bacarığını dərk etsin;

• şagirdin incəsənət işləri, özünün və başqasının işləri haqqında fikrinin korrektiv ifadə etmə, müzakirə və şərh etmə qabiliyyətini inkişaf etdirsin;

• şagirdə dəstək versin ki, milli və dünya mədəniyyəti ilə tanışlıq yolu ilə özünün dünyagörüşünə və aktiv həyat mövqeyinə malik şəxsiyyət kimi formalaşsın.

Bu məqsədlər üzərində işləməklə, Milli Tədris Planının missiyası və məqsədləri ilə nəzərdə tutulmuş bacarıqların və dəyərlərin inkişafında və formalaşmasında təsviri və tətbiqi incəsənət öz töhfəsini verəcəkdir.

**b) Standartın nəticələri və məzmunu**

Standartın nəticələri fənn anlayışlarına istinad edərək, məqsədli yönlənməni müəyyən edir və təsviri və tətbiqi incəsənət çərçivəsində baza pilləsinin şagirdinin nəyi bacarmalı olduğu sualına cavab verir.

Standartın nəticələri iki istiqamətdə qruplaşdırılır:

• Yaradıcılıq və təcrübə - öz təəssüratlarının və təcrübənin əsasında bədii əsərlərin yaradılmasını, onların vasitəsilə şəxsi ideyaların, emosiyaların və əhval-ruhiyyənin ifadə edilməsini nəzərdə tutur.

Təlim-tədris prosesində şagird növbəti materialdan, alətdən, prosesdən, prosedurdan istifadə etməlidir: karandaş, pastel, flomaster, quaş, akvarel, tempera, akril, tuş, mürəkkəb, kömür, sanqina, rəngli təbaşirlər,

rəngli kağız, karton, parça, sap, kəndir, məftil, plastilin, gil, başqa material (ənənəvi və qeyri-ənənəvi, təbii və süni), fırça, qayçı, yapışqan, dülgərlik, dəmirçilik, toxuculuq, dərziçilik alətləri və s., kəsmək, yapışdırmaq, cızmaq, əymək, burmaq, naxış vurmaq, tikmək, taxta üzərində yonma və s.

• **İncəsənətin kontekstdə qavranılması** - müxtəlif növ sahənin, janrın, dövrün/mədəniyyətin/cərəyanın/tərzin incəsənət işlərinin analizini, şərhini və qiymətləndirməni nəzərdə tutur.

**Standartın məzmunu** müəyyən edir ki, şagird nəyi bilməlidir. Məzmun icbari anlayışların, tematik blokların şəklində təsvir edilir.

**Anlayışlar** şəklində şagirdin fənn çərçivəsində sahib olacağı bilik müəyyən edilmişdir. Anlayışlar nəticələrlə birlikdə şagird üçün tanış kontekstlərdə işlənilməlidir. Bu kontekstlər **icbari tematik blokların** (VII-IX siniflərdə) və **icbari mövzuların** (X sinifdə) şəklində təqdim edilir.

**Bərqərar olmuş təsəvvürlər** – hər bir anlayışı bərqərar olmuş təsəvvürlər müşayiət edir ki, bunlar da anlayışın həcmini əhatə edir və şagirdin bu anlayışla münasibətdə pillənin sonunda nəyi dərk etməli olduğunu dəqiqləşdirir.

**Standartın nəticələrinin indekslərinin izahatı**

Baza pilləsində standartda yazılmış hər bir nəticənin əvvəlində indeks verilir ki, bu da fənni, tədris mərhələsini və standartın nəticəsinin nömrəsini göstərir; məs., **Təs.tət. baz.1.:**

**„Təs.tət.“** – “Təsviri və tətbiqi incəsənət” fənnini göstərir;

**„Baz.“** – baza pilləsini göstərir;

**„1“** – Standartın nəticə nömrəsini göstərir.

<table>
<tr><th colspan="3">Təsviri və tətbiqi incəsənət standartının nəticələri (VII-X siniflər)</th></tr>
<tr><th>Nəticələrin indeksləri</th><th>İstiqamət: yaradıcılıq və təcrübə</th><th>Hədəf anlayışları və anlayışlarla bağlı bərqərar olmuş təsəvvürlər</th></tr>
<tr><td></td><td>Şagird bacarmalıdır:</td><td></td></tr>
<tr><td>Təs.tət.baz.1.</td><td>Özünü ifadəetmə üçün işi tərtib etməyi, məqsədəuyğun müxtəlif strategiyalardan, bədii-təsviri vasitələrdən və üsullardan, müxtəlif material və texnikadan düşüncə və yaradıcılıqla istifadə etməyi;</td><td rowspan="5">Təsviri incəsənətin bədii-təsviri vasitələri (elementləri) və üsulları (prinsipləri)<br><br>(Nəticələr: 1, 2, 3, 4)<br>• İnsan incəsənət əsərini yaratmaq üçün incəsənət dilindən istifadə edir, yəni təsviri incəsənət elementlərindən və prinsiplərindən;<br>• təsviri incəsənət dilindən nəinki əsəri yaratdıqda, eləcə də nümunələrin analizi, şərhi və qiymətləndirilməsində istifadə edirik.<br>Təsviri incəsənət texnikası (Nəticələr: 1, 2, 3, 4)<br>• Sənətkar materialı və texnikanı fikrinə, yaradıcılıq məsələsinə uyğun olaraq seçir;<br>• incəsənətin yeni formaları, materialı və texnikası bəşəriyyətin inkişafı ilə birlikdə inkişaf edirdi, dəyişirdi və meydana gəlirdi.</td></tr>
<tr><td>Təs.tət.baz.2.</td><td>İşi yerinə yetirdikdə yaradıcılıq məsələsini özü qarşıya qoymalı və məsələni yaradıcılıqla həll etməyi, məqsədə uyğun olaraq bədii-təsviri vasitələri və üsulları, materialı, texnikanı, bədii üslubu seçməlidir.</td></tr>
<tr><td rowspan="2"></td><td>İstiqamət: İncəsənətin kontekstdə qavranılması</td></tr>
<tr><td>Şagird bacarmalıdır:</td></tr>
<tr><td>Təs.tət.baz.3.</td><td>İncəsənətin konkret nümunəsini analiz etməyi (bədii-təsviri vasitələr və üsullar, dövr, tərz, cərəyan, sahə, janr, müəllif), şərh etməyi, qiymətləndirməyi;</td></tr>
</table>

| | | |
|---|---|---|
| **Təs.tət.baz.4.** | Müxtəlif dövrlərdə mədəniyyətlərin və tərzlərin işləri ilə tanışlığı və tarixi, dini, sosial və mədəni kontekstləri nəzərə almaqla müqayisə etməyi | **Təsviri incəsənətin sahələri və janrları**<br><br>**(Nəticələri: 1,2, 3, 4)**<br>• İncəsənətə gündəlik həyatda müxtəlif şəkildə təsadüf edilir;<br>• İncəsənət nümunələri müxtəlif məqsədlə və təyinatla yaradılır;<br>• İncəsənətin sahələrə bölünməsinə istifadə olunmuş material, texnika və ya təyinat səbəb olur;<br>• Hər bir sahə üçün təsviri incəsənətin hər hansı bir ifadə vasitəsi və ya üsulu daha çox xarakterikdir;<br>• Təsviri incəsənət əks etdirilən məzmuna əsasən, janrlara bölünür.<br>• İncəsənət sahələrinin və janrlarının inkişafının öz tarixi var.<br><br>**Müxtəlif dövrün/mədəniyyətin/cərəyanın/tərzin incəsənətinin xarakterik əlamətləri/ bədii xüsusiyyətləri**<br><br>**(Nəticələr: 1, 2, 3, 4)**<br>• Bütün dövrlərin, mədəniyyətin, cərəyanın, tərzin incəsənətinin öz xüsusiyyəti var ki, buna da müxtəlif amillər səbəb olur;<br>• incəsənətdə davam edən dəyişikliklər (incəsənətin təyinatı, ona olan yanaşma, bədii-təsviri vasitələr, üsullar, texnika, material, alət, sahələr, formalar və s.) bəşər tarixində davam edən dəyişikliklərlə birbaşa əlaqədədir (dünyagörüşü, texniki tərəqqi, qloballaşma və s.);<br>• Müxtəlif dövrlərin və mədəniyyətin incəsənətinin formalaşmasında qarşılıqlı təsir böyük rol oynayır;<br>• İncəsənət vasitəsilə müxtəlif dövr və mədəniyyət haqqında bir çox şeyləri başa düşmək olar. |

**Anlayışlar**

**Təsviri incəsənətin bədii-təsviri vasitələri və üsulları**

**Təsviri incəsənət vasitələri (elementləri)** (məs., **xətt:** müxtəlif növdə, tipdə, kontur, ştrix; **rəng:** əsas və qarışıq, soyuq və isti, ziddiyyətli, yaxın, rəngin qradasiyası, yarımtonlar; işıq-kölgə, işıqlandırma; **forma:** yastı və həcmli (həndəsi və təbiətdə mövcud, şişirdilmiş, üslublu və s.); faktura; fon.

**Təsviri incəsənətin üsulları (prinsipləri)** (məs., kompozitiv bölgü, tarazlıq, naxış (pattern) (elementlərin təkrarlanması), ritm, əsasın bölünməsi, vurğulama, simmetriya-asimmetriya, statika-dinamika, ziddiyyət, miqyas, nisbilik, proporsiya/disproporsiya, perspektiv (xətti və fəza, məkan), nəzər nöqtəsi, kolorit).

**Təsviri incəsənət sahələri və janrları (sahələr** – məs.: rəssamlıq (dəzgah, miniatür, monumental – freska, mozaika, vitraj, qrafit), qrafika (dəzgah, çap), heykəltəraşlıq, basmaçılıq, memarlıq, dizayn, dekorativ-təsviri incəsənət və s.; **janrlar** – məs., natürmort, portret, peyzaj, məişət, tarixi və s.).

**Təsviri incəsənətin texnikası** (məs.: rəssamlıq, qrafika və onların texnikaları, yonma, aplikasiya, kollaj, mozaika, monotipiya, modelləşdirmə, quraşdırma, rəqəmsal texnologiyalar).

**Müxtəlif dövrün/mədəniyyətin/cərəyanın/tərzin incəsənətinin** (məs., tarixöncəsi, qədim sivilizasiyalar, qədim dövrlər, orta əsrlər, intibah, XVII-XIX əsrlər, modernizm, müasir incəsənət və s.) xarakterik əlamətləri/bədii xüsusiyyətləri.

**İcbari tematik bloklar**

Baza pilləsində təsviri və tətbiqi incəsənətin təlim-tədrisi növbəti şəkildə aparılır:

• VII-IX siniflərdə təlim tədris üç əsas tematik blok çərçivəsində aparılır. Hər bir sinifdə (VII, VIII, IX) şagirdlərə hər üç tematik blokun müvafiq materialını təklif etməliyik;

• X sinifdə təlim-tədris bir əsas tematik blokun – "Gürcüstan incəsənəti dünya incəsənəti kəsiyində" çərçivəsində aparılır və 7 icbari dərs mövzusunu əhatə edir. Bu mövzuların kontekstində dünya və Gürcüstanın incəsənəti nəzərdən keçirilir, qədim dövrlərdən bu günə qədər.

**VII-IX siniflər:**

**Tematik blok: Ətraf mühit və incəsənət**

Tövsiyə edilən mövzular: Mühit – insanın maraq obyekti; Ətraf mühitin insana təsiri və insanın ətraf mühitə təsiri; İncəsənət bizim ətrafımızda (incəsənət sahələri və janrları); Dünyanın rəngarəng təsviri yolları – tərzlər, cərəyanlar, bədii-təsviri üsullar; texniki tərəqqinin incəsənətə təsiri; Təsvirin yeni vasitələrinin axtarışı.

**Tematik blok: İncəsənətdə insan**

Tövsiyə edilən mövzular: insanın təsviri və inamı-təsəvvürləri; incəsənət – şəxsi gerçəkləşmə vasitəsi; mən – mədəniyyətin hissəsi; özünü ifadəetmə, emosiyalar, hisslər, ideyalar, nəzərlər, təsəvvürlər; özünüifadəetmənin müasir formaları.

**Tematik blok: Cəmiyyət və incəsənət**

Tövsiyə edilən mövzular: incəsənət – tarixi yaddaş, incəsənət bizə nəyi və necə nəql edir; mədəni irs; məişət və estetik təyinat, incəsənət – ehtiyac və ya dəbdəbə; incəsənət – təsir vasitəsi (monumental incəsənət, plakat, reklam, küçə rəssamlığı, incəsənət bir aksiya kimi və s.).

**X sinif:**

**Tematik blok: Gürcüstan incəsənəti dünya incəsənəti kəsiyində**

Dərs mövzuları:

1. Tarixöncəsi dövrün incəsənəti;
2. Qədim sivilizasiyaların incəsənəti və Gürcüstanda bürünc dövrü;

3. Antik dövrün dünya və Gürcüstan incəsənəti;
4. Orta əsrlərin xristian və islam aləminin incəsənəti və Gürcüstan;
5. İntibah dövrü və müasir gürcü incəsənəti;
6. XVII-XIX əsrlərdə incəsənət və Gürcüstan;
7. Modernizm və müasir incəsənət dünyada və Gürcüstanda.

**Pillələr üzrə əsas suallar**

Pillələr üzrə əsas suallar standartın anlayışlarını nəticələrlə əlaqələndirir.

• İncəsənət nədir?
• Nə üçün insanlar incəsənət nümunələrini yaradırlar?
• İncəsənətin təyinatı necə və nə üçün dəyişirdi?
• İncəsənət insana və cəmiyyətin həyatına necə təsir göstərir?
• Cəmiyyətin tələbləri və maraqları incəsənətə necə təsir göstərirlər?
• İncəsənət nümunələrinin vasitəsilə nəyi ötürə və nəyi öyrənə bilərik?
• Təsviri və tətbiqi incəsənəti nə üçün öyrənirik?
• Təsviri incəsənətin bədii-təsviri üsullarından, texnikasından, materialından və alətindən nə üçün və necə istifadə edirik?

**c) Metodiki oriyentirlər**

Standartın bu hissəsində müəyyən edilmişdir ki, təlim-tədris prosesi hansı prinsiplərin əsasında aparılmalıdır. Eləcə də konkret dərs vahidinin – mövzunun təlim-tədrisinin necə planlaşdırılmalı olduğu haqqında qısa təlimatlar verilmişdir.

Təsviri və tətbiqi incəsənətin təlim-tədrisi növbəti prinsiplərə əməl etməklə aparılmalıdır:

a) Təlim-tədris şagirdin motivasiyasına və daxili səylərinin aktivləşdirilməsinə dəstək verməlidir.
b) Təlim-tədris ötən biliyə əsaslanaraq biliyin mərhələlərlə quraşdırılmasına dəstək verməlidir.
c) Təlim-tədris biliklərin qarşılıqlı əlaqələndirilməsinə və təşkil edilməsinə dəstək verilməlidir.
ç) Təlim-tədris təlim strategiyalarına sahib olmanı (təlimin təlimi) təmin etməlidir.
d) Təlim-tədris biliyin hər üç kateqoriyasını əhatə etməlidir: deklarativ, prosedur və şərti.

Təlim-tədris prosesində şagirddən yüksək bədii dəyəri olan işləri yaratmaq tələb olunmur. “İstedad” və “yaradıcılıq” bir-birindən seçilməlidir. Yaradıcılıq işi/məhsulu özünü ifadəetmənin, özünü gerçəkləşdirmənin vasitəsidir, amma daha çox hallarda, bu nöqteyi-nəzərdən, yaratma prosesinin özü daha önəmlidir, yəni tədqiqat, kəşf, eksperimentlərin aparılması prosesi - bunun çox böyük dəyəri var, – nəinki məhsulun.

Xüsusi diqqət müasir materiala, texnikaya, texnologiyaya (o cümlədən rəqəmsal texnologiyaya) və prosedura yönəldilməlidir və bunlardan da şagird gələcəkdə və gündəlik həyatında aktiv istifadə edə bilər.

Eləcə də şagird müxtəlif strategiyadan istifadə etməklə yaradıcılıq və təşkilatçılıq fəaliyyətinin planlaşdırılmasına və onun həyata keçirilmə bacarıqlarına sahib olmalıdır; sosial, kommunikasiya və qrupda iş bacarıqlarını inkişaf etdirməlidir.

Mədəni irslə tanışlıq məqsədilə, muzeylərə, qalereyalara, tarixi abidələrə ekskursiyalar, tanınmış incəsənət xadimləri və s. ilə görüşlər təşkil edilməlidir. Şagird sinif və məktəb sərgilərində, tamaşalarda, aksiyalarda, bayramlarda və başqa tədbirlərdə iştirak etməlidir; aşağı sinif şagirdlərinin bayramlarının tərtibatında, inventarın təmirində, sinfin təşkilində və s. yardım etməlidir.

Fənn nəticələrindən başqa, Milli Tədris Planının məqsədlərindən təlim-tədrisin və qiymətləndirmənin hədəfinə növbəti birbaşa bacarıqlar və dəyərlər çevrilməlidirlər:

| | |
|---|---|
| Tənqidi təfəkkür | • faktların, təsəvvürlərin, fikirlərin tənqidi təhlili və analiz edilməsi;<br>• sualların formalaşdırılması və onlara cavab axtarışı;<br>• sübutlu müzakirə, yəni uyğun arqumentlər, misallar gətirməklə şəxsi fikirlərin əsaslandırılması;<br>• düşünülmüş seçimin edilməsi və onun (seçimin) əsaslandırılması. |
| Əməkdaşlıq | • qrupda/dəstədə iş zamanı işin bərabər bölgüsü və yerinə yetirilməsi;<br>• qrupda/dəstədə müxtəlif funksiyanın yerinə yetirilməsi üçün hazırlıq;<br>• fərqli ideyaların, nəzərlərin konstruktiv təhlili;<br>• problemlərin birgə həlli, qərarların birgə qəbulu məqsədilə resursların, fikirlərin, biliyin paylaşılması. |
| Etika | • etika normalarına əməl edilməsi;<br>• həmrəylik hissi;<br>• empatiya;<br>• fərqliliyin qəbul edilməsi;<br>• fərdi sosial fəallıq üzrə məsuliyyətlə paylaşma. |
| Tədqiqat | • tədqiqi məsələnin, tədqiqat prosedurlarının, məlumatların əldə edilməsi yolları və qeydəalınma formalarının müəyyənləşdirilməsi; lazımi resursların seçimi;<br>• tədqiqatın keçirilməsi, göstəricilərin qeydəalınması və müxtəlif forma ilə təqdimatı/təşkili;<br>• göstəricilərin analizi, sübutlu müzakirə əsasında nəticələrin çıxarılması; tədqiqat nəticələrinin qiymətləndirilməsi;<br>• tədqiqi işin keçirildiyi zaman etika və təhlükəsizlik normalarına əməl edilməsi. |
| Təlimin təlimi, müstəqil fəaliyyət | • fəallığın/tapşırığın dəyərinin müəyyənləşdirilməsi – şagird görməlidir ki, fəallığın yerinə yetirilməsi nəyi qazandırır, ona hansı şəxsi və ya sosial faydanı gətirir;<br>• fəallığın/tapşırığın planlaşdırılması – (ehtiyacın dərk edilməsi və onun yerinə yetirilməsi üçün lazımi biliyin müəyyənləşdirilməsi; tapşırığın/fəallığın əsas məqsədinin müəyyənləşdirilməsi; işin nailiyyətlə yerinə yetirilməsi kriterilərinin təyin edilməsi; həyata keçiriləsi işin mərhələlərinin ayırd edilməsi; nəyin asan olacağı, nəyin çətin olacağı, nədə yardımın lazım gələcəyini ehtimal etmək; işin hər bir mərhələsi üçün strategiyaların məqsədyönlü seçimi;<br>• Təlim prosesinin monitorinqi – təlim prosesi üzərində düşünmək, irəliləyişə dəstək verən və ya mane olan şərtlərin və amillərin tanınması, irəliləyişə dəstək verən lazımi ölçülərin götürülməsi; güclü və zəif tərəflərin təyin edilməsi üçün özünüqiymətləndirmə, zəif tərəflərin gücləndirilməsi üçün yolların axtarılması;<br>• sosial-emosional idarəetmə - əsəbiliyin minimuma endirilməsi, lazım gəldiyi halda, yardım istəyi, özündə çətinliklərin dəf edilməsi resurslarının axtarılması; səhvlərə qarşı pozitiv yanaşmanın formalaşdırılması və irəliləyiş mənbəyi kimi istifadəsi;<br>• ayrı-ayrı fəaliyyət üçün ayrılmış vaxtın effektiv istifadəsi. |

| | |
|---|---|
| Məsuliyyət | • məktəb fəaliyyətlərində (məktəb həyatında) üzərinə düşən öhdəliklərin yerinə yetirilməsi;<br>• işin təyin edilən müddətlərdə başa çatdırılması və təhvil verilməsi;<br>• şəxsi davranışının idarəedilməsi, öz davranışları üzrə məsuliyyətin götürülməsi. |
| İnformasiya və kommunikasiya texnologiyalarının istifadəsi | • şəbəkə axtarışı (məs., müxtəlif dövrlərin və mədəniyyətin incəsənət nümunələri, sənətkarların yaradıcılığı və s. haqqında informasiya axtarışı, analiz, şərh və qiymətləndirmə məqsədilə);<br>• Google Arts & Culture vasitəsilə şəxsi qalereyanın yaradılması.<br>• kompüter rəsm/qrafiki proqramlarından istifadə edərək işin yaradılması, üzərində işlənilməsi;<br>• internet səhifənin/bloqun yaradılması və dərs prosesi ərzində həyata keçirilmiş müxtəlif layihənin, internet səhifədə/bloqda yerləşdirilməsi;<br>• dərs materialı və müxtəlif növdə elektron mətnlərin üzərində iş üçün informasiya kommunikasiya texnologiyalarının istifadəsi (Məs., Word,<br>PowerPoint) |
| Mütaliə | • şifahi və yazılı nitq yolu ilə informasiya qəbulu, onun üzərində işlənilməsi, dərk edilməsi, sistemə gətirilməsi, analizi-şərhi və təqdimat-paylaşma bacarığı. |

Təlim bacarıqlarının yaxşılaşdırılması üçün metakoqnisiya qabiliyyətlərinin inkişafına qayğı göstərmək lazımdır ki, bunun üçün də müəllim mütəmadi olaraq üç növ fəallıq keçirməlidir. Bu fəallıqlardır:

**Strategiyaların modelləşdirilməsi:** müəllim şagirdlərlə birlikdə tapşırığı yerinə yetirir və onu yerinə yetirdikdə "hündürdən fikirləşir" ki, bu fəallığı necə yerinə yetirsin (məs., fəallığın şərti ilə yaxşı tanış olaq və müşahidə edək ki, nə tələb olunur; şərti müşahidə edən material varmı və s.).

**Qabaqlayıcı metakoqnitik fasilə, yəni tapşırığın yerinə yetirilməsinə qədər düşünmək və atılacaq addımlar üzrə müzakirənin aparılması -** şagirdlər tapşırığın şərti ilə tanış olduqlarından sonra metakoqnitik xarakterli növbəti fəallığı yerinə yetirəcəklər: onlar qrupla birlikdə tapşırığı yerinə yetirəcəkləri yolu müəyyən etməlidirlər, xüsusilə də: tapşırığın yerinə yetirilmə mərhələlərini (nəyi yerinə yetirəcəklər və nədən sonra və s.), eləcə də hər bir mərhələdə istifadə edəcəkləri strategiyaları xırdalıqlarla təsvir etməlidirlər. Qruplar fəallıqları təqdim etməli və seçilmiş yolların və ya strategiyaların məqsədyönümlü olub-olmadığını müzakirə etməlidirlər.

**Növbəti metakoqnitik fasilə, yəni tapşırıqların yerinə yetirilməsindən sonra düşünmək və atılmış addımlar üzrə müzakirə -** şagirdlər konkret tapşırığı yerinə yetirdikdən sonra keçilən yolu xatırlamalı və təsvir etməlidirlər: nə etdilər və nədən sonra? İş zamanı hansı üsullardan istifadə etdilər? Nədə çətinlik çəkdilər və onlar üçün asan nə oldu? Yerinə yetirilmiş əməllərin təsviri nəticəsində şagirdlər məqsədin əldə edilməsi üçün müxtəlif yolların və tapşırığın yerinə yetirilməsinə qədər düşünməli olduqları üsulun (optimal qərarın qəbul edilməsi üçün) olduğu faktını dərk edəcəklər. Metakoqnitik fasilə şagirdlər arasında təlim bacarıqlarını inkişaf etdirəcək və artıracaqdır.

**İllik proqram və dərs mövzusunun quruluş prinsipləri**

Milli Tədris Planının pillələr üzrə fənn standartları icbari fənn tələbatlarını müəyyən edir (şagird nəyi bilməli və nəyi bacarmalıdır). Bunlara əsaslanaraq illik proqramlar planlaşdırılır və bunlar da standartın tələbatlarının gerçəkləşdirilməsi yollarını göstərirlər.

İllik proqramlar dərs mövzularına əsasən planlaşdırılmalıdırlar. Dərs mövzusu funksional konteksti təqdim edir ki, bu da standartın hissələrinin inteqrativ və qarşılıqlı əlaqəli tədris imkanını verir. Nəticələrin fənnin uzunmüddətli tədris məqsədlərini təqdim etdiyindən, hər bir mövzu çərçivəsində standartın bütün nəticələri işlənilməlidir. Belə ki, dərs mövzularını dəyişdirməklə kontekstlər dəyişəcək, amma standartın nəticələri şəklində formalaşdırılmış dərs məqsədləri dəyişməyəcəkdir (nəticə özlüyündə müstəqil dərs vahidini – mövzunu təqdim etmir).

Dərs mövzusunun planlaşdırılması üçün növbəti komponentlərdən istifadə olunur:

| |
|---|
| **Dərs mövzusu/tematik blok**<br>Dərs mövzusu/tematik blok funksional konteksti təqdim edir və standartın nəticələrinin, anlayışlarının, konkret məsələlərin inteqrativ və qarşılıqlı əlaqəli tədris imkanını verir. Hər bir mövzu çərçivəsində, imkan daxilində, standartın bütün nəticələri işlənib hazırlanmalıdır. |
| **Mövzu ilə bağlı bərqərar olmuş təsəvvürlər**<br>Tematik bərqərar olmuş təsəvvürlərin funksiyası şagirddə öyrəniləsi mövzunun konturları barəsində (tematik bərqərar olmuş təsəvvürlər xassə cəhətindən hədəf anlayışları ilə bağlı bərqərar olmuş təsəvvürlərdən fərqlənirlər) təsəvvür yaratsın. |
| **Nəticələr, hədəf anlayışları və anlayışlarla bağlı bərqərar olmuş təsəvvürlər**<br>Nəticələr, hədəf anlayışları və bunlarla bağlı bərqərar olmuş təsəvvürlər növbəti suala cavab verirlər – şagirdə mövzunu hansı uzunmüddətli məqsədlə öyrədirik. |
| **Fənn üzrə məsələlər və yarımanlayışlar**<br>Məsələlər və yarımanlayışlar hədəf anlayışlarından irəli gəlirlər. Onların tədrisi özünüməqsədi təqdim etmir. Fənn məsələləri və yarımanlayışlar vasitəsilə konkret olaraq hədəf anlayışlarına sahib olmaq və standartın nəticələrinə çıxmaq üçün konkret olaraq şagirdin nəyin üzərində işləməli olduğu müəyyənləşdirilir. Bunlara əsaslanaraq, kompleksli tapşırığın şərti müəyyənləşdirilir və bu da şagirdə hədəf anlayışları və bunlarla bağlı bərqərar olmuş təsəvvürləri dərk etməkdə yardım edir. |
| **Kompleksli tapşırıq**<br>**Kompleksli/layihə** tapşırığı funksional kontekstlərdə müxtəlif bilik və bacarığın inteqrativ istifadəsini tələb edən fəallıqdır. Kompleksli tapşırıq (onunla sıx əlaqədar struktur vahidləri ilə - məsələ, əsas sual, qiymətləndirmə kriterisi) mövzu çərçivəsində aralıq məqsədi rolunu yerinə yetirir. |
| **Əsas suallar**<br>Tematik əsas suallar pillələrə əsasən suallardan gəlir və suala cavab verir – kompleksli tapşırıq üzərində işlədikdə şagird nəyin üzərində düşünməlidir? Onların funksiyalarıdır: |
| • Şagirdin ötən biliyinin aktivləşdirilməsi, hər şeylə maraqlanmanın oyadılması, yeni biliyin qazanılması üçün provokasiya edilməsi;<br>• Dərs mövzusunun nəticəsinə yönəlmiş təlim-tədrisin təmin edilməsi;<br>• Mövzunun təlim-tədris prosesində aralıq addımlarının/mərhələlərin müəyyən edilməsi. Əsas sual təşkilatçı elementi təqdim edir və dərs mövzusu çərçivəsində dərs(lər)in məqsədi rolunu yerinə yetirə bilər. |

| |
|---|
| **Fəallıqlar və resurslar**<br>Tematik matrisada fəallıqlar və dərs resursları ona görə seçilirlər ki, şagirdin kompleksli tapşırıq üzrə işi yüngülləşsin və bu işin yerinə yetirilməsi də mövzu çərçivəsində aralıq məqsədi rolunu yerinə yetirir. |
| **Qiymətləndirmə indikatorları**<br>Qiymətləndirmə indikatorları standartın nəticələrindən irəli gəlir və şagirdin konkret mövzu çərçivəsində nəyi bacarmalı olduğunu göstərir. Digər sözlərlə desək, indikatorlar konkret mövzuda gerçəkləşdirilmiş nəticələri təqdim edirlər. |

**Dərs mövzusu necə qurulur?**

Dərs mövzusunu qurmaq üçün ən əsas oriyentirlər standartın nəticələri, hədəf anlayışları və bunlarla bağlı bərqərar olmuş təsəvvürlərdir. Onlar standartda icbari şəkildə müəyyən edilmişlər və uzunmüddətli məqsədləri canlandırırlar.

Aralıq qısamüddətli məqsədin rolunu tematik planda kompleksli tapşırıq və onunla bağlı struktur vahidləri **məsələ, yarımanlayışlar, əsas suallar və qiymətləndirmə indikatorları** yerinə yetirirlər.

Mövzu çərçivəsində eləcə də **tematik bərqərar olmuş təsəvvürlər** ayrılır. Onların funksiyası şagirddə öyrənilési mövzunun konturları haqqında təsəvvürün yaranmasıdır.

**Dərs mövzusunun qurulması üçün addımlar**

| |
|---|
| Addım 1. **Bərqərar olmuş təsəvvürlərin təyin edilməsi;** |
| Addım 2. **Mövzu çərçivəsində üzərində işləniləsi hədəf anlayışlarının müvafiq məsələlərinin/yarımanlayışların müəyyən edilməsi;** |
| Addım 3. **Fənn məsələsi və hədəf anlayışlarının müvafiq kompleksli tapşırığının/tapşırıqlarının şərtinin müəyyən edilməsi;** |
| Addım 4. **Kompleksli tapşırığın müvafiq əsas sualının/suallarının verilməsi və qiymətləndirmə kriterilərinin seçilməsi;** |
| Addım 5. **Şagirdə kompleksli tapşırığın yerinə yetirilməsində yardım edəcək fəallıqların və resursların seçilməsi.** |

**ç) Qiymətləndirmə**

Sinif qiymətləndirməsi Milli Tədris Planının birinci hissəsinin 7-ci fəsli ilə müəyyən edilmiş qiymətləndirmə prinsiplərinə, məqsədlərə və məsələlərə uyğun olmalıdır.

Təlimin keyfiyyətinin yaxşılaşdırılmasına dəstək vermək üçün inkişafetdirici qiymətləndirməyə üstünlük verilməlidir ki, bu da ötən nəticələri ilə münasibətdə şagirdi qiymətləndirir, onun fərdi irəliləyişini ölçür və bu da onun biliyinin mərhələli qurulması imkanını verir.

Şagirdin özünün inkişafetdirici cəlb olunması önəmlidir. Təlim prosesinin qiymətləndirilməsi şagirdə müstəqil təlim vərdiş-bacarıqlarını aşılatdırır, təlim strategiyalarının mənimsənilməsində yardım edir, imkan verir ki, özünün irəliləyişi və nailiyyətinə düşünülmüş şəkildə dəstək versin. Qiymətləndirmədə cəlb olunmanın əsas məqsədini şagirdin təlim proseslərində özünü dərk etməsi təqdim edir və bu da ona həmin proseslərin düşüncəli və müstəqil idarə etməsini öyrədir.

**Yekunlaşdırıcı (inkişafetdirici və müəyyənləşdirici) qiymətləndirmə**

Yekunlaşdırıcı qiymətləndirmə üçün kompleksli, məzmunlu tapşırıqlardan istifadə edilir və bunların yerinə yetirilməsi standartla müəyyən edilən biliyin və bacarıqların inteqrativ və funksional istifadəsini tələb edir. Bu tapşırıqların qiymətləndirilməsi üçün qiymətləndirmə rubrikasından, yəni kriterilər torundan istifadə edilir. Hər bir dərs mövzusunun üzərində işlədikdən sonra şagirdə yekunlaşdırıcı tapşırığı yerinə yetirmək tapşırılır. Yekunlaşdırıcı tapşırığın minimal sayı il ərzində dərs mövzularının sayına uyğun olur.

**Yekunlaşdırıcı qiymətləndirmə üçün tipik tapşırıqlar**

Aşağıda tipik tapşırıqların geniş seçimi təklif edilir.

Müəllim və ya şagird yekunlaşdırıcı qiymətləndirmə üçün tapşırıqların hər hansı bir tipini və ya tiplərini seçir:

• praktiki iş - əsərin yaradılması;
• sərgi;
• layihə;
• məruzə-referat;
• işin təqdim edilməsi;
• müəyyən dövrün, incəsənət işinin və s. analizi;
• təfəkkür qabiliyyətlərinin yoxlanılmasına yönəlmiş test;
• və s.

**Müəyyənləşdirici qiymətləndirmə üçün nəzərdə tutulmuş yekunlaşdırıcı tapşırığın ödəməli olduğu tələbatlar**

• Tapşırığın hər bir tipini özünün ümumi qiymətləndirmə rubrikası müşayiət etməlidir;
• tapşırığın qiymətləndirmə rubrikası, qiymətləndirmə indikatorlarından başqa, Milli Tədris Planının birbaşa bacarıqlarına və dəyərlərinə istinad etməlidir;
• ümumi rubrika konkret tapşırığın şərtinin və keçilən materialın nəzərə alınması ilə dəqiqləşdirilməlidir
• 10 bal rubrikaya daxil olan kriterilərə bölünməlidir.

**Qiymətləndirmə rubrikasının mümkün forması**

| | |
|---|---|
| **Sinif** | |
| **Şagirdin adı, soyadı** | |
| **Mövzu** | |
| **Tapşırığın şərti** | |
| **Qiymətləndirmə kriteriləri** | **Şərhlər** |

## Məlumat:

Əsas terminlər və onların izahatları:

**İncəsənət sahələri və növləri:**

**Rəssamlıq:**

**Boyakarlıq** – monumental rəssamlıq (freska, mozaika), dəzgah rəssamlığı, miniatür, ikona rəssamlığı.

**Qrafika:** dəzgah grafikası, çap grafikası;

**Heykəltəraşlıq** – müxtəlif materialdan təsvirin yonulması və yonma incəsənəti;

**Heykəltəraşlığın növləri:**

Dairəvi heykəltəraşlıq, relyef (barelyef, horelyef);

**Memarlıq** – kult, müdafiə, inzibati, mülki, industrial, memorial, landşaft;

**Dekorativ-tətbiqi incəsənət sahələri:** dizaynla seçilmiş məişət təyinatlı əsərləri yaradan bütün sahələr – mebel, parçalar, qab-qacaq, alətlər, paltar, müxtəlif növ bəzəklər və s.

**Təsviri incəsənət janrları:**

**portret** – insanın və ya insanlar qrupunun təsviri

**peyzaj** – ətraf mühitin mənzərəsi

**urbanik peyzaj** – şəhər mənzərəsi

**marina** – dəniz mənzərəsi

**veduta** – XVII əsr Venesiyada məşhur urbanik peyzajı

**natürmort** – cansız əşyaları təsvir edən janr

**vanitas** – natürmort növü, qürrəyə işarə edən atributlarla

**məişət** – gündəlik məişəti təsvir edən janr

**bodeqon** – XVII əsrdə məşhur olan dükanların və sadə insanların kədərli səhnələri

**tarixi** – tarixi şəxsiyyətləri və hadisələri əks etdirən janr

**batal** – döyüşü təsvir edən janr

**dini** – dini süjetləri və personajları təsvir edən janr

**mifoloji** – mifoloji süjetləri və personajları təsvir edən janr

**Təsviri incəsənətin əsas vasitələri (elementlər):**

Xətt, rəng, forma (yastı və həcmli), fon və ifadənin qarşılıqlı yanaşması, işıq-kölgə, faktura.

**Təsviri incəsənətin əsas üsulları (prinsipləri):**

kompozisiya, tarazlıq, simmetriya/asimmetriya, aksent, ritm, ziddiyyət, perspektiv (fəza, xətti), rakurs, statika/dinamika, harmoniya, proporsiya/disproporsiya, miqyas, ornament.

## TEMATİK BLOK: CƏMİYYƏT VƏ İNCƏSƏNƏT (16+2 saat)

***Şagird kitabında fəsillərin ardıcıllığı:***


Dərs mövzusu: İncəsənət cəmiyyətin xidmətində.......................................................................7

1. Müasir cəmiyyətin çağırışları ........................................................................................8
2. İncəsənət siyasətin xidmətində .....................................................................................10
3. İncəsənət müharibəyə qarşı ..........................................................................................18
4. Sosial problemlər haqqında incəsənət ..........................................................................26
5. İncəsənət dinin xidmətində ...........................................................................................34
6. Yeni təsviri dil ...............................................................................................................40
7. Xristian Gürcüstanı .......................................................................................................52
8. İslam incəsənəti .............................................................................................................62
9. Rəssamlıq ......................................................................................................................68
10. Fars keramikası ............................................................................................................76
11. İncəsənət təhsilin xidmətində (kalliqrafiya)...................................................................78
12. Miniatür ........................................................................................................................80
13. Xristian kultu memarlığı ..............................................................................................90
14. Qərbi Avropa kult memarlığı .....................................................................................100
15. Dini dekor ...................................................................................................................108

**TEMATİK BLOK 1: CƏMİYYƏT VƏ İNCƏSƏNƏT**

<table>
<tr><td colspan="4">Mövzu: İncəsənət cəmiyyətin xidmətində Saatların ehtimal miqdarı: 16 saat + 2 saat</td></tr>
<tr><td colspan="4">Mövzu ilə bağlı bərqərar olmuş təsəvvürlər:</td></tr>
<tr><td colspan="4">• Təsviri incəsənət qeyri-verbal kommunikasiyanın formalarından biri;<br>• İncəsənət əsərləri ilə müxtəlif dövrün və mədəniyyətin cəmiyyətləri haqqında çoxlu məlumatlar öyrənə bilərik.<br>• İncəsənət nümunəsinin şəklinə tarixi inkişaf, siyasi düzülüş, sosial vəziyyət, din və ənənələr təsir göstərir.<br>• Müxtəlif dövrlərdə incəsənət siyasətə, dinə qulluq edir və xalqın sosial tələbatlarını əks etdirirdi.<br>• İncəsənət bədii dilin (təsviri vasitələrin və üsulların) vasitəsilə nəql edir ki, cəmiyyət bu və ya digər dövrdə necə idi.<br>• Tarixi dövrlərin dəyişməsi bədii üsulları dəyişdi, çünki yeni materiallar, texnologiyalar və yaradıcılıq ideyaları meydana gəldi.<br>• İncəsənətə cəmiyyətin həyatında önəmli rol verilir.<br>• İncəsənət nümunələrinin vasitəsilə hər hansı bir hadisəyə olan şəxsi yanaşmanı ötürə bilirəm.<br>• Erkən dövrlərin bədii təcrübəsini bilmək yaradıcılıq seçimimin edilməsində mənə yardım edəcəkdir.</td></tr>
<tr><td colspan="4">Tematik blok çərçivəsində işlənilməsi mövzular və yarımmövzular:</td></tr>
<tr><td colspan="4">1. Tarixi-dini-sosial kontekstdə incəsənət əsərinin təhlili<br>2. Təsviri incəsənət janrları (tarixi, batal, dini, məişət) və onların ideoloji funksiyası<br>3. İncəsənətdə təşviqat-təbliğat<br>4. Dövran (Orta əsrlər) və onun incəsənət xüsusiyyətləri<br>5. Xristian və islam kult memarlığı və onun dekoru</td></tr>
<tr><td>Hədəf anlayışları və bunlarla bağlı bərqərar olmuş təsəvvürlər:</td><td>Məsələ və yarımanlayışlar:</td><td>Əsas sual/suallar:</td><td>Kompleksli tapşırıqlar (tiplər):</td></tr>
<tr><td>Təsviri incəsənətin bədii-təsviri vasitələri (elementlər) və üsullar (prinsiplər):<br>• insan incəsənət əsərini yaratmaq üçün incəsənət dilindən, yəni təsviri incəsənətin elementlərindən və prinsiplərindən istifadə edir;<br>• təsviri incəsənət dilindən təkcə əsəri yaratdıqda deyil, eləcə də incəsənət əsərlərinə təəssüratlarını, ideyalarını, fikrini ifadə etdikdə istifadə edir;<br>Təsviri incəsənət texnikası:<br>• sənətkar materialı və texnikanı bədii fikrinə əsasən seçir.</td><td>Vasitələr (elementlər): (rəng: ziddiyyətli; xətt; fon və təsvirin qarşılıqlı yanaşması).<br><br>Üsullar (prinsiplər):<br>(statika-dinamika, ziddiyyət, kolorit,<br>aksent; ornament,<br>disproporsiya, harmoniya).<br><br>Sahələr:<br>– ikona, freska sənəti, vitraj, qrafit, miniatür, qrafika, heykəltəraşlıq; fotoqrafiya, rəqəmsal media.<br><br>Janrlar:<br>tarixi, dini, məişət.<br><br>Texnika: rəssamlıq, freska, yonma, rəqəmsal media, fotoqrafiya.</td><td>• İncəsənət vasitəsilə müxtəlif dövrün və mədəniyyətin cəmiyyətləri haqqında nəyi öyrənə bilərik?<br>• İncəsənət əsərinin görünüşünə hansı amillər təsir göstərirlər?<br>• İncəsənət əhvalatı bizə hansı bədii üsullarla ötürür?<br>• Müxtəlif dövrlərdə incəsənət nəyə qulluq edir?<br>• Müxtəlif dövrün cəmiyyəti tərəfindən</td><td>Tədqiqat <u>(müəllimin seçimi ilə):</u><br>• müxtəlif dövrlərin işlərinin axtarılması, tematik qruplaşdırılması, rəqəmsal albom kimi təşkil edilməsi, məruzənin hazırlanması; fotoreportaj;<br><br>İşin analizi (<u>icbari</u>):<br>• müxtəlif dövrün eyni mövzusu üzrə yerinə yetirilmiş işlərin müqayisəvi analizi, şərhi və qiymətləndirilməsi.<br>• Dövrlərin, bədii dilin müqayisəvi</td></tr>
</table>

| | | | |
|---|---|---|---|
| • incəsənət bəşəriyyətin inkişafı ilə birlikdə inkişaf edir, dəyişir və yeni formalar yaranırdı<br><br>**Təsviri incəsənət sahələri və janrları:**<br>• İncəsənətə gündəlik həyatda müxtəlif şəkildə təsadüf edilir;<br>• İncəsənət əsərləri müxtəlif məqsəd və təyinatla yaranır;<br>• İncəsənətin sahələrə bölünməsinə tətbiqi material, texnika və təyinat səbəb olur;<br>• Hər bir sahə üçün tətbiqi incəsənətin hər hansı bir təsviri vasitəsi və ya üsulu xarakterikdir;<br><br>• Təsviri incəsənət əks olunan məzmuna əsasən janrlara bölünür.<br><br>**Müxtəlif dövrün mədəniyyətin/tərzin incəsənəti üçün xarakterik əlamətlər/bədii xüsusiyyətlər:**<br>• Hər dövrün, cərəyanın, tərzin incəsənətinin öz xüsusiyyəti var və buna da müxtəlif amillər səbəb olurlar;<br>• İncəsənətdə baş verən dəyişikliklər (incəsənət təyinatı, ona olan münasibət, bədii-təsviri vasitələr, üsullar, texnika, material, alətlər, sahələr, formalar və s.) bəşər tarixində baş verən dəyişikliklərlə (dünyagörüşü, texniki tərəqqi, qloballaşma və s.) birbaşa əlaqədədir; | **Dövr/mədəniyyət/cərəyan/tərz və uyğun incəsənət əsərlər:** müxtəlif; Orta əsrlərin islam və xristian incəsənəti. | yaradılmış incəsənət bir-birindən nə ilə fərqlənir?<br>• İncəsənətin cəmiyyətin həyatında hansı rolu var?<br>• İncəsənətin formalaşmasında cəmiyyətin hansı rolu var?<br>• İncəsənət əsəri vasitəsilə hər hansı bir hadisəyə münasibətimizi necə ötürə bilərik?<br>• Hal-hazırda erkən dövrlərin bədii təcrübəsini bilmək bizə nə üçün lazımdır?<br>• İnsanlar özünüifadə üçün incəsənətdən necə istifadə edirlər? | • **T** sxemlərinin tərtib edilməsi;<br><br>**Praktiki iş:** <u>(müəllimin seçimi ilə):</u><br>• təbliğat plakatı<br>• mətnin illüstrasiya tərtibatı<br>• qabarıq relyef<br>• oyma<br>• kalliqrafik iş<br>• ornament (arabeska)<br>• freska imitasiyasının yaradılması<br>• vitrajın imitasiyasının yaradılması<br><br>**Kompleksli layihələr**:<br>• İşğal edilmiş ərazilərdə yaşayan həmyaşıdları dəstəkləyən aksiya üçün posterlərin hazırlanması;<br><br>Və ya<br>• Poster: “Mən dəyişmək istəyirəm”.<br>• İncəsənət vasitəsilə yetkin nəslin probleminə mövqenin ifadəsi <u>(müəllimin seçimi ilə).</u><br>• Aforizmlərin rəqəmsal və kağız kitabı (illüstrasiya, kalliqrafiya, üst hərflərin və çərçivələrin ornamentlə bəzədilməsi, relyef və ya mozaika cildi). |

<table>
<tr>
<td>• Müxtəlif dövrün və mədəniyyətin incəsənətinin formalaşmasında qarşılıqlı təsir böyük rol oynayır; incəsənətin vasitəsilə müxtəlif dövrün və mədəniyyətin barəsində bir çox şeylər öyrənmək olar.</td>
<td></td>
<td></td>
<td>(Fərdi və qrup işi) (icbari)<br>• “Məbəd” layihəsi (icbari). Bizans, gürcü, roman və qotika məbədlərinin üçölçülü modellərinin yaradılması və müvafiq dekorla bəzədilməsi (materialın fakturası, qarqoyllar, vitrajlar, oyma və s.).</td>
</tr>
<tr>
<td colspan="4">Tematik blok üçün qiymətləndirmə kriteriləri – „İncəsənət cəmiyyətin xidmətində”.</td>
</tr>
<tr>
<td colspan="4">Təsviri incəsənətin bədii-təsviri vasitələri (elementlər) və üslubları (prinsiplər)<br>Təsviri incəsənət texnikası:<br>• şagird incəsənətin istənilən formasını seçir (məsələn, poster, maket və s.), bu və ya digər hadisəyə, fakta qarşı şəxsi fikrini, münasibətini daha yaxşı ötürmək üçün müvafiq bədii-təsviri vasitələrdən, üsullardan, materialdan və texnikadan istifadə edir (T.tət.baz.1, 2, 4);<br>• müxtəlif bədii üslubda əsəri yaradır (məs., sxematik, üslublu), fikrinə uyğun bədii-təsviri vasitələri, üsulları, materialı, texnikanı seçir (T.tət.baz.1, 2);<br>• əsərdə seçilmiş dövrdə və ya mədəniyyətdə insana təsir göstərmək üçün istifadə edilən (miqyas, proporsiya, ziddiyyət, əsasın ayrılması və s.) bədii-təsviri üslublardan istifadə edir (T.tət.baz.1, 4);<br><br>Müxtəlif dövrün/cərəyanın/üslubun incəsənətinin xarakterik əlamətləri/bədii xüsusiyyətləri<br>Təsviri incəsənətin sahələri və janrları:<br>• hər hansı bir dövrün və ya mədəniyyətin incəsənət əsərini analiz edir və müzakirə edir ki, onun vasitəsilə hansı məlumatı aldı (T.tət.baz.3);<br>• incəsənətin cəmiyyətə təsiri formalarını və bədii-təsviri üsulları analiz edir (T.tət.baz.3, 4);<br>• cəmiyyət üçün özünüifadəetmə vasitəsi kimi müzakirə aparır, bir neçə misal gətirir (T.tət.baz.3, 4);<br>• bir neçə misalin əsasında mədəniyyətin/mədəniyyətlərin və ya dövrlərin qarşılıqlı təsirinə dair müzakirə aparır (T.tət.baz.4);<br>• cəmiyyətə təsir vasitələrinə əsasən iki dövrü və ya mədəniyyəti müqayisə edir (T.tət.baz.4).</td>
</tr>
</table>

**TAPŞIRIQLAR MATRİSASI 1/1**

| **Dərslər 1-4 Birləşdirici mövzu: İncəsənət – zamanın güzgüsü** | | |
|---|---|---|
| **Məsələ və yarımanlayışlar:** | **Əsas sual/suallar:** | **Kompleksli tapşırıqlar (tiplər):** |
| **Elementlər**:<br>Xətt, rəng, forma, fon və təsvirin qarşılıqlı münasibəti.<br><br>**Prinsiplər**: kompozisiya bölgüsü, əsasın bölgüsü, ziddiyyət, nisbət, miqyas, nəzər nöqtəsi.<br><br>**Sahələr:**<br>qrafika (dəzgah, çap), qrafit.<br><br>**Təsviri incəsənət texnikası**:<br>qrafika, rəqəmsal texnologiyalar. | • İncəsənət siyasi vəziyyəti necə təsvir edir?<br>• Sənətkarlar hansı bədii üslublarla müharibəyə qarşı etirazlarını bildirirlər?<br>• Sənətkarların nümunələri ilə müxtəlif dövrün və ölkənin cəmiyyətində müharibəyə olan yanaşma haqqında hansı informasiyanı almaq olar?<br>• İncəsənət təbliğat və təşviqat işinə necə cəlb olunmuşdur?<br>• Plakatlar hansı məzmunda çağırışları təsvir etdirirlər?<br>• Təşviqat plakatı hansı təsviri vasitələrdən və üslublardan istifadə edir?<br><br>• İncəsənət cəmiyyətin ağrısını hansı üslublarla göstərir?<br>• İncəsənət cəmiyyətin yaxşılığına doğru vəziyyəti necə dəyişə bilər?<br>• Cəmiyyətin probleminə olan fərdi yanaşmanı incəsənətin vasitəsilə necə ötürə bilərəm? | • İşğal edilmiş ərazilərdə yaşayan həmyaşıdları dəstəkləyən “Biz sülh istəyirik” aksiyası üçün plakatların hazırlanması.<br>• Şəklin, aplikasiyanın, fotomontajın və ya rəqəmsal kollajın üsulu ilə gənc nəslin çağırışları haqqında plakatın hazırlanması. |

**1. Müasir cəmiyyətin çağırışları**
Giriş söhbəti (ötən biliyin aktivləşdirilməsi üçün dövrlərin qısa icmalı):

**Tarixöncəsi incəsənət** söyləyir ki, insanın əsas emosional təəssüratı heyvanla bağlıdır. İbtidai insan üçün heyvan həm rəqib idi, həm də qida. O, saatlarla vəhşi heyvanı müşahidə edir və mağaranın divarlarında rəsmini çəkirdi. Bu yolla Lasko, Altamira və başqa mağaraların paleolit rəssamlığı bizə qədər gəlib çatmışdır.
**Tasili-N'ajeri divarının** şəkilləri bizə məlumat verirlər ki, insan artıq heyvanı əhliləşdirə bilmiş, ovçuluq və kənd təsərrüfatı alətlərini icad etmiş, möcuzəvi mərasimlər təsis etmişdir.
**Qədim Mesopotamiya incəsənəti** çarı ucaldır;
**Qədim Misir incəsənəti** – axirət həyatına həsr olunur. Onun mədəniyyəti barəsində qazıntılar və ruhun yad edilməsi üçün ucaldılan məbədlər danışırlar;
**Qədim Yunanıstan incəsənəti** demokratik şəhər-dövlətin vətəndaşının idealını bərqərar edirdi;
**Roma incəsənəti** – respublika və imperiya hərbi maraqlarına xidmət edir; Roma cəmiyyəti barəsində akveduklar, amfiteatrlar, zəfər tağları, zəngin villalar və hamamlar danışırlar.
**Orta əsrlərin incəsənəti**, əksər hallarda, dini xarakter daşıyır. Orta əsrlərdən qala-istehkamlar, kafedrallar, məscidlər bizə gəlib çatmışdır.
**İntibah (Renesans) dövründə** özəl şəxslərin zəngin sarayları, b.a. palassolar yarandı.
**Barokko** isə ətrafa da yayıldı və təbiəti gözəl kəsilmiş kollarla, fəvvarələrlə və parklarla gözəlləşdirdi.

Əsas sifarişçinin hakimiyyət olduğu **qeyri-demokratik, totalitar dövlətdə** möhtəşəm, monumental inzibati binalar yaradılır.
Hər bir dövr özünün ayrı-ayrı maraqları ilə seçilir. İncəsənət, zamanın güzgüsü kimi, bu maraqların ifadəçisidir.
İncəsənət gah siyasətin xidmətindədir, gah dinin, gah kommersiyanın, gah da - əyləncə və istirahətin.
Cəmiyyət incəsənəti yaradır, incəsənət cəmiyyətin yaşadığı mühiti yaradır.

**Diskussiya:**
Diskussiyanın məqsədi ondan ibarətdir ki, şagirdlər nəticəyə gəlsinlər:
incəsənət cari proseslərə cəmiyyətin təsviri reaksiyasıdır.
Cəmiyyətin dünyagörüşü zəmanəsinin incəsənətində təsvir olunur, incəsənət isə bu ideyaların yayılmasına-bərqərar olmasına xidmət göstərir.
Diskussiya sualları:
- ✓ Müasir cəmiyyət necədir?
- ✓ İfadəni necə başa düşürsünüz–"İncəsənət cəmiyyətin güzgüsüdür?"
- ✓ İncəsənət əsərinin məzmununu nə müəyyən edir?
- ✓ İncəsənət cəmiyyətin və onun problemləri haqqında nəyi və necə danışır?
- ✓ Le Kurbuzye və Rotko məbədlərinə diqqət ver. Bunların 20-ci əsrin əsərləri olduğuna işarə edən nədir?

*Yetər ki, şagirdlər görsünlər ki, Le Korbuzye və Mark Rotko məbədlərinin qeyri-adi, qeyri-ənənəvi formaları var.
- ✓ Müasir nəzərlərin, materialların və texnologiyaların nəzərə alınması ilə Gürcüstanın kult memarlığını necə təsvir edirsiniz?

*Müasir kult memarlığının interyer dekorunda rəqəmsal texnologiyaların istifadəsi ilə bağlı videonu izləyə bilərsiniz:
Monrealın Notr-Dam (Kanada) bazilikasında rəqəmsal proyeksiya:
https://www.youtube.com/watch?v=FV3XdOda3zM

**2. İncəsənət siyasətin xidmətində**
Şagirdlər dərk etməlidirlər ki, incəsənət siyasətin xidmətində necə və hansı növdə durur.
Bunlar heykəl, memarlıq tikilisi və ya dırnaq ölçüsündə sikkə ola bilərlər və hər şey dövlətin maraqlarına xidmət göstərməlidir.
Zəfər tağları və kolonnalar üçün əlavə illüstrasiya materialı şagirdlərə Roma və Napoleon imperiyaları arasında (Roma: Titus, Adrianes, Septimius, Severus tağları; Romada Markus Avrelius kolonnası; Napoleon dövrünün: Paris Zəfər Tağı, Karuzel Tağı, Vandom meydanında kolonna) ümumi işğalçı əzmini göstərir.
İncəsənətin sifarişçisi dövlət olduğunda, mövcud siyasi ideyaların bərqərar olması üçün incəsənət müxtəlif dövrdə oxşar bədii üsullardan istifadə edir (qəhrəmanların pozaları, jestikulyasiya və s.; Fidiasın “Olimpiya Zevsinin” heykəli və Enqrisinin “Napoleon portretinin” müqayisəsi; Nikenin antik heykəlinin, Delakruanın “Barrikadalarda azadlıq” və Muxinanın “Fəhlə və kolxozçu” heykəlinin pozaları və jestikulyasiyalarının müqayisəsi). Şagirdlər başa düşürlər ki, bu pozalar və jestikulyasiyalar bir zamanlar bərqərar olmuş və artıq stereotipə çevrilmişdir.

**Qeyd**:
“Sağlam bədəndə sağlam ruh” sualı ilə bağlı: “bugünkü nöqteyi-nəzərdən, bu yanaşma nə dərəcədə düzgündür?” Müzakirə zamanı vacibdir ki, şagirdlər nəticəyə gəlsinlər ki, Qədim Yunanıstanın həmin yanaşması bu tələbə cavab verə bilməyənlər üçün təhlükə yaradırdı.
Şagirdlərə izah etməlisiniz ki, bu təşviqatçı deviz vətəndaşlar arasında təhsilə və fiziki kamilliyə canatmanın bərqərar olmasına xidmət edirdi ki, müharibədə və ya olimpiya yarışmasında öz şəhər-polisinin dəyərini müdafiə edə bilsinlər. Bu fərziyyə yanlış fikirdən ibarətdir. Tarix göstərdi ki, insanın idrakı və nəcibliyi fiziki göstəricilərdən asılı deyil.
*Perqam muzeyinin fotoşəklində qələbə ilahəsi Nikenin qanadlı fiquru relyefin sağ kənarında, yuxarı qaldırılmış əli ilə təsvir olunmuşdur.
*Növbəti fəsillərdə şagirdlər yenə də incəsənət pozalarının və jestikulyasiyanın əhəmiyyətinə, yarımmətnlərə qayıdırlar. Verilən diskussiya şagirdlərə yardım edir ki, gələcək fəsillərdə onların əhəmiyyətini daha yaxşı dərk etsinlər. İlin sonunda layihəni (“Tolerant şəhər”) hazırladıqda, onlar müxtəlif dövrü və mədəniyyəti ifadə edən “səhədə” hər bir kostyumlu qəhrəmanı əlavə etməli olacaqlar. Pozanın və jestikulyasiyanın əhəmiyyətini bilmək şagirdlərə xarakterik qəhrəmanı yaratmaqda yardım edəcəkdir.

- **Posterlərin (plakatların) ətrafında müzakirə:**

✓ Təbliğat plakatları (posterlər) reklam plakatlarından nə ilə fərqlənirlər?
✓ Bu çağırışın hədəf auditoriyası kimdir?
✓ O, tamaşaçıya effekt verəcəkmi?
✓ Müəllim məqsədin əldə edilməsi üçün hansı bədii vasitələrdən və üslublardan istifadə etmişdir?
✓ Təşviqat nəyi bildirir?
✓ Təbliğat nəyi bildirir?

**Cavablar**:
Təbliğat plakatının məqsədi ondan ibarətdir ki, cəmiyyəti siyasi mövqenin düzgünlüyünə inandırsın, geniş kütləni cəlb etsin, özünə həmfikir etsin. Bu halda, hədəf auditoriyası seçicidir.
Reklam plakatının məqsədi ondan ibarətdir ki, geniş kütlələrə bu və ya digər kommersiya məhsulunu bəyəndirsin, insanları bu məhsulun istifadəçilərinə, alıcıya çevirsin.
Təşviqat plakatlarında növbəti təsviri üsulların istifadəsi görünür: **jestikulyasiya** (irəli uzadılmış əli ilə, liderin, rəhbərin jestikulyasiyası), **miqyas** (iri fiqurlar), **rənglər** (ziddiyyətli, aydın, uzaqdan asanlıqla görünən), **forma** (iri, ümumiləşdirilmiş, xırdalıqlar xaricində ki, təsvir uzaqdan yaxşı görünsün), **mətnin məzmunu** (çağırış – qısa, lakonik, tutumlu, aydın), mətnin ölçüsü – iri, uzaqdan yaxşı görünən), **rakurs** (fiquru aşağıdan görürük, bizə yuxarıdan aşağı baxır, bizə dominantlıq edir).
**Təşviqat** – şifahi, çap və ya təsviri üsulla cəmiyyətin siyasi düşüncəsinə təsirin göstərilməsi, təşviqatçının xeyrinə onu inandırmaq cəhdi.
**Təbliğat** – cəmiyyətin nəzərlərinə sözlü, lozunqla, təsviri vasitələrlə ideya təsiri. Təbliğat cəmiyyətə yalnız siyasi mənfəətli, natamam məlumatı çatdırır.
✓ **Tədqiqat**:
Plakatın təsviri üsullarının – ziddiyyətli və yaxın rənglərin və onların xassələrinin öyrənilməsi. Rəng çarxında zidd cütlüklərin və qohum rənglərin ətrafında müzakirə; rənglərlə eksperimentin keçirilməsi.
Rəng çarxı**:**
https://copicmarkertutorials.com/wp-content/uploads/2015/08/complimentary-color-wheel.jpg

- **Plakatın yazıları və şriftin xüsusiyyətlərinin öyrənilməsi.**

Şagirdlər şriftin plakatın tələbləri ilə uyğunluğunu müzakirə edirlər.
*Tədqiqatın məqsədi ondan ibarətdir ki, şagirdlər illüstrasiyaların və eksperimentlərin müşahidəsi nəticəsində, oxşarlıqları tapsınlar (zidd rənglər, iri və ümumi formalar, iri, aydın şriftlə yerinə yetirilmiş qısa yazılar və s.).
Bunun üçün şagirdlər müxtəlif rəngli kağızlardan bir neçə hərf kəsə bilərlər, məsələn, narıncı hərfləri (biri kiçik ölçülü, ikinci – böyük ölçülü) və bir-birini əvəz etməklə onları zidd rəngli (göy) vərəqin üzərinə qoya bilərlər, sonra da yaxın rəngləri (qırmızı və sarını) vərəqin üzərinə qoyub müzakirə edə bilərlər ki, hansı fonda hərf daha aydın görünür; hansı ölçülü hərf (böyük və kiçik) verilən rəngin fonunda daha yaxşı görünür.

- **Praktiki iş:**

Küçədə yapışdırılan plakatların və banerlərin fotoşəkillərini çək və bloquna yüklə. Kolleksiyanın elektron albomunu yoldaşlarınla paylaş. Müzakirə edin ki, hansı diqqəti daha çox çəkir və bu effekt hansı təsviri üsullarla əldə edilmişdir (fərdi iş, ev tapşırığı).

- Kompüterin rəssamlıq proqramının vasitəsilə rəqəmsal poster yarat, hansında yazının ölçüsünü, rəngini, təsvirin və fonun rənginin qarşılıqlı uyğunlaşmasını elə nəzərə almalısan ki, lozunq uzaq məsafədən də oxunula bilsin. Fərdi bloquna yüklə və yoldaşlarınla paylaş (fərdi iş)

**3. İncəsənət müharibəyə qarşı**

- **Müzakirə**:

✓ Tarixi janr nəyi təsvir edir?
✓ Batal janr nəyi təsvir edir?
✓ İllüstrasiyalar arasında hansı batal janrdır?
✓ Sənətkarlar müharibəyə qarşı hansı yanaşmanı ifadə edirlər?
✓ Onlardan hansında etiraz görünür, hansı bizə sadəcə müharibə faktı haqqında xəbər verir?
✓ Hansı dövrün əsərləri müharibəyə qarşı etirazı ifadə edirlər?
✓ XIX-XX əsrin müharibəsi mövzusunda yaradılmış əsərlər hansı bədii üsullarla öncəki dövrlərin eyni mövzusu üzrə yaradılmış əsərlərdən fərqlənirlər?
✓ Fransisko Qoyya hansı bədii vasitələrlə və üslublarla Üsyançı fiqurunu vurğulayır?
✓ Pikassonun "Koreyada qırğın" əsərini Qoyyanın əsəri ilə müqayisə et. Pikassonun şəkli Qoyyanın əsəri ilə nə ilə fərqlənir və ya bənzəyir? Hansı sənə daha çox təsir etdi?
✓ Rusiya-Gürcüstan müharibəsinə həsr olunan (Abxaziya və Osetiya) rəsmi, filmi və ya bədii əsərləri yadına sal. Sənə hansı təsiri bağışladı?

**Cavablar**:

✓ **Tarixi janr** tarixi faktı əks etdirir, **batal** isə - tarixi janrın yarımjanrıdır və bu da mübarizəni, müharibə əməlləri ssenarisini əks etdirir.
✓ Dərslikdə verilən illüstrasiyalardan batal janra növbəti əsərlər aid edilir: Makedoniyalı İsgəndərin Dara ilə döyüşü, Pompeyin mozaikası, e.ə.I əsr;
Paolo Uçelo, "San Roman döyüşü", 1432 il;
İran miniatiuru, XIII ə.;
Niko Pirosmani, "Rusiya-Yaponiya müharibəsi", 1906 il.

✓ Müxtəlif dövrün əsərlərində müharibəyə müxtəlif yanaşma görünür. Erkən əsərlər bizə müharibə faktı haqqında məlumat verir, hərbi qələbəni böyüdür, sonuncularda müharibəyə qarşı barışmaz yanaşma görünür.
✓ İncəsənət əsərinin görünüşünə dövrün xarakteri təsir göstərir. Tarixi dövrlərin dəyişikliyi bədii dili dəyişdi, çünki yeni yaradıcılıq ideyaları yarandı.
✓ İncəsənətçilər müxtəlif bədii vasitələrlə müharibəyə qarşı etirazlarını bildirirdilər. XX əsrin incəsənətçiləri müharibəni pisləmək üçün deformasiya, mübaliğə, miqyasların pozulması və s. kimi bədii üslublardan istifadə edirdilər.
✓ Fransisko Qoyyanın Üsyançı fiquru diqqəti işıqlandırma ilə, poza ilə, rənglə özünə çəkir.
Qoyyanın işində ziddiyyətli işıqlandırma dramatik effekt yaradır, Pablo Pikassonun işlərində deformasiya müharibənin dağıdıcı nəticələrini təsvir edir.

Batal janr üçün əlavə illüstrasiyalı material:
Kadeş döyüşü, relyef, Qədim Misir
https://bit.ly/2SLHC34

Teymurləngin misirlilərlə döyüşü, İran miniatürü, 1515 il.
https://upload.wikimedia.org/wikipedia/commons/3/36/Behzad_timur_egyptian.jpg

Leonardo Da Vinçinin itirilmiş əsərinin "Angiar döyüşü" Rubens sayağı surəti, 1603-cü il.
https://bit.ly/3y5CLtD

Jorjo Vazari, freska "Marçiano döyüşü", 1570 il.
https://bit.ly/3eG3eWT

Anri Russo, "Müharibə" 1894-cü il.
https://commons.wikimedia.org/wiki/File:Henri_Rousseau_-_La_guerre.jpg

**Qeyd**: (Şagird kitabı, səh.22) tanınmış fransız səyyahı və fotoqrafçı Mark Ribu XX əsrin 60-cı illərində Əfqanıstanda tüğyan edən müharibəyə mənfi yanaşmasını şəkillərlə ifadə etdi. Bunlar bizə aydın şəkildə göstərir ki, mühaibə ən saf, ən müdafiə olunası uşaqlığı və onun timsalında gələcəyi necə dağıdır.

Dərslikdə verilən suala "Necə düşünürsən, müharibə əfqanıstanlı uşaqların həyatında nələri dəyişdi?". Ehtimal edilən cavab odur ki, şəkildə təsvir edilən oğlan oyuncaq əvəzinə silahla oynayır və bu da ona işarə edir ki, ölkənin müharibə vəziyyəti dinc əhalinin məişətini, maraqlarını, nəzərlərini necə dəyişmişdir.

Şagirdlər nəticə çıxarmalıdırlar ki, həm təsviri, eləcə də tətbiqi incəsənət ölkədə baş verən hadisələrə dərhal və kəskin reaksiya göstərir. Yaxşı olardı ki, müəllim Əfqanıstan tarixi ilə bağlı illüstrasiyalar üzrə şagirdlərin müzakirəsini müharibənin pislənməsi istiqamətində aparsın və onların diqqətlərinə çatdırmaq lazımdır ki, müharibənin uşaqların məişətində oyuncaqları döyüş alətləri ilə əvəz etdiyi kimi, dağıdıcı hadisə də əfqan xalçalarının zərif ornamentini döyüş texnikası və silah təsvirləri ilə əvəz etdi.

Mark Ribunun müharibə mövzusunda yaratdığı başqa şəkillər:
https://plohoy-zyalt.livejournal.com/380696.html
http://marcriboud.com/en/countries/afghanistan/

Əfqan xalçaları üçün əlavə illüstrasiya materialı:

Keçmiş:
https://bit.ly/3eJSXGF

Müasir:
https://www.artsy.net/article/artsy-editorial-lessons-afghan-women-weave-modern-war-ancient-tradition
https://www.warrug.com/warrugs/styles.php?idr=286
https://n.pr/3eCYnTz
https://dygtyjqp7pi0m.cloudfront.net/i/26011/23356848_1.jpg?v=8D2DD7043A936E0

- **Praktiki iş, rəqəmsal kollaj** (fərdi iş, ev tapşırığı) (Bax, Şagird dərsliyi, səh. 24)

Verilən fəallıqlarla şagirdlər dərk edəcəklər ki, müharibə ilə bağlı təsviri fraqmentə başqa, çox dinc, rahat atmosferi əks etdirən rəsmi cəlb etmək tamamilə əsərin mövzusunu dəyişir; rəqəmsal təsvirin üzərində işi öyrənirlər və bu da onlara yekunlaşdırıcı kompleksli tapşırığın yerinə yetirilməsində yardım edəcəkdir.

**Rəqəmsal əsərin yerinə yetirilməsi və internetə yüklənməsi:**
Kompüterin **"Paint"** rəssamlıq proqramında kollaj yarat;
1. Dinc, rahat mühiti əks etdirən hər hansı bir əsəri seç.

2. İkinci əsər kimi Vasiliy Vereşşaginin "Müharibə apofeozundan", kəllə detallarından (link: [https://en.wikipedia.org/wiki/The_Apotheosis_of_War#/media/File:Apotheosis.jpg](https://en.wikipedia.org/wiki/The_Apotheosis_of_War#/media/File:Apotheosis.jpg)) istifadə et, (**Free form selection**) funksiyası ilə kəllələrin topasını ehtiyatla kəs.
3. Kəsilmiş detalı (**Copy**) funksiyası ilə yadda saxla.
4. Yeni pəncərədə birinci şəkli aç və (**Paste**) funksiyası ilə istənilən yerdə kəsilmiş və yadda saxlanılmış detalı ona birləşdir. Detalın ağ foununu çıxartmaq üçün, şəffaf seçim (**Transparent selection**) funksiyasını kliklə.
5. Əsəri yadda saxla.
6. Kollajına başlıq fikirləşib yaz.
7. Kollajı yoldaşlarınla paylaş.
8. Müzakirə edin ki, ilkin şəkil hansı məzmunu əldə etdi, hansı fikri ifadə edir, hansı hissi oyadır. Fikirləşin, daha hansı mövzuda rəqəmsal kollaj texnikası ilə əsəri yaratmaq mümkündür. Rəqəmsal kollajı kompüter proqramında yığdıqda, aldığınız təcrübəni bir-birinizlə paylaşın. Bir-birinizin işlərinizi elektron alboma toplayın. Çap edilmiş işlərdən "Biz sülh istəyirik" aksiyasında istifadə edə bilərsiniz.

**Ev tapşırığının başqa variantları**:

- Müxtəlif tarixi dövrdə müharibə mövzusunda yaradılmış əsərləri axtar tap. Yazılı şəkildə formalaşdır ki, incəsənətçilər müharibəyə qarşı hansı yanaşmanı əks etdirirlər? Hansı dövrün işləri müharibəyə qarşı etirazı ifadə edirlər?

Və ya:

- Müasir gürcü rəssamı Qaqoşanın 2008-ci il müharibəsi mövzusunda yaratdığı qrafiti axtar tap.

Hansı rəssamı sənə xatırladır? (Pablo Pikasso "Qernika").
Rəssam hansı bədii üsullarla öz etirazını ifadə edir?

**4. Sosial problemlər üzrə incəsənət**

**Qeyd**:
Breygelin "Korlar" əsəri barəsində müzakirə apardıqda, vacibdir ki, şagirdlər fiziki korluğu qüsur hesab etməsinlər, buna görə də korluq barəsində yalnız metaforik müzakirə aparmalıdırlar. Matveydən İncildə oxuyuruq ki, (15,14): "onların başını buraxın: kordurlar və korların rəhbərləridir; korun önündə kor gedirsə, hər ikisi xəndəyə düşəcəkdir". Burada fiziki cəhətdən görmə qabiliyyətini itirmiş insanlar deyil, İsanın rəqibləri nəzərdə tutulur.

- **Diskussiya**:
  - ✓ Qrotesk, karikatura, satira nədir? Rəssamlıqda mübaliğə nəyi bildirir? (Cavablara baxın: Şagird dərsliyi, səh. 27)
  - ✓ Müasir həyatda qroresklə və ya karikatura ilə qarşılaşmısınızmı (məs., qəzetlərdə)?
  - ✓ Necə düşünürsən, müasir cəmiyyət oxşar problemləri həll edə bilmişdirmi və ya onlar yenə də aktualdırlar?
  - ✓ İncəsənət gündəlik həyatda hansı funksiyanı daşıyır?
  - ✓ İncəsənətçi insanların sosial problemlərinin həllində hansı yolla iştirak edə bilər?
  - ✓ İncəsənət ekoloji problemlərin həlli məsələsinə hansı yolla öz töhfəsini verə bilər?

* Yaxşı olardı ki, dərslə bağlı sahələrin və janrların illüstrasiyalarını təhlil etdikdə, şagirdlər diqqəti əsərlərdə istifadə olunan bədii vasitələrə və üslüblara yönəltsinlər. Eləcə də ehtimallarını söyləsinlər ki, bu və ya digər əsər hansı mümkün texnika ilə yerinə yetirilmişdir. Məsələn, ənənəvi Mithila rəssamlığı haqqında sual verilə bilər: "Mithila ənənəvi rəssamlığını hansı xüsusiyyət fərqləndirir?"
Cavab: açıq, parlaq rənglər, aydın konturlar, kompozisiya bütövlükdə şəkil məkanını doldurur, fon və təsvirlər də bütövlükdə ornament şəkli ilə tamamlanmışdır. Material – təbii boyalar.
Və:
"Pavel Kuçinskinin əsərlərini onlarda istifadə edilən bədii üslublar və vasitələr baxımından necə xarakterizə edərdiniz?"

Cavab: Kuçinskinin əsərlərində işıq-kölgənin, həcmin, perspektivin, tonal qradasiyanın istifadə edilməsinə baxmayaraq, onlar yenə də plakat tərzlidirlər. Əsərlər rəngli karandaşlarla yerinə yetirilmişdir.

- **Müzakirə**:

Müasir cəmiyyətin sosial problemlərinə həsr edilən əsərlərin təhlili.
Müzakirə zamanı suallar:

- Sosial şəbəkələrin aktiv istifadəsinin hansı müsbət və mənfi tərəfləri var?
- Sosial şəbəkələrin istifadəsi sənə nədə yardım edir və nədə mane olur?
- Ölkənin, cəmiyyətin, ayrı-ayrı insanların həyatında incəsənətin hansı funksiyası var?
- İncəsənət nəyə xidmət etməlidir, incəsənətçi nəyə xidmət etməlidir – öz yaradıcılıq maraqlarına və ya cəmiyyətin tələblərinə?
- İncəsənət ictimai həyat şərtlərini nə dərəcədə dəyişə bilər?

İncəsənət əsərlərində təsvir edilən cəmiyyətin sosial problemləri haqqında resurslar
Şifahi:
Polşalı rəssam Pavel Kuçinskinin satirik əsərləri: https://www.adme.ru/tvorchestvo-hudozhniki/polskij-hudozhnik-v-svoih-kartinah-oblichaet-poroki-obschestvakotorye-my-privykli-nezamechat-1727165/
İlya Repin, "Burlaklar Volqada", 1873 il.
https://bit.ly/3dnj99r

Vasiliy Perov, "Troyka", 1866 il.
https://arts-dnevnik.ru/hudozhniki-peredvizhniki/

Aleksandr Mrevlişvili, "Kənd məhkəməsi", 1893 il.
https://bit.ly/2XHxfvK

Aleksandr Mrevlişvili, "Alçaq çəpər"
https://burusi.files.wordpress.com/2009/10/p10301891.jpg

Niko Pirosmani, "Zəngin övladsız və övladları ilə kasıb qadın" https://bit.ly/3clsEVt
Benks, 2019 il.
https://anticap.files.wordpress.com/2010/08/spare_change.jpg
https://bit.ly/3clFB1D

**Praktiki iş:** (ev tapşırıqları)

- Məktəb həyatından qrotesk səhnə şəklini çək (fərdi iş).
- **Şəkil**: müasir probemə olan münasibətini ifadə edən işi tərtib et. Özün qərara al ki, hansı sahə, janr, material və texnika sözlərinə uyğun gələcəkdir (fərdi iş).

- **Fotoreportaj**: fotoaparatdan istifadə et və sənin üçün qəbul edilməz və başqalarının diqqətinə çatdırmaq istədiyin nəyinsə şəklini çək. Şəkillərə qeydlər yaz. Özünün və yoldaşlarının şəkillərini ümumi alboma yükləyin və sosial şəbəkədə dərc edin (müstəqil iş, ev tapşırığı)

**Kompleksli tapşırıqlar üçün metodiki tövsiyələr**:

**Kompleksli tapşırıq 1:**
**şəklin, aplikasiyanın, fotomontajın və ya rəqəmsal kollajın üsulu ilə hazırlanmış plakat: gənc nəslin problemləri haqqında**.

**Tapşırığın şərti**:
Bir-birinizlə paylaşın ki, sizi narahat edən nədir, nəyi dəyişmək və ya yaxşılaşdırmaq istərdiniz ki, daha yaxşı oxuyasınız, özünüzü təhlükəsiz hiss edəsiniz, öz imkanlarınızı inkişaf etdirə biləsiniz və işinizi cəmiyyətin xeyrinə yönəldəsiniz.

- Müəyyən edin ki, hədəf auditoriyanız kimdir,
- Cümlələrinizi bəndlərdə yazın.
- Problemləri qısa lozunqlarda formalaşdırın.
- Lozunqların bölüşdürün;
- Yazının ölçüsünü və rəngini müəyyənləşdirin;

- Təsvirin və yazının rəngə, ölçüyə və miqyaslara uyğunlaşdırılmasını müəyyənləşdirin;
- Təsvirin və yazının fonla uyğunluğunu müəyyənləşdirin.
- Hansı üsullar sənin çağırışını daha effektiv edəcəkdir:

Ala-bəzək və ya iki-üç rəngdə verilmiş?
Ziddiyyətli və ya yaxın rənglər?
Uzun, xırda-xırda yazılmış izahat və ya qısa lozunq?
Eyni ölçülü formatlarda təbliğat plakatlarını çəkin.

- Lozunqları iri və aydın hərflərlə (şriftlə) yazın.
- Məktəb administrasiyası ilə razılıqda, əvvəlcədən təyin edilmiş yerlərə plakatlar yapışdırın.

**Kompleksli tapşırıq 2:**
**İşğal edilmiş ərazilərdə yaşayan həmyaşıdları dəstəkləyən aksiya üçün plakatların hazırlanması:**

**Material**:
iri ölçülü formatlar
qalın markerlər
xətkeşlər
sadə karandaşlar
yapışqan
boyalar
fırçalar

Şagirdlər əlavə materialı fikirlərinə uyğun olaraq seçirlər.

**Tapşırığın şərti**:

Fikirləşin, çətin şəraitdə yaşayan həmyaşıdlara olan dəstəyinizi necə ifadə edə bilərsiniz.
Şagirdlər tədbir planlaşdırırlar və buna dəvət olunan iştirakçılara əvvəlcədən, plakatlar vasitəsilə məlumat verirlər ki, tədbir nəyə həsr olunmuşdur, tədbirə gələn cəmiyyətdən nə tələb olunur. Bunun üçün şagirdlər planlaşdırmalıdırlar ki, həmyaşıdlarını hansı şəkildə dəstəkləyə bilərlər: konkret məktəb seçməlidirlər; müəyyən etməlidirlər ki, həmin uşaqlara hansı növdə yardım sevinc gətirəcəkdir (məs., maraqlı oxu və ya incəsənət kitabları, yaradıcılıq fəaliyyəti üçün lazımi material, suvenirlər və s. toplanıla bilər).

Plakatlar tədbirdən bir həftə öncə hazırlanmalı və divara yapışdırılmalıdır. Plakatlar ola bilərlər:
1. **İnformasiya xarakterli** – tamaşaçıları dəvət edir və məlumat verir ki, harada, nə vaxt və hansı məzmunda tədbir keçiriləcəkdir.
2**. Mövcud vəziyyəti ifadə edən** – tamaşaçılara xəbər verir ki, kimə və nə üçün dəstək lazımdır;
3. **Təşviqat çağırışından ibarət olan** – gələcək tamaşaçını və ya iştirakçını konkret əmələ tərəf səsləyir (Məs., sevimli kitabını naməlum yoldaşına ver”).

Şagirdlər aksiya təşkil edirlər və bunda təbliğat və məlumat xarakterli, öz əli ilə hazırlanmış plakatların vasitəsilə könüllüləri cəlb edirlər, problemlə tanış edir və onların iştirakı ilə öz fikirlərini həyata keçirirlər.

**Resurslar**:
"1808-ci il 3 may" Qoyyanın əsəri haqqında video dərs, müəllif Ana Kldiaşvili:
https://www.youtube.com/watch?v=2R9C9Bbw-eQ&fbclid=IwAR0R-xel53qzAe5ZyirpArthTHTb5UvbECdXHcswB2ADxaqDha2H-WzKuEk

Batal janrı:
https://www.reddit.com/r/BattlePaintings/

**Posterlər**:
Təşviqatçı, müxtəlif ölkənin:
https://www.smashingmagazine.com/2010/06/100-years-of-propaganda-the-good-the-bad-and-the-ugly/
Sovet: http://www.ekaterinburg.arbitr.ru/node/17386
Çin: https://chineseposters.net/gallery/
Nasist: https://www.bytwerk.com/gpa/posters2.htm

**Qiymətləndirmə kriteriləri:**

**Təsviri incəsənətin bədii-təsviri vasitələri (elementlər) və üsullar (prinsiplər)**
**Təsviri incəsənətin texnikası**
- Posterdə bu və ya digər hadisəyə, fakta qarşı münasibətini daha yaxşı bildirmək üçün müvafiq bədii-təsviri vasitələri, üsulları (miqyas, proporsiya, ziddiyyət, əsasın ayrılması və s.), materialı və texnikanı seçir və bunlardan istifadə edir (**Təs.tət. baz.1, 2, 4**);

**Təsviri incəsənətin sahələri və janrları**
**Müxtəlif dövrün/cərəyanın/üslubun incəsənətinin xarakterik əlamərləri/bədii xüsusiyyətlər**

- incəsənətin cəmiyyətə təsiri formaları və bədii-təsviri üsulları analiz edir (Təs.tət.baz.3,4);
- İncəsənət barəsində özünüifadəetmə vasitəsi kimi müzakirələr aparır, bir neçə misal gətirir (Təs.tət.baz.3,4);
- Cəmiyyətə təsir vasitələrinə əsasən, iki dövrü və ya mədəniyyəti müqayisə edir (Təs.tət.baz.4);

**Kompleksli tapşırıqların qiymətləndirilməsi haqqında əlavə məlumat:**
1. İşğal edilmiş ərazilərdə yaşayan həmyaşıdları dəstəkləyən aksiya üçün plakatların hazırlanması;
2. şəklin, aplikasiyanın, fotomontajın və ya rəqəmsal kollajın üsulu ilə gənc nəslin problemləri haqqında plakatın hazırlanması;

*Hər iki iş 10 balla qiymətləndirilir:
- Əsərdə yaradıcılıq yanaşması və orijinal fikir görünür (2 bal)
- Təsviri vasitələr və üsullar fikrə uyğun olaraq seçilmişdir (aydın, ziddiyyətli, intensiv rənglər; iri şrift və s.) və istənilən effektə çatır (2 bal)
- Mətnin, təsvirin və boş məkanın nisbətinə əməl edilmişdir (1 bal)
- Material fikrə uyğun olaraq seçilmişdir. (1 bal)
- İdeya aydın və qısa şəkildə ötürülmüşdür. (1 bal)
- Maksimal səy göstərilmişdir. (2 bal)
- Vaxt limitinə əməl edilmişdir (1 bal)

**TAPŞIRIQLAR MATRİSASI 1/2**

<table>
<tr><td colspan="3">Dərslər 5-7 Birləşdirici mövzu: İncəsənət və din</td></tr>
<tr><td>Məsələ və yarımanlayışlar:</td><td>Əsas sual/suallar:</td><td>Kompleksli tapşırıqlar (tiplər):</td></tr>
<tr><td>Elementlər:<br>Xətt, rəng, forma, fon<br>Prinsiplər:<br>Proporsiya, miqyas, rakurs<br>Sahələr:<br>Rəssamlıq (freska, ikonaçılıq)<br>Janrlar:<br>Dini<br><br>Təsviri incəsənət texnikası:<br>Freska<br><br>Dövr, üslub, cərəyan:<br>Orta əsrlər Bizansı və Gürcüstan</td><td>• İncəsənətdə xristian dininin yaranması kimi güclü tarixi mədəni-dini yenidənqurma nəticəsində nə baş verə bilərdi?<br>• Nə üçün xristianlara rəmzi dilin işlənib hazırlanması lazım gəldi?<br>• Müasir həyatımızda hansı simvollardan istifadə edirik?<br>• Şərti təsviri dil nəyi bildirir və nə həqiqidən nə ilə fərqlənir?<br>• İkona və rəsm bir-birindən nə ilə fərqlənir?<br>• Antik və xristianlıq incəsənətinin xüsusiyyətləri arasında hansı fərq vardır?<br>• Orta əsrlərin xristianlıq incəsənətinin əsas bədii xüsusiyyətləri nə idi və buna nə səbəb oldu?</td><td>Müqayisəvi analiz:<br>4 bəndə əsasən, verilən əsərləri bir-biri ilə müqayisə et:<br>1. İncəsənətin hansı sahəsi və janrının nümunələri təqdim edilmişdir? Onların ümumi və fərqləndirici bədii işarələri hansılardır? Fikrin və ideyanın ifadə edilməsi üçün bunlarda hansı təsviri vasitələrdən və təsviri üslublardan istifadə edilmişdir?<br>2. Bunlardan hansı ikonoqrafik kanonikanın nəzərə alınması ilə yerinə yetirilmişdir və hansı realistikdir?<br>3. Müzakirə et ki, əsərlər arasında fərqə səbəb nə olmuşdur. Fikrini əsaslandır.<br>4. Şəxsi fikrini ifadə et ki, hansını daha çox bəyənirsən və nə üçün?</td></tr>
</table>

5. **İncəsənət dinin xidmətində (Xristian aləmi)**

Dərsliyin bu fəslinin məqsədi ondan ibarətdir ki, şagirdlər incəsənətin və dinin bir-birinə nə qədər sıx bağlı olduqlarını dərk etsinlər. Cəmiyyətin dini etiqadı öz əksini incəsənətdə tapır, incəsənət isə bu dini təsəvvürlərin yayımlanması-bərqərar edilməsi işində önəmli rol oynayır. Dini süjetlər hər dövrün incəsənətçilərinin ideyalarının, mövzularının, yeni təsviri üslublarının və formalarının axtarışının tükənməz mənbəyi idi, din üçün isə görünən süjetlər inamın bərqərar olunması və yayılması, onun ideologiyasının, hökmranlığının vasitəsi idi.
Şagirdlər müxtəlif dövrdə (Antik və Xristian Orta Əsrlərinin) fərqli bədii üsulların işlənib-hazırlanmasının tarixi-dini səbəblərini öyrənəcəklər və bu təsviri usüllara əsasən dövrün incəsət əsərlərini tanıya biləcəklər. Bununla yanaşı, şərti bədii üsullara sahib olacaqlar.
Şagirdlər dini janrın əsərlərini öyrənəcəklər. Gerçək həyatda, məbədə daxil olduqda, onlar freskaların və ya ikonaların süjetini tanıyacaqlar.

**Giriş**:
Din nəyi bildirir?
Paleolit dövrünün insanı vəhşi heyvanlardan başqa, ildırımdan, qasırğadan və başqa təbii hadisələrdən qorxurdu, özünü müdafiə etmək və uğurlu ovçuluq üçün sehrli mərasimlər keçirilməyə başladı. Bu yolla "fövqəladə qüvvələrin" ürəyini yumşaltmaq üçün müxtəlif pərəstiş adət-ənənələri formalaşdı, amma bu, hələ din deyildi. Bəs, din nəyi bildirir?

Müəllim lövhədə şagirdlər tərəfindən sadalanan komponentləri yazır, ehtimal: inam obyekti (tanrı və ya tanrılar), ilahiyyət, müqəddəs kitab (əsatirlər, İncil, Quran, Talmud və s.), tikili (məbəd, kilsə, məscid, sinaqoq və s.), büt qulluqçusu (kurum, rahib, ravvin və s.).

Sonra müəllim şagirdlərdən xahiş edir ki, dərslikdə dinin izahatını oxusunlar (birinci abzas, burada dinin izahatı sadə dildə verilmişdir, yaşa uyğun olaraq lövhədə yazılmış şəxsi ehtimallarını müqayisə etsinlər).

- **Müzakirə (sinif fəallığı):**

Müzakirə üçün suallar:

- ✓ Xristianlığın yaranması, yayılması və bərqərar olması haqqında nə bilirsiniz?
- ✓ Roma imperiyasının süqutu nə ilə nəticələndi?
- ✓ İncəsənətdə belə bir güclü tarixi-mədəni-dini yenidənqurma nəticəsində nə baş verə bilərdi?
- ✓ Təsviri dil hansı təsviri vasitələrlə (elementlərlə) və üsullarla (prinsiplərlə) faydalanır?
- ✓ Antik dövr bunlardan hansından istifadə edir (realistik)? Xristian ikonaçılığı və freska (şərti)?
- ✓ Təsviri incəsənətdə əsatirləri təsvir edən janr necə adlanır? (mifoloji)

6. **Yeni təsviri dil**

Ötən biliyin aktivləşdirilməsi:

- ✓ Qədim Yunanıstan və Roma əsatirləri haqqında nə bilirsiniz?
- ✓ Təsviri incəsənətdə əsatirləri əks etdirən janr necə adlanır? (mifoloji)

Müəllim şagirdlərə mifoloji janrın bir neçə rəsmini göstərir və xahiş edir ki, onlara tanış olan mifoloji personajları yada salsınlar.

- ✓ Yadınıza salın ki, təsviri dil hansı təsviri vasitələrlə (elementlərlə) və üsullarla (prinsiplərlə) faydalanır?

**Cavab**:
Təsviri vasitələrdir: xətt, rəng, forma, həcm, işıq-kölgə, ton, faktura, fon və təsvirin qarşılıqlı əlaqəsi.
Təsviri üsullardır: tarazlıq, simmetriya/asimmetriya, statika/dinamika, proporsiya/disproporsiya, miqyas, perspektiv, harmoniya, ziddiyyət, ritm, ornament.
Müəllim bunları lövhədə iki sırada yazır.

Müəllim şagirdləri tanış edir ki, müxtəlif dövrün incəsənəti hansı təsviri vasitələrlə və üsullarla faydalanırdı.
Şagirdlər antik və xristianlıq təsviri dilini bir-biri ilə müqayisə edirlər.

<u>Mifoloji janr üçün əlavə illüstrasiya materialı:</u>

Sandro Botiçelli, "Veneranın dünyaya gəlişi", 1484-1486 il, İntibah
https://bit.ly/3w50W9Y

Piter Paul Rubens, "Persevs və Andromeda", 1622 il, Barokko
https://bit.ly/3eFb68s

Nikola Pusen, "Parnas", 1632 il, klassisizm
https://en.wikipedia.org/wiki/Parnassus_(Poussin)#/media/File:El_Parnaso_(Poussin).jpg

Qustav Moro, "Oidipos və sfinks", 1864 il, simvolizm
https://upload.wikimedia.org/wikipedia/commons/c/c4/Oedipus_and_the_Sphinx_1864.jpg

Odilon Redon, "Muza Peqasla", 1900 il, simvolizm
https://commons.wikimedia.org/wiki/File:Odilon_Redon_002.jpg

Antik dövrün mifologiyası Avropa mədəniyyətinin əsasını qoydu. Orta əsrlərdən sonra, İntibah dövründən etibarən, yunan mifologiyası Avropa mədəniyyətinin ayrılmaz hissəsini təşkil edir. Müxtəlif sahənin incəsənətçiləri bu günə qədər əsatirlərə müraciət edirlər.

Şagirdlər təyin edirlər ki, lövhədə yazılmış təsviri vasitələrdən və üsullardan hansılarını verilən illüstrasiyalarda gördülər. Müəllim markerlə müvafiq vasitələri və üsulları qeyd edir (həcm, işıq-kölgə, tonal qradasiya. Proporsiya, perspektiv/əks-perspektiv və s.).

*Qeyd: şagirdlərlə hələ əks-perspektiv barəsində söhbət aparılmamışdır. Bunun haqqında geniş və dərin söhbət növbəti fəsildə olacaqdır, amma şagirdlərə əvvəlcədən bu üsulun mövcudluğu haqqında qısa söyləyə bilərik və nümunələrlə göstərə bilərik ki, düzgün perspektivdən fərqli olaraq, əks-perspekiv halında, əşyalar dərinliyində azalmırlar, genişlənirlər. Nəzər nöqtəsi şəklin müstəvisində deyil, şəklin xaricində (tamaşaçı) nəzərdə tutulur. (Baxın, Şagird kitabında, səh. 42, səh.277).

Roma sərdabələrinin rəsm nümunələri ilə illüstrasiya materialı:
https://bit.ly/33SDa4Z

https://holidaygid.ru/wp-content/uploads/2014/08/sconosciuto.jpg

https://i.pinimg.com/originals/ea/8b/d2/ea8bd2f592e1f113920c3cac7c2aaeaf.jpg

https://planetofhotels.com/sites/default/files/attracrions/katakomby_priscilly.jpg

San-Vitale kilsəsinin mozaikası, VI ə., Ravena:
https://i.pinimg.com/originals/e5/98/b8/e598b82b24f0f1af2b2151cc40ea7e97.jpg

*Verilən linklə bağlı işarələmə: quzunun özü xaç rəmzidir. Quzu həmin qüsursuz qurbanı canlandırır ki, bunu da İsa Məsih insanların ruhlarını xilas etmək üçün gətirmişdir.

**Sual**:
Antik incəsənət xristianöncəsi incəsənətə hansı təsiri göstərirdi? Yazıları olmasaydı, nə ilə seçərdin ki, hansı antik ilahi Hermesin heykəlidir və hansı İsanın?
Bu suallara cavab vermək üçün dərslikdə gətirilən illüstrasiyalardan başqa, yaxşı olardı ki, şagirdlər antik və xristianlıqöncəsi incəsənətdə oxşar təsvirləri əlavə illüstrasiya materialında gözdən keçirsinlər:

Qədim yunan buğasının, b.a. "Mosxoforun" (dana gəzdirənin) heykəli, bütpərəstlik nümunəsi kimi:
https://en.wikipedia.org/wiki/Moschophoros#/media/File:ACMA_Moschophoros.jpg
Qalla Plasidia mavzoleyinin mozaikası "İsa mərhəmətli çoban", V ə., Ravena (daha bir xristianlıq nümunəsi kimi)
https://bit.ly/2TZbJlk

**Cavab**:
Şagirdlər müşahidə edirlər və aşkar edirlər ki, antik bütpərəstlik fiqurları çılpaqdırlar, amma İsa paltardadır. Onlar dərk edirlər ki, bir tərəfdən, xristianlıqöncəsi incəsənətdə bütpərəstlik incəsənətinin təsiri özünü göstərir, digər tərəfdən isə xristianlıq bu təsirdən tezliklə qurtulur və yeni təsviri dili işləyib hazırlayır.

**Sual**:
- İsanın çobanla müqayisə məcazı nəyi bildirir?

**Cavab**:
Bu məcazda nəzərdə tutulur ki, İsa, mərhəmətli bir çoban kimi, öz davamçılarının qayğısına qalır ("Mən xeyirxah çobanam: xeyirxah çoban qoyunları üçün ruhunu verər". İoandan Evangeliya, 10.11)

- **Diskussiya simvollar mövzusunda:**
  - ✓ Nə üçün xristianlara simvolik dilin işlənib hazırlanması lazım gəldi?
  - ✓ Müasir həyatda hansı simvollardan istifadə edirik?
  - ✓ Nə üçün simvolların təsviri dilini bilməliyik?
  - ✓ Haradasa oxşar və ya başqa simvolları görmüsənmi?

Ola bilsin ki, şagirdlər gündəlik həyatda qarşılaşdıqları simvolları yada salsınlar, - məs., yol işarələri və s. Onlar dərk edirlər ki, simvolları bilmək hal-hazırda bizim təhlükəsizliyimiz üçün vacibdir. Eləcə də bütpərəst Romasında simvolların vasitəsilə bu və ya digər yerin onlar üçün təhlükəsiz olmasını bir-birinə bildirirdilər.

**Sual**:

- ✓ İncəsənətdə xristian personajlarını və səhnələrini əks etdirən janr necə adlanır? (dini)
- ✓ İkonoqrafiya nəyi bildirir?

**Cavab**:
Xristianlıq incəsənətində yeni dini dünyagörüşünün uyğun qaydaları formalaşır. Bu təsviri qanunların birliyi **ikonoqrafiya** adlanır (yunanca ikona, təsvir yazısı). İkona bir neçə incəsənətşünasın deyil, eləcə də İsanın davamçıları, möminlər tərəfindən işlənib hazırlanmış və kilsə tərəfindən qanuniləşdirilmiş dünyagörüşünün bədii formaya çevrilməsini nəzərdə tutur. İkonada təsvir edilən müqəddəslər yanımızda gəzən qonşu, tanış və ya qohum deyil, bunlar tanrının düşünüb yaratdığı kamil şəkildə insanlardır. İkonadakı təsvirin kölgələri yoxdur, çünki ilahi işığı əks etdirir, özü işıq mənbəyidir. İkona ilahi və əbədi olanı göstərməlidir. Məhz bununla o, məişət janrının şəklindən və konkret şəxsiyyətin portretindən fərqlənir. Xristianlıq ikonoqrafiyası süjet kompozisiyalarının qısaldılmış və geniş nəşrlərini, İsanın və müqəddəslərin təsvirlərinin xarici əlamətlərini, libasın rənglərini, pozaları və atributları tərtib edir. Jestikulyasiya xeyir-duanı, yalvarışı, tövbəni ifadə edir. Bunun xaricində müqəddəsi tanımaq olmaz, çünki bu, portret deyil, İsanın və müqəddəslərin zahiri görünüşü heç yerdə təsvir edilmir. İkonaçılar naturadan işləmirdilər və canlı modeli müşahidə etməklə şəkil çəkmirdilər. İlahini, səmavini ötürmək üçün ikonoqrafiya insani olanı diqqət kənarında qoyur və bunun əvəzinə ruhun vurğulanmasına can atır.

- **Tapşırıq**:

İllüstrasiyalara nəzər sal və əsərlərdə istifadə edilən bədii üsulları müzakirə et.
İllüstrasiya materialının linkləri:
Aya Sofiya, Mozaika, IX ə.
http://phanthi.vn/images/image/H6_resize%282%29.jpg
Menologionun əlyazmasının miniatürü, X ə.
https://upload.wikimedia.org/wikipedia/commons/b/b1/Menologion_of_Basil_001.jpg
Hosios Lukas kilsəsi, Müq. Markoz, mozaika, XI ə.
https://bit.ly/3okJD1W
Hosios Lukas kilsəsi, "Hamam", mozaika, XI ə.
https://enacademic.com/pictures/enwiki/79/Osios_Loukas_1.jpg
Fil sümüyünün relyefi, Çarmıxa çəkmə, XI ə.,
https://upload.wikimedia.org/wikipedia/commons/5/59/CLUNY-Ivoire_crucifixion_Venise_1.JPG
Okrida, "Evangeliya", XIV əsrin ikonası
https://i.pinimg.com/originals/2a/a4/18/2aa41861f8a85a76fe4c63f4a8e8d8cd.jpg

**Cavab**:
Şagirdlər illüstrasiyaları müşahidə edir və bunlarda istifadə edilən təsviri vasitələri və üsulları təyin edirlər: forma təkcə həcmlə, işıq-kölgə ilə və tonal qradasiya ilə deyil, eləcə də xətlərlə ötürülür, fon bir çox hallarda qızılı rəngdə, fiqurların proporsiyası pozulmuşdur, bunların fonda təsvir edilmiş binalarla miqyaslı nisbəti, perspektivi pozulmuşdur.
Müəllim başqa rəngdə markerlə/təbaşirlə lövhədə yazılmış müvafiq təsviri vasitələri və üsulları (xətt, müstəvi forması, fon və təsvirin qarşılıqlı əlaqəsi, simmetriya, disproporsiya, əks-perspektiv*, miqyasların təsviri) qeyd edir.
Müəllim şagirdlərdən xahiş edir ki, onların müşahidə nəticələrini yekunlaşdırsınlar: şərti təsviri dil necədir və realistikdən nə ilə fərqlənir?
*Əks-perspektivlə bağlı məlumatı izləyə bilərsiniz, Şag. kitabı, səh. 277.

- **Praktiki fəallıq:** (qrup)

Qruplara bölünün, fikirəşin və məktəbinizin fənn kabinetlərinin simvolik işarələrini çəkin.

- **Ev tapşırığı:** (müəllimin seçimi ilə)

Sadə, şərti təsvirlərlə ədəbi əsərin bir neçə illüstrasiyasını çək. Müzakirə et ki, əsəri hansı vasitələrlə yerinə yetirdin? Çəkdiyin süjet yoldaşların üçün aydındırmı və ya yox?

- **Əsərin analizi: (**Şagird dərsliyi, səh.44-45, sinif işi, əzbər**)**

Tapşırığın şərti:
Verilən bəndlərə əsasən əsəri müzakirə et:
1. Təsvir (nəyi gördüyünü təsvir et)
2. Analiz (təsviri vasitələr və üsullar əsərdə necə istifadə olunmuşdur)
3. Şərh (əsərin əsas fikri nədən ibarətdir)
4. Qiymətləndirmə (nə üçün bu əsər dəyərlidir)

**Kompleksli tapşırıq üçün göstərişlər:**

- **Müqayisəvi analiz**: (fərdi, yazılı tapşırıq)

Tapşırığın şərti:
Verilən illüstrasiyalardan istifadə et və 4-cü bəndə əsasən, verilən əsərləri bir-biri ilə müqayisə et:
1. Nümunələrdə incəsənətin hansı sahəsi və janrı təqdim edilmişdir?
Onların ümumi və fərqləndirici əlamətləri hansılardır?
Fikrin və ideyanın ifadə edilməsi üçün bunlarda hansı təsviri vasitələrdən və təsviri üsullardan istifadə edilmişdir?
2. Bunlardan hansı ikonoqrafik kanonika ilə nəzərdə tutulmuş və hansı realistik üsullarla yerinə yetirilmişdir?
3. Müzakirə et ki, nümunələr arasında fərqə səbəb nə olmuşdur. Fikrini əsaslandır.
4. Şəxsi münasibətini ifadə et ki, hansını daha çox bəyənirsən və nə üçün?
Müqayisə üçün müəllim şagirdlərə eyni mövzu üzrə yaradılmış hər hansı Bizans və intibah "cütlüyünü" verə bilər.
İki müxtəlif ehtimal variantla tanış ola bilərsiniz: Şagird dərsliyində (səh. 44-47), aşağıda verilən linklərdə və əlavələrdə.
* Yekunlaşdırıcı yazı üçün müəllim əlavənin müvafiq səhifələrini rəngli şəkildə çap etməlidir.

- Şagirdlər Roma freskalarını xristianlıq ikonaları və freskaları ilə müqayisə edirlər.
- Şagirdlər eyni süjetdə yerinə yetirilmiş Orta Əsrlərin xristian ikonaları və freskalarını İntibah dövrünün dəzgah rəssamlığı və freska nümunələrini bir-biri ilə müqayisə edirlər.

İllüstrasiya materialının linkləri:



VI ə., Sinnay dağı, Müqəddəs Yekaterina monastrı. Enkaustika
https://bit.ly/3tD3WbO



Vladimer ikonası, XII ə., tempera
https://upload.wikimedia.org/wikipedia/commons/1/14/Vladimirskaya_ikona.jpg



İkonaçı Feofan Qrek, Don İlahı Ana, XIV ə., tempera
https://i.pinimg.com/originals/2b/3f/ea/2b3fea204914868986291e680d2dc6b0.jpg



Rafael Sanzio, XV-XVI ə., yağlı boya
https://i.pinimg.com/originals/04/73/a0/0473a04abff4f1474a5f56873cb9450f.jpg


Rafael Sanzio, Kouper Madonnası, XV-XVI ə., yağlı boya
https://upload.wikimedia.org/wikipedia/commons/a/af/Raphael_-_The_Small_Cowper_Madonna_-_Google_Art_Project.jpg


Piter Paul Rubens, XVII ə., yağlı boya
https://bit.ly/2TZ2YaL


Krist Pantokrator (Külli-ixtiyar sahibi), Sinay dağı, VI ə., enkaustika
https://upload.wikimedia.org/wikipedia/commons/4/4a/Spas_vsederzhitel_sinay.jpg


Krist Pantokrator, Kipr, XII ə, tempera
https://i.pinimg.com/originals/0e/4d/63/0e4d634c8bce8d4e5ee091cf23315db0.jpg


Covani Bellini, XV-XVI ə., yağlı boya
https://bit.ly/2XPDMVl


Rafael Sanzio, XVI ə., yağlı boya
https://tr.wikipedia.org/wiki/Kutsayan_%C4%B0sa_(Rafael)#/media/Dosya:CristoRaffaello.jpg

**Praktiki tapşırıq** (fərdi):
İki, 2-3 fiqurlu kompozisiya çək; biri realistik, digəri – şərti təsviri üsullarla.
1. Əşyaların arasında miqyaslı nisbətə əməl et. İşıq-kölgə və tonal qradasiya ilə əşyaların həcmini ötürə bilərsən.
2. Əşyalar arasında miqyaslı nisbəti pozmalısan. Əşyaların formasını müstəvidə, konturlu xətlərin vasitəsilə ötürə bilərsən.

- **Ev tapşırığı**:

Antik dövrün və Orta əsrlərin xristianlıq incəsənəti üçün xarakterik əlamətlərin müqayisəvi T sxeminin tərtib edilməsi:

Antik və xristian incəsənətinin prinsipli fərqlərin, təsviri üsulların və vasitələrin müqayisəvi cədvəlini tərtib et. Növbəti dərslərdə sxemi doldurmağı davam et.

Sxemin doldurulmuş, ehtimal nümunəsi:

| **Antik dövrün incəsənəti** | **Orta əsrlərin xristianlıq incəsənəti** |
|---|---|
| Politeizm, yəni çoxallahlıq | Monoteizm, yəni birallahlıq |
| Ruhun və cismin eyni əhəmiyyəti | Ruhun cisimdən üstünlüyü |
| İncəsənət əsərlərinin sifarişçisi, əsasən, imtiyazlılar təbəqəsidir | İncəsənət əsərlərinin sifarişçisi, əsasən, kilsədir |
| İnsani, cismani | İlahi, fövqəladə |
| Həqiqəti əks etdirən realistik təsviri üsullar:<br>• işıq-kölgə ilə, tonal qradasiya ilə ötürülən həcmli formalar<br>• real fon<br>• düzgün proporsiyalar<br>• insanların fiqurları və memarlıq, yaxud da təbii fon arasında düzgün miqyaslı nisbət<br>• xətli perspektivin əlamətləri | İkonoqrafiya ilə qanunilәşdirilmiş simvolik, şərti təsviri dil:<br>• xətlərlə ötürülmüş müstəvi formaları<br>• şərti fon (tez-tez qızılı)<br>• pozulmuş ölçülər<br>• İnsanların fiqurları arasında pozulmuş miqyaslar ilahi iyerarxiyanı ötürürlər.<br>Fonda tikililərin və ya peyzajın şərti olduğunda - əks perspektiv |
| Dairəvi heykəllərin çoxluğu | Dairəvi heykəl yalnız Qərb xristian ölkələrində yaradılır. IX əsrdən Şərq xristian ölkələrində heykəl yalnız relyef şəklində mövcudluğunu davam etdirir. |
| Romada mozaikanı döşəmənin (nadir hallarda divarın) kiçik sahəsi tuturdu | Bizansda mozaika məbədlərin interyerinin ən mühüm simvolik yerlərini tutur və monumental büt incəsənətinə çevrildi |

7. **Xristian Gürcüstanı**

**Suallar**:
- Freska nəyi bildirir? (suvağı qurumamış divarda sulu boyalarla işlənilir, monumental rəssamlıq texnikalarından biridir)
- Hansı məbəddə olduğunu yadına sal?
- Məbəd nə ilə seçilirdi?
- Onu freskalar bəzəyirdimi?
- Freskalarda nə təsvir edilmişdir?
- Onların məzmununu başa düşürsənmi?

**Cavab**:
Dərslikdə (səh. 54) verilən suala: baş mələykələr körpə İsaya uzadılmış əllərində xaç təsviri olan kürələri tuturlar. Xaçın belə bir təsvirinin əhəmiyyətini axtarıb tapın. Təpədə ucaldılmış xaç nəyin rəmzidir? Baş mələykələrin bu jesti və kədərli ifadələri nəyi bildirir?
Şagirdlər görməlidirlər ki, kürədə xaç üçbucaqda təsvir olunmuşdur və bu da Qolqofanın simvoludur.

**Paleoloqların intibahı ilə bağlı əlavə məlumat:**
Paleoloqlar Bizansın sonuncu və ən uzun müddət hakim çar sülaləsidir, 2 əsr ərzində imperiyanı idarə etmişlər: 1261-ci ildən Konstantinopolun süqutuna qədər. Paleoloqların idarəetmə dövrü Bizans mədəniyyətinin sonuncu dirçəlişi Paleoloqların İntibahı adı ilə tanınır. Qərbi Gürcüstanın həmin dövrdə Bizansla sıx əlaqə saxladığına görə, bu intibah istiqaməti ilə Qərbi Gürcüstanın monumental rəssamlığı bir neçə heykəllə paylaşır. Gürcü və yunan yazılarına əsasən, Sameqrelo knyazı Vamey Dadianinin (1384-1396 illər) əmri ilə Salencixa məbədinin freskaları Konstantinopoldan dəvət olunmuş rəssam Kir Manuel Evgenikos tərəfindən çəkilmişdir. Bu freskalar XIV əsrin sonunda Konstantinopol məktəbinin yeganə, dəqiq tarixlənmiş və rəssam tərəfindən imzalanmış əsəridir.

**Praktiki tapşırıq**

- **Qabarıq relyefin imitasiyası** (Bax, dərslikdə (səh.58-59) (sinif, cütlüklərdə):

Şagirdlər qabarıq relyefin imitasiya üsulundan istifadə etməklə, freska imitasiyası ilə yaradılmış əsərə dekorativ çərçivə düzəldə bilərlər. Bundan başqa, bu praktiki fəallıqları yerinə yetirən zaman alınan təcrübədən, bilikdən və bacarıqlardan növbəti fəsillərdə istifadə edə biləcəklər (məsələn, aforizmlər kitabını tərtib etdikdə (fəsil: incəsənət təhsilin xidmətində), onlar biləcəklər ki, kitaba qabarıq cild imitasiyasını necə etsinlər).

- **İkona reproduksiyasının bəzədilməsi**:

* İkona reproduksiyasının bəzədilməsi tapşırığı dərslikdə yoxdur, çünki əlavə fəallıqdır və müəllimin istəyinə əsasən keçirilir.

<u>**Material**</u>:
Kiçik ikona reproduksiyası; karton; qayçı; PVA yapışqanı; fırça; quaş boyası (o cümlədən qızılı); kənarların yandırılması üçün kibrit və ya uzun alışqan.

Nazik kağızda çap edilmiş ikonaların reproduksiyaları asanlıqda yanır və əzilir.
Müasir gürcü rəssamı Ketevan Matabeli belə bir üsul tapmışdır – qalın kartonun müxtəlif ölçülü parçalarını bir-birinə yapışdırır (“köhnəltmə” məqsədilə kənarlarını azacıq yandırmaq da olar). Karton kəsiklərini boya qatı ilə örtür, qızılı boya ilə köhnə parıltı effektini verir və üzərinə kağız ikonanı yapışdırır.
Öz üsulunu tap və sən də reproduksiyanın həyatını uzada bilərsən. İkonanın arxasına asılqan bərkit.



Ketevan Matabelinin əsəri

- **Tapşırıq**: rəqəmsal albom

Gürcüstanın Orta Əsr məbədlərinin və kilsələrinin, onların rəssamlığının fotofiksasiyasının və rəqəmsal albomun yaradılması.
İnternet məkan gürcü freskaları haqqında çoxlu məlumatı və onların şəkillərini əhatə edir. Gürcüstanda elə bir yaşayış məkanı yoxdur ki, orada kiçik bir kilsə olmasın. Bunlardan bəzilərinin uçuqları qalmış, bəziləri yaxşı saxlanılmışdır. Bəziləri rəsmlərlə boyadılmış, bəziləri ağ rəngə boyanmışdır. Bunlardan hər biri, hər bir halında bizim tariximiz, xəzinəmizdir.
Tənbəllik etmə, onların görünüşünü tarix üçün qoruyub saxla - ətrafınızda yerləşən qədim və ya yeni, bütöv və ya uçmuş kilsəni və onun görünüşünü fotoşəklə həkk edə bilərsən. Həm eksteryerin, eləcə də interyerin şəkillərini çək. Gürcü məbədinin/məbədlərinin və onların rəssamlığının rəqəmsal qalereyasını yarat. Qısa açıqlama ilə fotoları internet məkanda paylaş.

*Bu tapşırığın yerinə yetirilməsi üçün yaxınlıqdakı kilsəyə ekskursiya təşkil etmək daha yaxşı olardı. Ekskursiyanın daha sonralar, şagirdlərin xristianlıq memarlığını öyrəndiklərində təşkil edilməsi də mümkündür.

*Rəqəmsal albomu yaratmaq üçün şagirdlər fotolar çəkməkdən başqa, ekskursiya zamanı növbəti formanı doldurmalıdırlar:
*<u>Ekskursiyada doldurulası forma ilə Əlavədə tanış ola bilərsiniz</u>
<u>(Yaxşı olardı ki, şəkillər düzəldiləsi sütunlar çapdan öncə böyüdülsünlər)</u>

**Kompleksli tapşırıqlar üçün göstərişlər:**
**Temperanın hazırlanması və freska imitasiyasının çəkilməsi.**

Bu tapşırığı yerinə yetirmək üçün lazımdır ki, şagirdlər "Milad" süjeti ilə tanış olsunlar və hər hansı bir epizodu seçsinlər. Eləcə də hər hansı bir İncil süjetini tapıb seçə və bu süjeti əks etdirən səhnələrdən birinin şəklini çəkə bilərlər.
Tapşırığın şərti ondan ibarətdir ki, əsər orta əsrlərin freskaları üçün xarakterik təsviri xüsusiyyətlərin (yastılıq, şərtilik və s.) nəzərə alınması ilə yerinə yetirilsin.
Doğrudur, əsərin ölçüsünü şagirdlərin özləri seçirlər, amma yaxşı olardı ki, ən azı A3 format ölçüsündə olsun. Əvvəlki eskizlərin nisbətən az ölçülü vərəqdə yerinə yetirildiyi halda, şagirdlər onları iri formata tor vasitəsilə keçirə bilərlər:
eskizdə, sadə karandaşla, solğun şəkildə bərabər kvadratlara bölünmüş tor çəkilməlidir. Belə bir tor (miqyasın nəzərə alınması ilə) əvvəlcədən hazırlanmış iri ölçülü kartonda da çəkilə bilər. Eskizin kontur ifadəsinin xanalarındakı parçalar iri formata, müvafiq xanalara köçürülür.
Kartonda yerinə yetirilmiş əsərə freska fakturasının verilməsi üçün karton əvvəlcədən təbaşir tozu və su qarışdırılmış PVA yapışqanının qarışığı ilə qruntlaşdırılmalıdır (resept Şagird kitabında verilir).
Əsərin gips-karton üzərində yerinə yetirildiyi halda, gips-karton parçasının bir tərəfindən kağız qatı çıxarılmalıdır. Bunun üçün isladılmış kağız qatı barmaqlarla, süngərlə və ya sumbata ilə gips qatından elə çıxarılmalıdır ki, səthi cızılmasın. Amma cızıqlar da əsərə qədimlik effektini verə bilərlər (tempera resepti Şagird kitabında verilir, səh.60-61).

Tapşırığın şərti:
1. Gips-karton parçasında və ya xüsusi məhlulla qruntlaşdırılmış karton üzərində "Milad" mövzusunda kompozisiya çək və bu da freska texnikasının təsəvvürünü yaradır.
Orta əsrlərin freska təsviri xüsusiyyətlərini nəzərə al (yastılıq, xəttilik, şərtilik, əks perspektiv və s.).
2. Bir şəklin sulu səthində (fresco) şəkil çəkməyə çalış
3. İkinci şəklin isə qurumuş qruntu üzərində (secco) və alınan nəticələri bir-biri ilə müqayisə et.

*Müəllim məhdud imkanlı şagirdlərə hər hansı bir sadə freskanın surətini və ya onun interpretasiyasını çəkməyi təklif edə bilər.

**Resurslar**:
Yekun yazı üçün

*Hər iki illüstrasiya ekranda yanaşı qoyulmalıdır və ya rəngli çap edilməlidir (linklər matrisadan sonra verilir).

"Misirə qaçqınlıq"
Süjet: İosifə mələk görünmüş və onu xəbərdar etmişdi ki, çar İrod körpə İsa üçün təhlükəli idi. Buna görə də onlar dərhal Misirə qaçmalı, təhlükə sovuşana qədər orada qalmalı idilər. İosif belə etdi. Onun ailəsi Misirə yola düşdü. Onlar Misirə çatanda, bütpərəstlik məbədlərində bütlər döndərilmişdi.
(süjet haqqında ətraflı verilir: http://orthodoxy.ge/tserili/zosime/2_13-23.htm)

Müqayisəvi nümunələr:
Deçan, Kosovo (Serbiya), XIV əsrin freskası
https://bit.ly/33CxYlq

və:
Vittore Karpaço, dəzgah boyakarlığı, 1515 il.
https://bit.ly/3eJ160J

İkinci variant:
"Qüdsə giriş"
Süjet: İsa Məsih tez-tez Qüdsə gedərdi, amma Lazarın dirilişindən sonra, xalq onu ölümü məğlub edən kimi, alqışlarla qarşıladı. Onun qarşısına ağac budaqlarını sərir, libaslarını soyunub onun ayağının altına salırdılar.
(Süjet haqqında baxın: http://www.orthodoxy.ge/tserili/zosime/21_1-17.htm)

Müqayisəvi nümunələr:
mozaika, Kapella Palatina, Palermo, Siciliya, XII ə.
https://img.over-blog-kiwi.com/0/97/67/31/20170409/ob_4c0b5d_2088750508.jpg
və:
Hans Holbeyn (böyük), 1501
https://bit.ly/3fmDQ7J

Əlavə resurslar:
Ernst Qombrix, İncəsənət əhvalatı, Loqos pres, 2012 il.
https://bit.ly/2TZ3R3d

Kiti Maçabeli, X-XII əsrlərin təsviri incəsənəti:
http://www.bu.org.ge/x1135?lang=geo

Dünya incəsənəti, Nana Maçaraşvili, Nino Silaqadze. "Meridiani", Tb., 2010:

Nino Xundadze, Gürcü rəssamlığının inkişafı haqqında...:
https://naec.ge/uploads/postData/Jurnal/N14/NAEC-Journal-14-8.pdf

Gürcüstanın kilsə-monastrları və onların rəssamlığı haqqında:
http://saunje.ge/index.php?option=com_content&view=article&id=11&Itemid=3&lang=ru

**Qiymətləndirmə kriteriləri:**

**Təsviri incəsənətin bədii-təsviri vasitələri (elementlər) və üsullar (prinsiplər)**
**Təsviri incəsənətin texnikası**
• Əsərdə seçilmiş dövrdə və ya mədəniyyətdə istifadə edilən (forma, rəng, xətt, miqyas, mütənasiblik və s.) bədii-təsviri üsullardan istifadə edir **(Təs.tət.baz.1, 4);**
• Əsəri müxtəlif tərzdə (məs.,sxematik, üslublu, həcmli) yaradır, fikrinə əsasən bədii-təsviri vasitələri, üsulları, materialı, texnikanı seçir **(Təs.tət.baz.1,2);**

**Təsviri incəsənətin sahələri və janrları**
**Müxtəlif dövrün/cərəyanın/üslubun incəsənətinin xarakterik əlamərləri/bədii xüsusiyyətlər**

• Hər hansı bir dövrün və ya mədəniyyətin nümunəsini analiz edir və müzakirə edir ki, onun vasitəsilə hansı məlumatı aldı (**Təs.tət.baz.3**);
• incəsənətin cəmiyyətə təsiri formalarını və bədii-təsviri üsullarını analiz edir (**Təs.tət.baz.3,4**);
• İncəsənət barəsində özünüifadəetmə vasitəsi kimi müzakirələr aparır, bir neçə misal gətirir (**Təs.tət.baz.3,4**);
• bir neçə misalın əsasında dövrlərin qarşılıqlı təsirini müzakirə edir (**Təs.tət.baz.4**);
• Cəmiyyətə təsir vasitələrinə əsasən, iki dövrü və ya mədəniyyəti müqayisə edir (**Təs.tət.baz.4**);

**Kompleksli tapşırıqların qiymətləndirilməsi haqqında əlavə məlumat:**

**Freska imitasiyasının yaradılması** (10 bal):
• kompozisiyanın məzmunu tapşırığın şərtinə uyğundur (2 bal);
• Orta Əsrlərin freskasının təsviri xüsusiyyətləri nəzərə alınmışdır (yastılıq, xəttilik, şərtilik) (3 bal);
• boyanı öz əlləri ilə hazırlamışdır (2 bal);
• freska texnikasından ağlabatan və yaradıcılıqla istifadə etmişdir (3 bal);

**Müqayisəvi analiz:**
• Şagird müxtəlif dövrün incəsənətinin xarakterik əlamətlərini fərqləndirir və analiz edir; onların səbəblərini adlandırır, onları dini/mədəni kontekstdə təhlil edir.

*(Əlavədə müqayisəvi analizin qiymətləndirilməsinin üç müxtəlif forması verilmişdir. Müəllimin özü birini seçə bilər)

**TAPŞIRIQLAR MATRİSASI 1/3**

| **8-12-ci dərsləri birləşdirən mövzular: islam dünyası; incəsənət təhsil üçün.** | | |
|---|---|---|
| **Məsələ və yarımanlayışlar** | **Əsas sual/suallar** | **Kompleksli tapşırıqlar** |
| **Elementlər**:<br>Xətt, rəng, forma, fon və təsvirin qarşılıqlı yanaşması.<br>**Prinsiplər**:<br>Kompozisiya bölgüsü, ziddiyyət, nisbət, miqyas, ornament.<br>**Sahələr**:<br>Rəssamlıq (qrafika, miniatür)<br><br>**Təsviri incəsənət texnikası**:<br>Rəssamlıq texnologiyaları. | • Hansı amillər islam incəsənətinin xüsusiyyətlərini müəyyənləşdirdi?<br>• xristian və islam məbədlərinin interyerinin tərtibatında hansı əsas fərq vardır?<br>• Orta Əsrlərin xristian və islam rəssamlığı arasında hansı oxşarlıq/fərq mövcuddur?<br>• Təhsilin xidmətində incəsənət hansı rolu oynayır? | **Aforizmlər kitabının yaradılması**<br>(kağız və rəqəmsal variant) |

**Əsas suallara cavablar:**

- ✓ İslam incəsənətinin xüsusiyyətlərini dini ehkamlar müəyyənləşdirmişdir.
- ✓ İslam dini tikililərinin interyerləri, xristiandan fərqli olaraq, freskalar və ikonalarla bəzədilməmişdir.
- ✓ Xristian və islam rəssamlığı arasında oxşarlıq şərti təsviri dildə ifadə olunur, fərq isə xristianlıqda sadəlik və ciddilikdə, islamda isə zərif, dekorativ xarakterdədir.
- ✓ İncəsənət sözə, ideyaya görüntülü şəkil verir və bu yolla da ideyaları təsviri üsullarla yayımlayır.

**8 – 9 İslam incəsənəti; islam rəssamlığı**

Bu fəsildə şagirdlər islam incəsənəti ilə tanış olacaqlar, dərk edəcəklər ki, incəsənət dini qadağa şərtlərində hansı yolları axtarıb tapır, ornament növləri ilə tanış olacaqlar. Növbəti fəsildə bu bilik onlara yardım edəcəkdir ki, Bizans incəsənətində islam təsirinin işarələrini görsünlər.

**Sual**:

- ✓ İslam incəsənətində hansı bədii üsullar bərqərar oldu?
- ✓ İslam incəsənətində hansı sahələr aparıcı oldular və nə üçün?
- ✓ İslam dini təsviri incəsənətdə hansı qadağaları təsis etdi?
- ✓ Hansı dini qadağa İran dulusçuluq texnologiyasının və dizaynın inkişafına təkan verdi?
- ✓ Hansı halda insanın və başqa canlı varlıqların təsvir edilməsi qadağası pozulur?
- ✓ Arabesk nəyi bildirir və ornamentin bu növünün özünəməxsusluğu nədə ifadə olunur?
- ✓ Miniatür nəyi bildirir və onun özünəməxsusluğu nədə ifadə olunur?
- ✓ Cümə Məscidinin interyerinin hansı özünəməxsusluğu var? Nə üçün Tbilisi məscidi dünyanın başqa məscidləri arasında xüsusi hesab olunur?

**Dərslikdə Cümə Məscidinə dair verilən suallara cavab:**

- ✓ Dərslikdə verilən fotoşəkildə Tbilisi Cümə Məscidinin iki mehrabının olduğu görünmür. Tbilisi məscidi nadir bir haldır ki, burada islamın bir-birinə qarşı duran iki şaxəsinin nümayəndələri – sünnilər və şiələr birlikdə ibadət edirlər.
- ✓ Yaxşı olardı ki, müəllim şagirdlərə aşağıda verilən gürcüdilli linkləri göstərsin ki, şagirdlər bu linklərdən Cümə Məscidinin tarixi və xüsusiyyəti barəsində ətraflı məlumat alsınlar.

Tbilisi Cümə Məscidi haqqında məlumatların tapılması üçün linklər:
http://www.ttimes.ge/archives/64098
https://sputnik-georgia.com/columnists/20160824/233070903.html

**Dərslikdə verilən tapşırığa işarə:** Ançısxati kilsəsinin darvazalarını müşahidə et və islam memarlıq əlamətlərini axtar tap. Şagirdlər qeyd etməlidirlər:
a) oxvari tağ;
b) oxvari mehrab;
c) dekorativ kərpic quruluşu.

**Dərslikdə verilən suala**: xristian kilsə kompleksinin hansı tikilisi islam minarəsinə uyğundur və onun hansı funksiyası var?
**Cavab**: zəng qülləsi. Zəng qülləsindən zəng çalmaqla camaatı ibadətə çağırırlar.

- **Praktiki iş** (cütlüklərdə):

Dekorativ lövhə (kaşının imitasiyası):
Birrəngli nazik plastilin qatı ilə örtülü karton düzbucaq və ya səkkizbucaq parçada, başqa rəngdə plastilinlə dekorativ (ornament və ya süjet tematikası) relyef işinin yerinə yetirilməsi.

- **Praktiki işi "Arabeska"** (Şagird dərsliyi, səh. 66-67)

Bir formada və ölçüdə, ornamentlər çəkilmiş həndəsi fiqurlarla mozaika divarının düzəldilməsi.

Material:
Nazik karton,
Xətkeş, pərgar, qayçı,
Karandaş, qara marker,
Flomasterlər, rəngli karandaşlar və ya boyalar (şagirdin seçimi ilə),
İri ölçülü format, yapışqan.

Tapşırığın şərti:
Qruplara bölünmüş uşaqlar gələcək ornamentin səkkizbucaq formalarını bölüşdürürlər. Hər qrupun üzvləri eyni forma və ölçüdə lövhələr üzərində işləyirlər. Hər bir şagird qrup tərəfindən seçilmiş səkkizbucaq formasının bir neçə variantını müstəqil çəkir, kəsir və bəzəyir.
Kaşılara oxşar hazır "lövhələrlə" qruplar iri formatlarda arabeskləri düzürlər, bunun üçün də eyni lövhələri elə düzürlər ki, formalar bir-birinə küncləri və ya yanları ilə toxunsunlar. Nəticədə səliqəli, simmetrik arabesk alınmalıdır.

Məhdud imkanlı şagirdlərə, onların bacarıqlarını nəzərə alaraq, yalnız formalar kəsməyi və ya artıq kəsilmiş formaları bəzəməyi və arabeskin düzülüşü prosesində iştirak etməyi tapşıra bilərsiniz.

Səkkizbucaq formalarının quruluşu nümunəsi:



- **Müqayisəvi analiz** (sinif, qrup) (Bax, Şagird dərsliyi, səh. 74-75):
- Şagirdlər yunan heykəlinin Romasayağı surətini və fars miniatürlərini bir-biri ilə müqayisə edirlər.

Analizin nümunəsi:
Bu əsərləri bir-birindən demək olar ki, 20 əsr ayırır. Buna baxmayaraq, onlar bir-birlərinə çox bənzəyirlər. Antik heykəl və fars miniatürlərində qadınlar eyni pozada təsvir olunurlar. Antik nümunə dəyirmi heykəldir (ona hər tərəfdən baxmaq mümkündür). İkinci nümunə rəngli miniatürdür, üçüncü isə qrafik rəsm. Fars miniatürçüləri bizdə ikiölçülü müstəvidə üçölçülü həcmdə xəyal yaratmağa çalışmırlar. Onlar işıq-kölgə və tonal qradasiyadan istifadə etmirlər. Onların şəkilləri dekorativdir. Əsas təsviri vasitə xətdir (axarlı, çevik). Xətlər qeyri-bərabər qalınlıqdadır, bu da şəklə rəngarənglik qatır. Rəngli miniatürdə, aydın rəngdə ləkələr ornament motivləri ilə canlandırılmışdır.
Müəllim şagirdlərdən fon və əlavə xırdalıqlar barəsində danışmağı xahiş edir.

- Şagirdlər Anri Matissin şəklini müqayisə edir və onlar arasında oxşarlıq-fərqləri müzakirə edirlər.

Analizin nümunəsi:

Fars miniatürcüsü və Anri Matiss müxtəlif dövrlərin və mədəniyyətin nümayəndələri olduqlarına baxmayaraq, onların əsərləri bir-birinə çox bənzəyirlər. Anri Matissin rəsmində Şərq rəssamlığı ilə heyranlıq hiss olunur: yastılıq, həcmlərin, işıq-kölgə perspektivinə laqeydliyin göstərilməsi, ornamentlərin və detalların çoxluğu, açıq rənglər və s.

**10. İslam keramikası** (evdə oxumaq üçün)

- **Ev tapşırığı:**

Birdəfəlik boşqabı yazılarla (sitat, ifadə, şeirdən misra və s.) və şəkillə bəzəmək.

**11-12. İncəsənət təhsilin xidmətində (kalliqrafiya); miniatür**

Mövzunun öyrənilməsindən öncə müəllim şagirdlərə növbəti suallar verə bilər:

- Necə fikirləşirsiniz, təhsil xidmətində incəsənətə hansı rol verilir?
- İncəsənət təhsilə hansı forma ilə xidmət edir?
- Kitabın illüstrasiya ilə bəzədilməsi nə üçün lazımdır?

**Müzakirə**:

- Rossanonun "Sonuncu şam yeməyi" miniatürünü və Sant Apolinare Nuovo kilsəsinin "Sonuncu şam yeməyi" mozaikasını bir-biri ilə müqayisə et. Təyin et ki, bu epizodun ikonoqrafik kanonikası nəyi nəzərdə tutur (cütlüklərdə, sinif işi).

**Cavab**: doğrudur, birinci illüstrasiya əlyazma miniatürdür, ikinci isə mozaikadır, hər ikisi eyni dövrdə - VI əsrdə yerinə yetirilmişdir. İkonoqrafik kanonika qəhrəmanların ciddi kompozisiya bölgüsünü nəzərdə tutur: İsa sol kənarda təsvir edilmişdir. Ağ libas geyinmiş həvarilər masa ətrafında yarımdairəvi yerləşmişlər. İsa Məsihin fiquru ölçüsü ilə, libasının rəngi və nuru ilə seçilir. Hər iki tərəfdən həvarilərin eyni üzləri yalnız saçlarının rəngi və saç düzümü ilə seçilir və bu da onların yaş fərqinə işarə edir. Süfrəyə balıq qoyulmuşdur (Müəllim şagirdlərdən soruşa bilər ki, balıq nəyin rəmzidir. İsanın).

- Rossano məcəlləsinin ikinci miniatürünü "Ayaqların yuyulmasını" və XV əsrdə naməlum alman rəssamının boyakarlıq kətanında "Ayaqların yuyulması" rəsmini müşahidə edin. Fərqləri müzakirə edin (fərdi, ev işi).

**Cavab**: Rossano Məcəlləsinin ikinci miniatürü şərti bədii üsullarla yerinə yetirilmişdir – müstəvi və xətti. Fon neytraldır, qırmızıdır (imperatorsayağı, ilahi). Ətraf mühit işarə edilməmişdir.
Naməlum alman rəssamının boyakarlıq kətanında yerinə yetirilmişş kompozisiya nisbətən realistikdir, personajların pozaları və hərəkətləri daha təbiidir, həvarilərin ifadələri və libasları bir-birindən fərqlidir. Hərəkət xətli perspektivlə ötürülmüş interyerdə baş verir, burada bir çox xırdalıqlar görünür (şüşəli pəncərələr, divar dolabı, açıq qapıdan pilləkan görünür). Paltarın qatları işıq-kölgə ilə və tonal qradasiyalarla ötürülmüşdür.
Bu ikonoqrafik fərqin əsas səbəbi ondan ibarətdir ki, əsərləri bir-birindən on əsr ayırır.

- Freska və miniatür arasında hansı fərq var?

**Cavab**: miniatür kiçik ölçüdə şəkildir. O, əlyazma kitabı bəzəyir, freska divarda çəkilir və monumental rəssamlığa aiddir.

**Tədqiqat**:

- **Dünyada neçə yazı vardır?** (fərdi, ev tapşırığı)

Müxtəlif zəmanənin və xalqların yazıları haqqında məlumat topla.
Yazıların nümunələrini topla və elektron albom tərtib et.
Müxtəlif ölkələrin kalliqrafiya nümunələrini bir-biri ilə müqayisə et.
Yazılardan birini seç.
Onun tarixini araşdır və araşdırma nəticələrini yoldaşlarına təqdim et.

**Praktiki iş**:

- **Qırmızı kitab "Gürcüstanın flora və faunası"** (qrup işi)

Gürcüstanın flora və faunasının Qırmızı Kitabını əldə edin.
Nadir və nəsli kəsilmə təhlükəsi qarşısında duran bitki və heyvan növləri ilə tanış olun. Bir-bir növünü seçin və bölüşün.

Eyni ölçülü vərəqlərdə seçdiyiniz növün şəklini çəkin.
Gözəl kalliqrafiya ilə onların gürcü və latın adlarını yazın.
Seçilmiş növ haqqında qısa məlumat əlavə edin.
Şəkilləri kitab şəklində yığın və ya müvafiq tərtib edilmiş şəkilləri məktəbin dəhlizində sərgiləyin ki, digər şagirdlərlə də tanış ola bilsinlər.

- **Üst hərf** (fərdi):

Ornamentlərlə bəzədilmiş inisialların şəklinin çəkilməsi.
*Yaxşı olardı ki, müəllim şagirdlərə xatırlatsın ki, ornament üzvi, yəni təbii, bitki mənşəli, həndəsi, qarışıq ola bilər. Onlara müxtəlif ölkə üçün xarakterik ornament növlərini axtarıb tapmağı təklif edə bilər ki, şagirdlər düşünülmüş seçim etsinlər. Eləcə də şagirdlər hərfin bəzədilməsinin onlarsayağı üsulunu düşünə bilərlər (ola bilsin ki, ornamentə bənzəməsin də).
(Ətraflı təlimat Şagird dərsliyində, səh.87-də verilmişdir)
* https://www.facebook.com/watch/?v=2270897236304200

- **Sərgi**:

Yaxşı olardı ki, "Cəmiyyət və incəsənət" blokunun sonunda sərgi təşkil edilsin.
Şagirdlər konsepsiyanı və sərginin başlığını fikirləşməlidirlər ki, bu da onlar tərəfindən təqdim edilən işlərə uyğun olsun. Sərgidə şagirdlər "Cəmiyyət və incəsənət" blokunun çərçivəsində hazırladıqları işlərini təqdim edirlər:
mozaikanın, freskanın imitasiyası ilə Milad mövzusunda çəkilmiş kompozisiyanı, "Vitraj imitasiyasını", "Şota Rustavülinin aforizmləri" qrup işini; qruplar tərəfindən arabesklər divarlarını, başlıq hərflərini, kalliqrafiya işlərini, layihə üçün plakatları: "Mən dəyişmək istəyirəm.." və s.
Hər bir şagird keçilən materialdan bir mövzu seçir və yazılı məruzə şəklində təqdim edir ki, bu da tədqiqatı, analizi və mövzu ilə bağlı suala öz fikirlərini əhatə etməlidir.

**Kompleksli tapşırıqlar üçün göstərişlər:**

Gürcü baş hərflərinin dizayn linkləri:
* https://www.facebook.com/watch/?v=2270897236304200
* https://bit.ly/2TY7EOq
**Aforizmlər kitabı** (Şagird dərsliyi, səh. 88)
(Kağız da rəqəmsal variant)
(fərdi və qrup işi)

Material:
"Pələng dərisi geymiş pəhləvan"-dan yığılmış Şota Rustavelinin aforizmləri
Sadə və rəngli karandaşlar; flomasterlər; kalliqrafiya qələmi; nazik fırça; mürəkkəb, tuş, akvarel və ya quaş boyaları; rəsm vərəqləri, nazik karton vərəqləri; kompüter, skaner, rəngli printer; kağız skreplər, yapışqan; biz, qalın tikiş iynəsi;
İpək və ya kəndir sapı.

Şagirdlər tərəfindən, eyni ölçülü vərəqlərdə, fərdi, gözəl kalliqrafiya ilə yazılmış və ornamentlərlə və ya məzmunla uyğun şəkillə tərtib edilmiş aforizmlərlə kitab cildlənməli və elektron vaiantı tərtib edilməlidir.

*Müəllim əvvəlcədən şagirdlərlə danışır və ötən biliyin aktivləşdirilməsi məqsədilə, soruşur ki, kitabın tərtibat incəsənəti (qrafikası) incəsənətin hansı sahəsinə aiddir. Müəllim şagirdlərdən soruşur ki, əlyazma kitabın şəkillərlə tərtibatı incəsənəti necə adlanır (miniatür).
*Şagirdlər əvvəlcədən vərəqlərin rəngini və mətnin rəngini müəyyən etməlidirlər. Şagirdlər müzakirə etməli və özləri qərara almalıdırlar ki, mətnin rəngi vərəqin rəngindən fərqli (ziddiyətli və aydın qavranılan) olmalı və ya yaxın rəngli olmalıdır.

*Şagirdlər əvvəlcədən hərflər və ornament çəkilən sahənin ölçülərini, miqyasını, vərəqin sahəsində mətnin kompozisiya bölgüsünü, mətnin və ona yaxın ornamentinin nisbətini müəyyən etməlidirlər.

Şagirdlər fikirləşməlidirlər ki, onların işlərinə hansı ornament uyğun olacaqdır (bitki, həndəsi və ya qarışıq).
Müəllim şagirdlərə xatırlada bilər ki, ornament müəyyən formaların ritmik təkrarı ilə alınır (amma bu da tapşırığın vacib şərti deyil).
Kitabın elektron variantını şagirdlərin kompütere yüklənmiş işlərin bir sənəddə təşkil edilmiş faylı təqdim edir. Kitabın kağız variantını isə eyni əsərlərin çap edilmiş və bir neçə nüsxədə cildlənmiş variant təqdim edir.
Yaxşı olardı ki, hər bir nüsxəyə ornamentlə və ya mövzuya uyğun şəkillə tərtib edilmiş cild hazırlansın.
*məhdud imkanları və xüsusi təlimə ehtiyacı olan şagirdlərin bacarıqlarını nəzərə almaqla, onlar yoldaşlarının şəkillərini kompütere yükləyə və ardıcıllıqla düzə bilər, çap edilmiş ornamentlərlə rəngləyə, cildləniləsi kitabları qaydaya sala bilərlər və s.
Sərginin təşkil edilməsi arzu olunur ki, bunu da şagirdlər kalliqrafik tərtib edilmiş “aforizmlər kitabını”, kitab üçün çəkilmiş ayrı-ayrı işləri və eskizləri təqdim edirlər. Eləcə də özünün kalliqrafik işlərini və keçilən tədqiqat nəticələrini.
Kitabın cildlənmə nümunələri:







**Relyef cildi:**
- ✓ aforizmlər kitabının cildi kitabın səhifələrindən bir az uzun və enli olmalıdır.
- ✓ kitabın qalınlığını da nəzərə al.
- ✓ cild üçün nəzərdə tutulmuş kartonda karandaşla relyef eskizini çək.
- ✓ xətlər boyunca qalın sap yapışdır.
- ✓ saplı cildə kağız, salfet kəsikləri və ya material parçasını yapışdır.
- ✓ cildi rənglə və başlıq yaz.

**Sadələşdirilmiş variant**:
Çap edilmiş və rənglənmiş şəkilləri rəsm dəftərinin vərəqlərinə yapışdıra və dəftərin cildini bəzəyə bilərsiniz.

**Resurslar**:
İslam memarlığı:
https://bit.ly/2zRY4FH

Tbilisi Cümə Məscidi:
http://www.ttimes.ge/archives/64098
https://sputnik-georgia.com/columnists/20160824/233070903.html

Samsğe-Cavaxetidə məscidlər:
http://liberali.ge/articles/view/24435/samtskhejavakhetis-uchinari-mechetebi

Çoxmillətli Tbilisi:
https://bit.ly/2AuPQDm

Kordova məscidi, İspaniya, VIII ə.:
https://www.youtube.com/watch?v=Q3etLlvo1v4

Dünyanın 10 ən gözəl məscidi
https://reginfo.ge/offload/item/870-msoplios-10-ulamazesi-mecheti

Miniatür:
Afina, XIII ə.
http://cp14.nevsepic.com.ua/216/21571/thumbs/1389947398-zastavka-k-evangeliyu-ot-ioanna.jpg

Afina, XIII ə.
http://cp14.nevsepic.com.ua/216/21571/1389947409-zastavka-k-evangeliyu-ot-luki.jpg

Rossano məcəlləsi VI ə:
http://www.chicercate.net/wp-content/uploads/2015/03/3.-Chi-cercate.jpg
https://bit.ly/33Mcwui
https://bit.ly/2TY8yKN
https://live.staticflickr.com/3729/11531705415_3ff2ff23b0_b.jpg
https://bit.ly/3uSWVFh

Rabbula İncili VI ə:
https://i.pinimg.com/originals/48/b1/ff/48b1ff536d274f07d5d48033a7de8f5f.jpg
https://i.pinimg.com/originals/4b/d2/db/4bd2db2bdc2ca423a6b3c1f9fefb2bcd.jpg
http://warfare.tk/6-10/Rabbula_Gospel-4r.jpg
https://i.pinimg.com/originals/55/b2/a2/55b2a2aae6768e11fe7d7123eb66e3cf.jpg

Çarmıxa çəkilmə və diriliş:
https://pbs.twimg.com/media/DQ7NVKMWkAAQO05.jpg

Yüksəliş:
https://live.staticflickr.com/8452/8018452391_a5b0c56d73_b.jpg

Ruhların yüksəlişi:
https://pbs.twimg.com/media/DXS7OZmW4AEuoUc.jpg

Dioskoridlər:
https://content.wdl.org/10690/service/thumbnail/1431370005/1024x1024/1/3.jpg
https://content.wdl.org/10690/service/thumbnail/1431370005/1024x1024/1/45.jpg
https://content.wdl.org/10690/service/thumbnail/1431370005/1024x1024/1/55.jpg
https://content.wdl.org/10690/service/thumbnail/1431370005/1024x1024/1/233.jpg

Heyvanlar və quşlar:
https://66.media.tumblr.com/45e9f58fa7a325b4dbe426a9ac10d891/tumblr_mub49dKQGq1qbityio9_1280.jpg
https://i.pinimg.com/originals/e3/57/56/e357566fa4bd398f0d3d4f2906b04d98.png
https://bit.ly/2SMRyZY
https://upload.wikimedia.org/wikipedia/commons/7/79/ViennaDioscoridesEndpaperPeacock.jpg

Aşağıda verilmiş linkdə Vyana Dioskoridinin yüksək rezolyusiya fotolarını izləyə bilərsiniz:
https://www.wdl.org/ru/item/10690/view/1/1/

**Qiymətləndirmə kriteriləri:**
**Təsviri incəsənətin bədii-təsviri vasitələri (elementlər) və üsullar (prinsiplər)**
**Təsviri incəsənətin texnikası**

- müvafiq bədii-təsviri vasitələrin, üsulların, materialın və texnikanın istifadəsi ilə dekorativ əsəri yaradır (**Təs.tət.baz.1,2,4**);

**Təsviri incəsənətin sahələri və janrları**
**Müxtəlif dövrün/cərəyanın/tərzin incəsənətinin xarakterik əlamətləri/bədii xüsusiyyətlər**

- hər hansı bir dövrün və ya mədəniyyətin incəsənət əsərini analiz edir və müzakirə edir ki, onun vasitəsilə hansı məlumatı əldə etdi (**Təs.tət.baz.3**);

- mədəniyyətin/mədəniyyətlərin və ya dövrlərin qarşılıqlı təsirini bir neçə misalin əsasında müzakirə edir (**Təs.tət.baz.4**);
- iki dövrü və ya mədəniyyəti cəmiyyətə təsir vasitələrinə əsasən müqayisə edir (**Təs.tət.baz.4**).

**Kompleksli tapşırıqların qiymətləndirilməsi ilə bağlı əlavə məlumat:**

**Arabesk**
**Təs.tət.baz.1.2.**
- Tapşırığın müstəqil yerinə yetiriləsi hissəsini tapşırığın şərtini və ümumi məsələnin nəzərə alınması ilə yerinə yetirdi (0 –3 bal);
- səkkizbucaq forması düzgün qurulmuşdur, simmetrikdir (0 – 3 bal);
- səkkizbucaq lövhə illüstrasiya ilə və ya ornamentlə tərtib edilmişdir (0 – 3 bal)
- şagird birgə işdə aktiv iştirak edirdi (0 – 1 bal)

**Aforizmlər kitabı:**
**Təs.tət.baz.1.2.**
- kalliqrafik yazı səliqəlidir (0 – 3 bal);
- iş illüstrasiya və ya ornamentlə tərtib olunmuşdur (0 – 3 bal);
- kitab cildlənmiş və qabığı var (0 – 3 bal);
- tapşırığın birgə yerinə yetirilmə hissəsində aktiv iştirak edirdi (0 – 1 bal);
- ümumi iş tapşırığın şərtinə uyğundur.

**Sərgi**:
**Təs.tət.baz.1.2.3.4.**
- Şagird sərgidə bir neçə əsəri təqdim etdi.
- Əsərlər sərgi konsepsiyasına uyğundur.
- Əsərlər səliqə ilə sərgilənmişlər.
- Yazılı məruzə səlis yazılmışdır, illüstrasiyaları və ya şəkilləri, tədqiqat, analiz və şagirdin fikirlərin elementlərini əhatə edir.
- Şagird ekspozisiyanın hazırlanma prosesinə aktiv cəlb olunmuşdu.

**TAPŞIRIQLAR MATRİSASI ¼**

| Dərslər 13-15 Birləşdirici mövzu: xristianlıq memarlığı | | |
|---|---|---|
| **Məsələ və yarımanlayışlar** | **Əsas sual/suallar** | **Kompleksli tapşırıqlar** |
| **Təsviri incəsənət vasitələri (elementlər):**<br>Forma<br><br>**Təsviri incəsənətin üsulları (prinsipləri):**<br>Mütənasiblik, statika/dinamika harmoniya, simmetriya/asimmetriya<br><br>**Sahələr:**<br>Kult memarlığı<br>Relyef heykəltəraşlığı<br>**Janrlar**:<br>dini<br>**Təsviri incəsənət texnikası:**<br>vitraj<br><br>**Dövr, tərz, cərəyan:**<br>Orta Əsrlərin memarlığı<br>Bizans, Gürcüstan, Roman, qotika | • Mərasim tikilisinin planlaşdırılmasına nə təsir göstərir?<br>• Orta Əsrlərin şərq və qərb xristian kult memarlığı bir-birindən nə ilə fərqlənir?<br>• Roman və Qotika memarlığı bir-birindən nə ilə fərqlənir və bunun səbəbi nədir?<br><br>• Onların memarlıq kütlələrinin təşkili xüsusiyyətləri necədir? İşıqlandırma? Tənasüblük? Dekor?<br>• Roman və Qotika kult tikililərinin görünüşü insanın əhval-ruhiyyəsinə hansı təsiri göstərir?<br>• Orta Əsrlərin xristian incəsənətinin əsas xüsusiyyətləri nə idi? Bunlara səbəb nə idi? | **1. Layihə "Məbəd"**<br>Bizans, gürcü, roman və qotika məbədlərin fasadlarının modellərinin yaradılması və müvafiq dekorla tərtibatı (qarquliyalar, vitraj, çuqurtma və s.) |

**Əsas sualların cavabları:**

- ✓ Orta Əsrlərin xristianlıq incəsənətinin əsas xüsusiyyətləri ehkam düşüncəyə səbəb oldu. İdeya mənəviyyətin irəliləyişindən ibarət idi. Bunu göstərmək və canlıdan ayırmaq üçün təsviri dil şərti olaraq bədii üsullara müraciət etdi.
- ✓ Erkən xristianlıq kult memarlığı (Bizans və Roman) oxşar işarələri keçirir, amma artıq XII əsrdən Qərbi Avropa memarlığı fərqli yolla inkişaf edir.

Roman məbədləri ciddi, sadə, monolit, xəsisliklə bəzədilmiş və zəif işıqlandırılmış (buna görə də ibadət edənlərə məyusedici təsir göstərir), Qotika isə - şaquli yüksəlişlə, çoxlu dekorla və təntənəli işıqlandırma ilə ibadət edən üçün bayram mühitini yaradır.

### 13. Xristianlıq memarlığı

- **Müzakirə üçün suallar**:
  - ✓ Memarlıq xristian dövründə hansı dəyişikliklərə məruz qaldı?
  - ✓ Roma və xristian bazilikləri arasında hansı oxşarlıq və fərq var?
  - ✓ Bütpərəstlik və xristianlıq mərasimləri nə ilə fərqlənir?
  - ✓ Nə üçün xristianlığın rəsmi din kimi elan edildiyindən sonra yeni kult tikililərinin inşası zərurəti yarandı?
  - ✓ Bütpərəstlik və xristianlıq kult tikililəri arasında fərqin əmələ gəlməsinə nə səbəb oldu?

**Cavablar**:

- ✓ Antik dövrün məbədlərində qurban mərasimi yerinə yetirilmirdi. Məbəddə tanrının heykəli qoyulmuşdu və ona qurban gətirilmiş hədiyyə saxlanılırdı. Qurban gətirilmiş heyvanları odda qızardırdılar və alov yanğın əmələ gətirməsə də, məbədi tüstü bürüyürdü. Məbədlərə yalnız kahinlər buraxılırdılar, xalq isə açıq səma altında təşkil edilmiş ibadətgahın yanında dururdu.
- ✓ Gizli dualar xristianları təcrid edilmiş, qapalı məkanda toplaşmağa öyrətdi. Şam yandırma qaydası qaranlıq sərdabələrdən gəlir. Romasayağı dini bazilikaya çoxlu insanlar sığışırdı. Bunun üçün xristianlar onu ubadət tikilisi üçün seçdilər, amma buna mehrab və köməkçi otaqlar əlavə etdilər.

- **Konstantinopolun (İstanbulun) Aya Sofiya günbəzinin sələfi ilə (Roma panteonu) müqayisəsi**;
  - ✓ Yelkənlər hansı rolu yerinə yetirirlər?

**Cavab**: Roma panteonunun günbəzi bütövlükdə silindrdə dururdu, onun nöqtələrinin hamısının dayağı var. Aya Sofiya günbəzi isə yalnız tağların dörd nöqtəsini tutmalı idi. Tağlar arasında boşluq yelkənlərlə tamamlanmışdı, bunlar da günbəzin ağırlığını bölüşdürürdülər.




https://civitavecchia.portmobility.it/sites/default/files/pantheon_sezione.jpg
https://i.pinimg.com/originals/bf/3e/cf/bf3ecfd6fc676208c8f0df644cc49bb8.jpg

**Praktiki iş:**

- ✓ Karton parçaları ilə bazilika maketinin düzəldilməsi (qrup, sinif);

- ✓ Günbəzin düzəldilməsi (qrup, sinif):

Qruplara bölünün. Fikirləşin ki, necə və hər hansı, sizin üçün əlverişli materialla günbəzin maketini və ya konstruksiyasını düzəldin və bu da yelkənlərə söykənəcəkdir. Fikirləşin, günbəzaltı kvadratı dairəyə necə keçirəsiniz.


https://i.pinimg.com/originals/35/f8/5a/35f85a96752f6fa27b909904cff3a7b8.jpg

Günbəzin maketinin ehtimal variantları müxtəlif materialla:
Karton, papye-maşe, kibrit dənələri, plastilin, şirə üçün borular (yapışqansız boruları bir-birinə keçirmək) və s.
http://www.roostereggs.org/images/dome_proto/2015%20dome%2001.jpg
https://i.pinimg.com/originals/74/05/0e/74050e58f67fa29ff508032e90eabe13.jpg
https://geodesicdome.files.wordpress.com/2011/01/0110111611.jpg
https://bit.ly/3uJAodY
https://bit.ly/33C9loW
https://bit.ly/3w0sWLI

**Suallar**:

- ✓ Gürcü məbədlərinin tənasübü necədir?
- ✓ Gürcü məbədlərinin fasad dekoru necədir?
- ✓ memarlar məbədin formalarını və miqyaslarını ətraf mühitə necə uyğunlaşdırırdılar?

**Cavab**:

- ✓ Bolnisi bazilikası (V ə.) əvvəlcə kar və bölgüsüz divarlarla, eninə genişlənmiş, oturaq tənasüblərlə və relyefli dekor azlığı ilə xarakterizə edilir. Bolnisi Sionisinin hər üç aşırımı vahid iki örtük altındadır. İşıq yan aşırımların pəncərələrindən görünür. Necə düşünürsən, belə bir işıqlandırma interyer üçün kifayət edirmi? (ehtimal düzgün cavab: mərkəzi aşırımın öz işıq mənbəyinin olmadığı və yalnız yan aşırımların pəncərələrindən düşən, ikincili işıqlandırma ilə işıqlandığına görə, qaranlıqdır).
- ✓ Bazilikanın uzunsov gövdəsi özlüyündə tələb edir ki, möminlər içəri qərbdən keçsinlər, kilsənin tam məkanını görə bilsinlər və şərqdə yerləşən mehraba tərəf istiqamət götürsünlər. Bolnisi Sionisində qərb qapısı gec kəsildi, əks halda şimaldan və ya cənubdan daxil olan hər iki tərəfə boylanmalı idi ki, interyerin hissələrini görə bilsin.

İllüstrasiya misalları üçün linklər:
Bolnisi Sionisinin fasadları:
https://cdn2.img.sputnik-georgia.com/images/24480/21/244802175.jpg
https://cdn1.img.sputnik-georgia.com/images/24480/21/244802170.jpg

Bolnisi Sionisinin planı:
http://kannelura.info/dr/1448_01.jpg

Ançisxati bazilikası:
http://www.ambioni.ge/files/anchisxati-1.jpg

Dördlük kilsəsi:
http://www.amigo.ge/saunjegallery/albums/userpics/10002/beridze2_032-copy_289729.jpg
https://commons.wikimedia.org/wiki/File:Plan_of_eastern_wall_of_Otkhta.svg
http://photos1.blogger.com/blogger/5935/2977/1600/otxta%2024.jpg

Parxali
https://upload.wikimedia.org/wikipedia/commons/5/53/Parxalis_monasteri.jpg

Bizans incəsənəti, Müqəddəs Sofiya məbədi (Nino Çiçinadze, mühazirələrdən parça)
https://www.youtube.com/watch?v=pIceq2iUrdE&list=PL7508D327F04BE157&index=29

- **Praktiki tapşırıq:** planların "oxunulması" (qrupda, sinif) (Şagird dərsliyi, səh. 90-95)

*Planın oxunulması nailiyyətli hesab edilməlidir, əgər şagird tikilinin bazilika növünə və ya günbəzə aid olduğunu düzgün göstərirsə, apsida, köməkçi otaqlar, aşırım, günbəz, bürclər, darvazalar və pəncərələr harada yerləşdiyini deyirsə.
Planları oxuduqda, yaxşı olardı ki, müəllim şagirdlərdən planda oxunulan yerin müvafiq tikilinin fasadında tapmağı xahiş edir.

Planların oxunulması üçün əlavə illüstrasiya materialı:
Xaşmi kilsəsi:



https://bit.ly/3dnSGZE

Qədim Şuamta:



https://www.amigo.ge/saunjegallery/albums/userpics/10002/beridze2_032-copy_288229.jpg
PowerPoint prezentasiyası: Gürcüstan məbədlərinin görüntüləri, parçalar, planlar:
https://ppt-online.org/46427

- **Müqayisəvi analiz:**

Bizans və Gürcüstan memarlığının nümunələrinin müqayisəvi analizi

- ✓ Sant-Apollinare Nuovo və Bolnisi Sionisinin baziliklərinin memarlığı
- ✓ San Vitalle və Msxeta Xaçının memarlığı.

Şagirdlər diqqəti tikililərin ölçülərinə, kobudluğuna/çevikliyinə, memarlıq kütlələrinin bölgüsünə yönəltməli, interyerin işıqlandırma xarakterini ehtimal etməlidirlər.

Sant-Apollinare Nuovo bazilikasının eksteryeri (xarici görünüşü) yarımdairəvi, tağlı pəncərələrin mütəmadi ritmi ilə bölünmüşdür. Apsida kobud ölçüləri və iti divarı ilə xarakterizə edilir. Bolnisi bazilikası da kobuddur. Bir neçə kiçik ölçülü pəncərə eksteryerin tündləşdirilməsi üçün kifayət etmir. Bolnisi bazilikasının köməyinə gələn yeganə hal daşların müxtəlif tonallığı və rəngin düzülüşüdür. Bu boyakarlıq görünüşü tikilini vizual yüngülləşdirir. Eksteryeri gördükdə, interyerin işıqlandırma keyfiyyətini ehtimal edə bilərik. Sant-Apollinare Nuovo bazilikasının, Bolnisi bazilikası ilə müqayisədə daha aydın interyeri olacaqdır.
San Vitalle daha kobud görünür, nəinki Msxeta Xaçı. San Vitallenin divarları daha enlidir. Sanki enli kürəyin (məbədin gövdəsinin) üzərində alçaq boyun (günbəzin boğazı) durur. Msxeta Xaçının xarici kütlələri dağ kristalına bənzəyir, çünki bir-biri ilə mütənasib nisbətdədir. Dişlər sanki bir-birindən əmələ gəlmişlər, günbəz isə gövdənin həqiqi tacıdır.

## 14. Qərbi Avropada xristianlıq memarlığı

**Suallar**:

- ✓ Roman memarlığının görünüşünə nə səbəb olmuşdu və nə üçün Roman memarlığı müdafiə qala-istehkamına bənzəyir?
- ✓ Roman dövrünün adını nə müəyyən etdi?
- ✓ Müasir inşaat materiallarını və texnologiyalarını nəzərə almaqla müasir məbəd necə ola bilər?
- ✓ Məbədin interyerinin bəzədilməsi üçün müasir texnologiyalardan necə istifadə etmək olar?

**Cavab**:

- ✓ VI-X əsrlər ona görə Qaranlıq Orta Əsrlər adlanır, çünki Qərbi Avropada əhalinin çoxlu sayda köçü torpaqların bölünməsi üçün bitməyən müharibələrlə davam edirdi. Ərazilərin qorunub saxlanılması üçün feodallar möhkəm qala-istehkamlar qurmalı idilər. XI-XII əsrin Qərbi Avropa memarlığı məhz müdafiə tikililərinin şəklini daşıyır (qüllələr, qapalı divarlar, tüfəng üçün kəsilmiş dar pəncərələr).

*Müasir memarlığın interyer dekorunda rəqəmsal texnologiyaların istifadəsi ilə bağlı videonu izləyin:

Monreal Notr-Dam (Kanada) bazilikasında rəqəmsal proyeksiya:
https://www.youtube.com/watch?v=FV3XdOda3zM

**Roman məbəd dekoru üçün illüstrasiya materialı:**
Otiun məbədinin timpaniyası, XII əsr,Fransa.
https://bit.ly/3w3HXwa

Muasaki Sen Pyer Abbatlığının frizi, XII əsr.
https://lh4.googleusercontent.com/-2ERF55Dfiiw/UvQFzY1eQ1I/PlI/2l0TCoGAtjw/s1280/588.JPG

Muasaki Sen Pier Abbatlığı, Həzrəti Yeremya, XII əsr.
https://66.media.tumblr.com/tumblr_lr7vqyh1fx1r0pas8o1_1280.jpg

Muasaki Sen Pier Abbatlığı, Müqəddəs Pavel, XII əsr.
https://bit.ly/2XnxCww
https://bit.ly/3vXk75a
https://bit.ly/3bn0JqB
https://commons.wikimedia.org/wiki/Category:Porche_de_Moissac

Samson və Dalila, Oln məbədinin kapiteli, Fransa, XII əsr.
https://www.akg-images.com/Docs/AKG/Media/TR3_WATERMARKED/c/4/a/5/AKG3005792.jpg

Santiaqo De Kompostela kapiteli, İspaniya, XII əsr.
http://ep00.epimg.net/cultura/imagenes/2009/12/20/album/1261263602_910215_0000000001_album_normal.jpg

XII ə., Şovin Müq. Pyotr kilsəsinin kapiteli, Fransa
https://i.pinimg.com/originals/b3/d9/d6/b3d9d61d56fb472b5f3a5357d86cf222.jpg

XI-XII əsrlərin Konki (Fransa) Sen-Puas kilsəsinin timpanı "Dəhşətli məhkəmənin" kompozisiya detalı
https://i.ytimg.com/vi/L6SfO03oejM/maxresdefault.jpg

**15. Dini dekor (Qotika)**

- **Müzakirə et:**

✓ Qotika məbədini Roman məbədindən nə fərqləndirir?
✓ Bu fərqə nə səbəb oldu?
✓ Sən hansının ölçülərini daha çox bəyənirsən?
✓ İntibah dövrünün tədqiqatçıları ilə razısınızmı ki, onlar memarlığın fransız üslubunu bərbər üslübu adlandırırdılar?
✓ X-XI əsrin gürcü memarlığının nümunələrini nəzərdən keçir (Dördlər kilsəsi, Parxali, Alaverdi). Deyə bilərik ki, "qotika" uzunsov tənasüblüyə canatma Gürcüstanda daha əvvəl baş qaldırmışdı, nəinki Avropada? X-XI əsrin Avropa memarlığının tənasübləri necədir?
✓ Qotika dövründə monumental rəssamlığa hansı yeni sahə əlavə olundu? (vitraj)

**Cavablarla aşağıda tanış ola bilərsiniz** (Roman və Qotika incəsənətinin müqayisəvi T sxemində)

**İllüstrasiya materialı**:
XX əsrin vitrajı:
Anri Matis, (Fransa), XX əsr.
https://artsy-media-uploads.s3.amazonaws.com/CLN9_eiBXXLreZRJEd9Zuw%2F8130788144_044bebf3f2_o.jpg

Le Korbuzye, Ronşan kapellası (Fransa), XX əsr.
https://i.pinimg.com/originals/76/4b/7a/764b7a6b55fae4e8a0265eb05524f028.jpg

Mark Şaqal, müxtəlif ölkələrin məbədlərinin vitrajları, XX əsr.
https://www.dailyartmagazine.com/chagalls-stained-windows/



https://mimiberlin.com/sigmar-polke-in-the-grossmunster-cathedral/#jp-carousel-23954

2009-cu ildən bəri İsveçrənin Sürix şəhərində Ziqmar Polkes tərəfindən yerinə yetirilmiş vitrajlar daha çox turisti cəlb etməyə başladılar. Qrosmünster şüşələrini burada yarımdəyərli daşların nazik qabığı ilə bəzədilmiş şüşələr bəzəyirlər.

XX əsrin amerikalı incəsənətçisi, müasir tərzin nümayəndəsi Luis Komfort Tifanni məhz vitraj işıqlandırması ilə ad qazandı:



Luis Komfort Tifanninin lampası,  XX əsr
https://www.christies.com/features/Tiffany-lamps-10-things-you-need-to-know-9542-3.aspx

*Vitraj texnikası haqqında:
Qurğuşun arakəsmələrlə şəklin konturları və çərçivəsi yaranır. Arakəsmələrdə müvafiq formada rəngli şüşə qırıqları bərkidilir. Bu texnika  ilə qotika kilsələrində bəzən 20 metrə qədər yüksəklikdə şüşələr bərkidilirdi.

- **Müqayisəvi analiz:**

Roman və Qotika incəsənətinin müqayisəvi **T** sxemi:
Sxemin ehtimal nümunəsi:

| Roman incəsənəti | Qotika |
|---|---|
| Qədim Roma memarlıq ənənələrini davam etdirir | Yeni, indiyə qədər naməlum estetikanı yaradır* |
| Torpaqlanmış ölçülər | Şaquli uzadılmış  tənasüblər |
| Memarlıqda: massiv, ağır, bərk bölüşdürülməmiş divar, orada-burada yalnız heykəltəraşlıq dekoru ilə (güzgü, mehrab, tağ…) | Fasad, onun yüngül, tor kimi naxışlı skulpturalı dekorunun arxasında divar görünmür |
| Bəzi hallarda yoğun tənasüblərə malik kontrforslar | Yüksək kontrforslar arkbutanlarla (“zahiri tağlarla”) bəzədilmişdir |
| Memarlıq hissələri aydın şəkildə ayrılmışdır | Memarlıq hissələri bir-birinə “sarılmışdır” |
| Yarımdairəvi tağ | Oxvari tağ (ərəblərin təsiri ola bilər) |
| Yarımdairəvi portal | Oxvari portal itiuclu, dik frontonla |
| Az sayda kiçik ölçülü şüşələrlə zəif işıqlandırılmış interyer qorxuducu ilahi cəzalandırma ilə | Çoxlu geniş, yüksək vitrajlı şüşələri ilə gur işıqlandırılmış interyer ümidverici, mərhəmətli mühit yaradır |
| Portalın başında  kiçik dairəvi şüşə, b.a. “gül” | Portalın başında nəhəng dairəvi “gül” |
| Ciddi, qaranlıq, sakit | “Gözəl”, “zərif” “hərəkətli” |
| Statik | Dinamik |
| Fiqurlar “ruhsuz”,vəhşi”, qeyri-mütənasib, uzunsov, müstəvi, şərti | Fiqurlar yavaş-yavaş daha realistik olur, “ruhlanır”,  cismani olur, ölçüləri düzəlir |
| Fiqurlar arasında pozulmuş miqyaslar ilahi iyerarxiyanı ifadə edir | Fiqurlar arasında miqyaslar yenə də pozulmuşlar |

**Praktiki tapşırıqlar:**
- ✓ **Kilsənin ümumi cizgisinin çəkilməsi**  (fərdi);
- ✓ **Qarquliyaların  yonulması (**sinif, fərdi**)**

Yumor və fantaziyanıza güc verin və plastilinlə qarquliyanın qrotesk fiqurunu yonun.
**Nəzərə al**:
- Qrotesk rişxənd məqsədilə təsvirin ayrı-ayrı hissələrinin mübaliğə edilməsini, şişirdilməsini nəzərdə tutur.

- Qarquliya su navalçasının dekorudur. Onun deşiyi var və buradan da su axır. Bu deşik funksiyasını ağız, burun və ya qulaq yerinə yetirir, sən bunlardan birini seçə bilərsən.



Plastilinlə hazırlanan qarquliyaların nümunələri:
https://pbs.twimg.com/media/DEnpHpDXoAEY4dB?format=jpg&name=small
https://pbs.twimg.com/media/DEnpHpBXsAUjLWf.jpg

- **Vitraj imitasiyasının hazırlanması** (bir neçə variant) və qotika kafedralının şəkil fasada yerləşdirilməsi.

*Şagirdlər həm simmetrial, eləcə də assimetrial, həm fiqurlu, eləcə də abstraktiv vitraj yarada bilərlər. Dəyirmi, simmetrik təsvir Mandala prinsipi ilə, eləcə də radial qurula bilər.

Vitraj üçün gül formasının hazırlanması (qrup və ya fərdi, sinif)

Material:
plastilin
plastmas lövhə
təbaşir
su
duru sabun
plastmas stəkan
qaşıq
fırça

1. Qotika məbədlərinin gül ornamentini müşahidə et.
2. Ornamentin tərkib detalının şəklini çək və yon.
3. Plastilin modelini plastmas lövhənin üzərinə yerləşdir.
4. Modelə və onun ətrafındakı lövhəyə fırça ilə duru sabun çəkin.
5. 1/2 stəkan suya bir neçə qaşıq təbaşir əlavə et. Ehtiyatla məhlulu qarışdır ki, xama qatılığında kütlə alınsın.
6. Lövhəyə bərkidilmiş detail bütövlükdə qalın təbaşir qatı ilə ört. Təbaşirin qurumağına imkan ver və plastilin modelini götür.

7. Təbaşir qəlibi ilə ornamentin detallarının tökülməsi üçün nazik təbaşir məhlulunu hazırla. Qəlibin içərisinə duru sabun çək və qəlibə təbaşir məhlulunu tök. Detalı qəlibdən yalnız sonuna qədər quruduğundan sonra çıxarmaq olar. Hər yeni detal üçün yeni təbaşir məhlulunu hazırla.

8. Bu üsulla bir neçə eyni detal hazırla və bir bütöv ornamenti hazırla.

Vitrajın hazırlanması
Variant I:
Material:
kağız
markerlər
şüşə parçası
duru yapışqan PVA
nazik məftil
quaş
fırça

Mərhələlər:
- Kağızda oxvari qapağın və ya gülün dairəvi formasının sadə kontur şəklini çək.
- Markerlərlə rənglə.
- Üzərindən şüşə qoy.
- Məftili yapışqana batır və məftili şüşə üzərinə konturlar boyunca qoy. Qurumağını gözlə.
- Məftillər arasında sahələri istədiyin rəngdə markerlə və ya quaşla rənglə.

Variant II:
Material:
kağız
sadə karandaş
şəffaf perqament kağız
markerlər
kağız üçün quru yapışqan
qayçı
quaş
Mərhələlər:
- iki qalın kağızdan oxvari şüşə və ya gülün dairəvi formasını kəs;
- onlardan birində divarın imitasiyasını çək (daş və ya kərpicin düzülüşü) və quaşla rənglə;
- "divar" quruyana qədər kəsilmiş "şüşədə" kontur şəklini çək;
- markerlərlə rənglə;
- bəzədilmiş "şüşənin" üzərindən perqament şəffaf kağızını qoy. Nəzərə al ki, perqament parçası ölçüsü ilə şəkildən bir az böyük olsun;
- perqamentin aşağısından şəkil görünəcəkdir;
- şüşənin şəklini perqamentə çək və sahələrini istənilən rənglərlə boya;
- konturları qara iri markerlə çək;
- artıq qurumuş "divarın" tərəfinə, kəsilmiş şüşənin kənarlarına kağız üçün quru yapışqan çək;
- üzərinə perqament parçasını elə qoyun ki, şəkil dəqiq şüşənin açıqlığında otursun;
- perqamentin kənarlarına yenə də yapışqan sürt;
- üzərindən ikinci kağızı elə ört ki, açıqlıq yenə də şəklə uyğun olsun;
- əlinlə bərk tut ki, qatlar bir-birinə yaxşı yapışsın.



https://bit.ly/2XmGFhy
Variant III:
Köhnə, lazımsız kompüter üçün kompakt diskin (CD) gümüşü tərəfinə skoç yapışdırın. Skoçu dartıb çıxarın. Diskin gümüşü qabığı soyulacaqdır. Şəffaf dairəvi forma alınacaqdır və gül formasını hazırlamaq üçün istifadə edə bilərsən.

Videotəlimata bax: https://www.youtube.com/watch?v=bGzj9Ue6e3M

İşin təşkili üsulu:
Qotika üslubunda oxvari şüşə və ya dairəvi gül forması ilə vitraj düzəlt. Ayrıca böyük ölçülü formatda qotika kafedral fasadının şəklini çək, vitraj yerlərini kəs və arxasına vitraj fasadının şəklini yapışdır.



https://i.pinimg.com/originals/d5/6d/92/d56d92a7f5d5e8e411e097281128ad1f.jpg

Başqa variantın videotəlimatı:
https://www.youtube.com/watch?v=vt6_CAoBkfI

Qotika gülünün şablonları:



https://shutr.bz/3ou6vfl



https://www.shutterstock.com/image-vector/gothic-rosette-window-pattern-vector-black-352124489



https://www.shutterstock.com/image-illustration/template-drawing-medieval-round-ornament-stained-1567588027

**Kompleksli tapşırıqlar üçün tövsiyələr:**
**“Məbəd” layihəsi** (Şagird dərsliyi, səh.115)
Bizans, gürcü, roman və qotika məbədlərinin fasadlarının, karton üçölçülü modellərinin yaradılması və müvafiq dekorla bəzədilməsi (materialın fakturası, qarquliyalar, vitraj, oyma və s.)

**Material**:
• qalın karton; perqament şəffaf kağız
• markerlər,
• akvarel boya, quaş
• yapışqan
• kağız kəsmək üçün bıçaq, qayçı

1. Müxtəlif dövrlərin tikililərini axtarıb tap. Onların xüsusiyyətlərinə diqqət ver. Birini seç. Onun haqqında məlumatlar axtarıb tap, seçdiyin məbəd haqqında qısa məruzə yaz (dövr, ölkə, təyinatı, üslubu, qısa tarixi).
2. Bu məbədi nə üçün seçdiyini, onun tarixində və ya memarlığında sənin üçün maraqlı olanı yaz.
3. Qalın karton parçası ilə seçdiyin məbədin fasadının maketini hazırla. Qalın kartonda tikilinin fasad şəklini çək və kəs. Şüşələrini kəs. Divar fakturasının imitasiyası üçün (daş və ya kərpic quruluşu) kartonu qum qatışıqlı quaşla rənglə. Məbədin fasadına uyğun dekor düzəlt (ornament, relyef, skulptur, vitraj və s.).

“Divar” quruyana qədər kəsilmiş “şüşənin” arxasına şəffaf perqament kağızını qoy. Nəzərə al ki, perqament parçası ölçüsü ilə şüşədən böyük olmalıdır.
Perqament üzərində şüşənin cizgisini çək və vitrajı rənglə, konturları qara qalın markerlə qeyd et. Hazır vitrajları şüşələrə yapışdır.





https://i.pinimg.com/originals/17/95/24/179524c54ac0f490be3043dcb44cc387.jpg

**Resurslar**:

**Orta əsrlərin gürcü memarlığı:**

http://www.dzeglebi.ge/dzeglebi/sakulto_nagebobebihtml.html
http://saunje.ge/index.php?option=com_content&view=article&id=11&Itemid=3&lang=ru

Planların oxunulması üçün: Natela Cabua, Orta Əsr Gürcüstanında xristian məbədinin memarlıq növləri:
http://dspace.nplg.gov.ge/bitstream/1234/11509/1/Arqiteqturuli_tipebi.pdf

*Şagirdin tikilinin bazilika və ya günbəz növünə aid olduğunu, absidin, köməkçi otaqların, aşırmanın, bürclərin, günbəzin, girişin, darvaza və pəncərələrin harada olduğunu düzgün göstərə bildiyində, planın oxunulması nailiyyətli hesab ediləcəkdir.

Xristian məbədinin kahinlik hissələrinin ilahi simvolikası haqqında link: Ketevan Abaşidze, Xristian məbədinin kahin şəkli:
http://www.orthodoxy.ge/sakhli/qristianuli_tadzari.htm

Dünya incəsənəti, Nana Maçaraşvili, Nino Silaqadze. “Meridian” Tbilisi, 2010:

**Bizans və Qərbi Avropa memarlığı:**

Ernst Qombrix, İncəsənət əhvalatı, Loqos pres, 2012
https://bit.ly/2TZ3R3d

Bizansın memarlıq nümunələri:
https://bit.ly/3obsxTU

Roman memarlığı::
https://bit.ly/3bnLPR3

Qotika memarlığı:
https://bit.ly/3febCMt

Qarquliyalar:
https://artsandculture.google.com/exhibit/gargoyles-and-grotesques/dwIyM3GPNKfqLA

https://www.gettyimages.ca/photos/gargoyles?phrase=gargoyles&sort=mostpopular#license

Vitraj:
https://bit.ly/3tD3Fpi

**Yekunlaşdırıcı yazının çap forması** (bütövlükdə Əlavədə izləyə bilərsiniz):

Müqayisəvi analiz
Sinif: VIII şagirdi _________________ tarix ________
Tapşırığın şərti:
Verilən illüstrasiyalardan istifadə et və 4-cü bəndə əsasən verilən əsərləri bir-biri ilə müqayisə et.

1. İncəsənətin hansı sahəsinin nümunələri təqdim edilmişdir? İncəsənət nümunələrinin ümumi və fərqləndirici bədii əlamətlərini təyin et: onlarda hansı təsviri vasitələr və təsviri üsullardan istifadə olunmuşdur?
2. Xüsusiyyətlərinə əsasən, nümunələri incəsənət tarixinin müəyyən dövrünə aid et. Fikrini əsaslandır.
3. Müzakirə et ki, nümunələr arasında üslub fərqinə nə səbəb olmuşdur. Fikrini əsaslandır
4. Öz münasibətini bildir ki, hansını daha çox bəyənirsən və nə üçün?



Şartri şəhəri Notr-Dam kafedralı, Fransa, XII əsrin ortaları



Naumburq şəhərinin kafedralı, XIII əsrin ortaları

**Qiymətləndirmə kriteriləri**:

**Təsviri incəsənətin bədii-təsviri vasitələri (elementlər) və üslublar (prinsiplər)**
**Təsviri incəsənət texnikası**

- İncəsənətin istənilən formasını seçir (məsələn, maket və s.), fikrini daha yaxşı ötürmək üçün müvafiq bədii-təsviri vasitələrdən, üsullardan, materialdan və texnikadan istifadə edir (Təs.tət.baz. 1,2,4);
- İşində seçilmiş dövrdə və ya mədəniyyətdə insana təsir etmək üçün istifadə edilən bədii-təsviri üsullardan istifadə edir (forma, miqyas, tənasüblük, ornament və s.) (Təs.tət.baz. 1, 4);

**Təsviri incəsənətin sahələri və janrları**
**Müxtəlif dövrün/cərəyanın/tərzin incəsənətinin xarakterik əlamətləri/bədii xüsusiyyətlər**
- hər hansı bir dövrün və ya mədəniyyətin incəsənət əsərini analiz edir və onun vasitəsilə hansı məlumatı aldığını müzakirə edir (Təs.tət.baz. 3);
- İncəsənətin cəmiyyətə təsiri formalarını və bədii-təsviri üsulları analiz edir (Təs.tət.baz. 3,4);
- İncəsənət barəsində, cəmiyyət üçün özünüifadəetmə vasitəsi kimi müzakirə edir, bir neçə misal gətirir (Təs.tət.baz. 3,4);
- Bir neçə misalın əsasında mədəniyyətin/mədəniyyətlərin və ya dövrlərin bir-birinə təsirini müzakirə edir (Təs.tət.baz.4);
- Cəmiyyətə təsir vasitələrinə əsasən iki dövrü və ya mədəniyyəti müqayisə edir (Təs.tət.baz. 1,2,4);

**Kompleksli tapşırığın qiymətləndirilməsi haqqında əlavə məlumat:**
**"Məbəd" layihəsinin maketi:** #
- Maket məbəd tipinin özünəməxsusluğunu nəzərdə tutur (məs., aşırımlar, günbəz, dekor….),
- Əsər yaradıcılıqla, aktual yerinə yetirilmişdir, material fikrə uyğun olaraq yerinə yetirilmişdir, müddətlərə əməl edilmişdir.
- İşi qısa məruzə müşayiət edir.

*Maketin qiymətləndirilmə sxeminə baxın Əlavədə.

## Tematik blok. İnsan incəsənətdə. (18 +2 saat)

***Şagird kitabında fəsillərin ardıcıllığı:***


Dərs mövzusu: İnsan dünyanın mərkəzində ....117

1. Humanist insan ....118
2. İnsana həcmi kim qaytardı? ....122
3. İnsan İntibah dövrünün heykəltəraşlığında ....128
4. Yüksək intibah....134
5. Sonun əvvəli ....146
6. Şimali Avropa İntibahında insan....156
7. İncəsənət səfehliyə qarşı ....162
8. Duyğu və emosiya ....170
9. Xarakter və mimika ....180
10. Psixoloji portret ....184
11. Kamera və şənlik portreti....196
12. Barokko dövrünün insanı....210
13. Qrup portreti ....214
14. Avtoportret....224
15. İnsanın məişəti....236
16. Kostyum nədən danışır ....250

**TEMATİK BLOK 2. İNSAN İNCƏSƏNƏTDƏ**

**Mövzu: İnsan dünyanın mərkəzində** **saatların ehtimal sayı: 18 + 2 saat**

**Mövzu ilə bağlı bərqərar edilmiş təsəvvürlər:**

- Təsviri vasitələrin və üsulların istifadəsi ilə insanlar ideyaları, hissləri, emosiyaları ifadə edirlər.
- Müxtəlif dövrlərdə insanın müxtəlif dünyagörüşü var idi və incəsənətşünaslar bunu öz zamanələrinin bədii dili və tərzi ilə ötürürlər.
- Müxtəlif dövrün incəsənətşünasları insanın ətraf mühitə olan asılılığını, zahiri görünüşünü, ideyalarını, duyğularını, xarakterini, maraqlarını, onun social vəziyyətini, yaşadığı mühiti və gündəlik həyatını ötürmək üçün müxtəlif bədii üsulu inkişaf etdirirdilər.
- İnsanın zahiri və ya daxili xüsusiyyətlərini/xassələrini müxtəlif təsviri vasitələrlə və üsullarla ötürmək olar.

**Tematik blok çərçivəsində üzərində işləniləsi mövzular və yarımmövzular:**

1. İnsanın müxtəlif dövrdə müxtəlif təsviri
2. İnsanın ölçüləri
3. Daxili aləmin təsviri yolları
4. Portretin növləri
5. Məişət janrı
6. Kostyum

| **Hədəf anlayışları və bunlarla bağlı bərqərar olmuş təsəvvürlər:** | **Məsələ və yarımanlayışlar:** | **Əsas sual/suallar:** | **Kompleksli tapşırıqlar (tiplər):** |
|---|---|---|---|
| **Təsviri incəsənətin bədii-təsviri vasitələri (elementləri) və üsulları (prinsipləri)**<br><br>• İnsan incəsənət nümunəsini yaratmaq üçün incəsənət dilindən, yəni təsviri incəsənətin elementlərindən və prinsiplərindən istifadə edir;<br>• Təsviri incəsənət dilindən nəinki işi yaratdıqda, eləcə də incəsənət nümunələri üzrə təəssüratları, ideyaları, fikri bildirdikdə istifadə edirik;<br>**Təsviri incəsənət texnikası**<br>• İncəsənətçi materialı və texnikanı bədii fikrə əsasən seçir.<br>• bəşəriyyətin inkişafı ilə birlikdə incəsənətin yeni formaları, material və texnika inkişaf edirdi, dəyişirdi və yaranırdı<br>**Təsviri incəsənət sahələri və janrları**<br>• Gündəlik həyatımızda incəsənətə müxtəlif şəkildə təsadüf edirik;<br>• İncəsənət nümunələri müxtəlif məqsədlərlə və təyinatla yaranır;<br>• İncəsənət sahələrinin bölgüsünə istifadə edilən material, texnika və ya təyinat səbəb olur;<br>• hər bir sahə üçün təsviri incəsənətin hər hansı bir təsviri vasitəsi və ya üsulu daha çox xarakterikdir; | **Vasitələr (elementlər):**<br>(forma, həcm, işıq-kölgə, ton, fon və təsvirin qarşılıqlı yanaşması);<br><br>**Üsullar (prinsiplər):**<br>tarazlıq,<br>simmetria,<br>statika/dinamika, ölçülər,<br>miqyas,<br>perspektiv.<br><br>**Sahələr:**<br>boyakarlıq,<br>qrafika,<br>heykəltəraşlıq;<br>fotoqrafiya<br>**Janrlar:**<br>portret,<br>məişət;<br>**Texnika:**<br>rəssamlıq, yapmaq,<br>rəqəmsal media;<br><br>**Dövr/mədəniyyət/cərəyan/tərz və müvafiq incəsənət əsərləri**<br>İntibah dövrü, barokko | • İnsanlar özünüifadəetmə üçün incəsənətdən necə istifadə edirlər?<br>• Müxtəlif dövrün incəsənətində insanı necə əks etdirirlər?<br>• İnsanın ətraf mühitə olan asılılığını, zahiri görünüşünü, ideyalarını, duyğularını, xarakterini, maraqlarını, onun sosial vəziyyətini, yaşadığı mühiti və gündəlik həyatını ötürmək üçün təsviri üsullar zamanla necə dəyişirdi?<br><br>• İdeyalarımın, duyğularımın, xarakterimi, maraqlarımı, | **Praktiki iş** (müəllimin seçimi ilə):<br>• **Çalışmalar**: tonal qradasiya və həcm karandaşla və boyalarla<br>• Mikelancelonun “Pietta” heykəlinin karandaşla cizgisini çəkmək;<br><br>**Müqayisəvi analiz və tədqiqat**<br>• ölçülərin tədqiqatı və insan fiqurunun şəklinin çəkilməsi<br>• plastilinlə insan təsvirinin yonulması kontrapost pozasında;<br>• qrotesk heykəli |

<table>
<tr>
<td>

- Təsviri incəsənət janrlara təsvir edilən mövzuya əsasən bölünür.

**Müxtəlif dövrün/mədəniyyətin/cərəyanın/tərzin incəsənətin xarakterik xüsusiyyətləri**

- hər dövrün, cərəyanın, tərzin incəsənətşünasının öz xüsusiyyəti var və buna da müxtəlif amil səbəb olur;
- İncəsənətdə davam edən dəyişikliklər (incəsənətin təyinatı, ona olan yanaşma, bədii-təsviri vasitələr, üsullar, texnika, material, alət, sahələr, formalar və s.) bəşər tarixində davam edən dəyişikliklərlə (dünyagörüşü, texniki tərəqqi, qloballaşma və s.) birbaşa əlaqədədir;
- müxtəlif dövrün və mədəniyyətin incəsənətinin formalaşdırılmasında böyük rolu qarşılıqlı təsir oynayır;
- İncəsənətin vasitəsilə müxtəlif dövrün və mədəniyyətin haqqında çox məlumatlar almaq olar

</td>
<td></td>
<td>sosial vəziyyətimi, yaşadığım yeri və gündəlik həyatımı ötürmək üçün təsviri vasitələrdən və üsullardan necə istifadə edə bilərəm?</td>
<td>

- yoldaşın heykəli <u>(cütlükdə iş</u>)

**Kompleksli layihələr**

- məruzə; (<u>icbari</u>)
- animasiya
- triptikon
- yoldaşın portreti
- avtoportret;
- (<u>icbari</u>)
- fotoportret
- avtoportret
- debatlar (<u>icbari</u>):
- "Qadın incəsənətşünaslar, kişilər kimi, eyni hüquqlarla faydalanmalıdırlar"
- tarixi kostyum geyinmiş kuklanın hazırlanması (<u>icbari</u>)
- Reportaj:
- XX-XXI əsrin uşaqlarının məişəti və dəbi.

</td>
</tr>
<tr>
<td colspan="4">

**"İnsan dünyanın mərkəzində" mövzusu üçün qiymətləndirmə kriteriləri:**

</td>
</tr>
<tr>
<td colspan="4">

**Təsviri incəsənətin bədii-təsviri vasitələri (elementlər) və üsullar (prinsiplər), təsviri incəsənət texnikası:**

- İnsanı müvafiq təsviri vasitələrdən və üsullardan (həcm, işıq-kölgə, tonal qradasiya, faktura, ölçülər, detal və s.), müxtəlif materialdan və texnikadan istifadə etməklə təsvir edir **(Təs.tət.baz.1,2);**
- Əsərdə (məs., portretdə) ideyanın və ya əhval-ruhiyyənin və emosiyanın ötürülməsi üçün bir və ya bir neçə bədii-təsviri vasitədən, üsuldan (işıq-kölgə, tonal qradasiya, kontrast, kompozisiya bölgüsü, vurğulama, detal, poza, jest, mimika və s.) istifadə edir (**Təs.tət.baz.1);**
- Portretdə istifadə edilən bədii-təsviri vasitələri, üsulları analiz edir və müzakirə edir ki, müəllif bunların vasitəsilə nəyi ötürmək istəyirdi (zahiri görünüş, xarakter, sosial status və s.) (**Təs.tət.baz.3);**

**Müxtəlif dövrün/mədəniyyətin/cərəyanın/tərzin incəsənətin xarakterik əlamətləri/bədii xüsusiyyətləri**

**Təsviri incəsənət sahələri və janrları:**

- Əsərdə şəxsi fikrini, ideyasını ötürmək üçün təsviri incəsənət sahəsini, janrı, bədii üsulları, materialı və texnikanı seçir və təsviri incəsənət barəsində, özünüifadə vasitələri kimi müzakirə edir **(Təs.tət.baz.2,3);**
- Bir və ya bir neçə incəsənət nümunəsinin əsasında müzakirə aparır ki, müxtəlif dövrlərdə insanların daxili aləmlərini necə təsvir edirdilər **(Təs.tət.baz.3,4);**

</td>
</tr>
</table>

- Portretin və ya məişət janrının yaranma səbəblərini təhlil edir **(Təs.tət.baz.4);**
- Bir neçə incəsənətşünasın yaradıcılığını analiz edir və müzakirə edir ki, onların əsərlərində nümayəndələri olduqları mədəniyyətin təsiri əks olunmuşdurmu və hansı şəkildə **(Təs.tət.baz.3,4).**
- Hər hansı iki dövrün, sahənin, tərzin, cərəyanın əsərlərini (portretlər, məişət janrı) bir-biri ilə müqayisə edir, oxşarlıq-fərqləri, özünəməxsusluqları müzakirə edir **(Təs.tət.baz.4).**

**TAPŞIRIQLARIN MATRİSASI 2/1**

<table>
<tr><td colspan="3">Dərslər 1 - 5 Birləşdirici mövzu: İntibah dövrünün insanı</td></tr>
<tr><td>Məsələ və yarımanlayışlar</td><td>Əsas sual/suallar</td><td>Kompleksli tapşırıqlar</td></tr>
<tr><td>Elementlər:<br>Xətt (ştrix, çarpaz ştrixlənmə), forma, həcm, işıq-kölgə (solğun işıq, şəxsi kölgə, düşən kölgə), ton (və onun qradasiyası)<br><br>Prinsiplər:<br>ölçülər, miqyas, perspektiv<br><br>Sahələr:<br>Rəssamlıq, heykəltəraşlıq<br><br>Janrlar:<br>müxtəlif<br><br>Təsviri incəsənət texnikası:<br>karandaş, akvarel, quaş<br><br>Dövr/tərz/cərəyan:<br>İntibah dövrü</td><td>• İncəsənətdə insan haqqında təsəvvür necə əks olunur?<br>• İntibah dövründə insana yanaşma necə dəyişdi?<br>• İntibah humanizmi nəyi nəzərdə tutur?<br>• İkona yazısının şərti bədii dili İntibah şərti bədii dilindən nə ilə fərqlənir?<br>• Yerə düşən kölgə nədən xəbər verir, ilahi və ya bunların olmaması?<br>• İnsanın fiqurunu və zahiri görünüşünü realistik bədii üsullarla necə ötürüm (həcmə, işıq-kölgəyə, tonal qradasiyaya və ölçülərə əməl etməklə)?</td><td rowspan="2">Tədqiqat və məruzə<br><br>İntibah dövrünün hər hansı bir incəsənətşünasının əərində insan necə təsəvvür edilmişdir mövzusu üzrə (<u>icbari</u>)<br>• Animasiya (müstəqil və ya cütlüklərdə)</td></tr>
<tr><td colspan="2">1. İnsan humanist<br>• Diskussiya:<br>Diskussiya sualları:<br>• İncəsənətdə insan haqqında təsəvvür necə əks olunur?<br>• İnsanın antik idealı necədir?<br>• Nə üçün sıravi insan Orta Əsrlərin təsviri incəsənətindən yox oldu?<br>• İntibah dövründə insana olan münasibət necə dəyişdi?<br>• Antik və İntibah dövrünün qəhrəmanı simaları arasında ümumi nədir?<br>• İntibah dövrü necə bir insanın idealını bərqərar edir?<br>• İntibah humanizmi nəyi nəzərdə tutur?<br>• İkona yazısının şərti bədii dili İntibah dövrünün dilindən nə ilə fərqlənir?<br>• Yerə düşən kölgə nədən xəbər verir, ilahi və ya bunların olmamasından?<br><br>Diskussiya suallarının cavabları:<br>• Müxtəlif dövrdə insanın müxtəlif növ idealı formalaşır. İncəsənət bu idealı əks etdirir.<br>    • Antik dövrdə fiziki və mənəvi eyni inkişaf etmiş insan ideal kimi bərqərar olur: filosof, atlet, qəhrəman, doğma şəhərin-polisin müdafiəçisi.<br>• Orta əsrlərin ikona yazısı dini qəhrəmanları, müqəddəsləri əks etdirir. Dünyəvi şəxsin əks etdirildiyi halda, sifarişçidir (ktitor) və yalvaran, dua edən mömin kimi təqdim olunur.<br>• İntibah dövründə yenə də insana maraq qayıdır. İnsan tanrının ən yaxşı əsəri kimi dünyanın mərkəzinə çevrilir.</td></tr>
</table>

- Antik və İntibah qəhrəmanlarının simaları arasında insanın əqli, yaradıcılıq və intellektual imkanlarında ümumi olanı inamdır.
- İntibah dövrü tədqiqatçı, alim, özünə inamlı, çox şeyə qadir insanın idealını bərqərar edir.
- İntibah humanizmi antik mədəni irsin öyrənilməsi əsasında alınan təhsilin inkişafını, zəmanənin insanı və onun ətrafında mövcud dünyanın öyrənilməsini nəzərdə tutur.
- İkona yazısının şərti bədii dili dini ideyaları, onların ilahi mənası ilə təqdim edir. Bunun üçün dünyəvi, həcmli, realistik bədii üsullara (işıq-kölgə, tonal qradasiya, əşyalar arasında miqyaslı nisbət, düzgün ölçülər və s.) laqeyd yanaşır və bunun əvəzinə formanın müstəvi, xətli işindən, fon kimi isə irreal (bir çox hallarda qızılı) rəngdən, mütənasibsizlikdən, əşyalar arasında miqyaslı nisbətin pozulmasından, əks-perspektivdən istifadə edir.
- İntibah isə antik realistik bədii dili bərpa edir və onu inkişaf etdirir (düzgün ölçülər, anatomik dəqiqlik, xətli və fəza perspektivi, əşyalar arasında miqyaslı nisbət və s.)
- Yerə düşən kölgə qəhrəmanın insan olmasından xəbər verir, kölgənin olmaması isə – ilahi işıqla saçır. Nimb məhz bu ilahi işığın əlamətidir, onun olmaması isə insanın dünyəvi təbiətə aid olmasına işarə edir.

**2. İnsana həcmi kim qaytardı?**

**Müzakirə:**

Bizans təsviri işarələrini yadına sal və Çimabuenin "Maesta" əsərini xarakterizə et.

**Cavab:**

Qızılı fonda simmetrik yerləşdirilmiş fiqurlar "çəkisiz", "ruhsuz" və yastıdır. Forma bucaq xətləri ilə ötürülmüşdür. Bu kobudluğu yalnız Müqəddəs Ananın silueti yumşaldır. Məryəmin təsviri miqyasları ilə digərlərindən böyükdür. Simaların hamısı eynidir, mimika və jestikulyasiya ifadəsiz, şərtidir.

**Sual**:

Cottonun freskalarında fiqurları müşahidə et. Onlarda düşən kölgə varmı? Dərslikdə Orta Əsrlərin ikonalarını, freskalarını və mozaikalarını nəzərdən keçir. Müşahidə et ki, fiqurların düşən kölgələri varmı?

**Tapşırıq**:

Növbəti dərslərin illüstrasiyalarını müşahidə et. Nə vaxtdan yerə düşən kölgə əmələ gəlir? Cottonun freskalarında paltarın qatlarını müşahidə edin. Drapirovka necə ötürülmüşdür – xətlərlə və ya ya işıq-kölgə ilə və tonal qradasiya ilə? Ən işıqlı yer haradadır? Ən kölgəli yerlər haradadır? Müvafiq olaraq, onlara işıq haradan düşür?

**Praktiki fəallıqlar**:

- **Karandaşla müxtəlif istiqamətdə və tündlükdə ştrixlərin çəkilməsində çalışma** (müstəqil iş):

Şagirdlər karandaşla müxtəlif istiqamətdə və tündlükdə ştrixlərin çəkilişində çalışırlar (eləcə də çarpaz ştrixlənmə üsulu ilə tanış olurlar).



- **Kürə karandaşla** (müstəqil iş):

Şagirdlər sürətli hərəkətlə dairə çəkirlər. Dairə formasının kontur xətti ilə ideala çatdırılması vacib deyil. Bu nöqsan sonralar ştrixlərlə düzələcəkdir. Dairədə onların təsəvvürlərində işıq düşən yeri solğun şəkildə işarə edirlər və müvafiq olaraq, ən çox işıqlandırılmış olmalıdır. Bu parçanı ağ buraxırlar. Masaya düşən kölgə işıqlandırmanın qarşı tərəfinə düşür.
Şagirdlər ən qaranlıq sahəni və düşən kölgənin yerini yüngülcə ştrixləyirlər. Sonra da yavaş-yavaş kürəni tonal qradasiyadan istifadə edərək tündləşdirirlər. Ştrixləmə prosesində, ştrixlərlə kürənin formasını düzəldirlər.
Şagirdlər nəzərə almalıdırlar ki, şəkildə maksimal tündlüyün əldə edilməsi iki yolla alınır:

1. Yavaş-yavaş, qat-qat yüngül ştrixlərlə tündləşdirmək. Bu halda, əşyanın həcmini tonallığın eyni qradasiyası ilə əldə edirlər.
2. Bəri başdanca, karandaşa basmaqla maksimal tünd ştrixlərlə çəkmək, növbəti, açıq rəngli yerlərdə isə, hər növbəti sahədə karandaşa nisbətən az basmaqla çəkmək. Bu halda tonal qradasiya kobud, açıq, bucaq kimi alına bilər.






http://podg-kursy.ru/images/stories/fruit/untitled-37.jpg

- **Akvarellə həcmli kürə** (müstəqil iş);

Şagirdlər bir rəngli akvarel boyası ilə kürəni rəngləyirlər. Yuma metodu ilə kürəyə həcmli forma verirlər.
Akvarellə tonal qradasiya sxemini düzəldirlər:




https://watercoloraffair.com/wp-content/uploads/2019/02/watercolor-skin-tone.jpg

- Şagirdlər akvarellə müxtəlif rəngin tünd tonunun çəkilməsində əllərini çalışdırırlar. Rənglərin çarxını müşahidə edirlər. Bütövlükdə, eyni intensivliklə vərəqin uzun zolağını bir rəngdə boya ilə rəngləyirlər. Gözləri ilə işığın düşdüyü və nisbətən açıq tonda olacaq sahəni işarələyirlər. Təmiz suya batırılmış fırça ilə işarə edilmiş sahəni

yuyurlar. Çalışmalıdırlar ki, eyni şəkildə və yavaş-yavaş tünd tonu açığa keçirsinlər.
*Yuma metodu təmiz suya batırılmış fırça ilə şəkildən akvarel boyasının təmizlənməsini nəzərdə tutur.

- **Tonal qradasiya quaş ilə** (müstəqil iş):

Şagirdlər quaş boyası ilə kürə şəklini çəkirlər. Yuma metodunun əvəzinə, rəngi açıqlamaq üçün, quaş boyasını ağ rənglə qarışdırmalıdırlar.




https://bit.ly/3bpdBfJ

- **Karandaşla drapirovka** (müstəqil iş)

Sadə karandaşla, ştrixlərin və çarpaz ştrixlərin vasitəsilə, şagirdlər drapirovkanı çəkirlər. Parçanı masanın üzərində açın və ya divardan elə asın ki, bir neçə qat olsun. Şagirdlər sadə karandaşla drapirovkanı çəkirlər. Onlar diqqəti işıq-kölgəyə və tonal qradasiyaya yönəldirlər.



https://i.pinimg.com/originals/95/2f/e2/952fe22fa5de31798b43beff3346b5d8.jpg



https://i.pinimg.com/originals/e5/cb/69/e5cb69da2c1f45e5e28cdc6050e1a92b.jpg

**Akvarellə drapirovka:** (müstəqil iş)
Şagirdlər akvarel və ya quaş boyası ilə drapirovkanı çəkməlidirlər. Nəzərə almalıdırlar ki, akvarel boyası nə qədər çox sulu olarsa, bir o qədər açıq rəngdə və şəffaf olur.
Akvarel boyası ilə çəkilən tünd, intensiv rəngli ləkəni açmaq olar - təmiz suya batırılmış fırça ilə və ya süngərlə yusunlar. Quaş boyasını təmizləmək üçün onu ağ rəngli boya ilə qarışdırmaq lazımdır.
Cotto, Müqəddəs Yoakimenin yuxusu", freskanın detalı Kapella Skroven, Padua
https://bit.ly/2XNKlrF

Akvarellə yerinə yetirilmiş drapirovka nümunəsi:
https://bit.ly/2MhUckb

Quaşla yerinə yetirilmiş drapirovka nümunəsi:
https://bit.ly/2TVvzO7

**3. İnsan İntibah Dövrünün heykəltəraşlığında**

**Ötən biliyin aktivləşdirilməsi:**

Yaxşı olardı ki, müəllim şagirdlərə Antik Dövrün incəsənətinin dövrlərini və onların insanın bədən anatomiyası və ölçülərinin öyrənilməsi tərəfindən xüsusiyyətlərini xatırlatsın.

Antik Dövrün incəsənət dövrləri:
Arxaika – e.ə. VIII-V əsrlər
Klassika – e.ə. V-IV əsrlər
Ellinizm – e.ə. IV əsrin II yarısından e.ə. I əsrə qədər.

**Müqayisəvi analiz** (yazılı məruzə)**:**

- ✓ İncilin Çar Davudun roman relyeflərini və İntibah heykəllərini bir-biri ilə müqayisə et.
- ✓ Heykəltəraşlar qəhrəman gənci necə təsəvvür və xarakterizə edirdilər?
- ✓ Roman və İntibah dövrünün heykəlləri hansı atributlarla fərqlənirlər?
- ✓ Fikrini bildir ki, bu atributlar İncildə verilən Davudunun hansı aspektlə göstərilməsinə xidmət edirlər?

**Analiz nümunəsi:**

Orta Əsrlərin roman relyeflərində İncildə verilən çar Davud lira ilə, zabur ifaçısı, tanrını ucaldan kimi təqdim edilir. Duaçının lirası Çar Davudun dahi tərəfini vurğulayır. Bu atribut dini ideyaların bərqərar edilməsi istəyinə uyğundur. Roman heykəltəraşlığında anatomik dəqiqlik nəzərə alınmır, ölçülər pozulmuşdur, həcmlər şərti, fəzada, xətlərin vasitəsilə göstərilir. İntibah dövrünün Davudları döyüşkən, nəhəngi məğlub edən qəhrəmanlar kimi təqdim olunurlar. Onların atributları (zireh, qılınc) çağırışlarla ayaqlaşmaq bacarığına malik, zəfər çalan qəhrəman şəklini bərqərar edirdilər ki, bunlar da İntibah dövrünün humanist ideyalarına uyğun idi.

İntibah Dövrünün Davudu qalibdir, o, nəhəngi məğlub etmişdir. İntibah heykəltəraşlığında Antik incəsənətin təsiri görünür – onların formaları həcmlidir, ölçüləri anatomik cəhətdən səlisdir, fiqurlar kontrapost (tək ayağa söykənmiş fiqur) pozasında dururlar, Yunanıstan klassik heykəltəraşlığında olduğu kimi. Yunanıstan klassik nümunələri İntibah incəsənətşünasları üçün etalon idi.

Şagirdlər nəticəyə gəlməlidirlər ki, İncil çarı Davudun İntibah heykəllərinin Yunan klassik dövrünün heykəlləri ilə, Praksiteles Satirinin heykəlləri ilə bənzəri çoxdur, nəinki Roman relyefləri ilə, baxmayaraq ki, roman relyefləri eyni qəhrəmanı, Çar Davudu təsvir edirdilər.

**Praktiki tapşırıq:**

- **plastilinlə atlı fiquru**

Material**:**
plastilin
yumşaq, elastik məftil
kiçik taxta parçası və ya lövhə (dayaq üçün)
karkasın bərkidilməsi üçün mismarlar və çəkic
plastilin bıçağı

1. Məftildən fiqurun karkasını (skeleti) hazırla və karkası dayağa bərkit;
2. Plastilinlə və ya gillə karkası bütövlükdə kobud ört;
3. Barmaqlarla və plastilin bıçaqla detalların üzərində işlə.

Mərhələli fototəlimat:

1. https://bit.ly/33G1Qxe
2. https://bit.ly/3uJjz2F
3. https://bit.ly/3uWj6u0
4. https://bit.ly/3hr5jb4

5. https://bit.ly/3fej3Dn
6. https://bit.ly/3eKgQ3m

**İnsan fiquru kontrapost pozasında**:

Material:
Plastilin, yumşaq, elastiki məftil
yumşaq,
kiçik taxta parçası və ya lövhə (dayaq üçün)
karkasın bərkidilməsi üçün mismarlar və çəkic
plastilin bıçağı

- İnsanın plastilinlə düzəldilmiş fiquru "Tarixi kostyum geyinmiş gəlincik" və "Tolerant şəhər" maketinin formalaşdırılması üçün növbəti kompleksli işlərdə istifadə oluna bilər.



1. Burulmuş məftillə karkas düzəldə bilərsən. Çalış ki, bədənin düzgün ölçülərini bəri başdan hesablayasan.
2. Karkası pəncələri ilə dayağa bərkit, bunun üçün də əvvəlcədən gilli, qalın karton və ya kiçik taxta parçasını hazırlamalısan.
3. Karkası istənilən pozada qoy.
4. Məftil bədənə və ətraflara plastilin bərkit.
5. Fiqurun başını düzəlt.
6. İnsanın anatomik quruluşuna uyğun olaraq, xırda-xırda plastilin qırıqlarını bədənə və ətraflara əlavə et.
7. Barmaqlarınla və ya plastilin bıçağı ilə fiquru rəndələyin.

## 4. Yüksək İntibah

**Dərslikdə verilən suallara cavab** (bu suallar ötən il alınan, əvvəlki biliyin aktivləşdirilməsinə xidmət edir)

- Mazaçço "Üçlük" personajlarını nəyin fonunda yerləşdirdi?
- Bu "tikili" hansı dövrdən "alınmışdır"?
- O, nəyi təqdim edir?
- Mazaçço məkan illüziyasını hansı üsullarla yaradır?

**Cavab:**

- Mazaççonun "Üçlük" freskasının qəhrəmanları tağ fonunda təqdim edilmişlər.
- Bu memarlıq mövzusu Antik dövrdən götürülmüşdür. Romanın Zəfər tağlarını yadınıza salın (Adrian, Konstantin, Titus, Septimius Severius…). Sənətkar Antik Dövr tikilisinin təsvirinə müraciət edir və bu da İntibah dövrü üçün tamamilə əlamətdardır.
- Məkan illüziyası xətli perspektiv vasitəsilə yaranır (tağın kesonları dərinliklərində azalır).

- **Müqayisəvi analiz:**

Şagirdlər şifahi bir-biri ilə müqayisə edirlər:
Leonardo Da Vinçinin "Mona Liza" və Rafael Santinin "Madalenna Donna" portretlərini.

**Analizin nümunəsi:**
Rafaelin “Madalenna Donna”-sının pozası Leonarda Da Vinçinin “Monna Liza”-sı ilə eynidir, amma Rafael nəinki zahiri oxşarlıqları, eləcə də varlı insanın statusunu da ötürmək məqsədini daşıyır.
Rafaelin modeli qəmzəlidir, onun zəngin libası var, zinət əşyaları taxmışdır. Lakin onun üz ifadəsi heç nə söyləmir.
Leonardo Da Vinçinin “Mona Liza”-sı sadədir, tünd rəngli paltar geyinmiş, zinət əşyaları taxmamış, amma bunun əvəzinə, ikili üz ifadəsinə, sirli təbəssümünə görə biz hesab edirik ki, nəyin barəsində isə düşünür, onun daxili aləmi görünür.
“Madalenna Donna portretinin” koloriti rəngarəngdir, “Mona Liza”-nın isə monoqram, birrəngli, sanki Leonardo bilərəkdən rənglərdən istifadə etmir ki, diqqəti yayındırmasın və yalnız əsas olana diqqəti yönəltsin – qadının üz ifadəsinə.
Bundan başqa, “Maddalena Donna portretində” üz ifadəsi aydındır, “Mona Liza” isə Leonardosayağı “sfumato” ilə yerinə yetirilmişdir, yəni təsvirlər dağınıqdır, bu da məkanın, havanın real təsəvvürünü yaradır.

- **Müqayisəvi T sxemi (müstəqil iş)**

Dövrlərin incəsənətçilərinin təsviri dilinin xüsusiyyətlərinin (Bizans və İntibah boyakarlığının xüsusiyyətlərinin) müqayisəsi və müqayisəvi sxemin doldurulması.
*Sxemi növbəti dərslərdə də doldurmaq olar.
Dövrlərin təsviri dilinin xüsusiyyətlərinin müqayisəvi T sxeminin ehtimal nümunəsi:

| **Bizans** | **İntibah Dövrü** |
|---|---|
| İncəsənət kilsə-monastrların dərinliyində inkişaf edir və dini ideyaların bərqərar olmasına qulluq edir | İncəsənət özəl mesenatların saraylarında inkişaf edir. Kilsə incəsənətin sifarişçilərindən biridir. |
| Ehkamlı | Humanist, elmi |
| Ruhun mənəvidən üstünlüyü | İnsanın əqli, yaradıcılıq və fiziki imkanlarına inam |
| İnsan həyatının mənası cazibələrlə mübarizədir | İnsan həyatının mənası Antik elmlərin öyrənilməsi yolu ilə şəxsi kamilləşmədir |
| İnsan günahkardır | İnsan layiqli, özünə inamlı tədqiqatçı və yaradıcıdır |
| İkonoqrafiya ilə qanuniləşdirilmiş simvolik, şərti təsviri dil | İnsanlar aləminin realistic təsviri üsulları |
| Şərti fon (bir çox hallarda qızılı). Fonda tikililər və ya peyzaj da şərtidir | Realistik fon (şəhər və ya təbii peyzaj) |
| İnsanların fiqurları arasında pozulmuş miqyaslar ilahi iyerarxiyanı ötürürlər. | İnsanların fiqurları və memarlıq yaxud da təbii fon arasında düzgün miqyas nisbətinə əməl edilir |
| Pozulmuş ölçülər | Düzgün ölçülər |
| Fiqurlar anatomik səlis deyillər | Fiqurlar anatomik səlisdirlər |
| Pozalar kobudlaşdırılmışdır | Pozalar təbiidir. Antik kontrapostdan istifadə olunur |

| | |
|---|---|
| Formalar yastıdır, xətlərlə ötürülür. İşıq-kölgələrə və tonal qradasiyaya laqeyd yanaşılır. | Üçölçülü həcmlər işıq-kölgələrin və tonal qradasiyanın vasitəsilə ötürülmüşdür |
| Əks perspektivdən istifadə edilir və rakurs pozulur (nəzər nöqtəsi) | Xətti və fəza perspektivindən istifadə olunur |
| Siluetdə lokal rəngli ləkələr. Rənglərə simvolik yüklənmə verilir. | Kompozisiyada eyni şəkildə bölünmüş rəngli ləkələr, zəngin tonal qradasiya ilə |
| Sənətkar anonimdir | Sənətkarların adları məlumdur |
| Material: enkaustika, tempera taxta üzərində | tempera, yağlı boya, kətan, taxta |

- **İllüstrasiyaların xronoloji yerləşdirilməsi** (Şagird kitabı, səh. 144-145) (qrup işi):
- İllüstrasiyaların səhifədə yerləşməsi:

| | |
|---|---|
| 1. Domeniko Qirlandaio, 1480, İntibah Dövrü | 3. Cotto Di Bon səviyyə, 1305 il |
| 2. Bizans mozaikası, Santa Maria Novella kafedralı, Monreal, Palermo, Sicilia, İtalia, 1180 illər | 4. Cakopo Tintoretto, 1533-66 illər arası. Manyerizm |

Əsərlərdə istifadə edilən bədii üsullara əsasən, şagirdlər xronoloji şəkildə, yəni yaradıldığı vaxta uyğun olaraq, ardıcıllıqla "Sonuncu şam yeməyi"-ni təsvir edən, monumental rəssamlığın dörd nümunəsini düzməlidirlər.

Doğru cavab: 2, 3, 1, 4.
*Evangelidə "Sonuncu şam yeməyi" epizodu ilə tanış ola bilərsiniz: Baxın, Matvey, 26. 1-35; Marko, 14. 1-31; Luka, 22. 1-38.

- **Müqayisəvi analiz** (Şagird kitabı, səh. 144-145) (qrup işi)**:**

Şagirdlər "Sonuncu şam yeməyi"-nin kompozisiyalarını bir-biri ilə müqayisə etməlidirlər.

İşarələr:
"Sonuncu şam yeməyi"-ni təsvir edən əsərləri müşahidə et və İntibah dövrünün rəssamlığı üçün xarakterik əlamətləri formalaşdır. Kompozisiyalar simmetrikdir və ya assimetrik? Statikdir və ya dinamik? Tarazlaşdırılmışdır və ya tarazalaşdırılmamış? İşıqlandırma bərabərdir və ya ziddiyyət təşkil edir? Rənglər bir-birinin ahəngindədir və ya hər hansı bir ləkə ümumi koloritdən düşmüş və "qışqırır"?
Fəza və ya xətti perspektivə, əşyalar arasında miqyaslı nisbətə, anatomik dəqiqliyə və fiqurların proporsiyasına əməl edilirmi və ya yox? Həcmlər işıq-kölgə ilə və tonal qradasiya ilə ötürülür və ya xətlərlə? Bu əlamətlərlə əsərin yerinə yetirilmə dövrünü və tarixini tapa bilərsənmi?

*Baxın, yuxarıda Müqayisəvi T sxeminə

- **Tədqiqat (Ev tapşırığı)**

Leonardo Da Vinçinin "Sonuncu şam yeməyi" haqqında məlumat tap. Sonralar freska ilə nə baş verdi? Onun yaradılması ilə hansı rəvayətlər bağlıdır?

Leonardonun eksperimentlərinə görə, boyalar tezliklə köhnəlməyə başladılar. Çoxsaylı restavrasiya cəhdləri yalnız mənfi nəticə verdi. Hal-hazırda freska hiss ediləcək şəkildə zədələnmiş və imkan daxilində bərkidilmişdir (onu demək

| | |
|---|---|
| kifayət edir ki, ağılsız rahiblər qapısını da kəsmiş və feskanın aşağı hissəsini zədələmişlər, Napoleonun dövründə isə yemək otağı kimi istifadə edilirdi… )<br>Bax, Qiorqi Xoştariyanın Leonardo Da Vinçi haqqında məqaləsinə:<br>https://bit.ly/2XRTkYz | |
| **5. Sonun əvvəli** | |
| • **Müqayisəvi analiz:**<br><br>Polikletin "Dorifor"-unu ("Nizəçi", yüksək klassika) və Mikelancelonun "Davud"-unu müqayisə et. Hansı oxşarlığı görürsən? Kontrapost pozasını müşahidə et – necə düşünürsən, Mikelancelo antik heykəltəraşlığın dərin biliyindən istifadə etmişdirmi? Fikrini əsaslandır.<br><br>**Cavab**:<br>İntibah dövrünün Davudu döyüşkən, nəhəngi məğlub edən qəhrəman kimi təqdim edilmişdir. Onun atributu (sapandı) çağırışlarla ayaqlaşma qabiliyyətinə malik zəfər çalmış qəhrəmanın simasını bərqərar edir və bu da İntibah dövrünün humanist ideyalarına uyğundur. Mikelancelonun Davudu qalibdir və nəhəngi məğlub etmişdir.<br>Mikelancelonun heykəlində antik incəsənətin təsiri görünür – formalar həcmlidir, ölçülər anatomik cəhətdən səlisdir, fiqur kontrapost (tək ayağa söykənən fiqur) pozasında durur, Yunanıstan klassik heykəllərinə oxşar olaraq (Polikletin "Dorifor"-u, yüksək klassika). Yunan klassik nümunələri İntibah dövrünün incəsənətçiləri üçün etalon idi.<br><br>• **Müqayisə et**<br>Orta əsrlərin "Pietta"-sını Mikelancelo tərəfindən eyni mövzu üzrə yerinə yetirilmiş heykəllə. Fərqləri və onların səbəblərini müzakirə et (qrup işi).<br>**Müqayisə analizi nümunəsi:**<br>Orta Əsrlərin Naumburq qotika "Piettası" şərti bədii üsullarla yerinə yetirilmişdir, anatomik dəqiqlik pozulmuşdur. Poza kobud, qeyri-təbii, kukla kimi əlverişsiz. Ölçülər uzadılmış, formalar şişirdilmişdir. İsanın qabırğaları tamaşaçının diqqətini cəlb edir ki, İsanın keçdiyi əzab-əziyyəti görsün. Məryəm Ananın və İsanın fiqurları bir-biri ilə kompozisiya baxımından orqanik bağlıdırlar. Drapirovka ritmik, mütəmadidir. Mikelancelonun "Pietta" əsəri anatomiya və ölçülərin elmi biliyi ilə yerinə yetirilmişdir. İki fiqur bir-birinə ahənglə uzlaşır, sanki bir bütövdür. Kompozisiya intibahın sarsılmaz üçbucağını yaradır. Simalar gözəl, kamilləşdirilmiş zahirə malik insanları təqdim edirlər. Drapirovka təbiilik təəssüratlarını yaradır.<br><br>Əlavə illüstrasiya materialı müqayisə üçün (XIV-XV əsrin piettaları).<br><br>https://bit.ly/2ZZbdrc<br>https://bit.ly/2U0vpoP<br><br>• **Mikelancelonun "Pietta" heykəlinin karandaşla şəklinin çəkilməsi (müstəqil iş)**<br>✓ Mikelancelonun "Pietta" heykəlinin bir neçə müxtəlif rakursla çəkilmiş illüstrasiyası.<br>✓ Pozaya və ölçülərə diqqət ver.<br>✓ Məryəm Ananın libasının drapirovkasını tonal qradasiya ilə ötür. | |



https://bit.ly/2XoFIW2

- **Ölçülərin tədqiqatı** (müstəqil iş)

Müşahidə et, ölç ki, “Vitruvian insanın” bədəninə baş neçə dəfə sığışır.
Leonardonun ölçülər prinsipi ilə razısınızmı?
“Vitruvian insanın” ölçülərini gerçək insanın ölçüləri ilə müqayisə et.
Müxtəlif dövrün rəssamlığında, həmin dövr üçün xarakterik ölçülərin cədvəlini tərtib et.



- **Proporsiyalara əməl etməklə insan fiqurunun çəkilməsi** (müstəqil iş):

İnsan proporsiyalarının şərti sxemini müşahidə et. Dəftərdə sxematik təsviri çək və “onu canlandır”.
İnsan durduğunda hər iki ayağına söykənir, onun çiyinləri və çanağı üfüqi, bir-birinə paralel yerləşir (Şək.1).
Kontrapost pozasında insan bir ayağına söykənir, ikinci isə sərbəst, boş vəziyyətdədir (Şək.2).

1.  2. 

- **İnsanın fiqurunun müxtəlif pozada və hərəkətdə şəklinin çəkilməsi** (ev tapşırığı);

(Verilən tapşırıq şagirdləri "Animasiya" layihəsini yerinə yetirmək üçün hazırlayır)

İnsanın hərəkət mexanizmlərini dərk etdiyin halda, onun müxtəlif pozada şəklini çəkmək asan olacaqdır. Şəklini çəkdiyin insancıqları "canlandır", geyindir. Onun üçün hərəkəti fikirləş və ya pozanı. Nailiyyətini kamilləşdirmək üçün yoldaşlarının və ya ailə üzvlərinin bir neçə şəklini çəkin. Süjet fikirləş və çoxfiqurlu kompozisiya şəklini çək.



- **Hərəkətli insancığaz** (ev tapşırığı):

(Verilən tapşırıq şagirdləri "Animasiya" kompleksli layihəni yerinə yetirmək üçün hazırlayacaqdır)
Simvolu canlandır – bloknotun vərəqinin qırağına insan şəkli çək. Hər növbəti səhifədə insanın hərəkətinin növbəti dövrünün şəklini çək. İnsanı canlandırmaq üçün tez-tez bloknotun səhifələrini vərəqlə.



Videotəlimat:
https://bit.ly/2XSimXn
Nümunələr:
https://bit.ly/2zHr6YR

**Kompleksli tapşırıq üçün tövsiyələr:**

- **Məruzə** (icbari)

Araşdırma keçir ki, sənin seçdiyin, İntibah dövrünün hər hansı bir incəsənətçisinin bir əsərində insan necə təsəvvür edilmişdir və məruzə hazırla.

Müşahidə et ki, kompozisiyada təsvirlər necə bölünmüşdür (simmetrik və ya asimetrik); insanların pozaları statikdir və ya dinamik;
Fiqurların kölgəsi, nimbi, həcmi varmı və ya yox;
Müəllif işıq-kölgədən, tonal qradasiyadan, həcmdən istifadə edirmi və ya yox;
fiqurlar proporsiyalıdır və ya disproporsiyalı;
Fiqur anatomik cəhətdən səlisdirmi;
Şəkildə miqyas nisbətinə əməl edilirmi;
Xətti və ya fəza pepspektivindən istifadə edilirmi və ya yox;
Qəhrəmanların kostyumlarını və mühitlərini müşahidə et və təsvir et.

Ehtimal mövzular:

1. Cottonun freskası (hər hansı bir);
2. Andrea Del Kastanyo “Sonuncu Şam Yeməyi”;
3. Qirlandio “Sonuncu Şam Yeməyi”;
4. Rafael Madonna (hər hansı);
5. Rafael “Disputa”;
6. Rafael “Parnas”
7. Botiçelli Madonna (hər hansı);
8. Botiçelli “Bahar”;
9. Mikelancelo Mediçlər kapellası;
10. Mikelancelo “Musa”;
11. Mikelancelo “Pietta” (hər hansı);
12. Mikelancelo “Kölələr”;
13. Donatello “Məryəm Maqdalenli”;
14. Və s.

- **Animasiya** (müstəqil və ya cütlükdə iş)

Müasir dövrümüz simvolik işarələrlə doludur və bunlarda insanların şərti fiqurları təsvir edilir. İnsanın şərti təsviri ilə yol və ya olimpik simvollarını axtarıb tap. Təsvirlərdən birini seç, animasiya tərtib edən kompüter proqramına yüklə https:/ multator.ru/draw/ və qısa animasiyanı hazırla.



Mürəkkəb nümunələr:
https://bit.ly/2RgVm5h
https://bit.ly/2QcUHkU

| | |
|---|---|
| Sadə nümunələr:<br>https://bit.ly/3eFE8HI<br>https://bit.ly/3tIO1ss<br><br>Resurslar**:**<br>Ernst Qombrix, İncəsənət əhvalatı, Loqos Pres, 2012<br>https://bit.ly/2TZ3R3d<br><br>Dünya incəsənəti, Nana Maçaraşvili, Nino Silaqadze, “Meridian”, Tb. 2010:<br>İncəsənət tarixi (XVI-XVII əsrlərin Avropası), Merilin Stoksted, Maykl V. Kotren, Tbilisi, 2018;<br><br>**İnternet-resurslar:**<br>https://artsandculture.google.com/<br>Animasiyanı tərtib edən proqram: https://multator.ru/draw/<br>Konqresin kitabxanasının illüstrasiyalar kolleksiyası:<br>https://www.loc.gov/collections<br><br>İncəsənətin onlaynn qalereyaları:<br>https://bit.ly/2RPQ3d4<br>https://bit.ly/3w8Tnix<br><br>Plastilindən insan fiqurunun yapılması üçün karkasın nümunəsi:<br>https://bit.ly/3eEVulj<br><br>**Qiymətləndirmə kriteriləri:**<br>**Təsviri incəsənətin bədii-təsviri vasitələri (elementlər) və üsulları (prinsiplər),**<br>**Təsviri incəsənət texnikası**<br>• Müvafiq təsviri vasitələrdən və üsullardan (həcm, kölgə-işıq, tonal qradasiya, proporsiya, poza, jestikulyasiya, detal və s.), müxtəlif material və texnikadan istifadə etməklə insanı təsvir edir **(Təs.tət.baz.1,2);**<br><br>**Müxtəlif dövrün/cərəyanın/üslubun incəsənətinin xarakterik əlamətləri/bədii xüsusiyyətləri**<br><br>**Təsviri incəsənətin sahələri və janrları**<br>• Bir neçə incəsənətçinin yaradıcılığını analiz edir və müzakirə edir ki, nümayəndələri olduqları mədəniyyətin təsiri onların əsərlərində öz əksini tapmışdırmı və hansı şəkildə **(Təs.tət.baz.3,4).**<br>• Hər hansı iki dövrün, sahənin, üslubun, cərəyanın əsərlərini bir-biri ilə müqayisə edir, oxşarlıq-fərqlərini, xüsusiyyətlərini müzakirə edir **(Təs.tət.baz.4).**<br><br>**Məruzə** (Qiymətləndirmə formasını Əlavədə izləyə bilərsiniz)<br>**Təs.tət.baz. 3 Təs.tət.baz.4.**<br><br>İncəsənət nümunəsinin əsasında müzakirə edir ki, İntibah dövründə insanları necə təsvir edirdilər;<br>İncəsənətçinin yaradıcılığını analiz edir və müzakirə edir ki, onun əsərində dövrün təsiri hansı şəkildə öz əksini tapmışdır.<br>• əsərin təsviri vasitələri və üsulları analiz edilmişdir;<br>• əsər tarixi-mədəni kontekstdə təhlil edilmişdir;<br>• müvafiq terminlərdən düzgün istifadə edir;<br>• auditoriya ilə əlaqəni qurur.<br>**Animasiya** (Qiymətləndirmə forması, bax Əlavədə) | |

**Tapşırıqlar matrisası 2/2**

| Dərslər 6 - 7 birləşdirici mövzu: İnsan – təbiətin hissəsi | | |
|---|---|---|
| **Məsələ və yarımanlayışlar** | **Əsas sual/suallar** | **Kompleksli tapşırıqlar** |
| **Elementlər**:<br>Xətt, rəng, forma/deformasiya, faktura, fon və təsvirin qarşılıqlı əlaqəsi<br><br>**Prinsiplər**:<br>proporsiya/disproporsiya, miqyas, perspektiv, ziddiyyət<br><br>**Sahələr**:<br>Dəzgah rəssamlığı<br>**Janrlar:**<br>dini, portret<br>**Dövr/üslub/cərəyan:**<br>Şimali Avropa İntibahı | • Hansı amillər bir dövrün müxtəlif ölkələrinin incəsənətinin üslub fərqlərinə səbəb olurlar?<br>• İncəsənət əsərlərində başqa ölkənin incəsənətinin təsiri əlamətlərini necə görə bilərəm?<br>• Müxtəlif dövr və mədəniyyət haqqında incəsənət vasitəsilə nəyi görə bilərəm?<br>• İtalyan və Şimali Avropa İntibahı arasında hansı fərq/oxşarlıq vardır və buna səbəb nədir? | **Triptikon:**<br>Seçdiyin materialla və üsulla moralist triptikon hazırla. |
| **6. Şimali Avropa İntibahında insan**<br>**Əsas suallara cavablar:**<br>✓ Bir dövrün müxtəlif ölkələrinin incəsənətinin üslub fərqlərinə tarixi vəziyyət, dini kontekst, coğrafi yerləşmə səbəb olur. Bu və ya digər ölkənin incəsənət əlamətlərini bilmək başqa ölkənin incəsənət əsərlərində onları tanımaqda və təsirini təyin etməkdə bizə yardım edir.<br>✓ İncəsənət vasitəsilə müxtəlif dövr və mədəniyyət haqqında bir çox məlumat əldə edə bilərik.<br>✓ İtaliya üçün İntibah əsas hal idi, çünki Antik mədəniyyətin bilavasitə varisi idi. Həmin dövrün Şimali Avropa mədəniyyətini İltaliyadan gəlmiş təsirinə görə İntibah adı ilə tanıyırıq. Şimali Avropa İntibahının tərzinə protestant dini nəzərlər və yerli ənənələr təsir göstərdi (folklor, qotika, iqlim və s.).<br><br>**Müzakirə:**<br>✓ İtaliyalılar və şimali avropalılar sifarişçini necə təsvir edirdilər? Buna səbəb nə idi?<br>✓ Xeyir və şərin ziddiyyəti "Məsih həvarilər arasında" əsərində hansı üsulla verilmişdir?<br>✓ Boş və Breygelin yaradıcılıqlarını təsviri "təbliğat" adlandıra bilərikmi? Onlar nəyi təbliğ edirdilər?<br>✓ Fiziki korluğu ayırıb və əqli "korluq" (bisavadlıq) hesab etsək, o zaman Breygelin "Korlar" əsəri metaforik olaraq nəyə işarə edir?<br>✓ Necə fikirləşirsən, Breygelin qəhrəmanları konkret insanlardır və ya müxtəlif tipajda ayrılmış, toplu simalardır?<br>✓ Piter Breygel "İri balıq xırda balıqları yeyir" əsərində hansı fikrə diqqəti yönəldir?<br>✓ Bu şəkildə insana qarşı hansı münasibət görünür?<br>✓ Bu şəkillər həmin dövr haqqında hansı məlumatı çatdırırlar?<br><br>**Cavablar:**<br>✓ İtalyan İntibahı dünyəvi ruha bürünmüşdü. İtaliyalılar sifarişçini dini qəhrəmanların yanında bərabərhüquqlu şəxslər kimi təsvir edirdilər, şimali avropalılar isə İntibahın təsiri güclənənə qədər sifarişçiləri miqyasları ilə daha kiçik ölçülərlə təsvir edirdilər, ehtiram əlaməti olaraq. Buna səbəb onların dindarlığı idi. | | |

| | |
|---|---|
| ✓ Dürerin “Məsih həvarilər arasında” əsərində xeyir və şərin ziddiyyəti xarici əlamətlərin ziddiyyəti ilə ötürülmüşdür - Məsihin zahiri görünüşü incədir. Digərləri isə kobud, qroteskdirlər.<br>✓ Boş və Breygelin yaradıcılığını təsviri “təbliğat” adlandıra bilərik, çünki onlar göstərirlər ki, insan günah işlədəndə necə də gülünc görünür (səfeh, yalançı, acgöz). Onlar tamaşaçını əxlaqa səsləyirlər.<br>✓ Fiziki korluğu ayırıb əqli “korluq” (bisavadlıq) hesab etsək, o zaman Breygelin “Korlar” əsəri metaforik ona işarə edəcək ki, savadsızlığı ölüm gözləyir – biri o birini quyuya salacaqdır. Bir-birinin ardınca gedən ağılsız insanları faciəvi sonluq gözləyir.<br>✓ Breygelin qəhrəmanları konkret insanlar deyil, müxtəlif tipajda ayrılmış, toplu simalardır.<br>✓ Piter Breygel “İri balıq xırda balıqları yeyir” əsəri onu göstərir ki, güclü zəifi üstələyir.<br>✓ İntibah dövrünün şimali avropalı rəssamlarının əsərlərində görünür ki, onlar insanı tanrının ən yaxşı törəməsi kimi hesab etmirlər. Onu təbiətin bir hissəsi hesab edirlər. Bir çox hallarda təbiət gözəldir, amma bu gözəl peyzajlara cəlb olunmuş günahlı qəhrəmanlar qrotesk görünürlər.<br>• Bu şəkillər həmin dövr haqqında məlumat verirlər ki, incəsənətşünasların əsas maraq dairəsi insanın əxlaqi tərəfi idi.<br><br>**Tədqiqat və müqayisəvi analiz (müstəqil iş):**<br>• Yan Van Eykin rəsm əsərləri (Gent mehrabı, Van Der Pales Madonna və s.) haqqında məlumat axtarışı və qısa məruzənin hazırlanması.<br><br>**7. İncəsənət avamlığa qarşı**<br>**Qeyd**: Breygelin “Korlar” işini müzakirə etdikdə, şagirdlərin fiziki korluğu qüsur, çatışmazlıq kimi qəbul etməmələri önəmlidir, buna görə də korluq barəsində yalnız məcazi mənada müzakirə aparmalıdırlar. Xüsusilə də Matveydən Evangelidə oxuyuruq: “Onların başını buraxın: kordurlar və korların da rəhbəridirlər; korun önündə kor gedirsə, hər ikisi quyuya düşəcəkdir”. Bu ifadə ilə İsa Məsih fiziki cəhətdən görmə qabiliyyətini itirmiş insanları deyil, ikiüzlüləri nəzərdə tutur.<br><br>• **Məlumatın axtarılması və təsviri:**<br>İeronim Boşun triptikonları, “Beyin əməliyyatı”, “Sadəlövhlər gəmisi”, “İllüzionçu”, “Tənbəllər ölkəsi” (qısa məruzənin hazırlanması).<br><br>• **Müqayisəvi analiz:**<br>İtalyan və Şimali Avropa rəssamlığının nümunələrini:<br>a) Yan Van Eykin “Kansler Rolen Madonna” və Rogir Vand Der Veydenin “Müq. Luka Müqəddəs Məryəmin portretini çəkir”.<br>b) Sifarişçilərin Dürerin “Qışqırıq” və Domeniko Qirlandayonun freskalarında təsvirləri.<br>• **Müzakirə (qrup işi):**<br>Miqyaslı tənasüb pozuntusu hansı dövr və ölkələr üçün xarakterik idi?<br><br>**Cavab**: Qədim Misirdə və Mesopatamiyada qəhrəmanın sosial və dini statusunu göstərmək üçün miqyasları pozurdular; ikona yazısında və İntibah dövrünə qədər Orta əsrlərin incəsənətində dini iyerarxiyanı vurğulamaq üçün pozurdular. | |

- **Praktiki tapşırıq**

**Qrotesk heykəltəraşlığı:**
İeronim Boşun şəkillərinə nəzər sal. Hər hansı bir qeyri-adi varlığı seç və şişirdilmiş cizgiləri və əfsanəvi siması ilə oxşar qrotesk fiqurunu düzəlt. Hazır heykəllərə uyğun tərtib edilmiş dayaq hazırla.
Birgə skulptur kompozisiyasını yaradın.
* Düzəldilmiş fiqurlardan “Tolerant şəhər”yekun kompleksli əsər maketinin tərtibatı üçün istifadə edilə bilər.

**Kompleksli layihə “Triptikon” üçün tövsiyələr**
Sənin üçün hər hansı bir maraqlı mövzu üzrə üçhissəli ikona yarat.
Nəzərə al ki, hər üç panel bir mövzu ətrafında birləşməlidir.
Mövzu kimi atalar sözlərindən, hər hansı bir ədəbi əsərdən (təmsil) və ya sənin həyatda görmüş olduğun insan qüsurlarından istifadə edə bilərsən.
Təəssüratları kəskinləşdirmək üçün qrotesk üsuluna müraciət edə bilərsən.

Fikirləş:
- Triptikonun hansı formatı sənin fikrinə uyğun olacaqdır?
- Süjeti/kompozisiyanı triptikon hissələrinə hansı sistemlə böləcəksən?
- Əsəri hansı materialla yerinə yetirəcəksən?
- Sözünü hansı bədii üsulla ötürəcəksən? Qroteskə müraciət edəcəksənmi?
- Təsviri incəsənət vasitələrindən (xətt, rəng, forma/deformasiya (şişirtmə), fon, təsvirin qarşılıqlı münasibəti, faktura və s.) və üsullardan (simmetriya/asimmetriya, tarazlıq, miqyas, perspektiv, proporsiya/disproporsiya, ziddiyyət, aksent və s.) necə istifadə edə bilərsən ki, fikrin tamaşaçı üçün aydın və başa düşülən olsun?

Triptikonun yayılmış növləri



https://images.slideplayer.com/32/9974689/slides/slide_13.jpg

Resurslar:
https://www.wga.hu/index1.html

Yan Van Eyk:
https://bit.ly/3ohPOUf
https://artsandculture.google.com/entity/jan-van-eyck/m0ck2w?categoryId=artist

Ieronium Boş:
https://bit.ly/3uWxum0
https://bit.ly/3fh1lz4

“Dünyəvi zövqlər bağı”
https://archief.ntr.nl/tuinderlusten/en.html

| | |
|---|---|
| Piter Breygel böyük:<br>https://bit.ly/33DSmCy<br>https://bit.ly/3uLqzMG<br><br>Rogir Van Der Veyden:<br>https://artsandculture.google.com/entity/rogier-van-der-weyden/m01bbhx<br>https://bit.ly/2RR91QI<br><br>Albrext Dürer:<br>https://artsandculture.google.com/entity/albrecht-d%C3%BCrer/m0z6n<br>https://bit.ly/3bo4a04<br><br>Ernst Qombrix, İncəsənət əhvalatı, Loqos Pres, 2012<br>https://bit.ly/2TZ3R3d<br><br>İncəsənət tarixi (XVI-XVII əsrlərin Avropası), Merilin Stoksted, Maykl V. Kotren, Tbilisi, 2018; Dünya incəsənəti, Nana Maçaraşvili, Nino Silaqadze, "Meridian", Tb. 2010:<br><br>**Qiymətləndirmə kriteriləri**:<br>Təsviri incəsənətin bədii-təsviri vasitələri (elementlər) və üsulları (prinsiplər), təsviri incəsənətin texnikası<br>• əsərdə şəxsi fikrin, ideyanın ötürülməsi üçün təsviri incəsənət sahəsini, janrı, bədii üsulları, materialı və texnikanı seçir və özünüifadəetmə vasitəsi kimi təsviri incəsənət haqqında müzakirə aparır (Təs.tət.baz.2,3);<br>• əsərdə istifadə edilən bədii-təsviri vasitələri, üsulları analiz edir və müzakirə edir ki, müəllif bunların vasitəsilə nəyi ötürmək istəyirdi (təs.tət.baz.3);<br><br>Müxtəlif dövrün/cərəyanın/üslubun incəsənətinin xarakterik əlamətləri/bədii xüsusiyyətləri<br>Təsviri incəsənət sahələri və janrlar<br>• Bir və ya bir neçə incəsənət əsəri nümunəsi əsasında müəllifin fikrini müzakirə edir (Təs.tət.baz.3,4);<br>• Bir neçə incəsənətçinin yaradıcılığını analiz edir və müzakirə edir ki, onların əsərlərində nümayəndələri olduqları mədəniyyətin təsiri əks olunmuşdurmu və hansı şəkildə **(Təs.tət.baz.3,4).**<br>• Hər hansı iki dövrün, sahənin, tərzin, cərəyanın əsərlərini (portretlər, məişət janrı) bir-biri ilə müqayisə edir, oxşarlıq-fərqləri, özünəməxsusluqları müzakirə edir **(Təs.tət.baz.4).**<br><br>**"Triptikon" kompleksli layihənin qiymətləndirilməsi üçün tövsiyələr: (maks. 10 bal)**<br>• Əsərdə təsvir edilən süjet seçilmiş mövzuya uyğundur (2 bal);<br>• Triptikonun hissələrində süjet məntiqi bölünmüşdür (2 bal);<br>• Şagird söylədiklərini vurğulamaq üçün düşüncəli şəkildə təsviri üsulları seçir və onlardan istifadə edir (2 bal);<br>• Müzakirə edir ki, mövcud üsullardan və vasitələrdən nə üçün istifadə etmişdir (2 bal);<br>• Öz işini analiz etdikdə müvafiq terminologiyadan istifadə edir (2 bal). | |

**Tapşırıqlar matrisası 2/3**

| Dərslər 8-10 Birləşdirici mövzu: İnsanın daxili aləmi | | |
|---|---|---|
| **Məsələ və yarımanlayışlar** | **Əsas sual/suallar** | **Kompleksli tapşırıq** |
| **Elementlər**:<br>İşıq-kölgə, ton<br><br>**Prinsiplər**:<br>Simmetriya/assimetriya, statika/dinamika, ziddiyyət<br><br>**Sahələr**:<br>Heykəltəraşlıq, rəssamlıq<br><br>**Janrlar:**<br>portret<br><br>**Dövr/tərz/cərəyan:**<br>ellinizm, Roma, qotika, manyerizm, barokko | • Müxtəlif dövrün incəsənətində insanın daxili aləmini necə təsvir edirdilər?<br>• İnsanın emosiyalarını, duyğularını, xarakterini ötürmək üçün zamanla təsviri üsullar necə dəyişdi?<br>• İncəsənət şəxsiyyət haqqında nədən xəbər verir?<br>• Mimika, poza, jestikulasiya nəyə işarə edir?<br>• Hisslərimi, emosiyalarımı, xarakterimi ötürmək üçün təsviri dildən necə istifadə edə bilərəm?<br>• Portretdə şəxsiyyətin daxili aləmini ötürmək üçün hansı təsviri vasitələr və üsullar mənə kömək edəcəkdir? | **Dostun portreti:** (icbari) Dostunun portretini çək. Çalış ki, şəkildə poza və ifadə ilə onun xarakterini ötürə biləsən. |

**8. Hiss və emosiya**

- **Müzakirə:**
  - ✓ Yadına sal: mimika nədir?
  - ✓ Müxtəlif emosiyanı ifadə etdikdə hansı jestlərdən və mimikadan istifadə edirsən?
  - ✓ Jestikulyasiya nədə yardım edir və ya nədə mane olur?
  - ✓ Hansı dövrdə/dövrlərdə mimika insanların sifətlərində əks etdirilmirdi?

**Cavab**: mimika insanın sifətinin müxtəlif emosiyasının təsvir edildiyi məqamda üz ifadəsidir. Ondan tarixöncəsi, Qədim Misir, Mesopatamiya, Qədim Yunanıstanın erkən və yüksək klassika dövrünün incəsənətində və xristian ikona yazısında istifadə olunmurdu.

✓ Müxtəlif dövrün incəsənətində insanın daxili aləmini necə təsvir edirdilər?

**Cavab**: poza ilə, jestikulyasiya ilə, mimika ilə, nitqlə.

✓ Ellinizm dövrünün heykəltəraşları duyğunu, emosiyanı və daxili aləmin vəziyyətini göstərmək üçün hansı bədii üsulları işləyib hazırlamışdılar?

**Cavab**: dərin batmış gözlərin odlu baxışı, açılmış ağız, çatılmış qaşlar, qırışıqlı alın, dağınıq saç və s.

✓ İnsanın emosiyalarını, duyğularını, xarakterini ötürmək üçün zamanla təsviri üsullar necə dəyişdi?

**Cavab**: incəsənət ustaları anatomiyanı daha yaxşı öyrəndilər. Emosiyanın ötürülmə üsulları təkmilləşdi.

✓ Ellinizm və barokko dövrünün incəsənət ustaları arasında ümumi olan nədir?

**Cavab**: ellinizm və barokko dövrlərinin incəsənət ustaları insanın emosiyasının ötürülməsi ilə maraqlanırdılar.

✓ İncəsənət şəxsiyyət haqqında nədən xəbər verir?

✓ Mimika, poza, jestikulyasiya nəyə işarə edir?

✓ Hisslərimi, emosiyalarımı, xarakterimi ötürmək üçün təsviri dildən necə istifadə edə bilərəm?

✓ “Laokoon” heykəli nəyi əks etdirir?

**Cavab**: ağrını, əzabı, həyat üçün mübarizəni.

*Laokoon əsatirini izləyin*:

https://bit.ly/3hlOWg3

- ✓ Laokoon və onun oğullarının vəziyyəti hansı üsulla ötürülmüşdür?

**Cavab**: mürəkkəb pozalar, dinamik hərəkətlər, gərgin bədənlər, bir-birinə dolanmış iri formalar, üz ifadəsi.

- ✓ Şimali Avropa rəssamları insanın hisslərini necə ötürürdülər?

**Cavab**: poza, künc jestikulyasiyası, ekspressiv mimika.

- ✓ Orta əsrlərin şərtiliyindən sonra, qotika heykəltəraşlığı hansı yeniliyi gətirdi? Naumburq heykəllərini xarakterizə et.

**Cavab**: Naumburq kafedralı heykəllərinin xarakterizə edilməsi:
Ekehart müdrik və ləyaqətlidir, onun həyat yoldaşı Uta sakit və dalğındır. Qraf Ditmar – qorxaqdır, Reqlinda – şən, Timo – küsəyən, Ziko isə hirslidir.
*Maqdeburq kafedralının heykəlləri ilə bağlı səfeh qızlar haqqında təmsili izləyin: Matveydən Yevangelie, fəsil 25.*
Link: http://www.orthodoxy.ge/tserili/kiknadze/mate.htm)

- ✓ Manyerizm insanın daxili vəziyyətinin ötürülməsi üçün hansı bədii üsulları daxil etmişdir?

**Cavab**: yuxarı boylanan üz, yaş dolu gözlər, açılmış ağız, kədərli ifadə, ekspressiv jestikulyasiya, uzadılmış proporsiyalar, narahat fon və s.

**9. Xarakter və mimika** (evdə oxu üçün)

- **Analiz (Müstəqil iş)**:

- ✓ Roma verizm portreti insanın xarakterini necə ötürür?

**Cavab**: realist mimikası ilə, ifadə ilə.
Leonardo Da Vinçinin, Rafaelin və Rembrandtın cizgilərini müşahidə et:

- ✓ Hər biri hansı emosiyanı ifadə edir?
- ✓ Rəssam hansı üsulla emosiyasını ifadə etmişdir?
- ✓ Hansı üsulla portretə həcm vermişdi?
- ✓ Ştrixlərin istiqamətini və onların intensivliyini müşahidə et.

**Praktiki fəallıq (müstəqil iş):**
Şəkillərdən birini çək və sadə, yumşaq karandaşla (2-4B) surətini çək.

**10. Psixoloji portret**

- ✓ Tap ki, qırmızı geyimdə təqdim olunan Həvari İohan, kilsə açarını saxlayan Həvari Pyotr, qaranlıq fondan zidd işıqlandırma ilə vurğulanan Həvari Pavel və ağ libaslı Həvari Mark hansı temperamenti canlandırırlar?
- ✓ Psixoloji portret şəxsiyyəti hansı üsulla xarakterizə edir?
- ✓ İncəsənət ustaları insanın daxili vəziyyətini ötürmək üçün pozadan, mimikadan və jestikulyasiyadan necə istifadə edirlər?

**Cavab**:
“Dörd Həvaridə” (Şagird dərsliyi, səh. 184) Dürer qədim yunan həkimi və filosofu Hipokratın təsnifatı ilə insan temperamentinin dörd xarakterini göstərir. Enerjili sanqvinik (Həvari İohan), laqeyd fleqmatik (Həvari Pyotr), tez alışan xolerik (Həvari Mark) və düşüncəli melanxolik (Həvari Pavel).
Hipokratın temperament növləri haqqında əlavə məlumat:
„Temperament konsepsiyasını hələ Hipokrat təklif etmişdi. Onun fikrincə, insanın temperamenti orqanizmdə mövcud hər hansı bir mayenin (qan – yunanca “sanqnis”, selik – yunanca “fleqma”, öd – yun. “kole” və ya qara su “melan kole”) çoxluğundan asılıdır. Temperament növləri də bu mayelərin adlarından irəli gəlir. Adlarına uyğun olaraq onun dörd əsas növünü ayırırlar: sanqvinik, xolerik, fleqmatik və melanxolik.

Sanqvinik temperamenti: hisslər sürətlə baş qaldırır və tezliklə də yavaşıyır. Əksər hallarda müsbət olur. Sanqvinik qayğısızdır, nikbin əhval-ruhiyyəli olur, həyatda da daha çox müsbət tərəfləri görür. Sayıq, hərəkətli şəxsiyyətdir.

Xolerik temperamenti: çılğın hisslər xarakterikdir. Belə bir şəxsiyyət asanlıqla alovlanır, affektiv də ola bilər, amma sanqvinikdən fərqli olaraq onun hissləri daha möhkəm və uzunömürlü olur. Tez-tez narazı olur, tez acıqlanır.

Fleqmatik temperamenti: bu tipdə temperamentə malik insan sakit və soyuqqanlı olur. Onu affekt xarakterizə etmir. Onun hissləri yavaş oyanır və affektə çatmır. Əvəzinə, möhkəm və uzunömürlü olur. Sanqvinik kimi, fleqmatik üçün də daha çox müsbət emosiyalar xarakterikdir. Onun hərəkətləri sakit və asta olur.

Melanxolik temperamenti: onun üçün dərin və güclü emosiyalar xarakterikdir. Ola bilsin ki, melanxolik bütün qıcıqlandırıcılara reaksiya verməsin, amma reaksiya verdiyində onun emosiyaları uzun müddətli olur. Amma melanxolik insanlar emosiyalarını nadir ifadə edirlər.

Hər bir temperamentin güclü və zəif tərəfləri var, amma unutmamalıyıq ki, temperament özlüyündə yaxşı və pis ola bilməz. Temperament hərəkətlə, əməllə özünü büruzə verir, amma şəxsiyyətin nə davranış motivini və nə də inanc və mənəviyyətini müəyyənləşdirmir. Doğrudur, temperament növü zamanla dəyişir və insanlar da, tərbiyədən, mədəniyyətdən irəli gələrək, emosiyalarını müxtəlif yolla ifadə edirlər, lakin müəllim yenə də uşağın temperament növünü dəyişməyə çalışmamalıdır".

*İnformasiya internet qaynaqdan götürülmüşdür: Nino Labartğava, Temperament növləri, http://mastsavlebeli.ge/?p=6969
*Temperamentin adlarını əzbərləmək lazım deyil.

**Müqayisəvi analiz (qrupda sinif):**
Üç rəssam, Tisian, El Qreko və Velaskes tərəfindən çəkilmiş dini şəxsiyyətlərin portretləri.

- ✓ Şəkillərdə kimlər təqdim olunurlar? Hər bir şəkildə təqdim edilən şəxsiyyəti xarakterizə et.
- ✓ Hər biri haqqında hansı təsəvvürün yarandı və nə üçün?
- ✓ Rəssam şəklin qəhrəmanının xarakterinə hansı detallarla işarə edir?

Dieqo Velaskesin və Rembrandtın portretləri (ev tapşırığı)

- ✓ Fikir ver ki, Rembrandt işıqlandırmadan necə istifadə edir.
- ✓ Bu üsulla hansı effekti əldə edir?
- ✓ Nəyə və nə üçün diqqəti yönəldir?
- ✓ "Azmış oğulun dönüşü"-nün süjeti haqqında məlumat tap.

Azmış oğulun dönüşü təmsilinə bax: "Evangeli Lukadan" 15:11-32). Və ya: https://bit.ly/2MjVQBS

- **Praktiki iş (müstəqil iş):**
- Dərsliyin illüstrasiyalarında təsvir edilən insanların əllərinə fikir ver.
- Jestikulyasiya nədən xəbər verir?
- Əllərin şəklini çəkməkdə məşq et.
- Güzgüdən istifadə et və sadə karandaşla öz əlinin şəklini çək.
- Mimika nədən xəbər verir?
- **Yapma:**

Təsviri insanın sifətinin yapılması. Cizgilərlə və ifadə ilə portretə xarakterin verilməsi.

- **Şəkil çəkmə**:

İnsanın hər hansı bir sifətinin müxtəlif ifadələrlə çəkilməsi: üz cizgilərinin müxtəlif mimikası ilə insanın fərqli emosiyasının ifadə edilməsi.

| **Kompleksli tapşırıq "Yoldaşın portreti" üçün tövsiyələr**<br><br>Şagirdlər portreti çəkməyə başladıqlarına qədər dərslikdə verilən misalları nəzərdən keçirməlidirlər. Müşahidə etməlidirlər ki, incəsənət ustaları insanın əhval-ruhiyyəsini, emosiyasını, daxili mənəvi vəziyyətini hansı üsullarla ötürürlər, hansı halda hansı pozaya, jestikulyasiyaya və mimikaya müraciət edirlər.<br><br>Yaxşı olardı ki, portret hər hansı bir dövrün və ya incəsənət ustasının tərzində yerinə yetirilsin (poza, kostyum, fon, drapirovka və s.).<br>Şəkil çəkdikdə yoldaşın ifadəsinə və əllərinə diqqət verməlidirlər.<br>Əvvəlcədən müəyyən etməlidirlər ki, portreti hansı materialla çəkməyə hazırlaşırlar, boya ilə və ya sadə karandaşla?<br>Portreti belinə qədər çəkəcəklər və ya bütövlükdə fiquru təsvir edəcəklər?<br>Hansı ölçüdə vərəq lazım olacaqdır?<br>Vərəqin hansı yönümünü seçəcəklər – üfüqi və ya şaquli?<br>Şəkil çəkməyə başlayana qədər fikirləşirlər ki, portretini çəkəcəkləri yoldaşı necə və harada əyləşdirməlidirlər.<br>Nəzərə almaq lazımdır ki, portret dərhal çəkilmir. Yoldaşın özünü rahat hiss etməlidir ki, yorulmasın.<br>Yoldaşı müşahidə edirlər – onu hansı rakursla çəkmək istəyirlər, anfasla, dörddə bir ilə və ya profildə? Portreti hansı mühitdə çəkəcəklər? Mühit yoldaşın xarakterini göstərməkdə yardım edəcəkdir və ya yox?<br>Yoldaşın üzünü hara yönəldəcəklər – hansı halda portret daha ifadəli olacaqdır?<br>Onun pozasına və əllərinin yerləşməsinə diqqət verməlidirlər.<br>Yoldaşın geyiminə diqqət verməlidirlər.<br>Yoldaşın xassələrinin daha yaxşı göstərilməsi üçün hər hansı bir detalı və ya aksesuarı əlavə edərdilərmi?<br>Portreti boyalarla yerinə yetirdikdə, yoldaşın paltarını və fonun rəngini müşahidə edirlər.<br><br>• **Müzakirə:**<br>Roman və qotika heykəltəraşlığı nə ilə fərqlənir? Qotika heykəltəraşlığı hansı yeniliyi gətirmişdir?<br>**Cavab**: qotika heykəltəraşlığında yavaş-yavaş insana maraq artdı. Sartrinin Notr Damının heykəlləri də qotikadır, amma sonralar, Naumburq və Maqdeburq fiqurları şərti, disproporsiyalı və yastı deyil.<br><br>**Resurslar:**<br>İntibah dövrünün portretlərinin kolleksiyası:<br>https://bit.ly/2zPv5T4<br>Ernst Qombrix, İncəsənət əhvalatı, Loqos pres, 2012<br>https://bit.ly/2TZ3R3d<br>Dünya incəsənəti, Nana Maçaraşvili, Nino Silaqadze, "Meridian", Tb. 2010:<br>İncəsənət tarixi (XVI-XVII əsrlərin Avropası), Merilin Stoksted, Maykl V. Kotren, Tbilisi, 2018;<br><br>**Qiymətləndirmə kriteriləri:**<br>**Təsviri incəsənətin bədii-təsviri vasitələri (elementlər) və üsullar (prinsiplər), Təsviri incəsənət texnikası**<br>• İnsanı müxtəlif təsviri vasitələrdən və üsullardan (həcm, işıq-kölgə, tonal qradasiya, faktura, proporsiya, detal və s.), müxtəlif materialdan və texnikadan istifadə etməklə təsvir edir **(Təs.tət.baz.1,2);**<br>• Portretdə əhval-ruhiyyəni və emosiyanı ötürmək üçün bir və ya bir neçə bədii-təsviri vasitədən, üsuldan (işıq-kölgə, tonal qradasiya, ziddiyyət, kompozisiya bölgüsü, aksent, detal, poza, jest, mimika və s.) istifadə edir **(Təs.tət.baz.1);**<br>• Portretdə istifadə edilən bədii-təsviri vasitələri, üsulları analiz edir və müzakirə edir ki, bunların vasitəsilə müəllif nəyi ötürmək istəyirdi (zahiri görünüş, xarakter, sosial status və s.) **(Təs.tət.baz.3);** | |
|---|---|

| | |
|---|---|
| **Müxtəlif dövrün/cərəyanın/tərzin incəsənətinin xarakterik əlamətləri/bədii xüsusiyyətləri**<br>**Təsviri incəsənət sahələri və janrları**<br>• Portretdə öz fikrini, ideyasını ötürmək üçün özünüifadə vasitələri kimi təsviri incəsənət sahəsini, janrı, bədii üsulları, materialı və texnikanı seçir**(Təs.tət.baz.2,3);**<br>• Bir və ya bir neçə incəsənətçinin nümunələri əsasında müzakirə edir ki, müxtəlif dövrlərdə insanların daxili aləmlərini necə təsvir edirdilər **(Təs.tət.baz.3,4);**<br>• Bir neçə incəsənətçinin yaradıcılığını analiz edir və müzakirə edir ki, nümayəndələri olduqları mədəniyyətin təsiri onların əsərlərində öz əksini tapmışdırmı və hansı şəkildə **(Təs.tət.baz.3,4).**<br>• Hər hansı iki dövrün, sahənin, üslubun, cərəyanın əsərlərini bir-biri ilə müqayisə edir, oxşarlıq-fərqlərini, xüsusiyyətlərini müzakirə edir **(Təs.tət.baz.4).**<br><br>**Kompleksli tapşırığın qiymətləndirilməsi üçün əlavə məlumat:**<br>**Yoldaşın portreti** (maks. bal 10):<br>Şagird modelin pozasını ağlabatan şəkildə seçmişdir (2 bal).<br>Proporsiyalara əməl etmişdir (2 bal).<br>Modelin xarakterini ötürmüşdür (2 bal).<br>Ştrixlərlə/tonal qradasiya ilə işıq-kölgəni, həcmi, fonu işarə etmişdir (2 bal).<br>Paltarı və başqa detalları işarə etmişdir (2 bal). | |

**TAPŞIRIQLAR MATRİSASI 2/4**

<table>
<tr><td colspan="3">Dərslər: 11-14 Birləşdirici mövzu: Portret növləri</td></tr>
<tr><td>Məsələ və yarımanlayışlar</td><td>Əsas sual/suallar</td><td>Kompleksli tapşırıqlar</td></tr>
<tr><td>Elementlər:<br>Həcm, işıq-kölgə, ton,<br>fon və təsvirin qarşılıqlı münasibəti.<br><br>Prinsiplər:<br>Proporsiya, simmetriya/asimmetriya, aksent, ziddiyyət, statika/dinamika.<br><br>Sahələr:<br>Rəssamlıq<br>Janrlar:<br>Portret və onun növləri:<br>təntənəli kamera, qrup, avtoportret<br><br>Təsviri incəsənət texnikası:<br>Rəssamlıq, fotoqrafiya<br>Dövr/tərz/cərəyan:<br>müxtəlif.<br>intibah, barokko - geniş</td><td>• Nə və hansı səbəblərə görə incəsənətçilər portretlər yaradırlar?<br>• Hansı portretlər mövcuddur?<br>• Portret şəxsiyyət haqqında nəyi söyləyir?<br>• Portretdə şəxsiyyətin xarakterizə edilməsi üçün müxtəlif dövrün incəsənət ustaları hansı bədii üsullarla faydalanırlar?<br>• Köhnə avtoportretləri və müasir selfiləri bir-biri ilə müqayisə et. Onların arasında hansı oxşarlıq-fərq vardır?<br>✓ Kişi və qadın rəssamlarının avtoportretlərini bir-biri ilə müqayisə et. Hansı fərqi görürsən? Necə düşünürsən, bu fərqə nə səbəb olmuşdur? Hal-hazırda selfilərin ən yayılmış növləri hansılardır?</td><td rowspan="2">Debatlar:<br>Qadın incəsənətşünaslar kişilər kimi, eyni hüquqlarla faydalanırdılar (sinif fəallığı)<br><br>“Fotoportret”<br>(cütlükdə iş)<br>Şəxsiyyətini göstərən fərdi fotoportret.<br>Təsviri vasitələri və üsulları ağlabatan şəkildə istifadə et: rəng, forma/deformasiya, xətt, işıq-kölgə, tonal qradasiya, fon, ritm, miqyas, proporsiya/disproporsiya, ziddiyyət və s.<br><br>Avtoportret çək.<br>(müstəqil iş)</td></tr>
<tr><td colspan="2">11. Təntənəli və kamera portretləri<br>• Müzakirə: (sinif, qrup, şifahi)<br>✓ İncəsənətçilər hansı və nə səbəbə görə portretləri yaradırlar?</td></tr>
</table>

**Cavab**: incəsənətçilər portretləri müxtəlif səbəbdən yaradırlar – bəziləri gələcək nəsil üçün özlərini ölümsüzləşdirmək üçün özəl şəxslərin sifarişidir; bəzən incəsənət ustası insanın daxili aləmini göstərmək istəyir.

- ✓ Hansı portretlər mövcuddur?

**Cavab**: kamera, təntənəli, atlı, qrup, avtoportret

- ✓ Portret şəxsiyyət haqqında nəyi söyləyir?

**Cavab**: Portret şəxsiyyətin mənşəyi, sosial statusu, xarakteri və s. haqqında məlumat verir.

- ✓ Dövrün incəsənət ustaları portretdə şəxsiyyətin xarakterizə edilməsi üçün hansı bədii üsullardan faydalanırlar?

**Cavab**: poza, jestikulasiya, mimika, kostyum, aksessuarlar, fon və s.)

- ✓ Köhnə avtoportretlər və müasir selfilər arasında hansı oxşarlıq-fərq vardır?
- ✓ Kişi və qadın rəssamlarının avtoportretləri arasında fərq varmı və ya yox? Necə düşünürsən, bu fərqə səbəb nədir?

**Cavab**: kişilər atributlar xaricində təsvir edilmişlər. Qadınlar isə hər zaman işarə edirlər ki, onlar rəssamdırlar –ya molbertlə, palitra və fırçalarla, yaxud da ad qazanmış natürmortla. Sanki bununla özlərini incəsənət peşəsinin nümayəndələri kimi bərqərar edirlər, sanki özlərini cəmiyyətə rəssamlar kimi təqdim edirlər. Buna səbəb cəmiyyətin onları ciddi qəbul etməməsi ola bilərdi, onlara kişi incəsənətçiləri kimi dəyər verilmirdi.

- Hal-hazırda selfilərin ən çox yayılmış növləri necədir?

- **Fəallıq**: portret növünün tanınması:

İllüstrasiyalar arasında təntənəli və kamera portretlərinin tanınması.

- **Prezentasiya:** (ev tapşırığı, cütlüklərdə iş):

Yoldaşlarla birlikdə hər hansı bir cütlüyün portretini seç. Məlumat axtarın və kostyumlaşdırılmış, səhnələşdirilmiş prezentasiya hazırlayın.

*Səhnələşdirilmiş, kostyumlaşdırılmış prezentasiya imkan daxilində, portret ətrafında atributlar və kostyumlarla rekonstruksiyanı nəzərdə tutur. Bu onu bildirmir ki, şagirdlər oxşar kostyumlar tikməlidirlər. Yaxşı olardı ki, öz əlləri ilə papaq, yaxalıq, manjet və ya kostyumun hər hansı bir detalını hazırlasınlar. Lövhədə müvafiq fonun sxematik şəklini çəkə bilərlər və ya oxşar əşyaları düzə bilərlər. 2-3 dəqiqəlik prezentasiya zamanı şagirdlər yoldaşlarına bu şəxsiyyət və ya incəsənətkar haqqında danışmalıdırlar.

- **Proporsiyaların tədqiqatı – oyunu:** (müstəqil iş)

Bir neçə vərəqi solğun xətlərlə istənilən hər hansı ölçüdə beş hissəyə böl. Şagirdin dərsliyində verilən (səh. 208) Albrext Dürerin proporsiyalarının sxemini rəhbər tut və hər bir hissəsində üzün müvafiq hissəsini çək.

- **Proporsiyaların tədqiqatı – oyunu selfidə**: (ev tapşırığı): selfi çək. Paint proqramına fotonu yüklə. Fotonu işarə et və böyütmə və ya kiçiltmə funksiyası ilə üz ölçülərini dəyişdir.

- **Proporsiyaların oyunu** (qrupda sinif):

A 4 vərəqini uzununa 2-3 hissəyə kəsin.
Oyunçular razılaşmalıdırlar ki, hər vərəqdə üzün neçə hissəsinin şəkli çəkiləcəkdir.
Oyun iştirakçısı hər üzv vərəqə üzün bir sahəsini çəkir (profildə), vərəqi elə qatlayır ki, növbəti oyunçu əvvəlki hissədə çəkilmiş fraqmenti görə bilməsin.
Qatlanmış vərəqi yoldaşına ötürür və üzün növbəti sahəsini çəkməyi davam edir və öz növbəsində qatlanmış vərəqi növbəti oyunçuya verir.
Vərəq dolduqda, qatlanmış hissələri açın və nəticənizdən zövq alın.

| | |
|---|---|
| • **Simmetriya/assimetriya üzrə çalışma** (müstəqil iş):<br>Jurnaldan insanın sifətini kəs.<br>Ortadan uzununa kəs və ya cır.<br>Hər bir yarısını ayrı-ayrı vərəqlərə yapışdır. Birinci vərəqdə simmetriyaya əməl etməklə, sadə karandaşla üzün ikinci yarısını çək. İkinci vərəqə belə bir üsulla assimetrik üz çək.<br>• **Karton relyef** (cütlükdə iş):<br>Kartondan xarakterik tipajın relief portretini düzəlt (təlimatı dərslikdə izləyin)<br><br>• **Üçqat portret** (müstəqil iş):<br>Bir formatda yoldaşın və ya təsviri üçqat portreti çək – profildə, dörddə birdə və anfasda.<br><br>**2. Barokko dövrünün insanı**<br>• **Müzakirə:** (qrupda sinif işi):<br>Ziddiyyətli işıqlandırmanın bədii effekti haqqında.<br>İspan saray rəssamı Fransisko de Surbaranın işıqlandırma effektini müşahidə et. Belə bir ziddiyyət hansı təəssüratı yaradır?<br>Yaxşı olardı ki, şagirdlər öz həyat təcrübələrindən ziddiyyətli işıqlandırma misallarını (tutaq ki, gecə tonqal ətrafında oturduqda), fənər işıqlandırmasını və ya kinofilmlərdən kadrları yada salsınlar. Onlar dərk etməlidirlər ki, qaranlıq və parlaq işığın ziddiyyəti vəziyyəti kəskinləşdirir, dramatik effekt yaradır.<br><br>• **Tonal qradasiya ilə drapirovka**<br><br>• Divara birrəngli parçanı elə bərkit ki, pərdə kimi drapirovkanın bir neçə qatı alınsın.<br>• Müşahidə et ki, parçanın qatlarında işıq-kölgə necə bölünmüşdür.<br>• Karandaşla işıq-kölgənin ötürülməsi üçün müxtəlif tündlükdə və istiqamətdə ştrixlərdən istifadə et.<br>https://i.pinimg.com/originals/96/23/b6/9623b6c9b4226babfc49031e770d8810.png<br>https://studref.com/htm/img/10/8074/40.png<br>http://podg-kursy.ru/images/stories/fruit/untitled-44.jpg<br><br>• **Akvarel və ya quaş boyası ilə drapirovkanı çək.**<br>• Tonal qradasiyanın ötürülməsi üçün rəngin açılması üçün quaşa ağ, tündləşdirilməsi üçün qara boyanı əlavə et.<br>• Akvarel halında, tonal qradasiyanın ötürülməsi üçün rəngi açmaq üçün yuma metoduna müraciət et.<br>Quaşla və ya akvarellə drapirovka nümunəsi:<br>https://bit.ly/3ymrLbk<br>https://paintingvalley.com/images/drapery-painting-22.jpg<br><br>• **Ziddiyyətli işıqlandırma fotoqrafiyada** (rəngli və ağ-qara fotolarla) (müstəqil iş)<br>Ziddiyyətli işıqlandırma ilə yoldaşın fotoşəklini çək.<br>Üç üsuldan istifadə et:<br>1. gündüz işıqlandırması ilə, pəncərənin önündə, profildə;<br>2. quraşdırdığın süni işıqlandırma ilə, profildə;<br>3. qaranlıqda fənərlə aydın işıqlandırma ilə, anfasda.<br>Eynini ağ-qara təsvir ilə etməyə çalış.<br>Fotoşəkilləri rəqəmsal alboma yüklə və bir-biri ilə müqayisə et – rəngli və ağ-qara təsvirlər arasında hansı fərq var?<br>Ziddiyyətli işıqlandırma hansı əhval-ruhiyyəni yaradır?<br>Rəng xaricində eyni işıqlandırma hansı effekti verir, qara-ağ tonallığında? | |

Nümunələr:
https://c.stocksy.com/a/MRG700/z9/1731496.jpg?1578721164
https://c.stocksy.com/a/LRG700/z9/1731495.jpg?1580225636

- **Barokko dövrünün incəsənətinin xüsusiyyətlərinin öyrənilməsi** (qrup işi):

Şəkildə dinamika, cəldlik hissi hansı bədii üsullarla yaranır?
(Cavab: mürəkkəb hərəkətlər, poza və jestikulyasiya, yüklü kompozisiya, ziddiyyətli işıqlandırma, işıq-kölgənin cəld oyunu)

- **Dövrlərin müqayisəvi T sxeminin tərtib edilməsi** (müstəqil iş):

İntibah və barokko dövrlərinin incəsənətinin xüsusiyyətlərinin müqayisəvi sxemi.
Sxemin ehtimal nümunəsi:

| İntibah dövrü | Barokko |
|---|---|
| İnsan öz taleyini və şəhərinin/ölkəsinin tarixini idarə edəndir | Heç nə möhkəm deyil. İnsan heç nəyə nəzarət edə bilmir və həll etmir. Hər şey dəyişkəndir. Zaman rəhmsizdir. |
| Rahatlıq, harmoniya, tarazlıq, möhkəmlik | Təlatümlü ehtirasların həyəcanı, mübarizə, münaqişə |
| Üçbucaq və ya frizsayağı simmetriya kompozisiyası | Diaqonal, assimetrik kompozisiya |
| Statika | Dinamika |
| Bərabər işıqlandırma | Ziddiyyətli işıqlandırma |
| Sakit oturuş, kontrapost | Mürəkkəb pozalar |
| Emosiyasız ifadələr | Emosional ifadələr |
| Fiqurun düzgün anatomik quruluşu, klassik prinsiplər | Şişirdilmiş, iri ölçülü əzələli bədənlər |

**13. Qrup portreti** (evdə oxu)

- **Müzakirə**:

Barokko dövrünün qrup portretləri insanların fəaliyyəti haqqında nəyi söyləyir?
**Cavab**: Dərsliyin mətni əsasında (kostyumlar, atributlar).

- **Araşdırma** (müstəqil iş):

**Google Arts & Culture** internet səhifəsində Tisianın, Velaskesin, Qoyyanın və Klod Monenin rəsm əsərlərini axtarıb tapın, təsviri böyüdün və cizgiləri müşahidə edin.

- **Qrup portretinin çəkilməsi** (müstəqil iş):

Sinfinizin və ya ailənizin qrup portretini çək. Özün qərara al ki, onda təntənəli və ya məişət janrının atmosferi olacaqdır?

**14. Avtoportret**

- **Rəqəmsal albomun yaradılması: (Google Arts & Culture** internet-səhifədə favoritlərin albomu). (Ev tapşırığı) sənin üçün maraqlı rəssamların avtoportretlərinin rəqəmsal albomunu yarat (və ya **Google Arts & Culture** internet səhifədə sənin favoritlərinin albomu). Onların tərcümeyi-halları ilə tanış ol. Tərcümeyi-hallardan sənə maraqlı olan məlumatları topla.
- **Mikro və makro aləmlər bir portretdə:** (kollaj, ev tapşırığı)

Sənin daxili və xarici aləmin necədir?
İnsanın baş siluetini çək.
Fonda sənin mühitini, sənin aləmini əks etdirən jurnal-qəzetlərdən kəsilmiş təsvirləri və sözləri yapışdır.

Siluetin içinə isə sənin daxili aləmini və maraqlarını əks etdirən təsvirləri və sözləri yapışdır.  Siluetin konturunu iri markerlə çək.

- **Kostyumlaşdırılmış selfi** İntibah, barokko və ya ənənəvi tərzdə (ev tapşırığı).

Hər hansı bir portreti seç.
Müvafiq mühiti seç.

Fikirləş və əlindəki resursla yarat (sənin paltarın, parka, kaşne, şal, papaq, əlcək və s.). Şəkildə təsvir edilmiş insandakına bənzər kostyum, şəkildə təsvir edilən insan kimi eyni pozanı qəbul et və selfi çək.

- **Praktiki fəallıq: xronologiya** (cütlüklərdə iş)**:**

Axtar və məşhur insanların avtoportretlərini xronoloji şəkildə düz. Onlara axtardığın məlumatları əlavə et. Albomu yoldaşlarınla paylaş. Albomu hər zaman yeniləşdirə və zənginləşdirə bilərsən!

**“Debatlar” kompleksli tapşırıqlar üçün tövsiyələr:**

**Hazırlıq mərhələsi:**

Bir neçə qadın incəsənətçisini seçin. Onların tərcümeyi-halları ilə tanış olun. Onların verdikləri töhfələrə və hansı maneələri və necə dəf etdiklərinə, yerlərini necə bərqərar etdiklərinə diqqət verin; yaxşı olardı ki, incəsənətçinin yaşadığı dövr və tarixi kontekst haqqında məlumatınız olsun. Qrupun hansı mövqeni müdafiə etməli olacağı məlum olmadığına görə, hər iki hal üçün arqumentlər hazırlanmalıdır.

**Qaydalar:**

Rollar:

- moderator – (debatlar prosesinə nəzarət edir)
- vaxt gözətçisi– (reqlamentə nəzarət edir (1 dəq.)
- debatların iştirakçısı– qarşılıqlı mövqelərin müdafiəçilərinin iki qrupu.
- üç hakim– (arqumentlərin müxtəlifliyini, məntiqiliyini, inandırıcılığını qiymətləndirir; qrup üzvləri arasında əməkdaşlıq edir, qruplar arasında korrektivlər edir, debatların nəticələrini cəmləşdirir.
- dinləyicilər - (söylənilən arqumentə qarşı əvvəlcədən razılaşdırılmış jestlərlə razılığı və ya narazılığı ifadə edirlər).
- Qrupların mövqeyini püşkatma həll edir.
- Debatlara müsbət mövqeni müdafiə edəcək qrup başlayır. Söz hüququ əlini qaldırmaqla söz istəyən şəxsə verilir.
- Moderator sıra ilə müxtəlif mövqenin “spikerlərinə” söz verir.

İnandırıcı sübutlarla hakimləri mövqenizin ədalətli olduğuna, opponentlərinizin arqumentlərinin isə qəbul edilməzliyinə inandırın.

Spikerlər bir-birlərinin suallarına cavab verirlər:

- Hansı ölkələrdə bu günə qədər qadınların hüquqları pozulur və nə üçün?
- Yaradıcılıq fəaliyyətində insan hüquqlarının məhdudlaşdırılması lazımdırmı və ya yol verilməzdirmi və nə üçün?
- Elə bir peşə varmı ki, hər hansı bir cinsin nümayəndəsi üçün bu fəaliyyətlə məşğul olmağı qadağan edir?
- Qadın incəsənətçilər nədə, nə üçün və necə məhdudlaşdırılırlar?
- Bu fikirlə razısanmı və ya razı deyilsənmi?

**Qeyd** :

Müəllim debatların cəmləşdirilməsi şəklində nəticə çıxarmalıdır. O vurğulamalıdır ki, bu gün, dövlətimizdə qadınların iştirakı həyatın bütün sahələrində təmin edilmişdir və mühafizə olunur.

| | |
|---|---|
| **“Fotoportret” kompleksli layihə üçün tövsiyələr** (cütlükdə iş)<br>• Yoldaşının yardımı ilə sənin şəxsiyyətini göstərən fotoportreti yaradın. Təsviri vasitələrdən və üsullardan ağlabatan şəkildə istifadə et: rəng, forma/deformasiya, xətt, işıq-kölgə, tonal qradasiya, fon, ritm, miqyas, proporsiya/disproporsiya, ziddiyyət və s.<br>• Dərslikdə, kitablarda və internetdə məşhur incəsənətkarların avtoportretlərinə nəzər sal. Bunlardan sənin işin üçün ideya verən ikisini seç. Yaz ki, sənətkarlar bu avtoportretlərdə təsviri vasitələrdən və üsullardan necə istifadə edirdilər və bu yolla hansı effekti əldə edirdilər. Bu avtoportretlərdən öz işində nəzərə alacağın nədir.<br>• Beyin həmləsi – fikirləş, kimsən, necəsən, nə ilə maraqlanırsan, nəyə sevinirsən, nəyi sevirsən, nəyə qıcıqlanırsan. Assosiativ torun “mən kiməm”-in mərkəzi dairəsində “mən”-im ətrafımda böyük dairələrdə xassələrini yaz. Onların ətrafında kiçik dairələrə yaz ki, hansı təsviri üsullar bu xassələrin daha yaxşı göstərilməsində yardım edəcəkdir.<br>(nəzərə al ki, əsərdə öz maraqlarından və xassələrindən ən önəmlisini seçməlisən).<br>Assosiativ toru ötən mərhələnin yazısına əlavə et.<br>• sadə karandaşla fikirləşdiyin eskizi çək;<br>• yoldaşından xahiş et ki, bir neçə fotoşəkil çəksin və bunun üçün xüsusilə və ağlabatan şəkildə işıqlandırmadan istifadə et, kadrı, ifadəni, kostyumu, rəngləri seç;<br>• fotolardan birini seç;<br>• internetdə fonu seç (neytral, mücərrəd, peyzaj...), hansı ki sənin fikrinə uyğun olacaqdır. Onu kompüter rəsm proqramına yüklə.<br>• Fotoportretini və seçilən fonu aç. Rəsm proqramı (**Paint**) ilə fotoportretdən fiqurunu kəsmək üçün seçim funksiyasını (**Select**) aç və sərbəst formanın işarə edilməsi (**Free form selection**) funksiyasının alətlərinin düyməsini sıxın.<br>• Fiqurun konturlarını işarə et və işarə edilən (**Copy**) yadda saxla.<br>• Fon faylını aç və işarə edilən fiquru fona (**Paste**) yerləşdir.<br>Fiqurun ağ fonunu çıxartmaq üçün funksiyada şəffaf seçim düyməsini sıxın (**Transparent selection**).<br>• Rəqəmsal portretə başlıq ver və yadda saxla **(Save).**<br>• Rəsm işini bloqunda yerləşdir.<br>• Yaz ki, işin barəsində nə düşünürsən – özünü necə bir insan kimi təsəvvür edirsən; təsviri incəsənətin hansı şah əsəri, vasitəsi və üsulu işin yaradılmasında və xassələrinin göstərilməsində sənə yardım edəcəkdir; sənin avtoportretin fikrinin ilkin variantından fərqlənəcəkmi və ya yox və nə üçün; onun üzərində işlədikdə hansı çətinliklərlə üzləşdin və bunları necə dəf etdin; bu tapşırığı yenidən yerinə yetirsəydin, nəyi dəyişərdin.<br>• Yoldaşından xahiş et ki, sənin işin haqqında təəssüratını yazsın (işində bəyəndiyi üç halı və dəyişmək istədiyi iki halı).<br>• Yoldaşına onun portretinin yaradılmasında yardım et.<br><br>**“Avtoportret” kompleksli tapşırıq üçün tövsiyələr:**<br>**Tapşırığın şərti:**<br>Avtoportret çək. İşi yaratdıqda çalış ki, mövzunun öyrənilməsi ərzində əldə etdiyin bilik və bacarıqlardan istifadə edəsən.<br><br>**Nəzərə al**:<br>İfadə; poza; jestikulyasiya; kostyum; aksessuarlar; fon; işıqlandırma<br><br>**Təsviri vasitələr**:<br>Xətt (ştrix, kontur); rəng; forma; həcm; ton; işıq-kölgə | |

| | |
|---|---|
| **Təsviri üsullar:**<br>Proporsiya; rakurs<br><br>**Resurslar:**<br>E.H. Qombrix, İncəsənət hekayəti, Loqos pres, 2012<br>https://bit.ly/2TZ3R3d<br>Dünya incəsənəti, N. Maçaraşvili, N. Silaqadze, Meridian, 2010:<br><br>İncəsənət tarixi (XVI-XVII əsrlər Avropası), M. Stoksted, M. V. Qotren, Tbilisi, Appolon Kutateladze adına Dövlət Rəssamlıq Akademiyası, 2018 il.<br>Google Arts & Culture:<br>https://artsandculture.google.com/<br>Piter Paul Rubensin portretlərinin galereyası:<br>https://www.liveinternet.ru/users/bolivarsm/post347975292/<br><br>**Debatlar haqqında məlumatı izləyin:**<br>1. Dərslik Living Democracy, IV tom, fəsil: Demokratik cəmiyyətdə iştirak:<br>https://www.living-democracy.ge/textbooks/volume-4/part-3/unit-8/lesson-1/<br>2. Debatlar qaydası:<br>https://bit.ly/2BeRxVU<br><br>**Əlavə illüstrasiya materialı:**<br>Hans Holbayn, Henri VIII, 1537<br>https://bit.ly/2ZTkUYh<br>Piter Paul Rubens, Maria Palaviçino, 1606<br>https://commons.wikimedia.org/wiki/File:Maria_Serra_Pallavicino.jpg<br>Dieqo Velaskes, Filip IV, 1632<br>https://bit.ly/2Qh7XFi<br>H. Riqo, Lui XIV, 1701<br>https://bit.ly/3ho6Sqc<br>Jak Lui David, Napoleon, 1812<br>https://bit.ly/3doGub5<br>Piero Dela Françeska, Federiko Da Montefeltro Da Batista Sfortsa, 1472<br>https://bit.ly/3uO77iq<br>Piero Del Polaiolo, Gənc qadın, 1496<br>https://bit.ly/3uO77iq<br>Sandro Botiçeli, Medalyonlu kişi, 1474<br>https://bit.ly/3hoo6ni<br>Yan Van Eyk, “Qırmızı başısarıqlı kişi”, 1433<br>https://bit.ly/3yoLgAg<br>Yan Vermeer, “Mirvari sırğalı qız” 1665<br>https://en.wikipedia.org/wiki/File:Meisje_met_de_parel.jpg<br>Velaskes, “Təlxək Sebastyan De Mora”, 1645<br>https://bit.ly/3fiV8m6<br>Velaskes, Kəndli qız, 1650<br>https://bit.ly/3tIH8HQ<br>**Prezentasiyalar üçün ehtimal mövzular və illüstrasiya materialı:**<br>Piero Dela Françeska, Federiko Da Montefeltro Da Batista Sfortsa, 1472<br>https://bit.ly/3uO77iq<br>Rafael Santi, Aniolo Da Madalena Doni, 1506<br>https://bit.ly/3w2ofkr<br>https://bit.ly/33HE9od | |

| | |
|---|---|
| Lukas Kranax böyük, Haynrix V Saksonlu və Katarina Fon Meklenburq, 1514<br>https://bit.ly/3bGibqn<br>https://bit.ly/3uJkEYx<br>Piter Paul Rubens, Avtoportret İzabela Brandla birlikdə, 1610<br>https://bit.ly/2Aquwis<br>Rembrandt Hamens Van Reyn, "Avtoportret Saskiya ilə birlikdə", 1635<br>https://museumsworld.ru/artniderland/g-rembrandt/36sask.php<br>Anton Van Deyk, Villerey qardaşlarının portreti, 1635<br>https://bit.ly/3cnEI8T<br>An Van Deyk, Maria Stüart və Uiliam II,<br>https://bit.ly/3bkzPPV<br>An Van Deyk, Uorton bacıları, 1640<br>https://bit.ly/2XKP39s<br>Jak Lui David, Kimyaçı Lavuazie və onun həyat yoldaşı, 1788<br>https://bit.ly/3w44Ak6<br>Qrant Vud, "Amerika qotikası", 1930<br>https://bit.ly/3fe114i<br><br>**Avtoportretlərin illüstrasiya materialı:**<br>Albrext Dürerin üç avtoportreti:<br>1493 il, 22 yaşında<br>https://bit.ly/3tK0f43<br>1498 il, 27 yaşında<br>https://bit.ly/2TZ3dCI<br>1500 il, 29 yaşında<br>https://commons.wikimedia.org/wiki/File:D%C3%BCrer_self_portrait_28.jpg<br>Pietro Perujino, 1500 il.<br>https://en.wikipedia.org/wiki/Pietro_Perugino#/media/File:Pietro_Perugino_031.jpg<br>Rafaelin avtoportreti dostu ilə birlikdə, 1520 il.<br>https://bit.ly/2BnvNaz<br>Rafael, 1506 il.<br>https://en.wikipedia.org/wiki/Raphael#/media/File:Raffaello_Sanzio.jpg<br>Tisian, Avtoportret, 1562 il.<br>https://bit.ly/3eGsXOX<br>və:<br>Tisian, Avtoportret, 1567 il.<br>https://bit.ly/3fjalni<br>Rubens, 1623 w.<br>https://commons.wikimedia.org/wiki/File:Rubens_Self-portrait_1623.jpg<br>Rembrandt, 1628 il.<br>https://bit.ly/3fj9piX<br>Rembrandt, "Avtoportret beretlə", 1630 il.<br>https://bit.ly/3vZc203<br>Rembrandt, "Avtoportret Saskia ilə birlikdə", 1635 il.<br>https://bit.ly/3coABcC<br>Rembrandt, "Avtoportret Pavelin simasında", 1661 il.<br>https://bit.ly/2TVQaSM<br>Qustav Kurbe, "Avtoportret Qara itlə", 1842 il.<br>https://bit.ly/3ya8f1S | |

**Qiymətləndirmə kriteriləri:**
**Təsviri incəsənətin bədii-təsviri vasitələri (elementlər) və üsulları (prinsiplər)**
**Təsviri incəsənətin texnikası**

- İnsanı müvafiq təsviri vasitələrdən və üsullardan (həcm, işıq-kölgə, tonal qradasiya, faktura, proporsiya, detal və s.), müxtəlif materialdan və texnikadan istifadə etməklə təsvir edir **(Təs.tət.baz.1,2);**
- İşində (məs., portretdə) ideyanın və ya əhval-ruhiyyənin və emosiyanın ötürülməsi üçün bir və ya bir neçə bədii-təsviri vasitədən, üsuldan istifadə edir (işıq-kölgə, tonal qradasiya, ziddiyyət, kompozisiya bölgüsü, aksent, detal, poza, jest, mimika və s.) (**Təs.tət.baz.1**);
- Portretdə istifadə edilən bədii-təsviri vasitələri, üsulları analiz edir və müzakirə edir ki, müəllif bunların vasitəsilə nəyi ötürmək istəyirdi (zahiri görünüş, xarakter, sosial status və s.) **(Təs.tət.baz.3);**

**Müxtəlif dövrün/cərəyanın/tərzin incəsənətinin xarakterik əlamətləri/bədii xüsusiyyətləri**
**Təsviri incəsənət sahələri və janrları**

- Portretdə öz fikrini, ideyasını ötürmək üçün özünüifadə vasitələri kimi təsviri incəsənət sahəsini, janrı, bədii üsulları, materialı və texnikanı seçir**(Təs.tət.baz.2,3);**
- Bir və ya bir neçə incəsənətçinin nümunələri əsasında müzakirə edir ki, müxtəlif dövrlərdə insanların daxili aləmlərini necə təsvir edirdilər **(Təs.tət.baz.3,4);**
- Portretin və ya məişət janrının əmələ gəlmə səbəblərini müzakirə edir **(Təs.tət.baz.4);**
- Bir neçə incəsənətçinin yaradıcılığını analiz edir və müzakirə edir ki, nümayəndələri olduqları mədəniyyətin təsiri onların əsərlərində öz əksini tapmışdırmı və hansı şəkildə **(Təs.tət.baz.3,4).**
- Hər hansı iki dövrün, sahənin, üslubun, cərəyanın əsərlərini bir-biri ilə müqayisə edir, oxşarlıq-fərqlərini, xüsusiyyətlərini müzakirə edir **(Təs.tət.baz.4).**

**Kompleksli tapşırığın qiymətləndirilməsi üçün əlavə məlumat:**
**Debatlar:** (debatların qiymətləndirmə formasını izləyin: Əlavədə)
Tədqiqat bacarığı;
Arqumentləşdirilmiş müzakirə bacarığı;
Debatlar qaydalarına əməl edilməsi.
**"Fotoportret"** (maks. bal 10)

- Şagird assosiativ tor tərtib etdi "Mən kiməm" (1bal),
- Rəsm əsərini əvvəlcədən hazırlanmış eskiz müşayiət edir (bir neçə bədii-təsviri vasitədən və üsuldan istifadə etdi (işıq-kölgə, ton; xətt; poza, jest, mimika, proporsiya)) (2 bal);
- İş müəllifin şəxsiyyətini təqdim edir; (1bal),
- Fotoda işıq, kompozisiya, poza, ifadə, kostyum, ziddiyyət və s. ağlabatan şəkildə istifadə edilmişdir (2 bal);
- Foto rəqəmsal proqram vasitəsilə işlənilmişdir (2 bal).
- İşi refleksiya müşayiət edir (şəxsi işinin analizi) və yoldaşı tərəfindən edilən qiymətləndirmə (2 bal).

**Avtoportret** (maks. bal 10):
(Qiymətləndirmə formasına Əlavədə bax)

- İşi əvvəlcədən edilmiş eskiz müşayiət edir (bir neçə bədii-təsviri vasitədən və üsuldan istifadə edir (işıq-kölgə, ton, xətt, proporsiya)) (3 bal);
- işdə bir neçə üsuldan ağlabatan şəkildə istifadə edilmişdi: işıqlandırma, kompozisiya, poza, jest, mimika, ifadə, kostyum, ziddiyyət və s. (4 bal);
- bir neçə incəsənətçinin yaradıcılığını analiz edir, müzakirə edir ki, işdə onların təsiri nə dərəcədə əks etdirilmişdir (3 bal).

**TAPŞIRIQLAR MATRİSASI 2/5**

<table>
<tr><td colspan="3">Dərs 15 Mövzu: İnsanın məişəti (evdə oxu)</td></tr>
<tr><td>Məsələ və yarımanlayışlar</td><td>Əsas sual / suallar</td><td>Kompleksli tapşırıqlar</td></tr>
<tr><td>Sahələr:<br>Rəssamlıq<br><br>Janrlar<br>Məişət<br>Dövr:<br>Orta əsrlərin Çin rəssamlığı.<br>Şimali Avropa İntibahı, barokko, realizm.</td><td>• İncəsənət insanın məişəti haqqında nədən xəbər verir?<br>• Müxtəlif mədəniyyətin və dövrün incəsənətində insanın məişətini necə təsvir edirdilər?<br>• Məişət janrının əsərindən nəyi öyrənmək olar?<br>• Məişətini necə əks etdirə bilərsən?</td><td>Tədqiqat və məruzənin təqdimatı Mövzu üzrə “XXX dövründə insanın məişəti necə idi”</td></tr>
<tr><td colspan="2">• Müzakirə:<br><br>✓ Məişət janrı nəyi əks etdirir?<br>Cavab: insanın gündəlik məişət həyatını.<br>• İncəsənət insanın məişəti haqqında nəyi bildirir?<br>Cavab: incəsənət bizə məlumat verir ki, müxtəlif dövrlərdə necə yaşayırdılar.<br>• Müxtəlif dövrün incəsənətində insanın məişətini necə təsvir edirdilər?<br>Cavab: bəzi əsərlər sadəcə insanın gündəlik həyatı haqqında məlumat verirlər. Bəzi isə bizdə rəğbət yaratmağa çalışır.<br>• Məişət janrının əsərindən nəyi öyrənmək olar?<br>Cavab: məişət janrının əsərindən öyrənə bilərik ki, bu və ya digər sosial təbəqə necə yaşayırdı, hansı əşyaları var idi, geyimləri necə idi, nə yeyirdilər, nə ilə məşğul idilər, hansı ənənələri və qayda-qanunları var idi və s.<br>• Təsviri incəsənətin hansı sahələrində məişət səhnələrinə təsadüf edilir? Misallar gətirin.<br>Cavab: dəzgah boyakarlığı, qrafika, heykəltəraşlıq, fotoqrafiya.<br>Praktiki iş (ev tapşırığı):<br>• hazırkı həyatdan məişət səhnəsini çəkin.<br>• gələcəyinin məişət səhnəsinin şəklini çək. Gələcəyini necə təsvir edirsən – ailəni, peşəni, əməyini və əyləncəni? Şəkli saxla (vaxt kapsulasında – sənin sevimli əşyaların toplusunda) və gələcəkdə gerçəkliklə müqayisə et. Maraqlıdır ki, sənin gözləntin həqiqətə uyğun olacaqmı və ya yox.<br><br>Kompleksli tapşırıqlarla bağlı tövsiyələr:<br>Tədqiqat mövzu üzrə məruzə: “İnsan necə yaşayırdı?”<br>Səni maraqlandıran dövrü seç. Bu dövrün məişət janrının hər hansı bir əsərini axtar tap. Kitablarda və internetdə onun haqqında məlumat tap. Mühitə, kostyumlara, əşyalara diqqət yetir.<br>Əsərdə istifadə edilən təsviri vasitələri və üsulları təsvir və analiz et, yoldaşlarına danış ki, bu əsərdən (sosial vəziyyət, tarixi vəziyyət) həmin dövrün insanı haqqında nəyi öyrəndin.</td><td></td></tr>
<tr><td colspan="2">Resurslar:<br>Ernst Qombrix, İncəsənət əhvalatı, Loqos pres, 2012<br>https://bit.ly/2TZ3R3d<br>Dünya incəsənəti, Nana Maçaraşvili, Nino Silaqadze, “Meridian”, Tb. 2010: İncəsənət tarixi (XVI-XVII əsrlərin Avropası), Merilin Stoksted, Maykl V. Kotren, Tbilisi, 2018;<br><br>Əlavə illüstrasiya elektron resurslar<br>Pompey, Təndirxana, I əsr<br>https://bit.ly/3uK2yFv</td><td></td></tr>
</table>

| | |
|---|---|
| Çin rəssamlığının illüstrasiya materialı:<br>Qu Kaitçji, 3-metrlik bükülmüş kağız detalı, IV əsr.<br>https://bit.ly/3fd7WL3<br>https://commons.wikimedia.org/wiki/File:Histoire_de_femme_Gu_Kai_Zhi.jpg<br>https://bit.ly/2XSJSWj<br>https://en.wikipedia.org/wiki/Gu_Kaizhi<br><br>Çjou Fanq, VIII əsr.<br>https://ru.wikipedia.org/wiki/%D0%A7%D0%B6%D0%BE%D1%83_%D0%A4%D0%B0%D0%BD<br><br>**Avropa rəssamlığı:**<br>Breygel, “Kəndlilərin rəqsi” 1568<br>https://commons.wikimedia.org/wiki/File:Peasant_dance,_by_Pieter_Bruegel_(I).jpg<br>Breygel, “Məhsul yığımı”, 1565<br>https://www.metmuseum.org/es/art/collection/search/435809<br>Piter Breygel, “Tələ”, 1565<br>https://commons.wikimedia.org/wiki/File:Pieter_Bruegel_d._%C3%84._093.jpg<br>Breygel, “Ovçular qarda”, 1565<br>https://bit.ly/3bGiX6L<br><br>Petrus Kristus (Niderlandlar), Zərgər yanında”, 1449<br>https://www.metmuseum.org/art/collection/search/459052<br>Kventin Masis (Flandriya), “Sələmçi və arvadı”, 1514<br>https://bit.ly/3uJ8aA8<br>Marinus Van Reimersvale (Hollandiya), “Pul dəyişənlər”, XVI əsrin I yar.<br>https://bit.ly/2ReIRHz<br>Velaskes, “Nahar”, 1615<br>https://bit.ly/3bpJwwF<br>Velaskes, “Qadın yumurta bişirəndə”, 1618<br>https://bit.ly/37nlQ8Z<br>Yan Vermeer, “Südçü”, 1660<br>https://www.wikiart.org/en/johannes-vermeer/the-milkmaid<br>Piter De Xox, “Ana-bala” 1660<br>https://bit.ly/3tDunOE<br>Piter De Xox, “Yataq”, 1690<br>https://bit.ly/3fdqRVW<br>Piter De Xox, “Ağ paltar üçün dolabça yanında”, 1663<br>https://bit.ly/3w6eUrM<br>Yan Sten, “Şən ailə”, 1668<br>https://bit.ly/3fjb3ks<br>Yan Sten, “Müqəddəs Nikolay bayramı”, 1668<br>https://bit.ly/3vWLxZ0<br>Jan Onore Fraqonari (Fransa), “Yelləncək”, 1767<br>https://en.wikipedia.org/wiki/The_Swing_(painting)#/media/File:Fragonard,_The_Swing.jpg<br>Jan Batist Simeon Şarden, “Nahardan öncə dua”, 1740<br>https://bit.ly/3hmvtf6<br>Qustav Kurbe, “Daşqıranlar”, 1849<br>https://upload.wikimedia.org/wikipedia/commons/f/fc/Courbet_-_Kamieniarze.jpg<br>https://commons.wikimedia.org/wiki/File:Gustave_Courbet_018.jpg<br>Jan Fransua Mile, “Taxıl yığanlar”, 1857<br>https://upload.wikimedia.org/wikipedia/commons/6/64/Millet_Gleaners.jpg<br>Onore Domie, “Paltaryuyan”, 1863<br>https://bit.ly/3w6rh7d<br>Onore Domie, “III sinif vaqonu”, 1864<br>https://bit.ly/2MNN2nQ<br>Edqar Deqa, “Qadınlar paltar ütüləyəndə”, 1884<br>https://commons.wikimedia.org/wiki/File:Edgar_Germain_Hilaire_Degas_084.jpg | |

| | |
|---|---|
| **Qiymətləndirmə kriteriləri:**<br>**Müxtəlif dövrün/cərəyanın/tərzin incəsənətinin xarakterik əlamətləri/bədii xüsusiyyətləri**<br><br>**Təsviri incəsənət sahələri və janrları**<br>• Bir və ya bir neçə incəsənətçinin nümunələri əsasında müzakirə edir ki, müxtəlif dövrlərdə insanların məişət həyatlarını necə təsvir edirdilər **(Təs.tət.baz.3,4);**<br>• Məişət janrının əmələ gəlmə səbəblərini müzakirə edir **(Təs.tət.baz.4);**<br>• Bir neçə incəsənətçinin yaradıcılığını analiz edir və müzakirə edir ki, nümayəndələri olduqları mədəniyyətin təsiri onların əsərlərində öz əksini tapmışdırmı və hansı şəkildə **(Təs.tət.baz.3,4).**<br>• Hər hansı iki dövrün, sahənin, üslubun, cərəyanın əsərlərini bir-biri ilə müqayisə edir, oxşarlıq-fərqlərini, xüsusiyyətlərini müzakirə edir **(Təs.tət.baz.4).**<br><br>**Kompleksli tapşırığın qiymətləndirilməsi üçün tövsiyələr:**<br>Tədqiqat və məruzənin təqdim edilməsi<br>Məruzənin qiymətləndirmə sxemini Əlavədə izləyin | |

**TAPŞIRIQLAR MATRİSASI 2/6**

| **Dərs 16** | **Mövzu: Kostyum nədən xəbər verir** | |
|---|---|---|
| **Məsələ və yarımanlayışlar** | **Əsas sual/suallar** | **Kompleksli tapşırıqlar** |
| **Elementlər:**<br>rəng<br>faktura<br><br>**Sahələr:**<br>boyakarlıq<br><br>**Janrlar:**<br>portret<br>məişət<br>**Texnika:**<br>rəssamlıq<br>modelləşdirmə<br>**Dövr/mədəniyyət/cərəyan/ tərz və müvafiq incəsənət nümunələri**<br>müxtəlif | • ostyum nədən xəbər verir?<br>• Müxtəlif dövrün/mədəniyyətin insanlarını bir-birindən hansı əlamətlə ayırırıq?<br>• Dəb nəyə xidmət edir?<br>• Paltarın modelləşdirilməsi incəsənətdirmi və ya yox?<br>• Dəb nə üçün dəyişir?<br>• İnsanın geyiminə nə səbəb olur?<br>• Hərbi formada dəyişikliklərə səbəb nədir?<br>• Müasir incəsənətkar üçün dəb tarixini bilmək nə üçün lazımdır? | **1. Tarixi kostyum geyinmiş kuklanın hazırlanması**<br>**2. Reportaj**<br>Qısa esse "XX əsr uşaqlarının məişəti və geyimi haqqında" |
| • **Müzakirə:**<br>✓ Kostyum nədən xəbər verir?<br>**Cavab**: kostyum personajın mənşəyi, sosial statusu, fəaliyyəti haqqında məlumat verir<br>✓ Müxtəlif dövrün/mədəniyyətin insanlarını bir-birindən hansı əlamətləri ilə seçirik?<br>**Cavab**: kostyum xəbər verir ki, personaj hansı mədəniyyətə aiddir – Asiyalı və ya avropalı, hansı dövrdə və hansı ölkədə yaşayırdı və s.<br>✓ Dəb nəyə xidmət edir?<br>**Cavab**: Dəb insanın ehtiyaclarına, yeniliyin bərqərar edilməsinə, sosial statusun nümayişinə, gözəlliyə, münasibliyə və s. xidmət edir.<br>✓ Paltarın modelləşdirilməsi incəsənətdirmi və ya yox?<br>✓ Dəb nə üçün dəyişir?<br>**Cavab**: Dəb insanın həyat qaydasının necə dəyişdiyinə əsasən dəyişir. Məsələn, krinolinli geyimlə avtomobildə yol getmək olmaz, avtobusa minmək olmaz və s.<br>✓ İnsanın geyiminə nə səbəb olur? | | |

| | |
|---|---|
| **Cavab**: iqlim, həyat qaydası, fəaliyyət, din, dəb, sosial vəziyyət və s.<br>✓ Hərbi kostyumun hansı təyinatı vardır?<br>**Cavab:** hərbi kostyum bədəni qorumalıdır; bundan başqa, idman dəstələrini bir-birindən uniforma ilə seçdiyimiz kimi, bu və ya digər döyüşçünün hansı hərbi qruplaşmaya aid olduğunu seçə bilməliyik.<br>✓ Hərbi formada dəyişikliklərə hansı amillər səbəb olurlar?<br>**Cavab**: hərbi formanın dəyişikliklərinə hərbi texnika və avadanlıqların inkişafı səbəb olur.<br>✓ Müasir incəsənətkara dəb tarixini bilmək nə üçün lazımdır?<br>**Cavab**: Müasir incəsənətkar nəinki dəb tarixini, eləcə də ümumi tarixi bilməlidir ki, tarixi dəqiqliyə riayət edə bilsin. Məs., teatr səhnəsinin quruluşu, filmin, kitabın tərtibatı zamanı, yeni paltarın yaradılması üçün və s.<br>**Tapşırıqlar:**<br>✓ **rəqəmsal albom** (müstəqil iş) (müəllimin seçimi ilə)<br>İnternetdə müxtəlif dövrün rəssamlarının uşaqların təsviri ilə rəsm nümunələrini axtar tap.<br>Şəkilləri xronoloji şəkildə düz və “Rəssamlıqda uşaqlıq tarixi” rəqəmsal albomunu yarat.<br>“Rəssamlıq uşaqların həyatı haqqında nədən xəbər verir” mövzusu üzrə fikrini yaz.<br>✓ Dieqo Velaskesin “Meninlər” şəklini yadına sal.<br>Həmin rəssam tərəfindən İnfanta Marqaritanın müxtəlif yaşında çəkilmiş portretlərini axtar və onun kostyumlarını təsvir et.<br>İnfantanın geyimi ili ildən necə dəyişir?<br>Müşahidə et və təsvir et ki, yaşı ilə birlikdə infantanın ifadəsi və pozası necə dəyişir.<br>✓ Hər hansı bir dövrün hərbi kostyumu haqqında məlumatlar axtar.<br>Gürcü, Avropa və şərq mübarizə kostyumunu bir-biri ilə müqayisə et.<br>Bunlarda ümumi nə var?<br>Hansını daha əlverişli hesab edirsən?<br>Hansı hərbçini daha yaxşı müdafiə edir?<br>✓ Müasir islam ölkələrinin əhalisinin geyim nümunələrini axtar və müşahidə et. Orta əsrlərin islam rəssamlığının nümunələrində təsvir edilən insanların geyimi ilə müqayisə et.<br>Nə dəyişdi? Nə dəyişməz qaldı?<br>✓ **Ədəbi qəhrəmanın mühiti** (ev tapşırığı, müstəqil iş)<br><br>Sevimli ədəbi əsərin qəhrəmanını çək.<br>Fikirləş ki, onun mühiti necədir? Necə bir paltar geyinməlidir?<br>* Dərslikdə verilən suala, “Qelatinin freskasında təsvir edilən insanların geyimini müşahidə et.<br>Hal-hazırda, XXI əsrdə, oxşar geyimi kim geyinir?<br>**Cavab**: ruhanilər.<br><br>**Kompleksli tapşırıqlarla bağlı tövsiyələr:**<br>✓ **Tarixi kostyum geyinmiş kukla:**<br>Dərslikdə verilən illüstrasiyalara, müxtəlif dövrün rəssamlıq nümunələrinə nəzər sal, təsvir edilən personajların geyimini müşahidə et. Birini seç, eskiz çək və seçilmiş dövrün/ölkənin və sənin eskizinə uyğun geyinmiş kuklanı düzəlt.<br>Özün qərara al ki, hansı materialla və üsulla kukla düzəlt.<br>İşə araşdırmanı əlavə et, hansında tərəfindən seçilən dövrün/ölkənin kostyumunun xüsusiyyətlərini, xarakterik əlamərləri təhlil edəcəksən.<br>Mövzu təhlil edilənə qədər ötən biliyin aktivləşdirilməsi məqsədilə qısa diskussiya təşkil edilə bilər, hansında şagirdlər yada salacaqlar:<br>✓ Qədim Misirdə və Qədim Yunanıstanda necə geyinirdilər? | |

| | |
|---|---|
| ✓ Bizans dövrünün rəssamlığında insanları hansı libasda təsvir edirdilər?<br>✓ Orta əsrlərin islam və xristian ölkələrinin əhalisinin geyimi arasında hansı fərq var və buna səbəb nədir?<br>**Cavab**:<br>Geyimi iqlim, dini nəzərlər, cəmiyyətdə yayılmış dəb, dövlətlər arasında bərqərar olmuş mədəni və ticarət əlaqələri, insanların sosial mənsubiyyəti, status və s. müəyyən edir. Orta əsrlərin islam və xristian dövlətlərinin əhalisinin geyimini, ilk növbədə, iqlim, dini məhdudiyyətlər (bunlar Avropa ilə müqayisədə, Asiya ölkələrində uzun müddət, bu günə qədər qorunub saxlanılır) müəyyənləşdirirdi.<br>Yaxşı olardı ki, şagirdlər dərsliyə nəzər salsınlar və illüstrasiyalarda təsvir edilən insanların geyimlərini müşahidə etsinlər.<br>Yaxşı olardı ki, layihə başlayana qədər, müəllim şagirdlərdən xahiş etsin ki, ev tapşırığı olaraq, dərsliyin illüstrasiyalarından müxtəlif dövrün bir neçə kostyumun şəkli çəkilsin.<br>Şagirdlərin bacarıqlarını nəzərə almaqla, müəllim onlara kuklanın hazırlanmasının asanlaşdırılmış variantlarını təklif edə bilər:<br>1. Kartonda çəkilmiş və kəsilmiş insanın siluetinin geyindirilməsi.<br>2. Kağız konusun konstruksiyası:<br>https://www.youtube.com/watch?v=EARM7BeMMEQ<br>3. Sadə kuklanın hazırlanması:<br>https://bit.ly/3oseY2C<br>Eləcə də, şagirdlər onlar tərəfindən əvvəllər (məftil karkasda plastilinlə) düzəldilmiş insan fiqurları geyindirə bilərlər.<br>✓ **Reportaj:**<br>XX-XXI əsrin uşaqlarının məişəti və dəbi.<br>XX əsrin uşaqlarının məişəti və geyimi haqqında qısa esse yaz və sorğu aparılan respondentlərin xatirələrindən qısa qeydləri, əldə edilən fotomaterialı və çəkdiyin cizgiləri əlavə et. İşini Power Point proqramı vasitəsilə təqdim et:<br>✓ XX-XXI əsrin 2-3 nəslin insanlarının uşaqlığı hqqında məlumatlar axtar tap.<br>✓ Ailə üzvlərindən onların uşaqlığı haqqında soruş. Məlumatlar topla ki, onların məişəti necə idi, necə oynayırdılar, necə geyinirdilər və s.<br>✓ Vizual materialı axtar tap (ailəvi fotolar, köhnə jurnallar, kitab illüstrasiyaları).<br>✓ XX əsrin uşaqlarının geyimi haqqında qısa esse yaz və sorğu aparılan respondentlərin xatirələrindən qısa qeydləri, əldə edilən fotomaterialı və çəkdiyin cizgiləri əlavə et.<br>✓ Uşaqların dəbinin dəyişkənliyinə hansı səbəblərin təsir etdiyini izah etməyə çalış.<br>✓ Ehtimal et ki, sənin yaşıdların 10-20 ildən sonra necə geyinəcəklər?<br>✓ "Gələcəyin dəbi" eskizini təqdim et.<br>✓ İşi Power Point proqramı vasitəsilə təqdim et. | |
| **Resurslar:**<br>Dieqo Velaskes:<br>https://bit.ly/2XOZqcn<br>Lukas Kranax:<br>https://bit.ly/2TYbC9o<br>Antonis Van Deyk:<br>https://bit.ly/2AtfzMJ<br>Gec Orta əsrlərinin kostyumu:<br>https://bit.ly/2XOZM2H<br>Oskar Şmerlinq:<br>https://bit.ly/3eFL6fQ<br>Uşaqlar üçün dəb:<br>https://www.pinterest.com/svs2/historical-children-s-clothing/ | |

| | |
|---|---|
| **Qiymətləndirmə kriteriləri:**<br>**Təsviri incəsənətin bədii-təsviri vasitələri (elementlər) və üsulları (prinsiplər),**<br><br>**Təsviri incəsənətin texnikası**<br>✓ İnsanı müvafiq təsviri vasitələrdən və üsullardan (həcm, faktura, proporsiya, detal və s.), müxtəlif materialdan və texnikadan istifadə etməklə təsvir edir **(Təs.tət.baz.1,2);**<br>✓ İşində ideyanın və ya əhval-ruhiyyənin və emosiyanın ötürülməsi üçün bir və ya bir neçə bədii-təsviri vasitədən, üsuldan istifadə edir (aksent, detal, aksesuar və s.) (**Təs.tət.baz.1**);<br>✓ İşdə istifadə edilən bədii-təsviri vasitələri, üsulları analiz edir və müzakirə edir ki, müəllif bunların vasitəsilə nəyi ötürmək istəyirdi (sosial status və s.) **(Təs.tət.baz.3);**<br><br>**Müxtəlif dövrün/cərəyanın/tərzin incəsənətinin xarakterik əlamətləri/bədii xüsusiyyətləri**<br><br>**Təsviri incəsənət sahələri və janrları**<br>✓ Bir və ya bir neçə incəsənətçinin nümunələri əsasında müzakirə edir ki, müxtəlif dövrlərdə insanların sosial vəziyyətlərini necə təsvir edirdilər **(Təs.tət.baz.3,4);**<br>✓ Bir neçə incəsənətçinin yaradıcılığını analiz edir və müzakirə edir ki, nümayəndələri olduqları mədəniyyətin təsiri onların əsərlərində öz əksini tapmışdırmı və hansı şəkildə **(Təs.tət.baz.3,4).**<br>✓ Hər hansı iki dövrün, sahənin, üslubun, cərəyanın əsərlərini (portretləri) bir-biri ilə müqayisə edir, oxşarlıq-fərqlərini, xüsusiyyətlərini müzakirə edir **(Təs.tət.baz.4).**<br><br>**Kompleksli tapşırıqların qiymətləndirilməsi ilə bağlı tövsiyələr:**<br>**1. Tarixi kostyum geyinmiş kukla** (maks. bal 10):<br>✓ Kukla eskizə uyğundur və səliqəli yerinə yetirilmişdir (2 bal).<br>✓ Kuklanın geyim silueti və ya detalları seçilmiş dövrə uyğundur (3 bal).<br>✓ Şagird tədqiqatın yazılı nəticəsini eskizlə və axtarılmış məlumatla təqdim edir (3 bal).<br>✓ İş barəsində danışır və onu tarixi-mədəni-sosial-dini kontekstdə müzakirə edir (2 bal).<br>**2. Reportaj** (maks. bal 10)**:**<br>✓ şagirdin axtarıb tapdığı məlumat tapşırığın şərtinə uyğundur (1 bal);<br>✓ Material rəngarəngdir, səliqəlidir, məntiqi sistemə əsasən düzülmüşdür (3 bal);<br>✓ Təqdimatı fotomaterial və şagirdin cizgiləri müşayiət edir (2 bal);<br>✓ Mətn səlis yazılmışdır (2 bal);<br>✓ Prezentasiya rəqəmsal sənəd şəklində təqdim edilmişdir (1 bal);<br>✓ Şagird auditoriya ilə əlaqə qabiliyyətini büruzə verir (1 bal). | |

## TEMATİK BLOK: MÜHİT VƏ İNCƏSƏNƏT (10+2 SAAT)

***Fəsillərin ardıcıllığı şagird kitabında:***


Dərs mövzusu: ətrafımızdakı aləm ........................................................................................261

1. Natürmort, yəni yaxın nəzərdən mühit ...................................................................262
2. Peyzaj, yəni uzaq nəzərdən mühit...........................................................................269
3. Perspektiv ..................................................................................................................274
4. Həlli təbiətdədir ........................................................................................................280
5. Memarlıq ...................................................................................................................284
6. Memarlıq və mühit ....................................................................................................292
7. İqlim və memarlıq.....................................................................................................296
8. Memarlığın bədii dili ................................................................................................300

Epiloq

Lüğət

**TEMATİK BLOK 3: ƏTRAF MÜHİT VƏ İNCƏSƏNƏT**

<table>
<tr><td colspan="4">Mövzu: Ətrafımızdakı aləm     Saatların ehtimal miqdarı: 10 +2 saat</td></tr>
<tr><td colspan="4">Mövzu ilə bağlı bərqərar təsəvvürlər:</td></tr>
<tr><td colspan="4">✓ Ətraf aləmin incəsənətdə müxtəlif vaxtda təsvirinin müxtəlif məqsədi və funksiyası var idi.<br>✓ Zamanla yanaşı xarici aləmin təsviri yolları, material və texnika dəyişirdi.<br>✓ Sənətkarlar fərqli bədii üsullarla müasirlərinin mühiti haqqında xəbər verirlər.<br>✓ Rəsm əsərinin bədii formasına (tərzinə, cərəyanına, yerinə yetirmə üslubuna, bədii-təsviri vasitələrinə, üsullara, materiala və texnikaya) ölkənin mədəniyyəti və ənənələri, tarixi və sosial vəziyyət, coğrafi yerləşmə təsir göstərir.<br>✓ Ətraf mühitin müşahidə nəticələrini və buna olan münasibəti rəngarəng bədii-təsviri vasitələrlə və üsullarla ötürə bilərəm.<br>✓ Ətraf mühit incəsənətkarın yaradıcılığına təsir göstərir, incəsənət isə mühitə təsir göstərir.<br>✓ Memarlıq mühiti dəyişə bilər və bu mühitdə olan insanlara təsir göstərə bilər.</td></tr>
<tr><td colspan="4">Tematik blok çərçivəsində üzərində işləniləsi mövzular və yarımmövzular:</td></tr>
<tr><td colspan="4">1. Natürmort, yəni yaxın nəzərdən ətraf mühit;<br>2. Peyzaj, yəni uzaq nəzərdən ətraf mühit<br>3. Memarlıq</td></tr>
<tr><td>Hədəf anlayışları və bunlarla bağlı bərqərar edilmiş təsəvvürlər:</td><td>Məsələ və yarımanlayışlar:</td><td>Əsas sual / suallar:</td><td>Kompleksli tapşırıqlar (tiplər):</td></tr>
<tr><td>Təsviri incəsənətin bədii-təsviri vasitələri (elementlər) və üsullar (prinsiplər):<br>İnsan incəsənət nümunəsini yaratmaq üçün incəsənət dilindən, yəni təsviri incəsənətin elementlərindən və prinsiplərindən istifadə edir;<br>✓ Təsviri incəsənət dilindən nəinki işi yaratdıqda, eləcə də incəsənət nümunələri üzrə təəssüratları, ideyaları, fikri söylədikdə istifadə edirik;<br><br>Təsviri incəsənət texnikası:<br>✓ İncəsənətçi materialı və texnikanı bədii fikrin əsasında seçir.<br>✓ Bəşəriyyətin inkişafı ilə birlikdə incəsənətin yeni formaları, material və texnika inkişaf edir, dəyişir və yaranırdı.<br><br>Təsviri incəsənətin sahələri və janrları:<br>✓ İncəsənətə gündəlik həyatda müxtəlif növdə təsadüf edirik;<br>✓ İncəsənət əsərləri müxtəlif məqsədlə və təyinatla yaradılır;<br>✓ İncəsənət sahələrinin bölgüsünə istifadə edilən material, texnika və ya təyinat səbəb olur;<br>✓ Hər bir sahə üçün təsviri incəsənətin hər hansı bir təsviri vasitəsi və ya üsulu daha çox xarakterikdir;<br>✓ Təsviri incəsənət təsvir edilən məzmuna əsasən janrlara bölünür.</td><td>Elementlər:<br>Rəng,<br>ton,<br>işıq-kölgə,<br>fon,<br>forma,<br>xətt.<br>Prinsiplər:<br>statika/dinamika,<br>ziddiyyət,<br>tarazlıq,<br>simmetriya/assimetriya,<br>miqyas,<br>tənasüblük,<br>perspektiv,<br>aksent,<br>ritm,<br>ornament.<br>Sahələr:<br>Dəzgah boyakarlığı,<br>memarlıq<br><br>Texnika:<br>Rəssamlıq,<br>boyakarlıq,<br>quraşdırma;<br>Dövr/mədəniyyət/cərəyan /tərz və müvafiq incəsənət nümunələri:<br>müxtəlif;<br>barokko,<br>klassizm,<br>romantizm.</td><td>✓Ətraf mühit incəsənətə necə təsir göstərir?<br>✓Zamanla birlikdə ətraf mühitin təsviri yolları və üsulları necə dəyişirdi?<br>✓İncəsənət əsəri müasir dövrünün mühiti haqqında hansı məlumatı verir?<br>✓Mühitimiz necədir?<br>✓Əsərin bədii formasına (üsluba, cərəyana, yerinə yetirilmə tərzinə, bədii-təsviri vasitələrə, üsullara,</td><td>Tədqiqat<br>Analiz<br>Diskussiya<br>Praktiki iş:<br>(müəllimin seçimi ilə):<br>✓ natürmortun düzülməsi və fotoşəklin çəkilməsi<br>✓ aplikasiya<br>✓ rəqəmsal kollaj<br>✓ xətti və fəza perspektividnə çalışmalar<br>✓ çertyoj<br>✓ quraşdırma<br>Kompleksli layihələr:<br>✓ Natürmortun çəkilməsi<br>• Qrafik və boyakarlıq rəsm əsərinin yaradılması.<br>• Urban, yəni şəhər peyzajının xətli perspektivdən istifadə etməklə çəkilməsi.<br>• Xətti və fəza perspektivi</td></tr>
</table>

| | | | |
|---|---|---|---|
| **Müxtəlif dövrün/mədəniyyətin/cərəyanın/üslubun incəsənətinin xarakterik əlamətləri/bədii xüsusiyyətləri:**<br>✓ hər bir dövrün, cərəyanın, üslubun incəsənətinin öz xüsusiyyəti var, hansına müxtəlif amillər səbəb olurlar;<br>✓ incəsənətdə baş verən dəyişikliklər (incəsənət təyinatı, buna olan yanaşma, bədii-təsviri vasitələr, üsullar, texnika, material, alət, sahələr, formalar və s.) bəşər tarixində baş verən dəyişikliklərlə (dünyagörüşü, texniki tərəqqi, qloballaşdırma və s.) birbaşa əlaqədədir;<br>✓ müxtəlif dövrün və mədəniyyətin incəsənətinin formalaşmasında qarşılıqlı təsir böyük rol oynayır;<br>incəsənət vasitəsi ilə müxtəlif dövrün və mədəniyyətin haqqında çoxlu məlumat əldə etmək olar. | | materiala və texnikaya) hansı amillər təsir göstərə bilərlər?<br>✓Ətraf mühitin müşahidə nəticələrinin və şəxsi yanaşmanın ötürülməsi üçün hansı bədii-təsviri üsullardan istifadə edə bilərəm?<br>✓Ətraf mühitimi hansı bədii üsullarla təsvir edə bilərəm?<br>✓İncəsənətin hansı sahəsi ətraf mühitə təsir göstərir və necə?<br>✓İnsanın yaradıcılığı ətraf mühiti necə dəyişir? | üsullarından istifadə etməklə peyzajın çəkilməsi, hansında şagird öz mühitini və ya mənəvi vəziyyətini təsvir edir<br>• İl ərzində əldə edilmiş bilik və bacarıqları yekunlaşdıran test<br><br>**Final layihəsi:** “Tolerant şəhər”.<br>• fərdi və ya cütlükdə hər hansı bir dövrə/tərzə əsasən hazırlanmış bina maketinin hazırlanması. Müstəqil hazırlanmış maketlərlə şəhərin birgə maketinin hazırlanması. |
| **“Ətraf mühit və incəsənət” tematik bloku üçün qiymətləndirmə kriteriləri:** | | | |
| **Təsviri incəsənətin bədii-təsviri vasitələri (elementlər) və üsullar (prinsiplər)**<br>**Təsviri incəsənət texnikası**<br><br>• Ətraf mühiti müşahidə edir və müşahidə nəticəsində baş qaldıran təəssüratları, ideyaları, emosiyaları, duyğuları yaradıcılıqla təsvir edir **(Təs.tət.baz.1)**<br>• İşi yaratdıqda, fikrinə uyğun materialı və texnikanı seçir və müvafiq bədii-təsviri vasitələrdən və üsullardan istifadə edir (xətt, rəng, ləkə, forma təsviri imkanları, perspektiv, miqyas, kompozisiya bölgüsü, mütənasiblik və s.) **(Təs.tət.baz.1,2)**<br>• Yazılı və ya şifahi şəkildə özünün/başqasının işində istifadə edilən bədii-təsviri vasitələri və üsulları (xətt, rəng, ləkə, forma təsviri imkanları, perspektiv, miqyas, kompozisiya bölgüsü, mütənasiblik və s.) şifahi analiz edir və şəxsi emosiyaları haqqında danışır **(Təs.tət.baz.3)** | | | |

| |
|---|
| **Müxtəlif dövrün/mədəniyyətin/cərəyanın/üslubun incəsənətinin xarakterik əlamətləri/bədii xüsusiyyətləri**<br><br>**Təsviri incəsənət sahələri və janrları**<br>• İncəsənətin bəzi janrının (peyzaj, natürmort) yaranmasının mümkün səbəbləri haqqında danışır, bir neçə misal gətirir və müzakirə edir ki, peyzajın, natürmortun təsvir edilməsi xüsusiyyətləri zamanla necə dəyişirdi **(Təs.tət.baz.3, 4)**<br>• Analiz edir ki, müxtəlif üslubun, cərəyanın, zamanın əsərində fikri həyata keçirmək üçün təsviri vasitələrdən, üsullardan, material və texnikadan necə istifadə edilmişdir **(Təs.tət.baz.3, 4);**<br>• Analiz edir ki, incəsənətdə zamanla ətraf mühitin təsviri yolları necə dəyişirdi (**Təs.tət.baz.3, 4);**<br>• Müxtəlif mədəniyyətin və dövrün incəsənət əsərlərini bir-biri ilə müqayisə edir, onların bədii xüsusiyyətlərini müzakirə edir, öz münasibətini bildirir **(Təs.tət.baz.3);**<br>• İncəsənət əsərlərinə müxtəlif kontekstin göstərdiyi təsir haqqında şifahi və yazılı müzakirə aparır **(Təs.tət.baz.4).** |

**TAPŞIRIQLAR MATRİSASI 3/1**

| **Dərslər 1 - 4 birləşdirici mövzu: Ətraf aləmimiz** | | |
|---|---|---|
| **Məsələ və yarımanlayışlar** | **Əsas sual/suallar** | **Kompleksli tapşırıqlar** |
| **Elementlər**:<br>Rəng, forma, həcm, işıq-kölgə, ton, fon və təsvirin qarşılıqlı əlaqəsi.<br><br>**Prinsiplər**:<br>tarazlıq, simmetriya/asimetriya, dinamika/statika, proporsiya, miqyas, perspektiv, aksent.<br><br>**Sahələr:**<br>Dəzgah boyakarlığı.<br>**Janrlar:**<br>natürmort, peyzaj<br>**Təsviri incəsənət texnikası:**<br>Rəsm, boyakarlıq.<br>**Dövr, üslub, cərəyan:**<br>Müxtəlif. | • Natürmorta əsasən dövrü və ölkəni tapa bilərikmi?<br>• Hansı mühit amilləri işin bədii formasına (üsluba, cərəyana, bədii-təsviri vasitələrə, üsullara) təsir göstərə bilərlər?<br>• Natürmort əsasında müzakirə edə bilərikmi ki, həmin dövrün insanları nə ilə maraqlanırdılar, nəyi sevirdilər, nəyi bəyənirdilər?<br>• Perspektiv nədir?<br>• Peyzajı çəkdikdə perspektiv üsulunun istifadəsi hansı effekti verəcəkdir?<br>• Düz və əks perspektivlər arasında hansı fərq vardır?<br>• Xətti və fəza perspektivləri arasında hansı fərq vardır?<br>• Fəza perspektivini hansı üsulla təsvir etmək olar? | **Natürmort**:<br>a) sadə karandaşla;<br>b) quaş və ya akvarel boya ilə.<br><br>**Peyzaj**<br>Xətti və fəza perspektivinin istifadəsi ilə |
| **Əsas sualların cavabları:**<br>• Natürmorta əsasən, müzakirə edə bilərik ki, həmin konkret dövrün müxtəlif sosial təbəqənin insanlarının məişəti, maraqları necə idi, nəyi bəyənirdilər və həmin dövrdə bu ölkənin hansı ölkələrlə ticarət əlaqəsi var idi.<br>• Perspektiv bədii üsuldur və məkanda əşyaların həqiqətdə gördüyümüz kimi (yavaş-yavaş uzaqlaşma, kiçilmə, dağınma) təsvir edilməsi imkanını verir.<br>• Xətti perspektivdə parallel üfüqi xətlər bir nöqtədə cəmləşirlər, təsviri üfüqi xətdə. Müvafiq olaraq, bütün şəkillərdə təsvir edilən obyekt nəzər nöqtəsinin istiqamətində kiçildilir.<br>• Xətti perspektiv üsulu, əşyaların rənglərinin yavaş-yavaş açıqlandırılması və dağınıqlığı ilə uzaqlığın real qəbulu xülyasını yaradır. | | |
| • **Natürmort, yəni yaxın nəzərdən mühit**<br><br>"Natürmort" mövzusunun məqsədi ondan ibarətdir ki, şagird bu janrın təkcə gözəl əşyaları təsvir edən şəkillər birliyi olmadığını dərk etsin. Hər natürmort müəyyən məzmunun daşıyıcısıdır. Tez-tez rəssamlar istər-istəməz, bəzən də məqsədyönlü şəkildə mühüm sözlərini və emosiyalarını məhz əşyaların | | |

kombinasiyası ilə ötürürlər və bunu da rənglə, işıqlandırma ilə və eskizlərlə elə zənginləşdirirlər, necə ki, biz ifadəmizlə və səs tembri ilə söylədiyimiz sözləri zənginləşdiririk.

- **Araşdırma** (müstəqil iş):

Müxtəlif dövrdə yaradılmış natürmortların axtarışı və tematik çeşidlərə ayrılması, rəqəmsal albomun təşkili, məruzənin hazırlanması və təqdimatı;

- **Analiz:**

Dərslikdə verilən illüstrasiyaların təsviri, müqayisəvi analiz.
İllüstrasiyaların təsvirində şagird diqqəti natürmortda təsvir edilən əşyalara və onların təsviri üsullarına yönəltməlidir: məs., realistik/şərti, həcm, işıq-kölgə, rənglər qamması, tonallıq (soyuq/isti), kolorit, kompozisiya, perspektiv, proporsiya, miqyası nisbəti və s.

- **Diskussiya**:

**Ötən biliyin aktivləşdirilməsi üçün suallar:**
- natürmort nədən xəbər verir? Əşyalar hansı məlumatı çatdırırlar?
- Zamanla birlikdə ətraf mühitin təsviri yolları və üsulları necə dəyişirdi?

- **Cavablar:**
- Natürmortda təsvir edilən əşyaların və onların təsviri bədii üsullarının əsasında, mədəniyyəti, ölkəni, dövrü, zəmanəni tapa bilərik.
- Natürmort müxtəlif dövrdə müstəvidə, şərti və ya həcmli və realistik əks etdirilirdi;
- Natürmort hər hansı bir janrın şəklində köməkçi funksiyanı yerinə yetirir və ya müstəqil əsər kimi yaradılır.

**Diskussiya sualları:**
- Natürmortun əsasında müzakirə edə bilərikmi ki, həmin dövrün mühiti necə idi, necə yaşayırdılar, nə ilə maraqlanırdılar, nəyi sevirdilər, həmin dövrün insanları nəyi bəyənirdilər?
- Mühitin hansı amilləri natürmortun bədii formasına (üsluba, cərəyana, yerinə yetirmə tərzinə, bədii-təsviri vasitələrə, üsullara) təsir göstərə bilərlər?

**Ehtimal cavablar:**
- Müxtəlif dövrdə insanlar müxtəlif əşyaların əhatəsində yaşayırdılar. Əşyaların hansı dövrə və ya ölkəyə aid olması dizaynla, materialla, təyinatla fərqlənirdi. Şəkildə təsvir edilən əşyalar eləcə də insanların sosial vəziyyətinə və statusuna işarə edirlər. Buna əsasən müzakirə edə bilərik ki, natürmort harada və necə yerinə yetirilmişdir.

**Praktiki iş:**
- **Natürmortun düzülüşü və foto çəkilişi** (ev tapşırığı):

Material**:**
məişət əşyaları, şagirdin şəxsi əşyaları və s., rəqəmsal kamera, kompüter, internetə əlçatma.

Tapşırığın şərti:
Üç fərqli natürmortu yığ:
- rahat əhval-ruhiyyə yaradan sevimli əşyalardan ibarət natürmort;
- əhvalını yaxşılaşdıran bayram natürmortu;
- şirin xatirələr "oyadan" natürmort.

Hər bir natürmort müvafiq məzmunla yüklənməlidir ki, müəllifin xarakterini, maraqlarını daha yaxşı göstərsin.

| | |
|---|---|
| Şagirdlər hər üç natürmortun fotosunu çəkir və sinif bloquna yükləyirlər.<br>Əlavə fəallıq kimi müəllim şagirdlərə təklif edə bilər ki, təqdim edilən fotolara əsasən müəllifi, onun xarakterini və ya maraqlarını tapsınlar.<br><br>• **Aplikasiya** (müstəqil iş)<br>Material:<br>Rəngli vərəqlər və ya jurnallar<br>yapışqan<br>qayçı<br><br>Yığdığın və ya fotosunu çəkdiyin natürmortlardan birini seç və aplikasiya üsulu ilə belə bir əsər yarat. | |
| • **Peyzaj, yəni uzaq nəzərdən mühit**<br>Peyzaj nədir? Peyzaj ətrafımızda sonsuz aləm yaradır və bu da bizi gah heyrətləndirir və bəzən də heç diqqət vermirik. Gözəl və ya yöndəmsiz, qaranlıq və cazibədar, hər zaman ətrafımızdadır, baxdığımız hər yerdə onu görürük.....<br>Rəssamlıqda peyzaj müstəqil janrdır və bəzi başqa janrı da müşayiət edən fondur da.<br>Müxtəlif janrın əsərlərində fon peyzajı əhvalatın nəql hissəsidir. O, vəziyyəti konkretləşdirir və əhval-ruhiyyəmizi yüksəldir.<br>Vacibdir ki, şagirdlər illüstrasiya materialını nəzərdən keçirdikdə diqqəti ona yönəltsinlər ki, peyzaj rəsmə hansı yükü verir, bunlardan hər biri hansı hissi yaradır və nə üçün.<br>*İstənilən şəkli nəzərdən keçirdikdə, şagird diqqəti növbəti xırdalıqlara yönəltməlidir:<br>• landşaft və onun təsviri üsulları: dağları, aranı, urban (şəhər) və ya pastoral (kənd) mənzərələrini necə təsvir edirlər – fəza və ya xətti perspektivlə.<br>• İlin fəsli, havası və onların təsviri üsullarını (rənglər qammasını, tonallığı (soyuq/isti), kolorit, eskiz və s.); qrafik peyzaj halında diqqət xətlərin, ştrixlərin xarakterinə verilir.<br>**Fəallıqlar:**<br>• Dərslikdə müxtəlif janr əsərini müşayiət edən xarakterik mühiti axtar və təsvir et (şifahi və ya yazılı).<br>• Google Arts & Culture internet səhifəsində Kanalettonun Venesiya peyzajlarını axtarıb tap. Hər hansı birini seç, böyüt və xırdalıqları seyr et.<br>• Dərslikdə verilən peyzajları Google Arts & Culture internet səhifəsində axtarıb tap, təsviri böyüt və eskizləri müşahidə et.<br>• Davit Kakabadzenin “İmereti, anam” rəsmini müşahidə et. Onu hansı janra aid edirsən: portretə, peyzaja və ya hər ikisinə?<br>**Cavab**: Davit Kakabadzenin rəsmi peyzaj fonunda portreti təqdim edir.<br>• **Rəqəmsal kollaj** (ev tapşırığı):<br>• İki şəkli seç: bir- və ya ikifiqurlu kompozisiyanı və bir peyzajı.<br>• Hər ikisini kompüterin yaddaşında saxla.<br>• Onları rəsm proqramı **(Paint)** ilə aç.<br>• Fiquru kəsmək üçün (**Select**) funksiyasını seç və sərbəst formanın işarələnməsi (**Free form selection**) alətini kliklə.<br>• Fiqurun konturlarını incəliklə işarə et və (**Copy**) funksiyası ilə işarə edilən yeri yadda saxla.<br>• Peyzaj faylını aç və **Paste** funksiyası ilə işarə edilən fiquru peyzaja yerləşdir.<br>• Fiqurun yerini və ölçüsünü axtar.<br>• Fiqurun ətrafında ağ fonu çıxarmaq üçün “Şəffaf seçim” (**Transparent selection**) funksiyasını kliklə.<br>• İşini yadda saxla (**Save**).<br>• Orijinalları və hazırladığın işini albomuna və ya bloqa yüklə.<br>• Yoldaşlarınla birlikdə bir-birinizin işini nəzərdən keçirin və müzakirə edin ki, şəkildə fona görə dəyişən nə oldu. | |

- **Perspektiv**

Fəallıqlar müəllimin seçimi ilə (sinif/ev)

- Əlini çalışdır: dərslikdə verilən misalları perspektivin nümunələri ilə müşahidə et və oxşar şəkilləri çək.
- Məsələni sadələşdirmək üçün şagird rəsmin bəzi detallarını azalda bilər (skamyalar, pəncərələr və s.). Yetər ki, əsas xətləri və onlar tərəfindən əhatəyə alınmış müstəvilərin istiqamətini düzgün çəksin.

Xətti perspektivin çəkilməsi üzrə misallar:







✓ Sadə karandaşla otağını çək və xətti perspektivdən istifadə et, bir cəmləşmə nöqtəsi ilə.

Nəzərə al: ikiölçülü rəsm müstəvisində üçölçülü məkan təsəvvürünü yaratmaq üçün əslində üfüqi olan hər düz xətti şəkildə cəm nöqtəsinə yönəltmək lazımdır.

- Xətti perspektivin istifadəsi ilə urban, yəni şəhər peyzajını çək.
- Çalışma xətti perspektivdə: dərslikdə verilən misallardan oxşar şəkillərin çəkilməsi.
- Dərslikdə verilən illüstrasiyalara göz gəzdir. Əks perspektiv misalları ilə şəkillər tap və çalış ki, düz perspektivin istifadəsi ilə oxşar kompozisiyanı çək.

*Yaxşı olardı ki, şəkil sadə karandaşla yerinə yetirilməlidir.
Şagirdlərdən şəkildə təsvir edilən insanların dəqiq ifadə edilməsi tələb edilmir. Yetər ki, onların siluetləri və kompozisiyanın başqa xırdalıqları şərti işarə edilsin.

Ehtimal ki, əks-perspektivdə təsvir edilən xırdalıqların düz çəkilməsi şəklin kompozisiyasını dəyişir – ola bilsin ki, düz çəkilən əşyalar başqa xırdalıqları örtə bilərlər.

**4. Həlli təbiətdədir**

**Tədqiqat** (müstəqil iş):

- müxtəlif dövrdə yaradılmış peyzajların nümunələrini axtarıb tap.

Dövrlərə əsasən peyzajları bir-birindən ayır və rəqəmsal alboma yüklə.
Hər dövr üçün xarakterik bədii üsulları və vasitələri formalaşdır.

- Dərslikdə İntibah dövrünün rəssamlığının fəza perspektivindən istifadə edilən nümunələrini axtar. Onları müşahidə et və T sxemində fəza perspektivinin bədii işarələrini formalaşdır. Solda yaxın nəzəri xarakterizə edən işarələri yaz, sağda – uzaq nəzəri xarakterizə edən.
- Klassisizm və romantizm üçün xarakterik bədii üsulların müqayisəvi T sxemini tərtib et.

  Klassisizm və romantizmin müqayisəvi T sxeminin təxmini doldurulmuş nümunəsi:

| **Klassisizm** | **Romantizm** |
|---|---|
| Kompozisiya və koloritdə qayda-qanun. Statika, rahatlıq, Ölçülük | Dinamik, "təlatümlü" kompozisiya, canlı kolorit. Emosionallıq, itaətsiz, tüğyan edən əzm, ehtiras, mübarizə. |
| Mövzu: uzaq qəhrəmanlıq keçmişi, klassik  Yunanıstan və Roma tarixi, mifologiya | Mövzu: təsvir, qəhrəmanlıq, əfsanələr, təbiət, ovçuluq, mübarizə, müasirlik, münaqişə, pis hava, problem, bezdirici gündəliklə qarşıdurma |
| **Texnika**: hamar, eskiz izi deyil. Bərabər işıqlandırma. Təsvir donmuş, statik, sonuna qədər yazılmış detallar, akademik yazı tərzi. | Texnika: cəld eskiz. Dramatik, ziddiyyətli işıqlandırma. Təsvir hərəkətlidir, dinamik |
| Əqlin üstünlüyü | Hisslərin üstünlüyü |
| Fəza perspektivinin xüsusiyyətlərinin T sxemi: | |
| **Yaxın** | **Uzaq** |
| Aydın<br>xırdalıqlı<br>açıq<br>isti kolorit | Solğun<br>ümumi<br>qarışıq<br>soyuq kolorit |

**Praktiki iş:**

- fəza perspektivindən istifadə etməklə sadə karandaşla təsviri şəkil çək.
- fəza perspektivindən istifadə etməklə akvarel boyalarla peyzajın təsviri şəklini çək.
- Devid Hoknanın "Kart oyunçuları"-nı müşahidə et. Düz perspektiv üsulu ilə belə bir rəsm çək.

**Kompleksli tapşırıqlar üçün metodiki tövsiyələr:**

**Natürmort**:

Material:

Natürmortun düzülüşü üçün əşyalar,

Rəsm vərəqləri

Sadə karandaşlar

Quaş və ya akvarel boyası

| | |
|---|---|
| Tapşırığın şərti:<br>Natürmortu düz və çək<br>a) sadə karandaşla;<br>b) quaş və ya akvarel boyaları ilə.<br>Natürmotru düzdükdə müəyyən et ki, əşyaları necə bölmək daha yaxşı olardı –<br>• elə yaxın ki, bir-birini örtsünlər və ya aralıda ki, məkan hiss edilsin.<br>• Müəyyən et ki, əşyalara hansı kompozisiya uyğun ola bilər – simmetrik, tarazlaşdırlmış və ya assimetrik, bir tərəfində “ağırlaşdırılmış”?<br>• Onların işıqlandırılması haradan yaxşıdır? Natürmorta hansı fon uyğun olacaqdır? Drapirovka lazımdırmı və ya yox.<br>• Düzülmüş natürmortu hər tərəfdən nəzərdən keçir və ən yaxşı nəzəri seç.<br>• Natürmort çəkməyə başlayana qədər fikirləş ki, natürmortu çəkmək üçün hansı rakursu seçərsən?<br>• Kompozisiyanı vərəqdə necə düzərsən, şaquli və ya üfüqi?<br>• Natürmortu vərəqdə uzadarsan və ya yer buraxarsan?<br>• İşi hansı üsulla yerinə yetirərsən – əşyaları realist təsvir etməyə çalışacaqsan və ya şərti, müstəvi həllinə üstünlük verəcəksən?<br>• Şəkil çəkdikdə kompozisiyada əşyaların qarşılıqlı yerləşməsinə diqqət ver, onların formasına, fakturasına, işıq-kölgəyə, proporsiyalara, miqyas nisbətinə, fona.<br>• gözünlə hər bir əşyanın hündürlüyünü və enini “ölç” və qonşu əşyalarla müqayisə et.<br>• Yadına sal, akvarel boya ilə tonal qradasiya hansı üsulla alınır?<br>• quaş boya ilə tonal qradasiya hansı üsulla alınır?<br>• rənglər qradasiyasından istifadə edəcəksən və ya ziddiyyətli rənglərdən?<br>• İşi başa çatdırdıqdan sonra refleksiya anketini doldur.<br><br>**Peyzaj**:<br>Sənin mühitini və ya mənəvi vəziyyətini ifadə edən peyzajı çək.<br>• Fikirləş ki, sənin dövrünün peyzajı necədir? Mühitin necədir?<br>• Assosiativ tor qur – mühitinin xüsusiyyətlərini yaz:<br>• Hər xüsusiyyətə yaz ki, onun xassələrinin göstərilməsinə hansı bədii üsullar və vasitələr uyğundur.<br>• Rəsm çəkməyə başlayana qədər fikirləş ki, vərəqin hansı orientasiyası sənin fikrinə uyğun olar, üfüqi və ya şaquli?<br>• Məkanı hansı üsulla təsvir etməyi üstün tutursan?<br>• Xətti və fəza perspektivindən istifadə et. Fikirləş, xətlərin cəmləşmə nöqtəsi harada olacaqdır?<br>• Rakursu fikirləş, peyzajı haradan göstərmək istəyirsən?<br>• Yaxın və uzaq nəzərlərdə ansı gərginlikdə və tündlükdə rənglərdən istifadə edərsən?<br>• Yadına sal, akvarel boya ilə tonal qradasiya hansı üsulla əldə ediləcəkdir?<br>• Quaş boya ilə tonal qradasiya hansı üsulla alınacaqdır?<br>• İşi başa çatdırdıqdan sonra refleksiya anketini doldur.<br><br>**Resurslar:**<br>Ernst Qombrix, İncəsənət əhvalatı, Loqos pres, 2012<br>https://bit.ly/2TZ3R3d<br>Dünya incəsənəti, Nana Maçaraşvili, Nino Silaqadze, “Meridian”, Tb. 2010:<br>İncəsənət tarixi (XVI-XVII əsrlərin Avropası), Merilin Stoksted, Maykl V. Kotren, Tbilisi, 2018;<br><br>Əlavə illüstrasiya materialı: | |

| | |
|---|---|
| Hollandiya natürmortları:<br>Frans Sneyders, 1640 (növ – ov və ya ovlanmış)<br>https://vernisazh.ucoz.com/_ph/5/723495352.jpg<br>Klara Peters, 1630 (növ – mətbəx).<br>https://bit.ly/3feYDu2<br>Abraham Van Beyeren, 1660 (növ - balıqlar)<br>https://bit.ly/3f9DX6E<br>Edvard Kolyer, 1662 (növ - vanitas və ya "elmi natürmort")<br>https://commons.wikimedia.org/wiki/File:EDWAERT_COLLIER_VANITAS_STILL_LIFE.jpg<br>Edvard Kolyer, 1698 (növ – "trompeil" yəni aldadıcı fənd)<br>https://bit.ly/3odbGA2<br>Frans Sneiders və Simon De Vosi, XVII əsr I yar. (növ – "daxıl")<br>https://bit.ly/3bkFHbV<br>Hollandiya natürmortları:<br>https://bit.ly/3eIPR8D<br>Yeni başlayanlar üçün perspektiv<br>https://bit.ly/3ho3yM0<br>https://bit.ly/2R7zNo1<br><br>**Qiymətləndirmə kriteriləri:**<br>**Təsviri incəsənətin bədii-təsviri vasitələri (elementlər) və üsullar (prinsiplər)**<br>**Təsviri incəsənət texnikası**<br>• Ətraf mühiti müşahidə edir və müşahidə nəticəsində baş qaldıran təəssüratları, ideyaları, emosiyaları, duyğuları yaradıcılıqla təsvir edir **(Təs.tət.baz.1)**<br>• İşi yaratdıqda, fikrinə uyğun materialı və texnikanı seçir və müvafiq bədii-təsviri vasitələrdən və üsullardan istifadə edir (xətt, rəng, ləkə, forma təsviri imkanları, perspektiv, miqyas, kompozisiya bölgüsü, mütənasiblik və s.) **(Təs.tət.baz.1,2)**<br>• Yazılı və ya şifahi şəkildə özünün/başqasının işində istifadə edilən bədii-təsviri vasitələri və üsulları (xətt, rəng, ləkə, forma təsviri imkanları, perspektiv, miqyas, kompozisiya bölgüsü, mütənasiblik və s.) şifahi analiz edir və şəxsi emosiyaları haqqında danışır **(Təs.tət.baz.3)**<br><br>**Müxtəlif dövrün/mədəniyyətin/cərəyanın/üslubun incəsənətinin xarakterik əlamətləri/bədii xüsusiyyətləri**<br>**Təsviri incəsənət sahələri və janrları**<br>• İncəsənətin bəzi janrının (peyzaj, natürmort) yaranmasının mümkün səbəbləri haqqında danışır, bir neçə misal gətirir və müzakirə edir ki, peyzajın, natürmortun təsvir edilməsi xüsusiyyətləri zamanla necə dəyişirdi **(Təs.tət.baz.3, 4)**<br>• Analiz edir ki, müxtəlif üslubun, cərəyanın, zamanın əsərində fikri həyata keçirmək üçün təsviri vasitələrdən, üsullardan, material və texnikadan necə istifadə edilmişdir **(Təs.tət.baz.3, 4);**<br>• Analiz edir ki, incəsənətdə zamanla ətraf mühitin təsviri yolları necə dəyişirdi **(Təs.tət.baz.3, 4);**<br>• Müxtəlif mədəniyyətin və dövrün incəsənət əsərlərini bir-biri ilə müqayisə edir, onların bədii xüsusiyyətlərini müzakirə edir, öz münasibətini bildirir **(Təs.tət.baz.3);**<br>• İncəsənət əsərlərinə müxtəlif kontekstin göstərdiyi təsir haqqında şifahi və yazılı müzakirə aparır **(Təs.tət.baz.4).**<br><br>**Kompleksli tapşırığın qiymətləndirməsinə dair əlavə məlumat:**<br>**Karandaşla çəkilmiş natürmort.**<br>• Kompozisiya dərk edilmişdir, şagirdin düzdüyü natürmorta uyğundur (0 – 1 bal); | |

| | |
|---|---|
| • Əşyaların cizgisi natürmort əşyalarının formasına uyğundur (0 – 3 bal);<br>• Şagird həcmi ağlabatan şəkildə göstərmişdir (0 – 3 bal);<br>• İşıq-kölgə işıqlandırmaya uyğun ötürülmüşdür (0 – 3 bal).<br><br>**Boyakarlıq natürmortu**:<br>• Vərəqin orientasiyası natürmortun məzmununa uyğundur (0 – 1 bal);<br>• Əşyaların formasına, proporsiyalarına və miqyas nisbətinə əməl edilir (0 – 3 bal);<br>• Şagird şərti və ya realistic həlli ağlabatan şəkildə seçmişdir (0 – 1 bal);<br>• Şagird bədii üsulları və vasitələri adekvat şəkildə istifadə etmişdir (0 – 3 bal);<br>• Şagird quaş və ya akvarel boya texnikalarına sahibdir (0 – 3 bal).<br><br>**Peyzaj:**<br>• Peyzaj xətti perspektivin istifadəsi ilə çəkilmişdir (0 – 1 bal);<br>• Şagird şəkli yaratmaq üçün köməkçi xətlərdən istifadə etdi, nəzər nöqtəsini işarə etdi (0 – 3 bal);<br>• Tikililərin üfüqi müstəviləri bir nöqtədə cəmləşirlər (0 – 3 bal);<br>• Peyzajda təsvir edilən tikililər ölçüdə cəmləşmə nöqtəsi istiqamətində kiçilir (0 – 3 bal).<br><br>Assosiativ tor:<br>• Şagird assosiativ toru qurdu;<br>• Sadalanan xüsusiyyətlər mühit xüsusiyyətlərinə uyğundur;<br>• Adı çəkilən bədii üsullar və vasitələr peyzajda istifadə edilən vasitələrə və üsullara uyğundur. | |

**TAPŞIRIQLAR MATRİSASI 3/2**

| **Dərslər 5 - 8 Birləşdirici mövzu: Memarlıq və mühit** | | |
|---|---|---|
| **Məsələ və yarımanlayışlar** | **Əsas sual/suallar** | **Kompleksli tapşırıqlar** |
| **Elementlər**: rəng, forma.<br>**Prinsiplər**: ritm, simmetriya, proporsiya, miqyas, ornament, harmoniya<br>**Sahələr**: memarlıq (büt, ictimai, inzibati, təsərrüfat, istehsal, müdafiə, memorial).<br>**Təsviri incəsənət texnikası:** quraşdırma.<br>**Dövr, tərz, cərəyan:**<br>Müxtəlif dövrün və üslubun memarlıq nümunələri | • Mühitin hansı amilləri tikilinin zahiri görünüşünə təsir göstərir?<br>• Cəmiyyətin həyatında memarlığın hansı rolu var?<br>• Memarlıq mühiti dəyişə bilərmi və necə?<br>• Texnologiyaların inkişafı memarlığa hansı təsiri göstərir?<br>• Nə üçün memar iqlim şərtlərini nəzərə almalıdır?<br>• Memara hansı bilik və bacarıqlar lazımdır?<br>• Memarlıq tərzinə, tikilinin görünüşünə səbəb olan nədir?<br>• Memarlığın bədii dili nədir?<br>• Tikilini bu və ya digər dövrə/ölkəyə hansı əlamətlərlə aid edə bilərik?<br>• Memarlıq tikililərinə əsasən, müxtəlif dövr haqqında nəyi öyrənə bilərik? | **İl ərzində əldə edilən bilik və bacarıqların yekunlaşdırıcı testi:**<br>(Test nümunəsini matrisanın aşağısında izləyə bilərsiniz).<br><br>**Final layihəsi "Tolerant şəhər"**<br>(fərdi və qrup işi) və layihənin məsələsi: Keçilən materialın əsasında şagirdlər birgə maket hazırlayacaqlar, hansında bir |

| | | |
|---|---|---|
| | | “şəhərdə” müxtəlif dövrün, ölkənin və üslubun, ölkənin və tərzin tikililərinin fərdi hazırlanmış nümunələri cəmləşmişlər. |
| **Əsas suallara cavablar:**<br>• memarlıq tikilisinin görünüşünü, onun üslubunu müəyyənləşdirir: təbii amillər – coğrafiya, relyef, landşaft, iqlim; ölkənin ənənələri, sifarişçinin tələbləri, əlçatan inşaat materialları və texnologiyalar, memarlıq istedadı və zövqü.<br>• Memarlıq tikilisi öz vaxtının güzgüsüdür - binanın görünüşü xəbər verir ki, həmin dövrün dövləti hansı siyasəti yürüdürdü (məs., hasar çəkilmiş qala-istehkamlar xəbər verirlər ki, ölkə düşmənlə mübarizəyə hazır idi, monqolların çadırları isə bu xalqın köçəri həyatı qaydasından xəbər verirlər), eləcə də öyrənə bilərik ki, dövlət hansı texnologiyalara və ya resurslara sahib idi, kimin təsirinə məruz qalmışdı, material cəhətdən nə qədər güclü idi, həmin dövlətin müxtəlif təbəqə nümayəndələri hansı şərtlərdə yaşayırdılar.<br>• Hər tarixi dövrün və ya ölkənin özünün təkrarolunmaz bədii ənənələri, tərzi və zövqü var. Bu xüsusiyyət memarlıq formalarında və dekorunda müşahidə olunur. Məhz belə bir xırdalıqlarla memarlıq tikilisində onun mənşəyini tanıyırıq.<br><br>**5. Memarlıq**<br>“Memarlıq” mövzusunun öyrənilməsinin məqsədi ondan ibarətdir ki, şagirdlər nəticə çıxarsınlar ki:<br>• coğrafi yerləşmə, siyasi quruluş, dini nəzərlər, sosial vəziyyət, ənənələr, iqlim və bir çox amil binanın bədii formasına təsir göstərir (üsluba, yerinə yetirmə tərzinə, bədii-təsviri vasitələrə, üsullara, materiala və texnikasına).<br>• Memarlıq ölkənin siyasətinin, dininin, cəmiyyətin dünyagörüşünün və ənənələrinin güzgüsüdür.<br>• Tarixi dövrlərin dəyişikliyi memarlığın bədii üsullarını dəyişdi, çünki yeni materiallar, texnologiyalar və yaradıcılıq ideyaları yarandı.<br>• Binanın görünüşünün müəyyənləşdirici amillərindən biri istifadə edilən inşaat materialıdır.<br>• Müxtəlif dövrün cəmiyyəti tərəfindən yaradılmış memarlıq abidələri həmin konkret dövrdə ən önəmli olanın əsasında bir-birindən fərqlənir.<br>• Cəmiyyətin tələbləri memarlıq tikilisinin görünüşünü müəyyən edir.<br>• Cəmiyyətin həyatında memarlığa önəmli rol həvalə edilir.<br>• İnsanın yaradıcılığı ətraf mühitə təsir göstərə bilər – onu gözəlləşdirə və ya eybəcər hala sala bilər.<br>• Memarlıq mühiti insanların həyatının bir çox aspektini müəyyən edir.<br>• İncəsənət insanın dünyagörünüşünə təsir göstərir.<br><br>**Diskussiya (sinif fəallığı):**<br>Şagirdlər dərslikdəki mətnlə tanış olurlar (Memarlığın qısa tarixi və təyinatı fəsilləri), bundan sonra növbəti məsələlər üzrə müzakirələr aparırlar:<br>• Memarlıq nədir?<br>• Memarlıq incəsənəti nəyə qulluq edir?<br>• Hansı təyinatlı tikililər mövcuddur? (müdafiə, inzibati, kult, memorial, təsərrüfat, istehsal, ictimai, mülki, landşaft....)<br>**6. Memarlıq və mühit**<br>• **Tədqiqat**/analiz **(müstəqil iş):** | | |

- Məbədin və teatrın planlarını və ya interyerlərin fotolarını axtar. Bu iki növ tikilinin daxili məkan planlaşdırmasını müqayisə et.
- Bu tikililərin təyinatında hansı oxşarlıq-fərq vardır?
- Bu tikililərin interyerləri arasında hansı oxşarlıq-fərq vardır?
- Bu fərqə və ya oxşarlığa səbəb olan nədir?

**Ehtimal cavab:**

| Məbəd | Teatr |
|---|---|
| Kult | İctimai |
| Məbədin planlaşdırılmasında xüsusi məkan, mehrab ayrılmışdır ki, burada dini ayinlər, mərasimlər keçirilir. O hündürdədir ki, hər kəs üçün asanlıqla görünən olsun. | Teatrın planlaşdırılmasında fövqəladə məkan, səhnə ayrılmışdır ki, burada tamaşalar keçirilir. O hündürdədir ki, hər kəs üçün asanlıqla görünən olsun. |
| Mehrab boyunca dini qulluqçular üçün köməkçi otaqlar yerləşir, burada da dinə qulluq əşyaları – geyim, qab-qacaq və başqa atributlar saxlanılır. | Teatr kulisləri köməkçi iş məkanıdır, burada aktyorlar səhnəyə çıxırlar və burada tamaşa üçün lazımi kostyumlar və atributlar saxlanılır |
| İnteryerin böyüdülmüş məkanı dini qulluqda iştirak edən möminlərin müəyyən sayı üçün nəzərdə tutulmuşdur. | Səhnənin qarşısında böyüdülmüş zal iştirak edən çoxsaylı tamaşaçının yerləşdiyi məkandır. |

**7. İqlim və memarlıq**

**Göstəricilərin toplanılması, tədqiqatı, çeşidlərə ayrılması** (müstəqil iş):

- Axtar və təsvir et ki, dünyanın müxtəlif guşələrində, müxtəlif iqlim şərtlərində insanlar ənənəvi yaşayış evlərini hansı materiallarla inşa edirlər.
- İki fərqli iqlimin ənənəvi yaşayış evinin müqayisəvi analizi.

Cədvəldə və ya ven diaqramında oxşarlıq-fərqin yazılması.

<u>Oxşarlıq-fərq cədvəlinin doldurulması nümunəsi:</u>

| ÖLKƏ | ADI | İQLİM | LANDŞAFT | İNŞAAT MATERİALI | QEYD |
|---|---|---|---|---|---|
| Qrenlandiya | İqlu | Arktik, qarlı, küləkli | Düz aranlıq | Qar blokları | İqlu yarımkürə formasındadır. Onun quraşdırılması üçün yalnız iti əşya lazımdır |
| Qərbi Gürcüstan | Oda | Subtropik, rütubətli | Müxtəlif | Ağac | Rütubətdən qorunmaq üçün daş dayaqlar üzərində durur |

**8. Memarlığın bədii dili**

- Müxtəlif tərzdə tikililəri axtar və  bir-biri ilə müqayisə et və oxşarlıq-fərq cədvəlini doldur:

<u>Cədvəlin misalı</u>:

| Dövr | Üslub | Ölkə | Örtük | Qapı/pəncərə | Dekor (tağ, sütun, divar oyuğu, eyvan | Skulptur dekoru |
|---|---|---|---|---|---|---|
| Orta əsrlər | Qotika | Fransa | Qoşaçatılı, şpil | Sivri formalı | + | + |
| XVII-XVIII əsr | Barokko | İtaliya | Günbəz | Düzbucaqlı, Tağlı | + | + |

- Memarlığın hər bədii üslubuna uyğun iki-iki misalını axtar.

Rəqəmsal sənəd hazırla və bunda da hər üsulun adı boyunca müvafiq misallarını yüklə.
Yaxşı olardı ki, axtardıqda diqqəti oxşara deyil, eyni üsulun fərqli misallarına yönəldəsiniz: məs., iki simmetrik tikili əvəzinə simmetrik və asimetrik bina nümunələri.

**Müstəqil iş:**

- Şərti işarələrdən istifadə etməklə, şəxsi mənzilin və ya sinif otağın planının çəkilməsi/cizgisi.

<u>Tapşırığın şərti:</u>
Mənzilinin planının cizgisini çək. Onun müsbət və mənfi amillərini təsvir və təhlil et. Sən memar olsaydın, nəyi, necə və nə üçün dəyişərdin?
Tapşırığın yerinə yetirilməsi üçün yaxşı olardı ki, şagirdlər əvvəlcədən cizginin şərti işarələri ilə tanış olsunlar. Şərti işarələr lövhədə çəkilə bilər və ya çap edilib şagirdlər arasında paylanıla bilər.
<u>Planda divarların, qapını, pəncərələri və başqa şərti işarələri bildirən nümunə</u>:




კედელი divar
ფანჯარა pəncərə
კარი qapı
კარის ღიობი qapı arası
საპირფარეშო ayaqyolu
აბაზანა vanna
შხაპი duş
ხელსაბანი əlüzyuyan

Şərti işarələrlə tanışlıqdan sonra müəllim şagirdlərə sadə planın misalını təklif edə və bunu oxumağı onlardan xahiş edə bilər. Şagirdlər cizgidə qeyd edilən pəncərələri, qapını tapmalıdırlar. İkinci, nisbətən mürəkkəb planda otaqların təyinatını tapmalı, su qovşaqlarının yerləşməsini tapmalı,qapının harada açıldığını tapmalıdırlar və s.





https://shutr.bz/3uWyzdI

| | |
|---|---|
| Çertyojun yerinə yetirmə qaydaları ilə tanışlıqdan sonra şagirdlər öz mənzillərinin planlarını müstəqil çəkirlər.<br>✓ İdman tikilisinin planı və maketi sinifdənxaric (qrup) işi:<br><br>Hər bir şagird onun üçün maraqlı idman növünü seçir. Lazımi məlumatı axtarır və idmanın bu növünün uyğun planını fikirləşib tapır:<br>Məkan yazılı şəkildə planlaşdırılmalıdır - çalışmaq üçün idmançılara hansı otaqlar lazımdır, dincəlmək, inventarı saxlamaq, yarışmanı keçirmək, tamaşaçıları yerləşdrimək və s. üçün.<br><br>✓ **Şəkər** qırıqları ilə dərslikdə verilən nümunəyə əsasən, tağ maketinin qurulması (qrup işi).<br><br>✓ “Mühitimiz” **mövzusu üzrə debatlar**<br>Şagirdlər müzakirə edirlər ki, müasir memarlıq nəyi bildirir.<br>Müəllim növbəti sualları verməklə şagirdlərə əlavə yol göstərirlər:<br><br>✓ Hansı dəyəri təqdim edirlər, nə üçün tarixi binaların qayğısına qalmalıyıq?<br>✓ Tarixi abidə nəyi bildirir?<br>✓ Gələcək nəsillərə nəyi saxlayırıq? Gələcək nəsillərin XXI əsrin insanları haqqında hansı təəssüratları olacaqdır?<br>✓ Hansı müasir tikili gələcəkdə tarixi abidə ola bilər?<br><br>**Kompleksli tapşırıqlarla bağlı tövsiyələr:**<br><br>✓ **İl ərzində əldə edilən bilik və bacarıqları cəmləşdirən test:** (testin nümunəsi ilə matrisanın aşağısında tanış ola bilərsiniz).<br><br>Müəllim kartları hazırlayır.<br>Hər karta il ərzində keçilən materialdan bir neçə sual yazır.<br>Karta bir mövzudan bir sual yazılmalıdır (cəmi 10 sual).<br><br>Müəllim suallarla birlikdə elə bir sual-tapşırıq əlavə edə bilər ki, bu da karandaşla sadə cizginin edilməsini nəzərdə tutur. Məs., bazilika strukturunun, arabeskin və ya perspektiv misalının qrafiki təsviri.<br>Yaxşı olardı ki, müəllim dərslikdə verilən suallardan faydalansın.<br><br>Şagirdlər masaya səpələnmiş kartlardan birini seçirlər və kartda yazılan suallara yazılı cavab verirlər.<br>*məhdud imkanlı şagirdlər üçün, onların bacarıqlarını nəzərə almaqla müəllim xüsusi kartlar tərtib etməlidir.<br><br>• **Yekun layihəsi “Tolerant şəhər” (fərdi və qrup işi)** | |

| | |
|---|---|
| Layihənin məsələsi:<br><br>Keçilən material əsasında şagirdlər birgə maket hazırlayırlar, hansında bir “şəhərdə” müxtəlif dövrün, ölkələrin və tərzin binalarının fərdi hazırlanmış nümunələri toplanmışlar.<br>Şagirdlər razılaşırlar ki, kim hansı dövrün, ölkənin, tərzin tikilisinin maketini yaradacaqdır. Eləcə də ehtimal ölçüləri razılaşdırırlar ki, hər müstəqil yaradılmış maketi ümumi “şəhərə” uyğunlaşdırsınlar.<br>Müvafiq dövrün tikililərinin şəkillərini axtarıb tapırlar. Hər şagird seçilmiş binanın oxşar maketini və ya kostyum geyindirilmiş kuklanı hazırlayır.<br>Maketin də, kuklanın da geyimi seçilmiş tarixi dövrün/ölkənin xarakterik əlamətlərinə uyğun olmalıdır:<br>• binanın görünüşünə,<br>• konstruksiyanın görünən elementlərinin (örtük, qapı-pəncərə, eyvanlar, tağlar) xarakterik əlamətlərinə,<br>• dövrün, üslubun, dekorun xarakterik elementlərinə.<br><br>**Tövsiyə**:<br>• seçilmiş tarixi dövrün/ölkənin müvafiq kostyumunu geyinmiş kukla həm həcmi, eləcə də kartonda çəkilmiş və kəsilmiş ola bilər.<br>• Yaxşı olardı ki, hər “sahə” hasarla əhatə olunsun;<br>• Məhdud imkanlı şagirdlərə karton konusun əsasında və ya müstəvi kuklaları düzəltməyi tapşırmaq  (Bax, “Tarixi kostyum geyinmiş kuklaların hazırlanması”kompleksli tapşırıq, tapşırığın matrisası 2-6, “Kostyum nədən xəbər verir”, eləcə də hazır oyuncaq da geyindirilə bilər.<br>• Müstəqil hazırlanası maketlərə gəldikdə isə, karton qutuların əsasında yaradılmış binaların pəncərələrin, qapı və başqa detalların şəkli çəkilə bilər.<br>Sadə kuklanın hazırlanmasının üsullarından biri:<br>https://skillflair.com/diy-dolls/how-to-pake-paper-doll-easy-paper-doll-making-ideas/<br>Şagirdlər fərdi hazırlanmış maketlərlə və kuklalarla şəhərin birgə maketini düzəltməlidirlər. Şagirdlər birlikdə müştərək “şəhərin” maketində məhəllələrin, küçələrin yerləşməsini planlaşdırırlar. Binaların mənsubiyyətinin uyğun detalları ilə (meydan, park, skulptura, fəvvarə, ağaclar və s.) və kostyumlu personajlarla məhəllələri bəzəyirlər.<br><br>Hər bir şagird qısa məruzə hazırlayır və bunda təsvir edir ki, hansı dövrü və nə üçün seçmişdir, hansı materialı tapmışdır, onun tərəfindən seçilmiş dövrün incəsənəti üçün xarakterik nədir, yeni nəyi başa düşdü, onun hazırladığı maket nəyi bildirir və s.<br><br>İşi başa çatdırdıqdan sonra hər bir şagird refleksiya anketini doldurur (Bax, Əlavədə).<br><br>**Resurslar:**<br>**Memarlıq üslubları:**<br>https://bit.ly/3htCM4V<br>https://rehouz.info/arhitekturnye-stili/<br>https://bit.ly/3hsiskb<br><br>**Qiymətləndirmə kriteriləri:**<br>**Təsviri-incəsənətin bədii-təsviri vasitələri (elementlər) və üsulları (prinsiplər)**<br><br>**Təsviri incəsənət texnikası**<br>• İşi yaratdıqda, fikrinə uyğun ənənəvi və qeyri-ənənəvi materialı və texnikanı seçir və müvafiq bədii-təsviri vasitələrdən və üsullardan istifadə edir **(Təs.tət.baz.1,2)** | |

| | |
|---|---|
| • Yazılı və ya şifahi şəkildə özünün/başqasının işində istifadə edilən bədii-təsviri vasitələri və üsulları analiz edir və alınan təcrübədən danışır **(Təs. tət. baz. 3)**<br><br>**Müxtəlif dövrün/cərəyanın/tərzin incəsənətinin xarakterik əlamətləri/təsviri incəsənət sahələri və janrları**<br><br>**Təsviri incəsənətin sahələri və janrları**<br>• memarlıq ideyalarının əmələ gəlməsinin mümkün səbəbləri haqqında danışır, bir neçə misal gətirir və müzakirə edir ki, zamanla birlikdə memarlığın xüsusiyyətləri necə dəyişirdi<br>**(Təs.tət.baz.4)**<br>• Analiz edir ki, müxtəlif mədəniyyətin və dövrün memarlığında formalar, üsullar, material və texnika fikrin həyata keçirilməsi üçün necə istifadə edilmişdir **(Təs.tət.baz.3,4);**<br>• Müxtəlif mədəniyyətin və dövrün memarlıq əsərlərini bir-biri ilə müqayisə edir, onların bədii xüsusiyyətlərini müzakirə edir, öz yanaşmasını bildirir **(Təs.tət.baz.4);**<br>• Şifahi və yazılı şəkildə memarlıq nümunələrinə müxtəlif kontekstin təsirini müzakirə edir **(Təs.tət.baz.4).**<br><br>**Kompleksli tapşırıqların qiymətləndirilməsi üçün əlavə informasiya:**<br>**Test** (Test və onun qiymətləndirilməsi ilə Əlavədə tanış ola bilərsiniz);<br>• Müəllim qiymətləndirir ki, şagird neçə suala cavab verdi;<br>• Şagird suallara nə qədər doğru və tam cavab verdi.<br><br>**Maket "Tolerant şəhər"** (maks. bal 10)**:**<br>• Maket başa çatdırılmışdır və səliqəli yerinə yetirilmişdir (0 – 1 bal);<br>• Binanın görünüşü seçilmiş dövrə və tərzə uyğundur (0 – 1 bal);<br>• Dövrün/üslubun xarakterik dekor elementləri nəzərə alınmışdır. (0 – 3 bal);<br>• Maketi dövrün müvafiq kostyumu ilə kukla müşayiət edir (0 – 1 bal);<br>• Şagird onun maketinin ümumi maketlə ölçüsünün uyğunluğunu nəzərə almışdır.<br>• (0 – 1 bal);<br>• Şagird birgə maketin planlaşdırılması və quraşdırılması prosesinə aktiv cəlb olunmuşdu. (0 – 1 bal);<br>• Məruzə səlis yazılmışdır, illüstrasiyalar və cizgilər müşayiət edir. (0 – 2 bal). | |

VIII sinfin yekunlaşdırıcı testi Təsviri və tətbiqi incəsənətdə

Şagird: ____________________________ Tarix: ___________________________

**1. Rəsmlərdə hansı təyinata malik memarlıq tikililəri təqdim edilir?**





a. Müdafiə;
b. Kult;
c. Memorial;
d. İctimai.

**2. Şəkillərdə təqdim edilmişdir tikililərin**

a. İnteryeri;
b. Eksteryeri;
c. Portalı;
d. Mehrabı.

**3. Birinci şəkildə təqdim edilmiş tikili hansı dinə aiddir?**

a. Buddizmə;
b. Xristianlığa;
c. İslama;
d. İudaizmə.

4. **Birinci tikilini hansı xüsusiyyət xarakterizə etmir?**
a. Arabesklə tökülmüş fasadlar;
b. Günbəz;
c. Minarə;
d. Şpil.

5. **Hər iki tikili üçün ümumi olan hansı memarlıq elementidir?**
a. Oxvari şüşə;
b. Kontrforslar;
c. Arkbutanlar;
d. Rəngli fasad.

6. **İkinci şəkildə təqdim edilən tikili hansı üsluba aiddir?**
a. Qotika;
b. Barokko;
c. Roman;
d. Bizans.

7. **İkinci şəkildə təqdim edilən tikili üçün xarakterikdir:**
   a. Oturmuş proporsiyalar;
   b. Günbəz örtüyü;
   c. Uzunsov və enli arakəsmələrin kəsişməsində ucaldılmış minarə;
   d. Yüngül, şaquli dartılmış proporsiyalar.

**Cümlədə düzəliş et**:

8. Gelati məbədini dini sahə, mozaika janrı, miniatür rəssamlığı bəzəyir.
________________________________________________________________

9. Şərqi xristianlıq incəsənətində heykəltəraşlıq janrı yalnız dairəvi skulptura şəklində inkişaf etmişdi.
________________________________________________________________________

10. Orta Əsrlərin incəsənətinin aparıcı üslubları memarlıq, freska, mozaika, ikonaçılıq və miniatür idi.
________________________________________________________________________________

**Buraxılmış sözləri yaz:**

11. Orta əsrlərin rəssamlığında müqəddəslərin və İncil süjetlərinin ötürülmə qaydalarını ______________ təyin edir.

12. Mübarizəni əks etdirən şəkillər ____________________ janrına aiddirlər.
13. Ayaq üstə duran fiqurun pozası, ağırlıq tək ayağa düşdüyündə, ikinci ayaq isə boş olanda, ___________ adlanır.

14. Yumurta sarısından hazırlanan boya _____________ adlanır.

**Verilən illüstrasiyaya diqqət yetir və suallara cavab ver:**



**15. Verilən şəkildə hansı növ perspektivdən istifadə olunur?**

______________________________________________

**16. İzah et, nə üçün incəsənətkarlar bu növ perspektivi işləyib hazırlamışlar?**

________________________________________

17. **İki əsəri bir-biri ilə müqayisə et (hər bir bənd üçün 2 bal)**

a. Nizaminin poemasının fars miniatürü "Şirin Xosrovun portretinə baxır", XVI əsr, Herati məktəbi.
b. Piter Paul Rubensin əsəri "IV Henriyə Mariya Mediçinin portretini göstərirlər", 1625-ci il.





Yazılı şəkildə formalaşdır:

- Hər iki əsərin sahəsini, janrını müəyyən et.
- Hər birində təsviri vasitələrdən və üsullardan necə istifadə olunmuşdur;
- Münasibətini ifadə et – hansı daha çox xoşuna gəlir. Cavabını əsaslandır.

18. Sadə şəkillər çək: (hər bir bənd üçün 2 bal)

| | |
|---|---|
| a. Sadə natürmort çək və onda istifadə et:işıq-kölgədən, həcmdən, tonal qradasiyadan | b. Sadə peyzaj çək, onda fəza və xətti perspektivdən istifadə et. |
| c. İnsan fiqurunu çək, hərəkətdə proporsiyalara riayət etməklə. | d. İnsan sifətini çək, proporsiyalara riayət etməklə. Ona hər hansı bir emosiyanı təsvir edən ifadəni ver. |

**VIII sinfin yekunlaşdırıcı testinin düzgün cavabları:**

1.-b; 2.-b; 3.-c; 4.-d; 5.-a; 6.-a; 7.-d;

**Cümlədə düzəliş et:**

8. Gelati məbədini monumental rəssamlıq sahəsinin dini janrda mozaika bəzəyir.

9. Şərqi xristianlıq incəsənətində heykətəraşlıq sahəsi yalnız relyef növündə inkişaf etmişdi.

10. Orta Əsrlər incəsənətinin aparıcı sahələri memarlıq, dairəvi heykəl, freska, mozaika, ikonaçılıq və miniatür idi.

**Buraxılmış sözləri yaz:**

11. İkonoqrafiya

12. Batal

13. Kontrapost

14. Tempera

**Verilən illüstrasiyanı müşahidə et və suallara cavab ver:**

15. Əks perspektiv

16. Əks perspektiv kompozisiyanın ilahi əhəmiyyətinə işarə edir ki, ilahi aləm sonsuz, əbədidir, dünyəvi isə - müvəqqəti, əhəmiyyətsizdir.

**17. İki əsəri bir-biri ilə müqayisə et. (2 bal hər bir bənd üçün)**

a. Nizami poemasının fars miniatürü "Şirin Xosrovun portretinə baxır", XV əsr, Herati məktəbi.

b. Piter Paul Rubensin əsəri "IV Henriyə Mariya Mediçinin portretini göstərirlər", 1625-ci il.

- Hər ikisi tarixi janrın rəssamlığına aiddirlər. Birinci miniatürdür, ikinci isə - dəzgah boyakarlığı;
- Fars miniatüründə xətt, kontur, rəngli lokal ləkələr aparıcıdır, formalar müstəvidə verilmişdir. Perspektiv, fiqurların proporsiyaları, əşyalar arasında miqyas nisbəti pozulmuşdur. İşıq-kölgəyə laqeyd yanaşılmışdır. Şəkil dekorativdir.

Rubensin əsəri realistik təsviri üsullarla yerinə yetirilmişdir: işıq-kölgədən və tonal qradasiyadan istifadə edilmişdir və bu da fiqurlara həcm verir. Proporsiyalara, əşyalar arasında miqyaslı nisbətə və perspektivə əməl edilir.

- Münasibətini bildir – istənilən cavab qəbul ediləndir, əgər şagird hər iki əsərin bədii dilinə qarşı öz yanaşmasını sübut edirsə.

**Şagirdin hər bir şəkli 2 balla qiymətləndirilir. (maksimal bal: 30)**

1-6 bal - SOLO 1: prestruktur səviyyə

7-12 bal - SOLO 2: unistruktur səviyyə

13-18 bal - SOLO 3: multistruktur səviyyə

19-24 bal - SOLO 4: yanaşma səviyyəsi

25-30 bal: SOLO 5: geniş mücərrəd səviyyəsi

# ƏLAVƏ

## TƏSVİRİ İNCƏSƏNƏT NÜMUNƏSİNİN ANALİZİ:

Müşahidə edin ki, hansı təsviri vasitələr (elementlər) və üsullar (prinsiplər) əsərin özünəməxsusluğunu müəyyən edirlər?

Diqqəti yalnız əsərin xarakterinin yaradılması üçün aparıcı olan vasitələrə və üsullara yönəldin.

**a) Təsviri vasitələr:**

**Xətt** (düz, əyri, dalğalı, parça, kəsik, qırıq-qırıq, dolayı, üfüqi, şaquli, qalın, nazik...)

**Rəng** (əsas, qarışıq, qohum, kontrast, axromatik, neytral, isti, soyuq, parlaq, intensiv, doymuş, al-əlvan, tünd/açıq, aydın/qaranlıq, solğun, sönmüş, təmiz/çirkli və s.; çalar: sarımtıl yaşıl, göyümtül yaşıl, qırmızımtıl bənövşəyi və s.). İncəsənətçi digəri ilə münasibətdə hansı rəngdən daha çox istifadə etmişdir? Şəklin ümumi koloriti, yəni rəngarənglik qamması necədir (soyuq/isti, aydın/qaranlıq, sönmüş/parlaq və s.)? monoxromikdir (birrəngli) və polixromik (rəngarəng)?

**Ton** (yarımtonlar, qradasiya, yəni yavaş-yavaş açıqdan tünd rəngə keçid). Açıq tonla ayırd edilən nədir?

**Forma** (yastı, yəni ikiölçülü – həndəsi: dairə, düzbucaqlı, üçbucaq, çoxbucaqlı, romb, oval, itiuclu, kor, kələ-kötür; üzvi: bitki, təbii; böyük, kiçik, nazik və s.); həcmli üçölçülü forma (kürə, kub və s.);

**İşıq-kölgə** (üçölçülü formanı vermək üçün istifadə edilən kölgə, yarımkölgə, düşən kölgə, işıq şüası).

**Faktura** (aktual – relyef (pastoz yaxması ilə əldə edilən, cızıq, qabarıqlı, batıq), kobud, xovlu, məxmər, hamar, parıltılı və s.; illüzor (müxtəlif materialın imitasiyası – taxta, daş, dəmir, parça (məxmər, ipək, krujeva), gil, xəz, saç, dəri, qabıq və s.).

**Fon və təsvirin qarşılıqlı yanaşması** – şəkil sahəsi necə mənimsənilmişdir – boşdur, doludur və ya lazımi şəkildə mənimsənilmişdir? Pozitiv (doldurulmuş) və neqativ (boş) məkanlar necə bölünmüşdür?

**b) Təsviri incəsənət üsulları:**

**Tarazlıq** – təsvirlər eyni şəkildə rəsm müstəvisində bölünmüşlər və ya qeyri-bərabər? Şəklin hər hansı bir tərəfi digərinin çəkisinə üstün gəlirmi?

**Aksent** – (diqqətin yönəldilməsi, birinci gözə dəyən nədir? Rəssam diqqətimizi əsas olana necə yönəldə bildi? Bu hissə qalanından nə ilə fərqlənir (ön nəzərdədir, ən böyük və iridir, rəngi ilə seçilir və ya işıqlandırılması ilə və s.)? Bu şəkildə növbəti əhəmiyyətli olan təsvir varmı? Nə ilə seçilir və nə ilə başa düşürsən ki, bu təsvir ikinci aksenti təqdim edir?

**Harmoniya** – Şəklin ayrı-ayrı hissələri bir-birinə necə yardım edirlər? Bir-birinə uyğun gəlirmi və ya əksinə, ziddirmi/münaqişəlidirmi?

**Bütövlük** – rəssam hansı bədii üsulla bütövləşdirir və “yapışdırır” ki, əsərin ayrı-ayrı hissələri parçalanmasın/dağılmasın (tarazlıq, kolorit, işıqlandırma və s.)?

**Rəngarənglik** – rəsmi “canlandıran” nədir? Bezdirici, darıxdırıcı olmasın deyə, ona çalar qatan nədir?

**Statika/dinamika** – Şəkildə statikanı (tərpənməz, donmuş, daşlaşmış) və ya dinamikanı (hərəkətli, oynaq) müəyyən edən nədir?

**Ritm** – Rəsmdə təkrar olunan nə isə varmı ki, ritm yaradır?

**Proporsiya/disproporsiya** – Təsvirin ayrı-ayrı hissələrinin ölçülərinin nisbəti necədir? Bəlkə rəssam əşyanın disproporsiyasından və ya deformasiyasından bilərəkdən istifadə edir və bu üsulla hansı effekti əldə etməyə çalışır?

**Kompozisiya** – Şəkil necə qurulmuşdur? Onun strukturunu, skeletini müəyyən edən nədir? Simmetrikdir və ya asimmetrik? Sabitdir və ya qeyri-sabit? Rəssam bu üsulla hansı effekti əldə etmək istəyir?

**Rakurs** – nəzər nöqtəsi haradadır? Aşağıdan görürük, yuxarıdan və ya birbaşa? Yaxın kadrdır və ya uzaq? Nəzər nöqtələri qarışmışdırmı? Qarışıq olduğu halda, nə üçün – verilən dövrdə yetərincə biliyin olmadığına görə, sadəcə önəmli deyil ki, rəssam bilərəkdən bu üsula müraciət edir və hər hansı bir effekti əldə etmək üçün qaydaları nəzərə almır? Eksperiment deyil ki?

**Perspektiv** – a) xətti perspektiv – fəza perspektivinin qaydalarına əməl edilirmi ki (ön nəzərdə, yaxın yerləşən əşyalar aydın, açıq olurlar, xırdalıqlarla, uzaq nəzərdə yerləşən isə - solğun, dağınıq, ümumiləşdirilmiş), izləyici məkanı, dərinliyi duya bilsin?

b) Xətti perspektiv (məsafəyə əsasən əşyalar kiçilirlər – ön, orta və arxa nəzərə təsvir edilən əşyalar eyni ölçüdədir və ya əksinə? Miqyasa əməl edilmişdirmi (ayrı-ayrı təsvirlərin ölçülərinin nisbəti bir-biri ilə münasibətdə)?)

**Ornament** – Şəkildə təkrarlanan formalar vardırmı? Onlar nə dərəcədə önəmlidirlər və ornament şəklin dekorativ xarakterinə səbəb olurmu?

İNCƏSƏNƏT ƏSƏRİNİN TƏSVİRİ, ANALİZİ, ŞƏRHİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ ÜZRƏ SORĞU:

1. Göstəricilər;
2. Təsvir;
3. Analiz (2 mərhələdə – təsviri vasitələr və üsullar);
4. Şərh
5. Qiymətləndirmə

**I pillə – Göstəricilər:**

- İncəsənətçinin kimliyi (adı, soyadı, haralıdır, harada fəaliyyət göstərirdi, hansı dövrdə (əsr, illər), məşhurluğu.
- Sahəsi (Rəssamlıq (dəzgah boyakarlığı, qrafika, monumental, ikonaçılıq, miniatür), heykəltəraşlıq (dairəvi, relyef), memarlıq, dekorativ-tətbiqi).
- Janr (portret; natürmort, peyzaj – urban, pastoral, marinist; məişət; tarixi – batal, dini, mifoloji, alleqorik; əşyasız (abstraksiya), animalistik və s.).
- Əsərin başlığı, hansı materialla yerinə yetirilmişdir (tempera, yağlı boya, quaş, akvarel, karandaş, mürəkkəb, kömür, pastel; gil, taxta, daş, dəmir, beton; sap və s.).
- Yerləşməsi (ölkə, şəhər, muzey, qalereya, özəl kolleksiya və s.).
- Tarixi/dini/mədəni/sosial kontekst - əsər hansı vəziyyətdə yaranmışdır? Həmin zaman həmin ölkədə incəsənətçinin işinə təsir göstərə bilən nə baş verirdi? Əsər sifarişdir və ya incəsənətçinin istəyi ilə yaradılmışdır? Həmin dövrdə hansı materiallar/texnikalar var idi və yayılmışdı? Həmin dövrün aparıcı bədii tendensiyaları nə idi? O dövrdə, əsasən, incəsənətkarları nə maraqlandırırdı?
- Əsər hansı cərəyana, tərzə aiddir? Daha hansı incəsənətkarlar bu cərəyanın nümayəndələridirlər?

**II pillə – Təsviri:**

Təsvir et, nəyi görürsən? İlk növbədə diqqəti çəkənlə başla, yəni əsas olanla və sonra ikincidərəcəli, köməkçi detalların təsvirinə keç.

- Mühit necədir? Peyzajdırsa, haradadır: səhra, oazis (palmalar, kaktuslar), dəniz (sakit, təlatümlü), çay, meşə (yarpaqlı/iynəyarpaqlı) və ya çəmənlik (necə bitkilərdir)? Şəhər (meqapolis və ya əyalət)? İnteryer olduğu halda, saraydır, məbəd və ya ev? Kənd və ya şəhər evidir? Mebel necədir? Zəngin və ya yoxsul? Buna işarə edən nədir? Əsər hansı mühitdə yerləşmişdir?
- Hansı vaxtdır (gündüz, gecə, ilin fəsli, müasir vaxt və ya keçmiş)?
- Kim təsvir edilmişdir (hansı yaşda, hansı sosial təbəqə, hansı paltarı geyinmişlər)? Hansı pozadadırlar? Nə təsvir edilmişdir?
- Nə baş verir (qəhrəmanlar hansı işi görürlər, əhval-ruhiyyələri necədir)? Heyvanlar təsvir edilmişdirni (ev və ya çöl), hansı atributları (əşyaları) var? Peyzajdırsa, sakitdir və ya təlatümlü?

**III pillə – Analiz:**

Müşahidə et, təsviri incəsənətin hansı vasitələri və üsulları əsərin özünəməxsusluğunu müəyyən edir? Bəndlərin hamısını cavablandırmaq vacib deyil. Diqqəti yalnız əsərin xarakterini yaratmaq üçün aparıcı elementlərə və prinsiplərə yönəlt.

**a) Təsviri incəsənət vasitələri:**

- **Xətt** (kontur, ştrix, düz, əyri, dalğalı, parça, kəsik, qırıq-qırıq, dolayı, üfüqi, şaquli, qalın, nazik...)
- **Rəng** (əsas, qarışıq, qohum, kontrast, axromatik, neytral, isti, soyuq, parlaq, intensiv, doymuş, al-əlvan, tünd/açıq, aydın/qaranlıq, solğun, sönmüş, təmiz/çirkli və s.; çalar: sarımtıl yaşıl, göyümtül yaşıl, qırmızımtıl bənövşəyi və s.). İncəsənətçi digəri ilə münasibətdə hansı rəngdən daha çox istifadə etmişdir? Şəklin ümumi koloriti, yəni rəngarənglik qamması necədir (soyuq/isti, aydın/qaranlıq, sönmüş/parlaq və s.)? monoxromikdir (birrəngli) və polixromik (rəngarəng)?
- **Ton** (yarımtonlar, qradasiya, yəni yavaş-yavaş açıqdan tünd rəngə keçid). Açıq tonla ayırd edilən nədir?
- **Forma** (hamar, yəni ikiölçülü – həndəsi: dairə, düzbucaqlı, üçbucaq, çoxbucaqlı, romb, oval, itiuclu, kor, kələ-kötür; üzvi: bitki, təbii; böyük, kiçik, nazik və s.); həcm (kürə, kub, silindr, təbii formalar və üçölçülü formalar);
- **İşıq-kölgə** formanı vermək üçün kölgə, yarımkölgə, düşən kölgə, işıq şüası necə istifadə edilmişdir?
- **Faktura** (aktual – relyef (pastoz yaxması ilə əldə edilən, cızıq, qabarıqlı, batıq), kobud, xovlu, məxmər, hamar, parıltılı və s.; illüzor (müxtəlif materialın imitasiyası – taxta, daş, dəmir, parça (məxmər, ipək, krujeva), gil, xəz, saç, dəri, qabıq və s.);
- **Fon** (fon və təsvirin qarşılıqlı yanaşması)– şəkil sahəsi necə mənimsənilmişdir – boşdur, doludur və ya lazımi şəkildə mənimsənilmişdir? Pozitiv (doldurulmuş) və neqativ (boş) məkanlar necə bölünmüşdür? Fon neytraldır, mücərrəd və ya təsvirlərlə dolu?

**b) Təsviri incəsənət üsulları:**

- **Kompozisiya** – əsər necə qurulmuşdur? Onun strukturunu, skeletini müəyyən edən nədir? Simmetrik və ya assimetrik? Sabit və ya qeyri-sabit? İncəsənətçi bu üsulla hansı effekti əldə etməyə çalışır?
- **Harmoniya/bütövlük** – rəssam hansı bədii üsulla bütövləşdirir və "yapışdırır" ki, əsərin ayrı-ayrı hissələri parçalanmasın/dağılmasın (tarazlıq, kolorit, işıqlandırma və s.)? Uyğunlaşdırılmışdır və ya əksinə, qarşılaşdırılmış və münaqişəlidirmi?

- **Rəngarənglik** – rəsmi “canlandıran” nədir?  Bezdirici, darıxdırıcı olmasın deyə, ona çalar qatan nədir?
- **Aksent** – (diqqətin yönəldilməsi, birinci gözə dəyən nədir? Rəssam diqqətimizi əsas olana necə yönəldə bildi? Bu hissə qalanından nə ilə fərqlənir (ön nəzərdədir, ən böyük və iridir, rəngi ilə seçilir və ya işıqlandırılması ilə və s.)? Bu şəkildə növbəti əhəmiyyətli olan təsvir varmı? Nə ilə seçilir və nə ilə başa düşürsən ki, bu təsvir ikinci aksenti təqdim edir?
- **Tarazlıq** – təsvirlər eyni şəkildə rəsm müstəvisində bölünmüşlər və ya qeyri-bərabər? Şəklin hər hansı bir tərəfi digərinin çəkisinə üstün gəlirmi?
- **Statika/dinamika** – Şəkildə statikanı (tərpənməz, donmuş, daşlaşmış) və ya dinamikanı (hərəkətli, oynaq) müəyyən edən nədir?
- **Ritm** – Rəsmdə təkrar olunan nə isə varmı ki, ritm yaradır?
- **Proporsiya/disproporsiya** – Təsvirin ayrı-ayrı hissələrinin ölçülərinin nisbəti necədir? Bəlkə rəssam təsvirin disproporsiyasından və ya deformasiyasından bilərəkdən istifadə edir və bu üsulla hansı effekti əldə etməyə çalışır?
- **Rakurs** – nəzər nöqtəsi haradadır? Aşağıdan görürük, yuxarıdan və ya birbaşa? Yaxın kadrdır və ya uzaq? Nəzər nöqtələri qarışmışdırmı? Qarışıq olduğu halda, nə üçün – verilən dövrdə yetərincə biliyin olmadığına görə, sadəcə önəmli deyil ki, rəssam bilərəkdən bu üsula müraciət edir və hər hansı bir effekti əldə etmək üçün qaydaları nəzərə almır? Eksperiment deyil ki?
- **Perspektiv**  – a) xətti perspektiv – fəza perspektivinin qaydalarına əməl edilirmi  ki
- (ön nəzərdə, yaxın yerləşən əşyalar aydın, açıq olurlar, xırdalıqlarla, uzaq nəzərdə yerləşən isə - solğun, dağınıq, ümumiləşdirilmiş), izləyici məkanı, dərinliyi duya bilsin? b) **Xətti perspektiv** (məsafəyə əsasən əşyalar kiçilirlər – ön, orta və arxa nəzərə təsvir edilən əşyalar eyni ölçüdədir və ya əksinə? Miqyasa əməl edilmişdirmi (ayrı-ayrı təsvirlərin ölçülərinin nisbəti bir-biri ilə münasibətdə)?)
- **Ornament** – əsərdə təkrarlanan formalar vardırmı? Onlar nə dərəcədə önəmlidirlər və ornament şəklin dekorativ xarakterinə səbəb olurmu?

**IV pillə – interpretasiya:**
**Şəxsi yanaşmanı bildir– bu əsər haqqında nə düşünürsən?**

- **İncəsənətçi nə demək istəyirdi?** Onun məqsədi nə idi – hər hansı bir şəxsiyyətə və ya hər hansı bir tarixi hadisəyə yanaşmanın, ideyanın, şəxsi mövqeyin, təəssüratın və ya əhval-ruhiyyənin, emosiyanın ötürülməsi?
- **Bu əsərdə dövrün incəsənətinin hansı əsas xüsusiyyətlərini görürsən?** İncəsənətçi verilən dövr üçün xarakterik hansı bədii üsullardan, materialdan, texnikadan istifadə etdi? Bu onun əsərində nədə özünü göstərdi?
- **İncəsənətçi hansı effekti əldə etdi** – materialın, texnikanın, təsviri vasitələrin (elementlərin) və üsulların (prinsiplərin) belə bir istifadəsi ilə?
- **Əsər hansı xarakterlidir** (realistik, şərti, mücərrəd, simvolik, mənəvi, nəqli, təntənəli, sakit, rahat, lirik, idillik, həvəsli, kədərli, faciəvi, dramatik, gərgin, ekspressiv, kinayəli, qrotesk, satirik, sənədli, dekorativ və s.)?

**V pillə – Qiymətləndirmə:**

- Bu əsər ötən dövrlərin hansı əlamətlərini daşıyır – ötən dövrlərin incəsənətindən ona təsir göstərən nə oldu? Bu təsir nədə özünü ifadə etdi?
- Onda orijinal olan nədir – buna qədər dövrün əsərləri ilə münasibətdə yenilik nədir? Bu əsər əvvəlkilərdən nə ilə fərqlənir?
- Bu əsər dövrünün və ya növbəti dövrün incəsənətinə təsir göstərdimi? Konkret olaraq, hansı incəsənətçilərin/əsərin ilham mənbəyinə çevrildi? Bu təsir nədə özünü göstərdi?
- Bu əsər müəllifin başqa əsərlərindən nə ilə seçilir?
- Bu əsəri bəyənirsinmi? Nə üçün? Necə düşünürsən, şah əsəri adına layiqdirmi? Nə üçün yaxşı olardı ki, insanlar onu görsünlər? Fikrini əsaslandır.

**Sorğular**

**Refleksiya sorğusu:**

**İş başlananan qədər veriləsi suallar**

- İndiyə qədər oxşar işi görmüsənmi? O zaman hansı təcrübəni əldə etdin?
- Fikrin nədən ibarətdir? Nə düşünürsən?
- Əvvəlcədən fikirləş ki, hansı material fikrinə daha uyğun olacaqdır?
- İstənilən effekti əldə etmək üçün təsviri vasitələrdən və üsullardan necə istifadə edəcəksən?
- Bu əsər üzərində iş üçün hansı bilik lazım olacaqdır?
- Bu əsər üzərində iş üçün hansı bacarıqlar lazım olacaqdır?

**İş prosesində veriləsi suallar**

- İşində yaxşılığa doğru dəyişdirə biləcəyin nə isə varmı?
- Tərəfindən seçilən material, təsviri vasitələr və üsullar özünü doğruldurmu?
- Əsərin hansı orientasiyasını (üfüqi və ya şaquli) seçmisən və nə üçün?

**Əsərin başa çatdırılmasından sonra verilən suallar**

- Bu işlə bağlı nəyi planlaşdırırdın? Hansı gözləntilərin var idi?
- Planlaşdırdığın alındımı və ya yox?
- İş prosesində nə dəyişdi?
- İncəsənət əsərini yaratdıqda hansı mərhələ səni daha çox sevindirdi – proses və ya nəticə? Nə üçün?
- İşi başa çatdırdıqda hansı biliyi qazandın?
- Bu əsər üzərində işləyərkən hansı bacarıqları qazandın?
- Müəllim olsaydın, bu əsərə hansı qiyməti yazardın?
- İş zamanı ən çətini nə idi? Asanı?
- Yaxşı alınan nə idi?
- Əsərin fikirləşdiyindən son, yekun məhsula qədər necə dəyişdi? Nəyi dəyişdin və necə?
- Yenidən işləsəydin, nəyi dəyişərdin?
- Həmyaşıdların və böyüklər işin haqqında nə düşünürdülər? Onların fikrini nəzərə aldınmı?

- İşinə nə qədər vaxt sərf etdin?
- Bu əsər üzərində iş nəticəsində özün haqqında nəyi öyrəndin?
- Bu əsərin yaradılması sənin yaradıcılığına nəyi əlavə etdi?
- Şəxsi yaradıcılığının zəif tərəflərini dərk etmək və onların yaxşılaşdırılması üzrə işləmək nə üçün önəmlidir?
- Kiminlə işin haqqında söhbət etmək istərdin – yoldaşınla, valideyninlə və ya müəlliminlə?
- Necə düşünürsən, sənin işinin tamaşaçısı kim olacaqdır?

**Düşündürcü suallar:**

**Təsviri incəsənət haqqında:**

- İncəsənət xaricində dünya necə olardı?
- İncəsənət cəmiyyət üçün cah-cəlaldır və ya zərurət?
- Şəxsən sənin üçün incəsənət cah-cəlaldır və ya tələbat?
- İncəsənət cəmiyyətə müsbət təsir göstərə bilərmi, ayıq sala bilərmi, onu gümrahlaşdıra bilərmi?
- İncəsənət dünya haqqında nəyi söyləyir?
- Nə üçün müxtəlif dövrdə/ölkədə/mədəniyyətdə incəsənət belə fərqlidir? Bu nədən asılıdır?
- İncəsənət əsəri yarandığı dövr haqqında nəyi söyləyir?
- İncəsənət əsərinə baxdığında nəyi hiss edirsən?
- İncəsənət insanın düşüncəsini dəyişə bilərmi?
- Bilik incəsənəti necə dəyişir? Misal gətir.
- İncəsənət biliyi necə dəyişir? Misal gətir.
- İncəsənət ətraf mühiti necə dəyişir? Misal gətir.
- İncəsənət cəmiyyətə nədə yardım edir? Ayrı-ayrı insanlara? Misal gətir.
- Mühiti (otağı, binanı, məhəlləni, şəhəri) incəsənət vasitəsilə necə yaxşılaşdıra bilərik?
- İncəsənət əsərinin yerləşdiyi mühit ona təsir göstərirmi?
- İncəsənət əsərinin sərfəli qavranılması üçün mühitin əhəmiyyəti varmı?
- Mühit onda yerləşən incəsənət əsərinin dəyərini kiçildə və onu dəyərsizləşdirə bilərmi?
- Düşünmüsənmi ki, əsərini hansı mühitdə sərgiləndirəsən?
- Nə üçün incəsənət muzeyləri, qalereyalar, sərgi zalları mövcuddur?
- Nə üçün insanlar xarici ölkələrə incəsənət abidələrinə baxmaq üçün səyahət edirlər?
- İncəsənətin hansı sahəsi başqalarından daha çox səni maraqlandırır? Nə üçün?
- İncəsənət əsərini necə qiymətləndiririk?
- Kim qərara alır ki, əsər incəsənət nümunəsidir və ya yox?
- İncəsənət əsərinin xoşagəlməz hiss (qüssə, ağrı, acıq, nifrət) yaratdığında, incəsənətdir və ya yox? Misal gətirə bilərsənmi?
- İncəsənət sadəcə gözəlliyi təsvir etməlidir və ya çirkinliyi?
- İnsanın geyimi, bəzək əşyaları, saç düzümü onun mədəniyyəti və milliyyəti haqqında nəyi söyləyir?
- Vaxt maşını mövcud olsaydı, hansı dövrə səyahət edərdin və nə üçün?
- Cəmiyyətin incəsənətə yanaşması nədə özünü göstərir?

- Cəmiyyətin incəsənətə münasibəti necə dəyişir?
- Mədəni və mədəniyyətsiz insanlar nə ilə fərqlənirlər?
- İncəsənət insanın münasibətlərini və yanaşmasını necə dəyişə bilər?

**İncəsənət haqqında:**
- Yaradıcılıq nəyi bildirir?
- İncəsənətçi üçün ən önəmli bacarıqlar hansıdır? Bu bacarıqlar hansı peşəyə lazım deyil?
- İncəsənətçi olmaq nəyi bildirir?
- İncəsənətçinin yaradıcılığı onun şəxsiyyəti haqqında nədən xəbər verir?
- Necə fikirləşirsən, insanlar nə üçün düşünürlər və yaradırlar?
- Necə düşünürsən, insanlar ilhamı nədən alırlar?
- Sən ilhamı haradan alırsan?
- Hansı incəsənət sahələrinə rəssamlıq peşəsi lazımdır?
- Hansı qeyri-incəsənət sahələrinə rəssamlıq peşəsi lazımdır?
- İncəsənətçi öz əsərlərində nəyi təsvir edir?
- İncəsənət ilə məşğul olan insan işləyirmi və ya əylənirmi?
- Zəmanəmizin qabaqcıl incəsənətçiləri kimlərdir? Onlar nəyi yaradırlar?
- İnsan incənəsənətçi necə olur?
- Vaxt maşını mövcud olsaydı, hansı incəsənətçi ilə görüşərdin? Nə üçün? Onun yaradıcılığı haqqında hansı sualı verərdin? Hansı məsləhəti istəyərdin? Öz yaradıcılığın haqqında nəyi söyləyərdin? Ona nəyi məsləhət görərdin?
- Müasir mühitimizin yaradılmasında incəsənətçilər hansı rolu oynayırlar?
- Öz incəsənətin ilə məktəb mühitini necə dəyişərdin?
- İncəsənətin vasitəsilə mühitində nəyi və necə dəyişərdin (məktəbdə, sinif otağında, evdə)?
- Təbiət incəsənətçinin ilham almasında hansı rolu oynayır?
- Mühit və cəmiyyət incəsənətçinin yaradıcılığına necə təsir göstərir?
- Mühit və cəmiyyət sənin yaradıcılığına hansı təsiri göstərir?
- İncəsənətçilər cəmiyyətdə hansı mövqeni tuturlar?
- Cəmiyyətin incəsənətə olan yanaşması nədə özünü göstərir?
- Cəmiyyətin incəsənətçiyə olan münasibəti necə dəyişir?
- İncəsənətçilər ideyaları, hissləri, emosiyaları hansı yollarla ötürürlər?
- İdeyalarını, hisslərini, emosiyalarını incəsənət vasitəsilə necə ifadə edə bilərsən?
- Mədəni və mədəniyyətsiz insanlar nə ilə fərqlənirlər?
- Başqasının işlərini qiymətləndirmək öz işinin zəif və güclü tərəflərini görməkdə necə yardım edir?
- Öz işinin və onun yaradılması prosesinin analizi nəyi verir?
- İncəsənət başqa fənləri öyrənməkdə necə yardım edir?
- Başqa fənlərdə alınan bilik, bacarıqlar və təcrübə incəsənəti öyrənməkdə necə yardım edir?

**Dərsin qiymətləndirilməsi:**

- Bu günkü dərsdə nəyi öyrəndin?
- Dərsin mövzusu səni maraqlandırdımı və ya yox?
- Buna qədər hansı məlumata malik idin?
- Yeni nəyi öyrəndin?
- Bunun haqqında daha nə ilə maraqlanırsan?
- Bu fikirlə kim razılaşır? Kimin fərqli fikri var?
- Bu məsələyə başqa tərəfdən baxa bilərikmi?
- Kimsə nə isə əlavə etmək istərdimi?
- Yadda saxlamaqda/təhsildə nə yardım etdi?
- Mənim nəzərimə dəydi, sizin nəzərinizə dəyən nə oldu?
- Məni maraqlandırır… Sizi nə maraqlandırır?
- Əlavə suallarınız varmı?

**Dövrlərin müqayisəvi sxemləri:**
*Şagirdlər yavaş-yavaş sxemə yeni bəndləri əlavə edirlər.
Şagirdlər tərəfindən tərtib edilən sxemlərin nümunələri:

**1. Antik Dövr / Orta Əsrlər**

| Antik Dövrün incəsənəti | Orta əsrlərin xristianlıq incəsənəti |
|---|---|
| Politeizm yəni çoxallahlıq | Monoteizm yəni təkallahlıq |
| Ruhun və cismin eyni əhəmiyyəti | Ruhun cismdən üstünlüyü |
| Əsasən, dünyəvi | Əsasən, dini |
| İncəsənət əsərlərinin sifarişçisi, əsasən, imtiyazlı təbəqə | İncəsənət əsərlərinin sifarişçisi, əsasən, kilsə |
| Dünyəvi, cismani | Ali, ilahi |
| Həqiqəti əks etdirən realistik təsviri üsullar<br>• işıq-kölgə, tonal qradasiya ilə ötürülən həcmi formalar<br>• real fon<br>• düzgün proporsiyalar<br>• düzgün miqyaslı nisbət<br>• İnsanların fiqurları və memarlıq, yaxud da təbii fon arasında<br>• xətti perspektiv əlamətləri | İkonoqrafiya ilə qanuniləşdirilmiş simvolik, şərti təsviri dil<br>• xətlərlə verilən müstəvi formaları<br>• şərti fon (tez-tez qızılı)<br>• pozulmuş proporsiyalar<br>• insanlar arasında pozulmuş miqyaslar ilahi iyerarxiyanı ötürür. Fonda tikililər və ya peyzaj şərtidir<br>• əks-perspektiv |
| Dairəvi heykəllərin çoxluğu | Dairəvi heykəl yalnız Qərbi Xristian ölkələrində hazırlanırdı. IX əsrdən Şərqi Xristian ölkələrində heykəl yalnız relyef şəklində varlığını davam etdirir. |
| Romada mozaika döşəmənin (nadir hallarda divarın) kiçik sahələri tutur | Bizansda mozaika məbədlərin interyerinin ən önəmli simvolik yerlərini tutur və monumental kult incəsənətinə çevrilir |

**2. Roman / Qotika dövrləri**

| Roman incəsənəti | Qotika |
|---|---|
| Qədim Roma memarlıq ənənələrini davam etdirir | Yeni, indiyə qədər naməlum estetikanı yaradır |
| Torpaqlanmış proporsiyalar | Şaquli uzadılmış proporsiyalar |
| **Memarlıqda:** massiv, ağır, möhkəm bölgüsüz divar, arasıra yalnız memarlıq dekoru ilə (şüşə, mehrab, tağ....) | Fasad, onun yüngül, krujeva kimi naxışlı skulptur dekorunun arxasında divar görünmür |
| Bəzi hallarda enli proporsiyalara malik kontrforslar | Yüksək kontrforslar arkbutanlarla bəzədilmişdir (“uçan tağlarla”) |
| Memarlıq hissələri açıq şəkildə ayrılmışdır | Memarlıq hissələri bir-birinə “sarılmışdır” |
| Yarımdairəvi tağ | Oxvari tağ (ola bilsin ki, ərəb təsiri) |
| Yarımdairəvi portal | Oxvari portal itiuclu, sıldırım frontonla |
| Az sayda kiçik ölçülü güzgülərlə işıqlandırılmış interyer, ilahi cəzalandırma ilə qorxudur | Bir çox geniş, yüksək vitrajlı şüşələrlə çox işıqlandırılmış interyer ümidverici, rahat, rəhmli mühit yaradır |
| Portalın başında kiçik dairəvi şüşə, b.a. “qızılgül” | Portalın başında nəhəng dairəvi “qızılgül” |
| Ciddi, qaranlıq, sakit | “Gözəl”, “zərif”, “hərəkətli” |
| Statik | Dinamik |
| Fiqurlar “ruhsuz”, vəhşiləşmiş, proporsiyasız, uzunsovlaşmış, düz, şərti | Fiqurlar yavaş-yavaş daha realistik, “ruhlanmış”, cismani olur, proporsiyalar düzəlir |
| Fiqurlar arasında pozulmuş miqyaslar ilahi iyerarxiyanı yaradır | Fiqurlar arasında miqyaslar yenə də pozulmuşdur |

### 3. Orta Əsrlər / İntibah

| Orta Əsrlərin xristianlıq incəsənəti | İntibah Dövrü |
|---|---|
| İncəsənət kilsə-monastrların dərinliyində inkişaf edir və dini ideyaların bərqərar olmasına qulluq edir | İncəsənət özəl mesenatların saraylarında inkişaf edir. Kilsə incəsənətin sifarişçilərindən biridir. |
| Ehkamlı | Humanist, elmi |
| Ruhun mənəvidən üstünlüyü | İnsanın əqli, yaradıcılıq və fiziki imkanlarına inam |
| İnsan həyatının mənası cazibələrlə mübarizədir | İnsan həyatının mənası Antik elmlərin öyrənilməsi yolu ilə şəxsi kamilləşmədir |
| İnsan günahkardır | İnsan layiqli, özünə inamlı tədqiqatçı və yaradıcıdır |
| İkonoqrafiya ilə qanuniləşdirilmiş simvolik, şərti təsviri dil | İnsanlar aləminin realistic təsviri üsulları |
| Şərti fon (bir çox hallarda qızılı). Fonda tikililər və ya peyzaj da şərtidir | Realistik fon (şəhər və ya təbii peyzaj) |
| İnsanların fiqurları arasında pozulmuş miqyaslar ilahi iyerarxiyanı ötürürlər. | İnsanların fiqurları və memarlıq yaxud da təbii fon arasında düzgün miqyas nisbətinə əməl edilir |
| Pozulmuş ölçülər | Düzgün ölçülər |
| Fiqurlar anatomik səlis deyillər | Fiqurlar anatomik səlisdirlər |
| Pozalar kobudlaşdırılmışdır | Pozalar təbiidir. Antik kontrapostdan istifadə olunur |
| Formalar müstəvidir, xətlərlə ötürülür. İşıq-kölgələrə və tonal qradasiyaya laqeyd yanaşılır. | Üçölçülü həcmlər işıq-kölgələrin və tonal qradasiyanın vasitəsilə ötürülmüşdür |
| Əks perspektivdən istifadə edilir və rakurs pozulur (nəzər nöqtəsi) | Xətti və fəza perspektivindən istifadə olunur |
| Siluetdə lokal rəngli ləkələr. Rənglərə simvolik yüklənmə verilir. | Kompozisiyada eyni şəkildə bölünmüş rəngli ləkələr, zəngin tonal qradasiya ilə |
| Sənətkar anonimdir | Sənətkarların adları məlumdur |
| Material: enkaustika, tempera taxta üzərində | tempera, yağlı boya, kətan, taxta |

4. **İntibah /barokko**

| İntibah dövrü | Barokko |
|---|---|
| İnsan öz taleyini və şəhərinin/ölkəsinin tarixini idarə edəndir | Heç nə möhkəm deyil. İnsan heç nəyə nəzarət edə bilmir və həll etmir. Hər şey dəyişkəndir. Zaman rəhmsizdir. |
| Rahatlıq, harmoniya, tarazlıq, möhkəmlik | Təlatümlü ehtirasların həyəcanı, mübarizə, münaqişə |
| Üçbucaq və ya frizsayağı simmetriya kompozisiyası | Diaqonal, asimmetrik kompozisiya |
| Statika | Dinamika |
| Bərabər işıqlandırma | Ziddiyyətli işıqlandırma |
| Sakit oturuş, kontrapost | Mürəkkəb pozalar |
| Emosiyasız ifadələr | Emosional ifadələr |
| Fiqurun düzgün anatomik quruluşu, klassik prinsiplər | Şişirdilmiş, iri ölçülü əzələli bədənlər |

5. **Klassisizm/romantizm**

| Klassisizm | Romantizm |
|---|---|
| Kompozisiya və koloritdə qayda-qanun. Statika, rahatlıq, ölçülük | “Təlatümlü”qaydasız kompozisiya və kolorit. Emosionallıq, itaətsiz, tüğyan edən əzm, ehtiras, münaqişə. |
| **Mövzu**: uzaq qəhrəmanlıq keçmişi, klassik Yunanıstan və Roma tarixi, mifologiya | Mövzu: təsvir, qəhrəmanlıq, əfsanələr, təbiət, ovçuluq, mübarizə, müasirlik, münaqişə, pis hava, problem, bezdirici gündəliklə qarşıdurma |
| **Texnika:** hamar, eskiz izi deyil. Bərabər işıqlandırma. Təsvir donmuş, statik, sonuna qədər yazılmış detallar, akademik yazı tərzi. | Texnika: cəld eskiz. Dramatik, ziddiyyətli işıqlandırma. Təsvir hərəkətlidir, dinamik |
| Əqlin üstünlüyü | Hisslərin üstünlüyü |
| Ağıl öyrətmək, yüksək əxlaqi, vətəndaşlıq davranışına çağırış | Qəhrəmanlıq mübarizəsi, vəhşi heyvanlarla qarşıdurma, bezdirici gündəlik həyata müqavimət |

**Əsərin analiz formaları:**

**Əsərlərin müqayisəvi analizi 1:** (rəngli şəkildə çap edilməlidir)

<table>
<tr><td colspan="2">Sinif: VIII şagird: Tarix:</td></tr>
